AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

SƏBİNƏ İSAYEVA

# AŞIQ ŞƏMŞİRİN POETİKASI

BAKI – 2012

**Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur.**

**ELMİ REDAKTORU:** **Məhərrəm QASIMLI**
Filologiya üzrə elmlər doktoru,
professor

**RƏYÇİLƏR:** **Qəzənfər PAŞAYEV**
Filologiya üzrə elmlər doktoru,
professor;
**Adil CƏMİL**
Filologiya üzrə fəlsəfə doktoru

**Səbinə İsayeva. Aşıq Şəmşirin poetikası.** Bakı, «Elm və təhsil», 2012, -248 səh.

Monoqrafiyada XX əsr Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Şəmşirin həyatı, mühiti və zəngin yaradıcılığı araşdırılmışdır. Əsərdə klassik aşıq poeziyası ənənələri üzərində formalaşan Aşıq Şəmşirin poetik irsi sələfləri və müasirləri olan digər ustad sənətkarların yaradıcılığı ilə müqayisə olunmuş, paralellər aparılmışdır.

**İ 4603000000 qrifli nəşr
N098-2012**

**© S.İsayeva, 2012
“Elm və təhsil”, 2012**

## SAZIN-SÖZÜN ŞƏMŞİR UCALIĞI

Sazın-sözün qəribə sirri-sehri var: onun hikmətinə vaqif olanlar, daha doğrusu, bu hikmətin heyrət doğuran sənət ecazını öz istedadı ilə gerçəkləşdirənlər elə öz sağlıqlarında əfsanələşir, dastanlaşır. Qurbaninin, Abbas Tufarqanlının, Sarı Aşığın, Xəstə Qasımın, Valehin, Aşıq Ələsgərin ömür və sənət yolunun sirli-sehrli əfsanəyə, nağıla-dastana çevrilməsi istedad möcüzəsindən başqa hər hansı bir səbəbə söykənmir. Bu möhtəşəm ustadların sənət cərgəsində ləyaqətlə yer alan Dədə Şəmşirin saz-söz dünyasının heyrətamiz ecazı elə onun özünün də sağlığındaca əfsanəvi obraza çevrilməsi, dastan qəhrəmanı ucalığına yüksəlməsi ilə nəticələnmişdir.

Aşıq Şəmşirin əsl sənətkar urvatı və kişi qeyrəti ilə yaşadığı ömür yolunun az qala hər günü, hər saatı ibrətamiz bir örnəkdir. Onu ucaldıb dədələşdirən, «Dədə Şəmşir» mərtəbəsinə yüksəldən də elə bu mənəvi keyfiyyəti idi – halallığı, dürüstlüyü, sadəliyi, uzaqgörənliyi, müdrikliyi, haya-haraya yetənliyi, kövrəkkönül olmağı…

Dünyasını dəyişməsindən otuz ildən də çox keçməsinə baxmayaraq, günü bu gün də el-camaatın dilində «Dədə Şəmşir demişkən», «Rəhmətlik Dədə Şəmşir yaxşı deyib ki», «Şəmşir kişi belədə deyərdi ki…» sırasından olan onlarla müdrik kəlamın, ustad sözünün bir güvənc, dayaq yerinə, istinad mənbəyinə çevrilməsi El və Aşıq Şəmşir vəhdətinin-birgəliyinin əyani təcəssümüdür. Saz-söz məclislərindəki «Şəmşir» möhürlü söz-söhbətlərin, qoşma-gəraylıların da könül ovsunlayan bir poetik ilğım olduğu hamımızın gözü qarşısındadır. İllah da ki Səməd Vurğun və Aşıq Şəmşir

görüşünün unudulmaz hal-hekayəti…

Zəngin saz-söz repertuarına, dastan yükünə və poetik istedadına görə əsl ustadlıq mərtəbəsində dayanan Aşıq Şəmşirin sənət dünyası hələ onun öz sağlığında Məmmədhüseyn Təhmasib, Mürsəl Həkimov, Vaqif Vəliyev, Əminə Eldarova, Sədnik Paşa Pirsultanlı, Məmməd Aslan, Zəlimxan Yaqub kimi saz-söz sərrafları tərəfindən dönə-dönə əsl qədirşünaslıqla dəyərləndirilib. Görkəmli folklorşünas M.H.Təhmasib məqalə sərlövhəsinə çıxardığı «Özü də Şəmşir, sözü də Şəmşir» metaforasını heç də təsadüfən işlətməmişdir: iti, kəskin qılınc mənası verən «Şəmşir» adını özünün həm sazı, həm sözü, həm də şəxsiyyəti ilə doğruldan ustadın obrazı bu müqayisə-metaforada çox dəqiq ifadə olunmuşdur. Aşıq Şəmşir sazının, Aşıq Şəmşir ifaçılığının kamilliyini, özünəməxsusluğunu əsl musiqişünas sərraflığı ilə duyub dəyərləndirən unudulmaz Əminə Eldarova onun repertuarındakı səksəndən yuxarı saz havasını yazıya alaraq notlaşdırmışdır. Şəmşir haqqında çoxsaylı məqalələr, xatirələr, kitablar yazılıb və yazılmaqda da davam edir. Həm sağlığında, həm də dünyasını dəyişəndən sonra xeyli sayda kitabları çap olunan böyük sənətkarın poetik irsinin çoxcildli külliyyat şəklində nəşrinin də vaxtı gəlib çatıb.

Aşıq Şəmşirin sənət dünyası istər saz havaları, istər dastan ifaçılığı, istərsə də poetik yaradıcılıq baxımından dönə-dönə araşdırılıb öyrənilməyə layiq olan tükənməz bir məxəzdir. Böyük Səməd Vurğunu özünə çəkib heyrətdə qoyan bu ecazkar sənət hər bir saz-söz vurğununun könül bağlaya biləcəyi mötəbər bir mənəvi sərvətdir. Bu baxımdan gənc tədqiqatçı Səbinə İsayevanın oxuculara təqdim olunan kitabı

aşıq-şairin poetik irsinin elmi-nəzəri müstəvidə, özü də monoqrafik planda təhlili kimi diqqətçəkicidir.

Səbinə xanım aşıq ədəbiyyatının tarixi və nəzəri məsələlərinə yaxşı bələd olan gənc bir folklorçudur. Onun Aşıq Şəmşir poeziyasının qaynaqları, mövzu və janr əhatəsi, eləcə də sənətkarlıq məziyyətləri barədəki təhlilləri aşıq-şairin sənətkar obrazını dolğun və düzgün təqdim etməyə imkan açmışdır.

Aşıq Şəmşirin soykökü, Miskin Abdal (XVI əsr) dönəmindən başlayan nəsil və sənət şəcərəsi, ustad Aşıq Ələsgər və doğma atası Ağdabanlı Qurbandan bəhrələnməsi, müasirləri olan görkəmli saz-söz ustaları ilə sənət əlaqələri, yaradıcılıq münasibətləri, özündən sonrakı dönəm Azərbaycan aşıqlığına təsir imkanları əsərdə tarixi-müqayisəli faktlar əsasında araşdırılmış və maraqlı elmi nəticələrə gəlinmişdir. Şəmşir sənətinin poetik gücü, dil-üslub gözəlliyi, məzmun-fikir yükünün dolğunluğu və mükəmməlliyi ilə bağlı irəli sürülən elmi qənaətlər də tutarlı və inandırıcıdır.

Hiss olunur ki, Səbinə İsayeva Aşıq Şəmşir poeziyasına mehr-məhəbbətlə yanaşır, onun poetik-üslubi incəliklərini həssaslıqla duyur və yaddaqalan elmi təhlillərlə qiymətləndirməyi bacarır. Zənnimcə, əsas məsələ də elə budur. Çünki məhəbbət, heyrət və ehtiram üçlüyü bir arada olanda sazın-sözün Şəmşir ucalığını görmək çətin deyildir.

**Məhərrəm QASIMLI**
**professor, Azərbaycan**
**Respublikasının Dövlət**
**Mükafatı Laureatı**

# G İ R İ Ş

XX əsrin ustad sənətkarlarından olan Aşıq Şəmşirin poetik irsinin tədqiqi folklorşünaslığın aktual problemlərindəndir. Mövzunun tədqiqi zərurəti bir tərəfdən sənətkarın milli aşıq yaradıcılığındakı fərdi mövqeyindən irəli gəlirsə, digər tərəfdən klassik ənənələri yaşatmasının, epoxalar arasında körpü olmasının tədqiqi aktuallığı ilə, başqa bir tərəfdən isə mənsub olduğu aşıq mühitinin tarixi-milli taleyinin folklorşünaslıq elmimizin qarşısında qoyduğu vəzifələrlə müəyyənləşir.

Aşıq Şəmşir xüsusi istedadı ilə seçilən sənətkar olmuşdur. Ağdabanlı Qurban kimi tanınmış bir el şairinin ailəsində dünyaya göz açan Şəmşirin nəsil və sənət şəcərəsinin başlanğıcında XVI əsr sənətkarı Miskin Abdal durur. Aşıq sənəti ənənələrinə qanı və ruhu ilə bağlı olan Şəmşir bu sənəti davam etdirərək yaşatmış və Göyçə-Kəlbəcər aşıq mühitinin inkişafında mühüm rol oynamışdır. XX əsr aşıq sənətini Aşıq Şəmşirsiz təsəvvür etmək mümkün olmadığından, sənətkarın poetik irsinin sistemli tədqiqi folklorşünaslığın qarşısında duran aktual vəzifəyə çevrilmişdir.

Aşıq Şəmşirin aşıq sənəti və yaradıcılığının klassik ənənələri ilə müasir mərhələsi arasında oynadığı rol onun poetik irsini daha dərindən araşdırmaq zərurətini ortaya çıxarır. O, bir sənətkar kimi aşıq sənətinin klassik ənənələrinin yüksək şəkildə qorunub inkişaf etdiyi Göyçə-Kəlbəcər aşıq mühitində formalaşmışdır. Mənsub olduğu mühitin ənənələrini dərindən əxz etmiş sənətkarın yaradıcılığının əsas dövrü sovet dönəminə təsadüf etmişdir. Aşıq Şəmşir klassik ənənələri

sovet ideologiyasının sənət və yaradıcılıq sahəsində qoyduğu sərt ideoloji çərçivələrdə davam etdirməyə, yaşatmağa çalışmışdır. Bu da sənətkarın yaradıcılığını folklorşünaslıq üçün klassik ənənələrin XX əsrdə məruz qaldığı dəyişmələrin, bu prosesdəki müxtəlif təmayüllərin izlənilməsi baxımından aktuallaşdırır.

Aşıq Şəmşir Göyçə-Kəlbəcər aşıq mühitinə məxsus sənətkar olmuşdur. O, bütün yaradıcılığı boyu bu aşıq mühitinin ənənələrinə sadiq qalmış, onları qoruyaraq inkişaf etdirmişdir. Qərbi Azərbaycanın Göyçə mahalı (eləcə də bütün Qərbi Azərbaycan elləri) XX əsrin sonlarında növbəti qanlı deportasiyaya məruz qaldı. Göyçənin öz fiziki məkanından məhrum olması bu aşıq mühitinin inkişafına ağır zərbə vurdu. Bu gün Azərbaycan folklorşünaslıq elminin qarşısında Göyçə aşıq mühitinin öyrənilməsi kimi həlli vacib olan böyük və uzunmüddətli vəzifə durur. Həmin elmi-tarixi missiyanın gerçəkləşdirilməsi baxımından Göyçə-Kəlbəcər aşıq mühitinə mənsub ustad sənətkarlardan biri olan Aşıq Şəmşirin də yaradıcılıq irsinin tədqiqi çox mühüm elmi əhəmiyyət kəsb etməkdədir.

Monoqrafiyanın mövzusundan irəli gəlməklə tədqiqatın obyekti Aşıq Şəmşirin poetik irsini bütövlükdə əhatə edir. Buraya sənətkarın müxtəlif dövrlərdə çap olunmuş yaradıcılıq irsi, o cümlədən fərdi yolla topladığımız şeir nümunələri aiddir. Sənətkarın yaradıcılığı sovet dönəmindən başlayaraq müxtəlif mətbuat orqanlarında çap olunmuş, o cümlədən kitablar şəklində geniş tirajla yayılmışdır. Həmin materiallar bütövlükdə nəzərdən keçirilmiş və tədqiqata cəlb olunmuşdur. Materiallardan istifadə zamanı onların Aşıq Şəmşirin yara-

dıcılığını bütövlükdə əks etdirməsi əsas götürülmüşdür.

Tədqiqat Aşıq Şəmşirin yaradıcılığına həsr olunmuş ilk monoqrafik araşdırma olduğu üçün onun predmetini sənətkarın yaradıcılığı üçün aktual məsələlər təşkil etmişdir. Ən ümumi istiqamətlər olmaqla Aşıq Şəmşirin Göyçə-Kəlbəcər aşıq mühiti ilə münasibətləri, lirikasının əsas mövzu istiqamətləri, ideya-məzmun özəllikləri, dastan yaradıcılığı və sənətkarlıq xüsusiyyətləri tədqiqatın predmeti olaraq götürülmüşdür.

Araşdırmanın qarşısında duran başlıca məqsəd Aşıq Şəmşir yaradıcılığının bütöv halda araşdırılmasıdır. Bu məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb etmişdir:

– Aşıq Şəmşirin mənsub olduğu Göyçə-Kəlbəcər aşıq mühitinin onun bir sənətkar kimi formalaşmasına təsirinin tədqiqi;

– sənətkarın öz müasirləri ilə yaradıcılıq münasibətlərinin araşdırılması;

– Aşıq Şəmşir ədəbi irsinin toplanılması, nəşri və tədqiqinin öyrənilməsi ilə bu sahədəki aktual problemlərin müəyyənləşdirilməsi;

– sənətkarın poetik yaradıcılığının özünəqədərki poetik ənənə kontekstində öyrənilməsi;

– el sənətkarının lirikasının ictimai, məhəbbət, təbiət, əxlaqi-didaktik, dini motivlər istiqamətində tədqiqi və xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Aşıq Şəmşirin yaradıcılığının epik ənənə kontekstində tədqiqi və dastan yaradıcılığının əsas xüsusiyyətlərinin araşdırılması;

– sənətkarın poetik irsinin janr strukturunun tədqiqi əsa-

sında onun yaradıcılığında janrların poetik imkanlarından istifadənin tədqiqi;

– Aşıq Şəmşir poeziyasının cinaslar sisteminin, dil və üslubi xüsusiyyətlərinin araşdırılması.

Aşıq Şəmşir yaradıcılığının toplanılması və nəşri işi XX əsrin ikinci yarısından başlandığı kimi, tədqiqinə də həmin dövrdən diqqət verilməyə başlanılmışdır. Keçən dövr ərzində O.Sarıvəlli, M.H.Təhmasib, M.İbrahimov, Q.Namazov, S.Paşayev, M.Aslan, M.Rahim, H.Arif, P.Əfəndiyev, M.Həkimov, Ə.Eldarova, A.Cəmil, İ.Tapdıq, Q.Xəlilov, H.Kürdoğlu, H.İsmayılov, M.Allahmanlı və başqa tədqiqatçılar aşığın poetik irsinin bu və ya digər xüsusiyyətləri haqqında elmi və publisistik məqalələr yazmışlar. Bu əsərlər Şəmşir yaradıcılığının tədqiqi və təbliğində böyük rol oynasa da, onlar monoqrafik araşdırmalar olmadığı üçün sənətkarın poetik irsi əsaslı tədqiq olunmamışdır. Bu cəhətdən mövcud monoqrafiya Aşıq Şəmşirin yaradıcılığını həm obyekti (bütöv yaradıcılığı), həm də predmeti (yaradıcılığının əsas problemləri) baxımından geniş planda əhatə edən ilk monoqrafik tədqiqatdır.

Əsərin başlıca elmi yeniliyi ilk növbədə bu tədqiqatın monoqrafik araşdırma olması ilə bağlıdır. Aşıq Şəmşirin yaradıcılığı haqqındakı məqalələrdə onun irsinin bu və ya digər məsələləri əhatə olunsa da, ilk dəfə bu monoqrafiya Şəmşir yaradıcılığını bütöv şəkildə əhatə etməyə və sənətkarın poetik irsinin aktual məsələlərini öyrənməyə imkan vermişdir. Bu cəhətdən monoqrafiyanın elmi yenilikləri aşağıdakı məsələləri əhatə edir:

– Aşıq Şəmşirin bədii-poetik irsinin təhlili nəticəsində

onun yaradıcılığının mənsub olduğu mühitlə bağlı keyfiyyətləri müəyyənləşdirilmişdir;

– sənətkarın öz müasirləri ilə yaradıcılıq əlaqələrinin öyrənilməsi nəticəsində onun mühitin inkişafında oynadığı rol haqqında aydın təsəvvür yaranmışdır;

– el sənətkarının əsərlərinin toplanılması, nəşri və tədqiqi tarixinin öyrənilməsi yolu ilə şəmşirşünaslığın perspektiv inkişaf istiqamətləri müəyyən edilmişdir;

– klassik aşıq poeziyası ənənələrinin Aşıq Şəmşir yaradıcılığındakı inkişaf xüsusiyyətləri öyrənilmişdir;

– sənətkarın ictimai lirikası yaşadığı zamanın gerçəklikləri fonunda araşdırılmış və bu əsasda onun ictimai idealının əsas poetik xüsusiyyətləri aşkarlanmışdır;

– Aşığın məhəbbət lirikasının özünəməxsus xüsusiyyətləri müəyyənləşdirilmişdir;

– ustad sənətkarın təbiət lirikasının tədqiqi nəticəsində onun varlığa poetik münasibətinin bəşəri keyfiyyətləri təhlil edilmişdir;

– Aşıq Şəmşirin poeziyasında əxlaqi-didaktik motivlər tədqiq edilərək milli mənəvi dəyərlərin yaşadılmasında onun rolu müəyyənləşdirilmişdir;

– Aşıq Şəmşir yaradıcılığında dini motivlərin tədqiq edilməsi nəticəsində onun yaradıcılığında dini-ilahi dəyərlərin yeri və obrazlaşma xüsusiyyətləri öyrənilmişdir;

– sənətkarın dastan yaradıcılığı tədqiq edilmiş və bu əsasda epik ənənəyə yaradıcı münasibətinin səviyyəsi müəyyənləşdirilmişdir;

– el aşığının poeziyasının janr xüsusiyyətləri tədqiq edilmişdir;

– ustad aşığın təcnis sənətkarlığı araşdırılmışdır;

– Aşıq Şəmşirin poeziyasının dil xüsusiyyətləri tədqiq edilmiş və sənətkarın bədii dilin metaforik imkanlarından yaradıcı istifadə texnikası öyrənilmişdir.

Aşıq sənəti və xalq poeziyasına dair tədqiqatlar əsasında hazırlanmış bu işin nəzəri-metodoloji əsaslarında ak. H.Araslı (9), ak. M.İbrahimov (74), prof. M.H.Təhmasib (137), prof. İ.Abbaslı (2, 3, 159), prof. P.Əfəndiyev (56), prof. V.Vəliyev (147, 148), prof. A.Nəbiyev (108, 109), prof. M.Həkimov (63, 64, 65, 66, 67), prof. S.Paşayev (114, 115, 116, 119, 164), prof. Ə.Eldarova (53, 54, 166), prof. Q.Namazov (104, 105, 106, 163), prof. M.Qasımlı (88), f.e.d. H.İsmayılov (78, 79), O.Əfəndiyev (57), Türkiyədə yaşayıb-yaratmış azərbaycanlı alim, prof. Ə.Cəfəroğlu (153, 154), prof. M.F.Köprülü (156, 157, 158) və başqa alimlərin əsərləri durmuşdur. Bütövlükdə həmin tədqiqatlarda aşıq sənəti və yaradıcılığının nəzəri məsələləri və tarixi, aşıq poeziyasının obyektiv reallığa münasibəti, dastan yaradıcılığının poetik xüsusiyyətləri, aşıq sənətinin yayılma arealları, aşıq poeziyasının forma-məzmun özəllikləri, aşıq sənətinin təşəkkülü və inkişaf mərhələləri, poetik məktəbləri, dastanın struktur poetikası, sənət və yaradıcılığın qarşılıqlı münasibətləri, xalq poeziyasının estetik əsasları, sənət və ifaçılıq məsələləri, sənətkarlıq xüsusiyyətləri, aşıq poeziyasının dil sənətkarlığı və s. məsələlər əhatə olunmuşdur. Bütün bu tədqiqatların nəzəri-metodoloji təcrübəsi monoqrafiyada tətbiq olunmuş və yeni nəticələr əldə edilmişdir.

# I FƏSİL

# AŞIQ ŞƏMŞİRİN HƏYATI, MÜHİTİ VƏ POETİK İRSİNİN TƏDQİQİ TARİXİ

XX əsr Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi Aşıq Şəmşir yaradıcılığının tədqiqi sənətkarın irsini hərtərəfli öyrənməyi tələb edir. O, bütün varlığı ilə xalqına, onu yetirən el-obaya bağlı olmuş, yaradıcılığında xalqın arzu-istəklərini tərənnüm etmişdir. Bu halda Aşıq Şəmşir poeziyasının bütövlükdə öyrənilməsi onun yaradıcılığını ilk növbədə «sənətkar və mühit» aspektində tədqiq etməyi zərurətə çevirir. Digər tərəfdən, bu böyük sənətkarın yaradıcılığı öz dövrünün məşhur sənətkarlarının, saz-söz ustadlarının, ədəbi şəxsiyyətlərin, tədqiqatçıların diqqətini cəlb etmiş, əsərləri çap olunmuş, şəxsiyyəti və yaradıcılığı haqqında mətbuatda yazılar dərc olunmuşdur. Bunlar da öz növbəsində Aşıq Şəmşirin yaradıcılığına təsirsiz qalmamışdır. Bu səbəbdən də böyük ustadın yaradıcılığının əvvəlcə onu yetirən mühit, sənətkar kimi formalaşmasına təsir edən amillər baxımından öyrənilməsi məqsədəuyğundur.

## 1.1. Aşıq Şəmşir və mühiti

Hər bir sənətkar öz cismani və mənəvi kimliyi etibarilə ilk növbədə qoynunda pərvəriş tapdığı mühitin məhsuludur. Aşıq Şəmşir də bütün varlığı ilə onu yetişdirən Göyçə-Kəlbəcər aşıq mühitinə bağlıdır. Onun yaradıcılığını bu aşıq mühitindən kənarda təsəvvür etmək mümkün deyildir. Çünki

ərazi etibarilə yaxın olan Kəlbəcər və Göyçədə tarix boyu saz-söz sənəti də eyni ənənələr üzərində formalaşmış, inkişaf etmişdir. Şəmşir Göyçə-Kəlbəcər aşıq mühitinin poetik ənənələri əsasında sənətkara çevrilmiş və bu mühitin koloriti onun sazında və sözündə bütün yaradıcılığı boyu yaşamışdır.

Çoxəsrlik tarixə malik Azərbaycan aşıq sənətinin coğrafi hüdudları geniş və əhatəlidir. Bu ulu və möhtəşəm sənətin inkişafında, zənginləşməsində və geniş şöhrət tapmasında Göyçə, Borçalı, Şirvan kimi aşıq mühitlərinin böyük rolu olmuşdur. Lakin bu sırada öz qədimliyi ilə seçilən Göyçə aşıq mühitinin rolu müstəsnadır. Kökü qədimlərlə bağlı olan, Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa, Şair Məmmədhüseyn, Şair Aydın kimi qüdrətli saz-söz xiridarları yetirən bu mühit öz nailiyyətləri ilə daim digər mühitlərdən seçilmiş və Azərbaycan aşıq sənətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Göyçə aşıq mühitinin tədqiqatçısı H.İsmayılovun yazdığı kimi, qədim oğuz-türk torpağı Göyçə Azərbaycan aşıq yaradıcılığının qaynar çeşməsi, özəyi, mayasıdır. Göyçə aşıq mühiti misilsiz sənətkarlar yetirmiş, Azərbaycan ədəbi arsenalına milli ruhun tam dolğunluğu ilə iştirak etdiyi möhtəşəm poeziya antologiyası təqdim etmişdir (78, 52). Görkəmli alim Y.Qarayev Göyçəni təkcə aşıq sənətinin mərkəzi yox, ümumiyyətlə, mədəniyyətimizin ulu başlanğıcı hesab etmişdir: «Tarixdə hər şey bizim üçün folklordan, folklor isə... Göyçədən başlayır. Rübabın (Füzuli qəlbinin telinin) vətəni – Dəclə və Fərat arası, liranınkı – Egey dənizinin sahili, Qopuzun vətəni isə Göyçənin bətninin, bağrının başı olub. Hər halda, Qopuzdan ilk ilahi, şifahi simfonik səda Qafqaza Göyçədən yayılıb» (86, 9).

Göyçə aşıq mühiti Azərbaycan aşıq sənəti tarixinə nəhəng sənətkarlar bəxş etmişdir. Göyçədə, xüsusilə XIX əsrdə görkəmli saz-söz ustadları yetişmişdir. Tədqiqatçı Ə.Axundov özünün Aşıq Ələsgər yaradıcılığına həsr olunmuş dissertasiyasında göstərmişdir ki, XIX əsrdə Göyçə aşıq poeziyasını Göyçəli Aşıq Alı, Alçalı Məhərrəm, Şəmkirli Aşıq Hüseyn, Göyçəli Şair Məmmədhüseyn, Şişqayalı Aydın, Ağbulaqlı Şair Kazım, Zodlu Mirzə Bəylər, Zodlu Hacı bəy, Usta Abdulla, Aşıq Çoban, Məzrəli Aşıq Əziz, Zodlu Şair Məhəmməd, Kəlbəcərli Aşıq Qurban, Aşıq Musa Göyçəli, Aşıq Ələsgər kimi aşıqlar və el şairləri təmsil etmişdir (5, 47-48). Bu sənətkarların Göyçədə yetişməsi təsadüfi deyildi. Çünki «Kitabi-Dədə Qorqud» boylarında adı keçən Göyçə Azərbaycan türklüyünün ən saf bölgələrindən biri olduğu üçün orada saz-söz sənəti həmişə güzəranın ayrılmaz tərkib hissəsi olmuş və ulusun mənəvi yaşam sistemində aparıcı mövqeyə yiyələnmişdir» (88, 169).

Göyçə aşıq mühiti inzibati-ərazi baxımından ona yaxın bölgələri əhatə etmiş, onun təsirilə ətraf regionlarda da saz-söz sənəti inkişaf etmiş və bunun nəticəsində qərb aşıq mühitinin ənənələri ruhunda formalaşan ustad sənətkarlar yetişmişdir. Bu mənada klassik aşıq sənətinin səciyyəvi xüsusiyyətlərini qoruyub saxlayan qərb aşıq mühiti coğrafiyasında Göyçə aşıq mühitinə birbaşa bağlı olmaqla bir aşıq mühiti kimi onunla eyni mövqedə çıxış edən Kəlbəcər mahalının xüsusi yeri vardır. Eyni ərazini təşkil edən Göyçə-Kəlbəcərdə aşıq sənəti vahid sənət və yaradıcılıq ənənələri üzərində pərvəriş tapmış və bu bölgələrin saz-söz sənəti daim vəhdətdə olmuşdur. Bütün bunlar Kəlbəcərin Göyçə aşıq mühitindən

ayrılmaz olduğunu göstərməklə, burada el sənətkarlarının yetişməsində həmin bağlılığın mühüm rol oynadığını da bildirir. Ağdabanlı Qurban, Aşıq Bəsti, Aşıq Şəmşir, Ayrım Əhməd, Bimar Əli, Şair Firudin, Zal Cabbarlı kimi aşıqlar və el şairləri Kəlbəcər torpağının yetirdiyi sənətkarlar kimi Göyçə aşıq mühitinin sənət və yaradıcılıq məktəbinə məxsusdurlar. Hər birinin özünəməxsus dəst-xətti olan bu el sənətkarları yaratdıqları sənət inciləri ilə ətraf mahallarda da məşhur idilər.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Kəlbəcərdə saz-söz sənətinin geniş vüsət tapmasında Göyçə aşıq mühiti də əsas faktorlardan olmuşdur. Bu regionda aşıqlıq Göyçə ədəbi mühitinin nailiyyətlərindən bəhrələnmiş, onun ən yaxşı ənənələrini özündə ehtiva etmişdir. Tədqiqatçı Ə.Eldarova Göyçə və Kəlbəcər aşıqlarını ifaçılıq formalarına və yaradıcılıq imkanlarına görə, haqlı olaraq, eyni zonaya daxil etmişdir (53, 45). Belə ki, bu bölgələrin sənətkarlarının yaradıcılıq və ifaçılıq üslublarında nəzərə çarpan elə bir fərqli cəhət yoxdur. Folklorşünas M.Qasımlıya görə, Göyçə mühitinin yaradıcılıq və ifaçılıq keyfiyyətləri mahaldan kənardakı bəzi yaxın bölgələri də öz təsiri altında saxlamışdır (88, 175). «Belə ki, Kəlbəcər-Laçın aşıqlarının repertuarı və ifaçılıq üslubu tarix boyunca Göyçə aşıqlarından qətiyyən fərqlənməmişdir. Göyçə süqut anına qədər həmişə Laçın-Kəlbəcər regionunu sənət qidası ilə təmin etmişdir. Əslində, Laçın-Kəlbəcər regionundakı aşıqlıq Göyçə aşıq mühitinin bir sənət şəbəkəsi kimi mahaldan kənardakı davamıdır» (88, 175). Müəllifin sonrakı fikirlərinə istinadən demək olar ki, Kəlbəcər sənət ənənəsi baxımından Göyçə aşıq mühitinə bağlıdır. Bunun nəticəsi olaraq hələ XIX əsrdə neçə-neçə saz-söz həvəskarının

Kəlbəcərdən Göyçəyə Aşıq Ələsgərin və digər aşıqların yanına gələrək bu sənəti öyrənmələri, həmin dövrdə Göyçə aşıq mühitində saza-sözə yüksək qiymət verilməsinin daha bir göstəricisidir. Bunun ardınca müəllif yazır: «…1915-ci ildə Aşıq Ələsgər qocalığına və başına gələn ailə müsibətlərinə görə aşıqlığı tərgitdiyi zaman öz sazını Kəlbəcərin Nədirxanlı kəndindən olan Aşıq Hüseynə bağışlamışdır. Hər halda, Aşıq Ələsgər elə-belə, adi bir aşığa saz verməzdi. …Ələsgər sazının Kəlbəcər aşığına tapşırılması faktının özü də Kəlbəcərin Göyçə aşıq mühitindən ayrılmaz olduğunu dolayısı ilə təsdiqləyir. Kəlbəcərin Ağdabanlı Qurban, Aşıq Bəsti, Aşıq Şəmşir, Qəmkeş Allahverdi kimi qüdrətli saz-söz ustadları yetirməsində də həmin ədəbi-estetik bağlılıq əhəmiyyətli rol oynamışdır» (88, 175-176). Folklorşünas A.Nəbiyev də Göyçə-Kəlbəcər aşıq mühitinin həm ifa, həm də yaradıcılıq keyfiyyətlərinə görə bir-biri ilə əlaqəli olduğunu vurğulayaraq yazır: «…Əgər bunun bir səbəbi region yaxınlığı ilə əlaqədar idisə, başqa mühüm cəhəti də ümumiyyətlə Aşıq Ələsgər ocağının Kəlbəcərlə əlaqəsi, aralarındakı qohumluq münasibətləri və yaradıcılıq üslublarının çarpazlaşmasıyla bağlıydı» (108, 245). Bu xüsusda tədqiqatçı A.Cəmil qeyd edir: «…Kəlbəcər-Göyçə ədəbi mühitinin eyni ənənələr üzərində formalaşması, saz-söz sənətinin coğrafi hüdudsuzluğu ərazi etibarilə yaxın olan bu ellərin mənən də yaxın olmasına təbii şərait yaratmışdır» (46, 4). Onu bir sənətkar kimi zirvələrə ucaldan ilk növbədə ənənələri əsasında təşəkkül tapdığı Göyçə-Kəlbəcər aşıq mühitidir. Bu mühitin güclü poetik ənənələri Aşıq Şəmşir yaradıcılığını təkcə formalaşdırmamış, eyni zamanda ona daim təsir edərək, bütün

inkişafı boyunca cilalamışdır. Bu, elə bir aşıq mühitidir ki, onu təmsil edən sənətkarlar bütün ömrü boyu həmin mühitin tükənməz poetik ənənə enerjisi ilə qidalanmışlar.

Beləliklə, Aşıq Şəmşir poeziyası bütün poetik strukturu etibarilə Göyçə-Kəlbəcər aşıq mühitinə bağlı olmaqla onun ənənələrini özündə əks etdirir. Onun şeirlərində Göyçə aşıq mühitinin əsrlərdən bəri cilalana-cilalana gələn füsunkar poetik obrazları, ənənələri yaşayır. Əsası XVI əsr sənətkarı Miskin Abdalla qoyulan bu mühitdə saz və söz bütün tarixi boyunca Tanrının yaratdığı dünyanın gözəlliklərinin tərənnümünə köklənmiş və bu ənənə Göyçə aşıq mühitinin mənəvi-poetik, bədii-əxlaqi sifəti kimi daim yaşayaraq Aşıq Şəmşir yaradıcılığına da nüfuz etmişdir.

Folklorşünas H.İsmayılov Göyçə aşıq mühitinin təşəkkülü və inkişaf yollarını aşıq sənətinin mənşəyi və inkişaf mərhələləri kontekstində tədqiq etmiş və bu inkişafda XIX əsri xüsusi şəkildə fərqləndirərək aşıq sənətinin intibah mərhələsi kimi səciyyələndirmişdir. Tədqiqatçı göstərir ki, bu dövrdə Göyçədə korifey sənətkarlar fəaliyyət göstərirdilər. Aşıq Alı, Aşıq Ələsgər kimi haqq aşıqları, Şair Aydın, Mirzə Bəylər, Şair Əziz, Usta Abdulla kimi el şairlərinin fəaliyyəti və yaradıcılıq uğurları XIX əsr Göyçə aşıq mühitini bütün türk dünyasında tanıtmışdır. Bir çoxlarının yaradıcılığı XX əsri də əhatə edən bu el sənətkarları özlərindən sonra əsl ədəbi məktəb yaratmışlar. Belə bir dövrdə aşıq adı almaq üçün Alı, Ələsgər və onlara yaxın statusda olan ustad sənətkarların etimadını qazanmaq lazım gəlirdi (78, 283). Məhz belə bir zamanda sənət aləminə gələn Aşıq Şəmşir Göyçə-Kəlbəcər aşıq mühitinin XX əsrdə yetirdiyi qüdrətli sənətkarlardan biri kimi şöhrətlənmişdir.

Aşıq Şəmşir (Şəmşir Qurban oğlu Qocayev) 1893-cü ildə Kəlbəcərin Dəmirçidam kəndində Şair Qurbanın ailəsində anadan olmuş, 1903-cü ildə Ağdaban kəndinə köçmüş və ömrünün sonunadək orada yaşamışdır. Şəmşir yaradıcılığa erkən, təxminən, 1907-1908-ci illərdən başlamışdır. Şəmşirin ilk ustadı atası Ağdabanlı Qurban olmuş, saz-söz sənətinin sirlərini ondan öyrənmişdir. Aşıq Şəmşir haqqında olan bütün mənbələrdə bu barədə ətraflı məlumatlar vardır. Lakin bəzi mənbələrin yazdığına görə, atası Ağdabanlı Şair Qurbandan sonra Şəmşir Goranboy rayonunun Xan Qərvənd kəndində yaşayan, dövrünün kamil aşıqlarından sayılan Aşıq Sarının yanında şəyirdlik edib. 1915-ci ildən isə toylarda sərbəst çalıb-oxumağa başlayıb (123[a], 4). Şəmşir həm mollaxanada təhsil almış, həm də atasından yazıb-oxumağı öyrənmişdir. Belə ki, o, 1920-ci illərdə Kəlbəcərin Qamışlı kəndində katib vəzifəsində çalışmışdır (123[a], 4). 1955-ci ildə xalq şairi Səməd Vurğunla görüşündən sonra Aşıq Şəmşirin əsərləri kitab şəklində nəşr olunmuşdur. Saz-söz sənətinin inkişafındakı böyük xidmətlərinə görə 1964-cü ildə anadan olmasının 70 illiyi münasibətilə «Əməkdar incəsənət xadimi» fəxri adına layiq görülmüşdür. Bundan başqa, «Şərəf nişanı» ordeni və «Əməkdə fərqlənməyə görə» medalı ilə də təltif edilmişdir. 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. Aşıq Şəmşir 1980-ci ildə vəfat etmiş, Ağdabanın «Yeddi qardaş» adlanan dağında dəfn olunmuşdur.

Şəmşirin atası Qurban öz dövrünün savadlı, uzaqgörən və yaradıcı sənətkarlarından biri olmuş, yaratdığı poeziya nümunələri ilə şöhrət tapmış və el arasında Ağdabanlı Şair Qurban kimi tanınmışdır. O, dövrünün yaxşı təhsil görmüş

ziyalılarından olmuş, ərəb-fars dillərini mükəmməl bilmişdir. Bunu xüsusilə qeyd etmək lazımdır ki, Ağdabanlı Qurban el şairi idi. O, zəngin saz-söz mühitində yaşasa da, heç vaxt aşıqlıq etməmişdir. Buna baxmayaraq Qurbanın yaradıcılığını aşıq poeziyasından kənarda təsəvvür etmək mümkün deyil. Belə ki, o, bütün yaradıcılığı ilə aşıq sənətinə bağlı olmuş və buradan qaynaqlanmışdır. Prof. M.H.Təhmasib və prof. S.Paşayevə görə, Ağdabanlı Qurbanın ən böyük xidmətlərindən biri onun «Qurban bulağı» adlı ədəbi məclis yaratması və Aşıq Ələsgər, Aşıq Bəsti, Usta Abdulla, Növrəs İman kimi dövrünün ən məşhur sənətkarlarını bura cəm etməsi olmuşdur (139; 140; 114; 164; 116). Lakin Aşıq Ələsgər irsinin tədqiqatçısı, aşığın nəvəsi İ.Ələsgərin bir çox söyləyicilərə əsaslanaraq verdiyi məlumata görə, «Qurban bulağı» adlı ədəbi məclis olmamışdır (58, 58). Bu fikir müxtəlifliyinə baxmayaraq mübaliğəsiz demək olar ki, bir çox Kəlbəcər aşıqlarının, el şairlərinin yetişməsində Ağdabanlı Qurbanın böyük xidməti olmuşdur. Aşıq Ələsgər də uzun müddət Kəlbəcərdə yaşayıb fəaliyyət göstərməklə bu mühitin sənətkarlarının formalaşmasında özünəxas rol oynamışdır. Buna əsasən demək olar ki, Göyçədən sonra Ələsgər yaradıcılığının ikinci vətəni Kəlbəcər olmuşdur. İ.Ələsgərin yazdığına görə, Kəlbəcərin elə kəndi yoxdur ki, Aşıq (Aşıq Ələsgər – İsayeva S.) orada bir neçə dəfə toy aparmamış olsun (58, 22). Aşıq Ələsgər doğma Göyçəsi qədər sevdiyi bu torpağı hər zaman sonsuz sevgi ilə vəsf etmişdir:

Gəşt elədim, bu dünyanı dolandım,
Kəlbəcərin xeyir-şəri yaxşıdı.

Məscid, minarası, məktəbxanası,
Torpağı şirindi, yeri yaxşıdı (22, 36).

Aşıq Ələsgərin Ağdabanlı Qurbanla tarixi dostluğu bu əlaqələri daha da möhkəmləndirmişdir. Şəmşirin formalaşıb bir sənətkar kimi yetişməsində bu dostluq mühüm amil olmuşdur. Gəncliyini bu iki qüdrətli sənətkarla təmasda keçirmiş Şəmşirdə saza-sözə həvəs hələ erkən yaşlarından baş qaldırmışdır. Geniş dünyagörüşə, zəngin məlumata malik Aşıq Şəmşir hələ sağlığında ikən xalq arasında tanınmış, gözəl şair, mahir ifaçı kimi səsi-sorağı təkcə doğma yurdunu deyil, Azərbaycanın bir çox mahallarını bürümüş, saz-söz aləminə bir yenilik və təravət gətirmişdir.

Aşıq Şəmşir bir sənətkar kimi çox zəngin bir sənət mühitində boy atmışdır. «Bilirsən, böyükdü Göyçənin adı, mən burda açmışam qolu-qanadı» – deyən aşığın bu müqəddəs sənət ocağından bəhrələndiyi şəksizdir. Yaradıcılığının ən məhsuldar dövrünü Kəlbəcərdə, Göyçədə və ətraf mahallarda keçirən sənətkarın şeirlərindən də onu yetişdirən mühit haqqında ətraflı məlumat, zəngin informasiya almaq olur:

Sinəm dolu sirr mənim,
Ocax mənim, pir mənim.
Atamın oylağıdı,
Bu müqəddəs yer mənim (61, 648).

Belə bir mühitdə böyüyüb ərsəyə çatan, sənət və yaradıcılığı aşıq sənətinin klassik ənənələri ilə cilalanan Şəmşir çox keçmədən dövrünün qüdrətli sənətkarı kimi məşhurlaşmış, sağlığında aşıq sənətinin ən yüksək mərtəbəsini – dədəlik zir-

vəsini fəth etmiş və xalq arasında «Dədə Şəmşir» kimi məşhurlaşmışdır. «Dədə – qədim inanışlarla bağlı olub mənəvi-ruhani ata özəlliyi daşıyır və soyun ağsaqqalının, soy başçısının ruhuna tapınmağın izini yaşadır. …Sonrakı çağların ən sayılan el aşıqları da bu adla – «dədə» adıyla tanınır, bilinirdilər» (42, 99). Folklorşünas H.İsmayılov «dədə» titulu və Şəmşirin bu məqama çatması haqqında yazır: «Hər sənətkara dədə deyilmir. «Dədə» mədəniyyət hadisəsi işarəsidir. Bu ad altında kamil inam daşıyıcısı, yüksək təşəkküllü poeziya yaradıcısı dayanır. ...Dədənin ədəbi irsinə Dədə Qorquddan Dədə Ələsgərədək bütün dədə sənətkarların yaradıcılıq örnəkləri daxildir. Şəmşir də məhz həmin cərgədə duran, sənəti, mənəvi rəhbər və yol göstərən keyfiyyətləri ilə xalqın «Dədə» ünvanına layiq görülən son sənətkarlardandır» (81, 58). Tədqiqatçı Aşıq Şəmşiri «dədə» hesab etməsini belə əsaslandırır: «Aşıqlığın ədəb-ərkan sistemi təsəvvüf mədəniyyətinin, sufi davranışlarının tərkib hissəsini təşkil edir. Aşıqlığın ədəb-ərkan qaydaları sufilərin ədəb-ərkan qaydalarının sadələşdirilmiş, kütləviləşdirilmiş şəklidir. Təriqət böyüyü, rəhbəri pir, mürşid adlandığı kimi, aşıqların da haqq aşiqliyi mərhələsində yaşayıb-yaratmış ustadları dədə adlanırdı. Aşıq sənətinin böyük ürfan dünyasına bağlılığı, sədaqəti ilə seçilən ən qüdrətli nümayəndələri çox sonralar da bu sufi ad tituluna layiq görülürdü. Şəmşir də belə taleyi yaşayan nadir sənətkarlarımızdan biridir. Özü də bu ada layiq görülən sonuncu nümayəndələrdəndir» (81, 60).

«Miskin nəvəsiyəm bir ocaqzada, halal, təmiz ad qazandım dünyada», – deyən Şəmşir çoxəsrlik tarixə malik bir nəslin nümayəndəsi olmuşdur. XVI əsrdə Miskin Abdalla başlanan

Cöyçə aşıq mühiti sonrakı dövrlərdə də yetirdiyi qüdrətli sənətkarlarla saz-söz sənətinin yüksəlişində böyük rol oynamışdır. Miskin Abdal ocağı Azərbaycan aşıq poeziyasına ustad aşıqlar, böyük sənət korifeyləri bəxş etmişdir. Belə nəhəng sənət meydanında öz adı, öz nəfəsi ilə seçilən Ağdabanlı Qurban və Aşıq Şəmşir də dövrünün qüdrətli sənətkarları kimi bilavasitə bu sənət məktəbinə, çox müqəddəs ocaq ənənələrinə və genetik kodlara bağlıdırlar.

Miskin Abdal haqqında eşitdiyi söhbətlər, rəvayətlər, dinlədiyi qoşmalar, gəraylılar sənət meydanına təzə qədəm qoyan gənc aşığa güclü təsir göstərmişdir və öz soykökünün bu azman sənətkarla, müqəddəs övliya ilə bağlanmasını şeirlərində dəfələrlə qeyd etmişdir:

Mən şəfa dilədim baxtı kəskindən,
Azadam, çıxmışam, keçən pis gündən.
Şairlik nurunu babam Miskindən,
Qurbandan yadigar üzə gətirdim (28, 144).

Aşıq Şəmşir burada öz sənət şəcərəsinin genetik silsiləsini çox aydın şəkildə göstərmişdir. Şəcərənin başlanğıcında Miskin Abdal durur. Miskin Abdalla Aşıq Şəmşirin arasında isə Ağdabanlı Qurban mərhələsi vardır. Adları çəkilənlər görkəmli sənətkarlardır. Bu baxımdan, Şəmşirin tərənnüm etdiyi «genealogiya», əslində, tam bir nəsil şəcərəsi deyildir. Belə olsaydı, o, öz ata-babalarının, ulu babalarının da adlarını çəkərdi. Bu, nəsil şəcərəsinə əsaslanan, onun əsasında qurulmuş sənət şəcərəsi olduğu üçün həmin nəsildən çıxmış görkəmli sənətkarların adları çəkilmişdir.

Aşıq böyük qürurla bu ocaqdan pöhrələndiyini, yetişib

ərsəyə gəldiyini dönə-dönə vurğulamışdır:

Xilqətim düzgündü, düzlə də varam,
Halal süd əmmişəm, deyiləm haram.
Elin aşığıyam – pak sənətkaram,
Çəkibdilər imtahana yüz məni (28, 164).

Sənətkar mayasının halallıqla yoğrulduğunu, haramdan, şər işlərdən uzaq olduğunu, dəfələrlə imtahana çəkilsə də, hər dəfə üzüağ çıxdığını, beləliklə də, el aşığı olduğunu doğru-dürüst nəzmə çəkmişdir. O, Miskin Abdal ocağına məxsusluğunu, əsl haqq aşığı kimi yetişdiyini, bu ocağa sadiq qalaraq daim halallıqla yaşadığını, heç zaman doğru yoldan azmadığını aşağıdakı misralarda poetikləşdirmişdir:

Oldum haqq aşığı, doğru-düz yazan,
Məni sarsıtmadı quduran, azan.
Nəfsimə tət dedim: «halaldan qazan!»,
Olmaz bu baratı alan əlimdən (33, 155).

Şeirlərin təhlili göstərir ki, Aşıq Şəmşir Miskin Abdaldan Aşıq Ələsgərə kimi böyük bir sənət və yaradıcılıq genealogiyasını əhatə edən Göyçə aşıq mühitinin varisi olması ilə fəxr etmiş və bütün yaradıcılığı boyunca bu poetik məktəbin ənənələrini qoruyaraq yaşatmış və inkişaf etdirmişdir.

Qeyd olunmalıdır ki, atası Ağdabanlı Qurbanın və Aşıq Ələsgərin poetik örnəkləri Şəmşir yaradıcılığı üçün əsas təsir mənbəyi kimi dəyərləndirilməlidir. Bu mənada, onun iki böyük ustadı olmuş və onlardan aşıqlıq sənətinin sirlərini əxz etmişdir. Hələ gənclik illərindən Aşıq Ələsgərin diqqətindən yayınmayan Şəmşirdə böyük ustaddan gələn ən mühüm

sənətkarlıq xüsusiyyətləri öz təcəssümünü tapmışdır. Təsadüfi deyil ki, «…Aşıq Ələsgər öz müasirlərinə və özündən sonra gələn Aşıq Musa, Şair Vəli, Aşıq Hüseyn (Şəmkirli), Şair Abdulla, Aşıq Əsəd, Aşıq Şəmşir, Aşıq Mirzə və Aşıq Hüseyn (Cavan) kimi aşıq və şairlərimizin yaradıcılığına müsbət təsir göstərmişdir» (127, 10). Ələsgəri «pak ustad», «sənətinin qibləgahı», «idrakının mehri-mahı» adlandıran Şəmşir böyük sənətkarı məhəbbətlə yad edərək, öz şeirlərində onunla şəxsən təmasda olduğunu, yaradıcılığının poetik əsaslarının, sənət yaddaşının Ələsgər poeziyası ilə qidalandığını xüsusi tərənnüm etmişdir:

Böyük tacidarım, kamil sənətkar,
Sənsən mənim pak ustadım, Ələsgər.
Yadımdan çıxarsa yazdığın əşar
Qopar o gün qiyamətim, Ələsgər (28, 155).

Aşıq Ələsgərdən məhəbbətlə söz açan Şəmşir ustad atanın da onun üzərindəki böyük təsirini dəfələrlə xatırlatmışdır. «Mən bir sızqayamsa, atamdı dərya, həmin o dəryanın adasıyam mən», – deyərək şeirlərində bunu bir daha təsdiqləmişdir:

Eşit bu kəlməmi, süxəndan ata,
Ey ağıl dəryası, ey ümman ata.
Ruhuna olmuşam duaxan, ata,
Bu Şəmşirdi – yadigarı Qurbanın (28, 136).

Beləliklə, Kəlbəcər aşıqlığı XX əsrdə Şəmşirin timsalında özünün yüksəliş dövrünü yaşadı. O, öz yaradıcılığı ilə Azərbaycan aşıq şeirini məzmun və mündəricə baxımından,

sənətkarlıq cəhətdən xeyli zənginləşdirmişdir. Klassik aşıq poeziyası ilə müasir aşıq poeziyası arasında möhkəm özüllü bir körpü yaradan Aşıq Şəmşirin bədii irsi zəngin məzmun və forma gözəlliyinə malikdir. O, müxtəlif mövzularda yaratdığı qoşma, gəraylı, ustadnamə və divanilərin, onlarla təcnisin, bir çox müxəmməs, deyişmə, bayatıların və üç dastanın müəllifidir.

Aşıq Şəmşirin xüsusi musiqi istedadı da olmuşdur. Akademik H.Araslı doğru olaraq yazır: «Aşıqlıq sənəti …saz çalmaq, rəqs etmək, oxumaq, şifahi xalq ədəbiyyatının nağıl, dastan və başqa növlərini toylarda, məclislərdə ifa edərək yaymaq deməkdir» (9, 5). Böyük sənətkar da zəngin yaradıcılığa malik olmaqla yanaşı, həm də gözəl ifaçılığa, özünəməxsus ləmsə, səsə, çalğıya malik bir ustad olmuşdur. Bu barədə sənətkarın oğlu Qənbər Şəmşiroğlu atası ilə bağlı xatirələrində yazır ki, istedadlı musiqişünas Əminə Eldarova 1958-ci ildə konservatoriyanın səsyazma studiyasında aşığın ifasında 75 aşıq havasını lentə köçürmüşdür (135, 42). Həmin lent yazıları hal-hazırda radionun qızıl fondunda saxlanılır.

Aşıq Şəmşir təkcə yaradıcılığı etibarı ilə deyil, eyni zamanda şəxsiyyəti baxımından da aşıq sənətinin klassik ənənələrinin varisi olmuşdur. Onun həyatı xalqının həyatına bağlı olmuş, öz həyatını elin həyatından kənarda təsəvvür etməmişdir. Bu cəhətdən Şəmşirin şəxsi-mənəvi dünyası, bioqrafiyası ictimailəşmiş, xəlqiləşmişdir. Öz həyatını xalqın həyatından ayırmayan Şəmşir şəxsi-mənəvi dünyasını, bioqrafik varlığını öz poeziyasında poetik-ictimai, əxlaqi-bədii normalar çərçivəsində bədiiləşdirmişdir. Onun elə şeirləri vardır ki, bunlarda sənətkarın ömür yolu ilə bağlı

bioqrafik məlumat əldə etmək mümkündür. Məsələn, «Mən» qoşması avtobioqrafik səciyyə daşıyır:

Gəzirəm obanı, oymağı çoxdan,
Ellərin dilinin əzbəriyəm mən.
Dərin suallardan oldum xəbərdar,
Atan igidlərin səngəriyəm mən.

Ustaddan dərsimi alaram cəmi,
Ümmanam, köksümdə üzər min gəmi;
Təlatüm eylərəm dəryalar kimi,
O Kürün, Arazın Tərtəriyəm mən.

Xislətdə sadəyəm, eşqimdə Qafam,
Mən mürvət kanıyam, əhli-insafam,
Gövhəri tanıyan qoca sərrafam,
Seçilmiş cövhərin zərgəriyəm mən.

Sevgi-məhəbbətin pərvanəsiyəm,
Bir ala gözlünün divanəsiyəm,
Şəmşirəm, Qurbanın nişanəsiyəm,
Böyük aşıqların dəftəriyəm mən (26, 93).

Demək lazımdır ki, Şəmşir haqqında hətta heç bir məlumat olmasaydı belə, təkcə bu şeir vasitəsilə kifayət qədər informasiya əldə etmək mümkündür. Bu qoşma Şəmşir haqqında maraqlı məlumatları bizə çatdırır: Aşıq Şəmşir öz doğma elini-obasını – Kəlbəcəri, həmçinin Göyçəni dönə-dönə gəzdiyini, xalq tərəfindən sevildiyini önə çəkir. O, bir insan və sənətkar kimi yetişməsində ustadlarını – Aşıq Ələsgəri və

Ağdabanlı Qurbanı xatırlayır, onların sayəsində əsl sənətkar olduğunu göstərir. Aşıq nə qədər ucalsa və sevilsə də, yenə də sadə olduğunu, heç zaman öyünmədiyini «Xislətdə sadəyəm, eşqimdə Qafam» misralarında olduqca tutarlı söyləmişdir. Misrada iki məna özünü göstərir:

Birincisi, aşıq xislətən çox təvazökar olmuşdur;

İkincisi, o, eşqində, məhəbbətində Qaf dağı qədər uca, möhkəm və əzəmətli olmuşdur.

Şəmşir sonuncu misrada sələflərindən çox şeylər əxz etdiyini, Qurban ocağının layiqli davamçısı olduğunu göstərmişdir. Bu misrada Şəmşirin özü haqqında dediyi «Böyük aşıqların dəftəri» ifadəsi semantik cəhətdən çox zəngin obrazdır. Bu ifadə, əslində, «gəlişigözəl söz», yəni qafiyə xatirinə yaradılmış obraz, mübaliğə fiquru deyildir. Şəmşir «Böyük aşıqların dəftəriyəm» deməklə klassik aşıqların yaradıcılığını dərindən bildiyini, sinəsinin aşıq şeirimizin yaddaş xəzinəsi olduğunu göstərmişdir. Buna hər aşıq iddia edə bilməzdi. Şəmşir bunu deməklə böyük bir məsuliyyətin altına girmişdi. Bunun üçün isə insanın yaddaşı sözün həqiqi mənasında fenomenal dərəcədə möhkəm olmalı idi. Şəmşir «Böyük aşıqların dəftəri» olmaqla həm də Azərbaycan aşıq sənətinin poetik yaddaş ağırlığını çiyinlərində daşımış, bütün varlığı ilə bu yaddaşa qulluq etmiş və təsadüfi deyildir ki, özü də bu ulu sənət və yaradıcılıq yaddaşının unudulmaz səhifəsinə çevrilmişdir.

Beləliklə, Aşıq Şəmşir sənət və yaradıcılıq ənənələri baxımından Göyçə-Kəlbəcər aşıq mühitinə bağlı olmuşdur. O, Göyçə aşıq mühitinin sənət başlanğıcında duran və nəsil şəcərəsinin də birmənalı olaraq başlandığı Miskin Abdal

fenomenini özünə mənəvi ustad saymışdır. Miskin Abdala bu bağlılıq Şəmşir yaradıcılığından dərk edilən, şüurlu hadisədir. Aşıq Şəmşirin Ələsgər sənətinə bağlılığı da onun Göyçə aşıq mühitinin sənət və yaradıcılıq varisi olmasının daha bir göstəricisidir.

## 1.2. Aşıq Şəmşir və müasirləri

Aşıq Şəmşir XX əsrin qüdrətli sənətkarlarından biri kimi təkcə doğulub boya-başa çatdığı Kəlbəcərdə deyil, bütün Azərbaycanda məşhur olmuşdur. Bu dövrdə Aşıq Şəmşirlə yanaşı, Kəlbəcərdə Ağdabanlı Qurban, Aşıq Bəsti, Göyçədə ömrünün ahıl çağlarını yaşayan Aşıq Ələsgər, Aşıq Talıb, Zodlu Usta Abdulla, Növrəs İman, Həsən Xəyallı, Gədəbəydə Miskin Vəli, Tovuzda Mikayıl Azaflı və başqa görkəmli sənətkarlar fəaliyyət göstərirdilər. Adları çəkilən ustad sənətkarların yaradıcılığı ümumən aşıq sənətinin inkişafına təsir etdiyi kimi, qarşılıqlı şəkildə bir-birinə də təsir göstərmişdir. Öz dövrünün sənətkarlarının yaradıcılığı Aşıq Şəmşir yaradıcılığına təsirsiz qalmadığı kimi, onun da yaradıcılığı müasirlərinə təsir etmiş, bir çox sənətkarlar Şəmşir yaradıcılığından ilham alaraq yeni sənət əsərləri yaratmışlar. Başqa sözlə, özü mövcud sənət və yaradıcılıq ənənələrindən bəhrələndiyi kimi, onun da sənəti və poeziyası digər sənətkarlara yaradıcı təsir göstərmişdir.

XX əsrin əvvəllərində yaşayan görkəmli el şairlərindən biri Göyçənin Zod kəndində anadan olmuş Usta Abdulladır. Aşıq Şəmşirlə müasiri olan Usta Abdulla yaradıcılığını müqayisə etdikdə yaradıcılıq təsirləri açıq-aşkar müşahidə

olunur. Məsələn, aşağıdakı şeir parçasında səsləşmə ruhani yaxınlıq, poetik nəfəs doğmalığı sərhədlərini aşaraq poetik strukturun formal elementlərini (rədif, qafiyə) əhatə etmişdir:

Aşıq Şəmşirdə:

Dedim: gözəl, bu sallanış nədəndir?
Dedi: ümmanların sonasıdır bu.
Dedim: ağ əllərin əlvan hənalı,
Dedi: öz hüsnümün hənasıdır bu (26, 66).

Usta Abdullada:

Dedim: Tutu, bu sallanış nədəndi,
Dedi: ümmanların sonasıdı bu.
Dedim: ağ əllərin əlvan bəzənib,
Dedi: öz kefimin hənasıdı bu (142, 44).

Bu şeir parçaları sanki bir-birinin təkrarıdır. Şəmşir gözələ, Usta Abdulla Tutuya müraciət etmişdir. Digər tərəfdən, cüzi söz fərqləri vardır. Lakin şeirləri dərindən təhlil etdikdə onların arasında bədii idealın tərənnümünün fərqli səviyyələrini müşahidə etmək mümkündür. Aşıq Şəmşir tərənnüm etdiyi qıza öz adı ilə yox, «gözəl» deyə xitab etmişdir. Bu halda «gözəl» adı mənəvi və cismani, maddi və ideal olan bütün gözəllikləri özündə birləşdirən polisemantik (çoxmənalı) metaforadır. «Gözəl» metaforasının məna qatları iki səviyyəni təşkil edir:

1. Bütün gözəllikləri özündə ifadə edən poetik ideal;
2. Mücərrəd poetik idealı təcəssüm etdirən canlı insan.

Şəmşir «gözəl» metaforasının semantik boyasını bütün şeirə yaymış və onun bədii təcəssümü üçün uyğun poetik

elementlər seçə bilmişdir. Başqa sözlə, Şəmşir gözəlliyin ideal səviyyəsini şeirin bütün məzmununda qoruya bilmişdir. Məsələn, qızın «sallanış» obrazında ifadə olunmuş hərəkət (dinamika) gözəlliyi ümman sonalarının hərəkət gözəlliyinin metaforası kimi təqdim olunmuşdur. Yaxud qızın əllərində ağ (bədəni) ilə qırmızının ahəngindən yaranan gözəllik onun cismində təcəlla etmiş ilahi gözəlliyin (hüsnün) təcəssümüdür. Başqa sözlə, Şəmşir gözəlliyin şeirdə ifadə olunmuş ideal (ümumi) və maddi (xüsusi) planlarını bir-biri ilə qarışdırmamış, idealla onun maddi təcəssümünün poetik ahəngini yaratmışdır. Usta Abdullanın şeirində isə gözəlliyin təsviri birplanlıdır: o, birbaşa Tutuya poetik xitab edərək onun gözəlliyini tərənnüm etmişdir. Bu plan dəyişməz qalmışdır. Aşıq Şəmşir gözəlliyin ideal (ümumi, mücərrəd) planı ilə onun maddiləşmə planı (gözəlliyin qızda təcəssüm olunan səviyyəsi) arasında ritmik dinamika, poetik ahəngdarlıq yaratmışdırsa, Usta Abdulla bir səviyyəyə köklənmiş və həmin planın strukturundan kənara çıxmamışdır. Bu cəhətdən zahirən bir-birinin təkrarı kimi görünən bu şeirlərdən Şəmşirin yaratdığı daha mükəmməl olub, poetik məna və onun maddiləşmə üslubunun daha zərif və incə səviyyəsi kimi diqqəti cəlb edir.

Müqayisələri genişləndirdikdə görürük ki, Şəmşirin yaratdığı bu bədii gözəlliyin əsasında onun poetik ənənəyə vurğunluğu və sədaqəti durur. Belə ki, Aşıq Şəmşirdə və Usta Abdullada rast gəlinən poetik səsləşmənin tarixi daha qədimdir. Dirili Qurbani hələ neçə əsr bundan əvvəl eyni məzmun və formada şeir yaradaraq bizə yadigar qoymuşdur:

Dedim: Dilbər, getmə, bir dəm danışaq,
Dedi: Sözün yoxdur, bəhanədir bu!
Dedim: Bir nəzər qıl aşiq halına,
Dedi: Əcəb dəli-divanədir bu! (91, 128)

Göründüyü kimi, ənənə üzərində pərvəriş tapıb köklənən Şəmşir və Usta Abdulla şeirləri Qurbani şeirinin davamı və inkişaf etdirilmiş təzahürüdür.

Aşıq Şəmşirin digər müasiri, XX əsrin ustad aşıqlarından olan Mikayıl Azaflıdır. Hər iki sənətkarın yaradıcılığına diqqət etdikdə poetik-ruhani yaxınlıqları müşahidə etmək mümkündür. Müqayisə üçün bir nümunəyə nəzər salaq:

Aşıq Şəmşirdə:

Dünən ev dağıdıb, ev yıxanların
Bu gün öz evini yıxılan gördüm.
Başı gen dünyaya sığmayanların,
Bədənin iynəyə taxılan gördüm (31, 37).

Mikayıl Azaflıda:

Mən qoca dünyaya gələndən bəri
Üstündə saraylar tikilən gördüm.
Dünən qılıncından qan damanları
Bu gün çarmıxlara çəkilən gördüm (99, 74).

Hər iki sənətkarın qoşmasında ictimai-siyasi motivlər, zəmanədən, dövrdən şikayət əks olunmuşdur. Başlıcası, şeirlərin məzmun, poetik ruh baxımından yaxınlığı həm də forma (janr, qafiyə eyniliyi) yaxınlığında ifadə olunmuşdur.

Eyni dövrdə yaşamış bu sənətkarlardan hansının şeirinin daha əvvəl qələmə alındığını söyləmək çətin olsa da, onların arasında məzmun, forma, bədii motivlənmə, metaforik sistem baxımından təsirləşmə göz qabağındadır.

Hər iki sənətkarın üslub yaxınlığını göstərən digər bir nümunəyə diqqət edək:

Aşıq Şəmşirdə:

Səni qarı gördüm, bağrım qan oldu,
Mənim saqqalımın çal vədəsində.
Qəlbimə dəydiyin yadıma düşdü,
Çox dedim, könlümü al vədəsində (26, 80).

Mikayıl Azaflıda:

Başına dolanım, a mehribanım,
Qolunu boynuma sal vədəsində.
Sən olarsan qarı, mən ollam qoca,
Qoy əmim ləblərin bal vədəsində (99, 97).

Mikayıl Azaflının «Vədəsində» qoşması Aşıq Şəmşirin eyni adlı şeirinə nəzirədir. Həm Aşıq Şəmşirin, həm də Mikayıl Azaflının eyni rədif üstündə yaratdıqları qoşmalar əsl sənət nümunələridir. Hər iki şeirdə dünyanın faniliyi, gözəlliyin əbədi olmaması, keçici, ani olması, hər şeyin qeydinə vaxtında qalmaq fikri təbliğ olunmuşdur. Şeirlərin müqayisəsi göstərir ki, Şəmşir və Azaflı təkcə məzmun baxımından yox, həm də forma baxımından eyni poetik motivə və onun formal struktur qəlibinə köklənmişlər.

Aşıq Şəmşir və müasirlərindən danışarkən onların de-

yişmələrinə də xüsusi diqqət yetirmək lazımdır. Şəmşirin müasirlərindən xalq şairi Səməd Vurğun, Aşıq Talıb, Növrəs İman, Həsən Xəyallı, Miskin Vəli, Mikayıl Azaflı kimi dövrünün görkəmli aşıq və el şairləri ilə, həmçinin şairlərdən Məmməd Aslan, Zəlimxan Yaqub, Bəhmən Vətənoğlu ilə də deyişmələri məlumdur. Bu deyişmələr onun bədahətən söz demək qabiliyyətindən, ustad aşıq kimi yaradıcılıq qüdrətindən xəbər verir. Aşıq Şəmşirin öz dediyinə görə, Növrəs İmanla, Aşıq Talıbla çoxlu deyişmələri olmuşdur (60, 298). Təəssüf ki, bu istiqamətdə apardığımız axtarışlar müsbət nəticə vermədi: bu deyişmələrin heç birinə rast gəlmədik. Bununla belə, Aşıq Şəmşirin Göyçə ədəbi mühiti ilə sıx təmasda olması, göyçəli sənətkarlarla deyişmələri, yaradıcılıq əlaqələri Şəmşirin bu mühitdə kifayət qədər yaxşı tanınmasını və sevilməsini söyləməyə əsas verir. Bütün bu münasibətlər onun mühitə, mühitin ona qarşılıqlı təsirini müəyyənləşdirməyə imkan verir.

Aşıq Şəmşirin deyişmələrindən ən məşhuru Səməd Vurğunla deyişməsidir. Bu sənət və yaradıcılıq hadisəsi S.Vurğun 1955-ci ildə Kəlbəcərdə – İstisuda olarkən baş vermişdir. Təsadüfi deyildir ki, böyük sənətkarın Şəmşirə xitabən dediyi:

Aşıq Şəmşir, Dəlidağdan keçəndə
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub, yada sal məni (33, 28)

– bəndi sənətkarlar və xalq arasında indi də çox məşhurdur. Tədqiqatçı Ş.Nəzirli bu barədə özünün «Yada sal məni» adlı

məqaləsində yazır ki, bu deyişmədə S.Vurğun ikinci misranı «Ağır ellər binələrə köçəndə» kimi demişdir. S.Vurğunun əl-yazmasında da belə yazılıb. Lakin sonradan dəyişdirilib «Kəklikli daşlardan xəbər al məni» şəklinə salınmışdır (111, 4).

Aşıq Şəmşir də şairi eyni məhəbbətlə salamlamış və ona olan böyük ehtiramını belə ifadə etmişdir:

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni.
Yanır yolumuzda sənət çırağın,
Bilirik şeirdə bir mayak səni (33, 29).

Göründüyü kimi, aşıq sənətinin pərəstişkarı olan S.Vurğun Aşıq Şəmşirin sazına və sözünə böyük ehtiramla yanaşmışdır. Bu, ilk növbədə S.Vurğunun bir insan və sənətkar kimi pərvəriş tapdığı ədəbi mühitlə bağlı idi. O, sazlı-sözlü Qazaxda doğulub, boya-başa çatmışdı. Mayası sazla-sözlə tutulmuşdu. Təsadüfi deyildir ki, XX əsr Azərbaycan şeirinin inkişafında müstəsna xidməti olan S.Vurğun bütün yaradıcılığı boyu xalq şeirinin – heca poetikasının «vurğunu» olaraq qaldı. O, heca şeirini müasir poetik düşüncənin bütün poetik situasiyalarında sınayaraq ona yeni ömür verdi. Bu cəhətdən, Aşıq Şəmşir S.Vurğun üçün xalq poeziyasını, klassik aşıq ənənələrini təcəssüm etdirən canlı yaddaş idi. Onun Şəmşirə «Yada sal məni» deyə xitab etməsi də bununla bağlıdır: S.Vurğun üçün Şəmşirin «yadına düşmək», əslində, Şəmşir poeziyası vasitəsilə aşıq sənəti və yaradıcılığının əsrləri haqlayan yaddaş tarixinə düşmək demək idi.

Qeyd olunmalıdır ki, Aşıq Şəmşirin digər müasiri, Gədəbəydə yaşayıb-yaratmış Miskin Vəli ilə çoxsaylı deyişmələri məlumdur. Onların heç yerdə çap olunmamış bir qismi də tərəfimizdən əldə olunmuşdur. Bu deyişmələr Şəmşirin Gədəbəydə də çox məşhur olduğunu və sevildiyini söyləməyə əsas verir. Belə ki, aşıq dəfələrlə Gədəbəydə olmuş, şeirlərində də bunu tez-tez xatırlatmışdır. Deyişmələrə nəzər saldıqda görürük ki, hər iki sənətkar bir-birinə çox hörmət bəsləmiş, bir-birinin xatirini əziz tutmuşlar. Bu, onların deyişmələrində zəngin məzmun və formada əks olunmuşdur. Səciyyəvi nümunəyə diqqət edək.

**Miskin Vəli**

Dilimin əzbəri, Şəmşir qardaşım,
Güzar etsən bizə sarı yaxşıdı.
Elim həsrət çəkir səni görməyə,
Məclisimin iftixarı yaxşıdı.

**Aşıq Şəmşir**

Əzizi güyəndan, şirin suxəndan,
Bu məktubun rəhgüzarı yaxşıdı.
Qəlbimin həbibi, dostu mehriban,
El görüşü, dost vüqarı yaxşıdı (75, 107).

Deyişmədən görünür ki, Miskin Vəli Aşıq Şəmşiri Gədəbəy «elinin həsrət çəkdiyi» böyük sənətkar, bu bölgənin «məclislərinin iftixarı» olan el ağsaqqalı kimi vəsf etmişdir. Aşıq Şəmşir də eyni ruhda sənətkarı «qəlbinin həbibi», «dostu mehriban» deyə vəsf etməklə ona olan bu məhəbbətə ehtiram bəslədiyini ifadə etmişdir.

Digər deyişmədə biz bu böyük sənətkarların sənət görüşünün şahidi oluruq:

**Miskin Vəli**
Nə müddətdir həsrətini çəkdiyim,
Gəldi köylüm intizarı görüşdük.
Firqətindən göz yaşımı tökdüyüm,
Oldu mənlə dərdə yarı, görüşdük.

**Aşıq Şəmşir**
Öz qohum, qardaşım, elim, əqrəbam,
Qarşı gəldi Şair Vəli, görüşdük,
Əjdadım Yaqublu, Miskindi babam,
Olduq sazla söz, deməli, görüşdük (98).

Bu deyişmədə hər iki sənətkar arasındakı dostluğun çox munis olması diqqəti çəkir. Ümumiyyətlə, Şərq və Azərbaycan mədəniyyəti tarixində böyük sənətkarların dostluğu tarixi əfsanələrə çevrilmişdir. Məsələn, Mövlana Cəlaləddin Rumi ilə Şəms Təbrizi arasındakı dostluq dillər əzbəri olmuş, tarixi yaddaşlarda öz əksini tapmışdır. Göründüyü kimi, Rumi qəlbən və ruhən Şəmsə bağlandığı kimi, Miskin Vəli də Şəmşirə eyni dostluq hisslərini bəsləmişdir. O, Şəmşirin «həsrətini çəkmiş», «könlü» daim dostunun «intizarında» olmuş, onun «firqətindən göz yaşları tökmüşdür». Aşıq Şəmşirin Gədəbəyə gəlişi Miskin Vəlini hədsiz sevindirmişdir. Ümumiyyətlə, Şəmşir üçün Kəlbəcər kimi Gədəbəy də əziz olmuş, oranı öz eli-obası, insanlarını isə qohum-qardaşları kimi həmişə əziz tutmuşdur. Deyişmənin məzmunundan

görünür ki, hər iki sənətkarın uzun müddətli ayrılıqdan sonrakı görüşləri sazın-sözün görüşü kimi dəyərləndirilmişdir.

Aşıq Şəmşir ustad aşıq Mikayıl Azaflı ilə də sənət və yaradıcılıq ünsiyyəti saxlamışdır. Aşağıdakı deyişmədən məlum olur ki, Mikayıl Azaflı Kəlbəcərə gəlmiş və həmin məclisdə Şəmşir də olmuşdur:

Aşıq Şəmşir:

Yaxın qohum, əziz dostum,
Bizim elə xoş gəlibsən.
Öpüm səni, budur qəsdim,
Gülə-gülə xoş gəlibsən (99, 157).

«Xoş gəlibsən» rədifli gəraylı ilə Mikayıl Azaflını salamlayan Aşıq Şəmşirin, görünür ki, onunla dostluqdan başqa, həm də yaxın qohumluq əlaqələri olmuşdur. Aydın olur ki, Mikayıl Azaflı Kəlbəcər elinə məhz Aşıq Şəmşirin görüşünə gəlmişdir.

Mikayıl Azaflı:

Aşıq Şəmşir, dağlar oğlu,
Köklə sazın zilə gəlsin.
Söz qoşunun alay-alay,
Qatar-qatar ilə gəlsin (99, 157).

Aşıq Şəmşir əvvəlki deyişmələrində olduğu kimi Miskin Abdal nəslinə məxsusluğunu bildirərək Azaflını sənət yarışına çağırmışdır. Onun hər dəfə həm mənəvi, həm də bioloji babası olan Miskin Abdalın adını xatırlatması təsadüfi deyildi. Biz belə fikirləşirik ki, Şəmşir hər dəfə bunu deməklə deyiş-

diyi sənətkara məclisin mənəvi-əxlaqi normalarını ifadə etmişdir. Belə ki, Miskin Abdalın adı çəkilən yerdə deyişmənin mövzusunu ancaq yüksək mənəvi-əxlaqi dəyərlər, ali-bəşəri ideallar təşkil edə bilərdi. Başqa sözlə, Şəmşir Miskin Abdalın adını öz şeirlərində həm də mənəvi paklığın, əxlaqi saflığın, ilahi mərifət dəyərlərinin simvolu kimi vəsf etmişdir.

**Aşıq Şəmşir**

Şəmşirəm, Miskindir babam,
Səni sevir elim, obam.
Gec gəlibsən, sənlə davam,
Çoxdur hələ, xoş gəlibsən.

**Mikayıl Azaflı**

Nə yetmişi, nə səksəni,
İstəyincə yaşa səni.
Azaflının el, vətəni,
Dünya gülə-gülə gəlsin (99, 158-159).

Bundan başqa hər iki sənətkarın təcnis deyişmələri də məlumdur (100, 590-591). «Xüsusi vurğulamaq lazımdır ki, Aşıq Şəmşirin Azaflı Mikayılla aşıq poeziyasının ən çətin və mürəkkəb janrı olan təcnislə deyişməsi aşıq yaradıcılığında az təsadüf edilən hadisədir» (113, 41). Bu da hər iki sənətkarın aşıq poeziyasının digər forma və janrlarında olduğu kimi təcnis sahəsində də istedadlı və daim axtarışda olmalarından xəbər verir.

**Aşıq Şəmşir**

Nə zamandı gəlib həsrəti-didar,

Bu gün qonaq gəlib bu dağ, bu dağa.
Elə bil gül açıb, gəlibdi bahar,
Könül bağçasında budağ-budağa.

**Mikayıl Azaflı**

Aran da yaxşıdı, dağ da yaxşıdı,
Dağ dağa arxadı, aran arana.
Düz, əyri, xeyir-şər vaxtın naxşıdı,
Salar ayrılığı aran-arana (145, 181).

Aşıq Şəmşirin deyişmələri içərisində Səmərqəndlə, Xanımla olan deyişmələri də vardır. «Burada aşıq və məşuqə bir-birinə ötəri hədə-qorxu, hərbə-zorba gəlsələr də, deyişmə çox şən, zarafat və nikbin əhvali-ruhiyyə ilə tamamlanır» (106, 114).

Aşıq Şəmşirin yaradıcılığında müasirləri ilə məktublaşmaları, məktubla deyişmələri də mühüm yer tutur. Belə ki, aşıq dövrünün görkəmli sənətkarları ilə yanaşı, sadə insanlarla da deyişmiş, məktublaşmışdır.

Göründüyü kimi, Aşıq Şəmşir XX əsrin bir çox qüdrətli sənətkarları ilə bir dövrdə yaşamış, onlarla qarşılıqlı sənət və yaradıcılıq əlaqələrində olmuşdur. Şəmşir özünəqədərki klassik aşıq poeziyası ənənələrindən istifadə etdiyi kimi, müasirlərinin də yaradıcılığına, ümumiyyətlə, aşıq sənəti sahəsində baş verən hər hansı yeniliyə qarşı həssas olmuş, öz sənət yoldaşlarının yaradıcılığını izləmiş, onların hər bir sənət uğuruna sevinmiş, eyni zamanda öz yaradıcılığı ilə aşıq mühitinin inkişafında böyük rol oynamışdır.

## 1.3. Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixi

Aşıq Şəmşirin ədəbi irsinin toplanılması və nəşrinə, əsasən, XX əsrin 50-ci illərindən başlanılmışdır. Bu sahədə xeyli təqdirəlayiq işlər görülmüşdür. Sənətkar yaradıcılığa əsrin əvvəllərində başlasa da, əsərlərinin sistemli şəkildə toplanılıb nəşr edilməsinə keçən əsrin 50-ci illərindən sonra güclü təkan verilmişdir. Bu zamana kimi Şəmşir böyük yaradıcılıq yolu keçməsinə baxmayaraq, şeirləri ancaq xalq arasında oxunmuş, aşıqların ifasında yayılmışdır. Onun daha da məşhurlaşmasında, bütün Azərbaycanda tanınmasında xalq şairi Səməd Vurğunla məşhur görüşü böyük rol oynamışdır. S.Vurğun 1955-ci ildə Kəlbəcərdə olduğu zaman aşıqla yaxından tanış olmuş, istedadına heyran qalmış və əsərlərinin nəşr olunmasını məsləhət bilmişdir.

Şəmşirin əsərlərinin sistemli şəkildə toplanılması, nəşri və tədqiqi sovet dövrünə aiddir. Qeyd edək ki, bu zamandan etibarən Şəmşirin atası Ağdabanlı Qurbanın da ədəbi irsinin toplanılıb nəşr olunmasına imkan yarandı. Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixini şərti olaraq iki yerə bölmək olar:

1. Sovet dövründə aparılan nəşr və tədqiq işləri;
2. Müstəqillik dövründə aparılan nəşr və tədqiq işləri.

Qeyd etmək lazımdır ki, həm sovet dövründə, həm də müstəqillik əldə etdiyimiz dövrdən sonra aşığın əsərlərinin nəşri və tədqiqi sahəsində səmərəli işlər görülmüşdür. Aşıq Şəmşir 1938-ci ildə aşıqların II qurultayında iştirak etmiş, bir ildən sonra – 1939-cu ildə ilk dəfə olaraq şeirləri M.H.Təhmasib və S.Məmmədovanın tərtib etdikləri «Aşığın səsi» kitabında nəşr edilmişdir (17). Topluya sənətkarın yeddi

qoşması və bir divanisi daxil edilmişdir. Kitabın sonunda aşıqların həyatı haqqında qısa bioqrafik məlumat verilmişdir. Burada Şəmşirin təvəllüd tarixi haqqında yanlış məlumat getmiş və aşığın 1903-cü ildə Kəlbəcərin Ağdaban kəndində anadan olduğu göstərilmişdir.

1956-cı ildən başlayaraq Şəmşirin şeirləri müxtəlif mətbuat orqanlarında çap olunmuşdur. Əsərlərinin nəşri və öyrənilməsi aşığın sağlığından başlayaraq indiyədək maraqlı bir inkişaf yolu keçmişdir. Aşığa öz sağlığında yaradıcılığını kitab şəklində görmək xoşbəxtliyi qismət olmuşdur. «Şeirlər» adlı ilk kitabı 1959-cu ildə O.Sarıvəllinin tərtibi və redaktorluğu ilə işıq üzü görmüşdur (26). Kitabın tərtibində janr prinsipi gözlənilmiş, şeirlər gəraylı, ustadnamə, qoşma, təcnis, divani, müxəmməs, cığalı müxəmməs və deyişmələr adı altında təsnif olunmuşdur. O.Sarıvəlli tərtibat zamanı Şəmşirin yaradıcılığını diqqətlə nəzərdən keçirmiş, araşdırmış və ilk nəşrə əsasən lirik şeirləri daxil etmişdir. Onun ön söz yazdığı bu kitab geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanmış və bundan sonra aşığın əsərləri ardıcıl olaraq kitab şəklində buraxılmışdır (27; 28; 29; 30; 31; 32; 33; 34).

S.Axundovun tərtib etdiyi Azərbaycan aşıqlarının III qurultayına həsr olunmuş «Aşıqlar» (18), İ.Tapdığın tərtib etdiyi «Aşıqlar» (19), M.Şükürün tərtib etdiyi «Sazım, sözüm» (130), H.Arif və M.Həkimovun tərtib etdikləri «Aşıq şeirindən seçmələr» (20) kitablarına aşığın müxtəlif janrlarda olan şeirləri (qoşma, gəraylı, təcnis, ustadnamə və cinaslı bayatılar) daxil edilmişdir. Şəmşir şeirlərindən seçilmiş nümunələr 1984-cü ildə Ə.Axundovun tərtibliyi ilə çap olunmuş ikicildlik «Azərbaycan aşıqları və el şairləri» kitabının II

cildinə də salınmışdır (36). Burada aşığın həyatı haqqında qısa bioqrafik məlumat verilmiş, bayatıları, qoşma və gəraylıları təqdim olunmuşdur.

Aşığın şeirlərinin çapı zamanı müəyyən nöqsanlara da yol verilmişdir. Məsələn, 1971-ci ildə nəşr olunmuş şeirlər kitabı «Qoşmalar» adlansa da, buraya müəllifin qoşmaları ilə yanaşı, gəraylıları, müxəmməsləri, təcnisləri, ustadnamələri də daxil edilmişdir.

Lakin qeyd olunmalıdır ki, sənətkarın sonrakı illərdə buraxılan kitabları nəşrdən-nəşrə daha da mükəmməlləşmiş, həcmcə genişlənmiş, tərtibat səviyyəsi daha da yüksəlmişdir. Bu baxımdan, 1978-ci ildə işıq üzü görən «Dağ havası» kitabına sənətkarın müxtəlif illərdə yazdığı qoşma, gəraylı, təcnis və bayatıları daxil edilmişdir. Səciyyəvi haldır ki, buraya ilk dəfə olaraq aşığın bir neçə rübaisi də salınmışdır.

Aşığın 1980-ci ildə çap olunan «Şeirlər» kitabında əsərləri qoşmalar, gəraylılar, təcnislər, müxəmməslər, divanilər və cinaslar adı altında təsnif olunmuşdur. Cinaslar başlığı altında kitaba ilk dəfə Şəmşirin cinaslı bayatıları, cinaslı tapmacaları və cinaslı rübailəri daxil edilmişdir.

Aşıq Şəmşir şeirlərinin rus dilinə tərcümə olunması sahəsində də təqdirəlayiq işlər görülmüşdür. Aşıq poeziyasının rus dilinə tərcüməsində müstəsna xidmətləri olan Vladimir Qafarov Aşıq Şəmşirin də bir çox şeirlərini rus dilinə çevirmişdir (161). Kitabda tədqiqatçı Babək Qurbanov Şəmşirin aşıq sənətinin inkişafındakı rolunu belə səciyyələndirmişdir: «Parlaq poetik sətirlərin, emosional mahnıların müəllifi, xalq yaradıcılığı və musiqi folkloru sahələrində ensiklopedik zəkaya malik olan bu şəxsiyyət aşıq sənətinin inkişafında əhəmiy-

yətli rol oynamışdır» (162, 9).

Aşıq Şəmşirin şeirlərinin ingilis dilinə tərcümə olunması da olduqca diqqətəlayiq hadisədir. Belə ki, ingilis dilində nəşr olunmuş «Azərbaycan poeziyası antologiyası» («Azerbaijanian poetry») kitabında Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər kimi görkəmli aşıqların, o cümlədən Aşıq Şəmşirin şeirlərindən seçilmiş nümunələr verilmişdir (167). Burada sənətkarın həyatı haqqında qısa məlumat getmiş, dörd qoşması, bir gəraylısı tərcümə olunaraq ingilis dilli oxuculara təqdim olunmuşdur.

Bundan əlavə, Aşıq Şəmşirin həyat və yaradıcılığını əks etdirən və aşığın özü tərəfindən yaradılmış «Şəmşir və Sənubər» dastanı «Azərbaycan dastanları»nın V cildinə salınmışdır (37).

Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixinin ikinci mərhələsində – müstəqillik dövründə diqqəti cəlb edən hadisələrdən biri Q.Şəmşiroğlu və F.Quliyevin toplayıb tərtib etdikləri «Öyüdlər» kitabının çapı oldu (31). Kitaba aşığın qoşma, gəraylı, təcnis, müxəmməs, divani, bayatı və rübailəri ilə yanaşı, ilk dəfə olaraq iki diltərpənməzi, bir dodaqdəyməz divanisi və bir qəzəli də daxil edilmişdir. Kitabın ən üstün cəhətlərindən biri buraya sənətkarın ilk dəfə olaraq dini şeirlərinin daxil edilməsidir. Bu da Aşıq Şəmşir poetik dünyasının bütöv şəkildə təqdimi baxımından əlamətdardır.

Bu dövrdə Şəmşir irsi ilə bağlı əhəmiyyətli işlərdən biri də sənətkarın ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi şeirlərin ayrıca kitabça halında toplanaraq 1997-ci ildə «Zərli tac kamallı başa yaraşır» adı ilə çap olunmasıdır (32).

2001-ci ildə çap olunmuş «Göyçə dastanları və aşıq rə-

vayətləri» kitabına toplayıcı və tərtibçi H.İsmayılov «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastanını daxil etmişdir (61). Tərtibçi kitabın sonunda dastanı Aşıq Hacı Bayramovdan topladığını qeyd etmişdir. Sonuncu dastanın başqa bir variantı Ə.Əlqəməoğlunun tərtibatı ilə çap olunmuşdur (134). Bu dastanlar Aşıq Şəmşirin dastan yaradıcılığı haqqında əyani təsəvvür yaratdığı kimi, onun sənət və yaradıcılıq yolunun dastanlaşmış (folklorlaşmış) səhifələrini öyrənmək baxımından da xüsusi əhəmiyyət daşıyır.

2005-ci ildə A.Cəmil və M.Nərimanoğlunun tərtib etdikləri «Kəlbəcər dünyası: yüz şairin bir kitabı» adlı antologiyada Aşıq Şəmşirin seçmə şeirlərindən nümunələr verilmişdir (83). Tədqiqatçı A.Cəmil Aşıq Şəmşirin yaradıcılığını yüksək qiymətləndirmiş və haqlı olaraq göstərmişdir ki, Dədə Şəmşir Kəlbəcərdə sonuncu aşıq məktəbinin banisi olaraq yüzlərlə şəyirdini bu sənətə hazırlamış, öz duru, mənalı şeirləri ilə neçə-neçə şairin yetişməsinə təsir göstərmişdir (47, 5).

Aşıq Şəmşir görkəmli aşıq-şair kimi nəinki ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda da tanınmışdır. Bu baxımdan, onun ədəbi irsinin qonşu ölkələrdə nəşri xüsusi maraq doğurur. Bu xüsusda, 2000-ci ildə Türkiyədə Əminə Atalayın tərtibi ilə nəşr olunmuş «Aşık Şemşirin qoşmaları və transkripsiyonu» kitabını qeyd etmək lazımdır (151). Kitabın tərtibatı zamanı müəyyən qüsurlara yol verilmişdir. Belə ki, şeirlərin tərtibi zamanı heç bir düzülüş prinsipi (mövzular, yaxud janrlar və s. üzrə düzülüş) gözlənilməmiş, şeirlər pərakəndə halda verilmişdir. Halbuki sərbəst düzüm prinsipi çağdaş poeziyanın təqdimatı zamanı özünü doğruldursa, aşıq poeziyasının tərti-

bində belə yanaşma özünü doğrultmur. Belə ki, aşıq şeiri – xalq poeziyası klassik ənənələr əsasında yaranır və onun tərtibi zamanı həmin ənənələrin pozulması təqdim olunmuş materialın ənənə ruhunu təhrif edir. Başqa sözlə, Aşıq Şəmşirin poeziyası yarandığı ənənə əsasında verilsəydi, həmin poeziyada əsrlər boyu yaşayan xalq ruhu daha uğurlu təqdim olunardı. Bundan başqa, kitab «Qoşmalar» adlansa da, buraya aşığın həm də gəraylıları, təcnisləri, müxəmməsləri, bayatıları daxil edilmişdir. Daha kobud yanlışlığa isə müqəddimədə yol verilmişdir. Burada Aşıq Şəmşir əvəzinə, Aşıq Hüseyn Şəmkirli haqqında məlumat getmişdir. Bu qüsurlar işin keyfiyyətini azaltsa da, kitab, hər halda, türk oxucularına Aşıq Şəmşir poeziyası ilə təmas imkanı verməsi baxımından faydalıdır.

Bundan başqa, Türkiyədə nəşr olunan iki cildlik «Azerbaycan aşıkları ve halk şairleri» antologiyasının II dində də Şəmşirin seçilmiş əsərlərindən nümunələr verilmişdir (152).

2003-cü ildə Respublika Prezidentinin sərəncamı ilə Aşıq Şəmşir irsinə dərin hörmət və ehtiramın təzahürü kimi, onun anadan olmasının 110 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Bununla əlaqədar müxtəlif konfranslar, tədbirlər keçirilmiş, aşığın 110 illiyinə ərməğan olaraq «O Kürün, Arazın Tərtəriyəm mən» adlı şeirlər kitabı nəfis şəkildə buraxılmışdır (33). Tərtibçisi Q.Şəmşiroğlu, redaktoru M.Aslan olan bu kitab əvvəlki nəşrlərdən keyfiyyətcə xeyli fərqlənməklə, tərtibat və təsnifat, xüsusilə aşığın ədəbi irsinin janrlar üzrə tərtibi və s. baxımından diqqəti cəlb edir.

2009-cu ildə Aşıq Şəmşirin 115 illiyi ilə əlaqədar olaraq şagirdi Aşıq Sakit Köçəri tərəfindən tərtib olunmuş «115 illiyə 115 şeir» adlı şeirlər kitabı nəşr olunmuşdur. Təq-

dirəlayiq haldır ki, ustadın şagirdi tərəfindən hifz olunan şeirləri ilk dəfə burada işıq üzü gördü (25).

Bütün bunlarla bərabər, Şəmşir irsinin toplanılması və nəşrini hələ də tam hesab etmək olmaz. Məlumdur ki, folklor nümunələri, o cümlədən aşıq şeirləri dildən-dilə, ağızdan-ağıza keçir, onların müxtəlif variantları meydana gəlir. Bu, şifahi yaddaşa xas olan folklorlaşma prosesidir. Bu baxımdan, Aşıq Şəmşirin irsi də istisna təşkil etmir. Məsələn, aşığın 1980-ci ildə çap olunan «Şeirlər» kitabında «Gördüm» şeiri dörd bənddən ibarət verildiyi halda, aşığın eyni adlı şeirinin başqa, daha mükəmməl variantını toplamışıq. Bundan əlavə, əvvəldə də qeyd etdiyimiz kimi, Şəmşirin Miskin Vəli ilə yeni deyişmələri də tərəfimizdən əldə olunmuşdur.

Diqqətəlayiqdir ki, Azərbaycan aşıq poeziyasında yaradıcılığı ardıcıl şəkildə öyrənilən ustad sənətkarlardan biri Aşıq Şəmşirdir. Onun çoxcəhətli yaradıcılığı, aşıq sənətində tutduğu mövqeyi O.Sarıvəlli, M.H.Təhmasib, M.İbrahimov, Q.Namazov, S.Paşayev, M.Aslan, M.Rahim, H.Arif, P.Əfəndiyev, M.Həkimov, Ə.Eldarova, A.Cəmil, İ.Tapdıq, Q.Xəlilov, H.Kürdoğlu, H.İsmayılov, M.Allahmanlı və başqalarının diqqət mərkəzində olmuş, haqqında dəyərli elmi, publisistik məqalələr yazılmışdır.

Aşıq Şəmşir irsinin sistemli şəkildə öyrənilməsinə ötən əsrin 60-cı illərindən başlanılmışdır. Bu illərdə aşığın irsinin öyrənilməsi sahəsində səmərəli işlər görülmüşdür. Apardığımız şərti bölgüyə əsasən, bu dövr Şəmşir yaradıcılığının tədqiq tarixinin birinci mərhələsini əhatə edir. Qeyd etməliyik ki, dövrün ideoloji çərçivələri əsasında yazılmış həmin əsərlərdə aşığın yaradıcılığı sovet gerçəkliyi baxımından, sosializm

ideologiyasının tələblərinə uyğun şəkildə təhlil edilmişdir.

Aşıq Şəmşir haqqında ilk dəfə geniş ictimaiyyətə məlumat verən xalq şairi O.Sarıvəlli olmuşdur. Aşıq yaradıcılığı nümunələrinin toplanılması, nəşri, tədqiqi istiqamətində xüsusi xidmətləri olmuş O.Sarıvəllinin Aşıq Şəmşir irsini oxuculara təqdim etməsi onun bu sahədəki fəaliyyətinin bariz nümunəsidir. Şəmşirin fəaliyyətini bir çox yönlərdən təhlilə cəlb etmiş O.Sarıvəllinin 1973-cü ildə nəşr etdirdiyi «Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir» kitabı sənətkar haqqında yazılan ilk tədqiqat kimi diqqətəlayiqdir (128). O.Sarıvəlli tədqiqatda əvvəlcə xalq yaradıcılığının zəngin bir qolu olan aşıq sənəti haqqında dəyərli mülahizələr irəli sürmüş, yaradıcı və ifaçı aşıqların özünəxas keyfiyyətlərindən bəhs etmişdir. O, Aşıq Şəmşirin yaradıcılığının bəzi səciyyəvi cəhətlərini təhlil etmiş, yeri gəldikcə tənqidi fikirlərini də söyləmişdir. Müəllif kitabda Şəmşirin müraciət etdiyi şeir şəkillərindən – qoşma, gəraylı, ustadnamə, təcnis və divanilərindən dönə-dönə bəhs etmiş, öz mülahizələrini söyləmişdir.

O.Sarıvəlli aşığın həyatı haqqında qısa məlumat verdikdən sonra onun yaradıcılığını təhlil etmişdir. O, Şəmşir yaradıcılığını yüksək qiymətləndirib, tarixi varislik prinsiplərinə diqqət yetirərək yazmışdır: «Aşıq Şəmşir hələ gəncliyində məşhur Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Qurban kimi ustad aşıqların – yaradıcı aşıqların əsərləri ruhunda, Göyçə, Kəlbəcər aşıq məktəbi ruhunda tərbiyə almış, yetişmişdir» (128, 6). Müəllif aşığın yaşadığı dövrü, həyatı sənətkarın şeirləri əsasında təhlil etmişdir. Aşığın yaradıcılığının mövzusuna gəlincə, onların müxtəlif mövzulara həsr olunduğunu, xüsusilə ictimai-siyasi, vətənpərvərlik, təbiət, məhəbbət mövzulu ol-

duğunu qeyd etmiş, məzmun və ideya xüsusiyyətlərini aydınlaşdırmışdır. O.Sarıvəlli Şəmşir yaradıcılığının janr xüsusiyyətlərindən danışarkən sənətkarın şeirlərinin daha çox qoşma, gəraylı janrında olduğunu diqqətə çəkmişdir. Aşıq Şəmşirin əsərlərinin çoxunun ustadnamə tərzində olduğunu söyləyən şair-tədqiqatçı onların, əsasən, həyatı və hadisələri düzgün dərk etməyə, xeyirxah işə, mərdliyə, sədaqətə çağıran əsərlər olduğunu nəzərə çatdırmışdır. Bu mənada, Şəmşirin «Yaxşıdır», «Olmaz», «Eylər» kimi ustadnamələri də klassik ustadnamələr ənənəsi ruhunda yaradılmışdır. Aşıq Şəmşirin öz yaradıcılığında satirik-yumoristik və tənqidi şeirlərə də yer verdiyindən danışan müəllif qeyd edir ki, mövzularından asılı olaraq bu şeirlərin hər birində şairin ifadə vasitələri dəyişir, «bəzi şeirlərin dili nisbətən mülayim, yumşaq, həlim olduğu halda, bəzi şeirlərin də dili kəskin və «acıdır» (128, 15-16). O.Sarıvəlli aşıq poeziyasında az təsadüf olunan və Şəmşir yaradıcılığı üçün səciyyəvi olan qoşayarpaq formalı şeirlərə də münasibət bildirmiş, nümunələr verib təhlil etmişdir. Şəmşirin poetik aləminə enən tədqiqatçı, eyni zamanda, onun əsərlərinin dili üzərində xüsusi dayanmış və aşığın şeir dilinin çox sadə, təbii, bədii olduğunu, şeirlərinin lüğət tərkibini canlı xalq dili, folklordan, klassik aşıq şeirindən, qismən də yazılı ədəbiyyatdan gələn sözlərin təşkil etdiyini misallarla əsaslandırmışdır. Müəllif bundan əlavə, Aşıq Şəmşir haqqında müxtəlif məcmuələrdə dəyərli məqalələrlə çıxış etmişdir (126; 129).

Aşıq poeziyasının toplanılması, nəşri və tədqiqində xüsusi xidmətləri olan folklorşünas alim M.H.Təhmasib də Şəmşir yaradıcılığını yüksək qiymətləndirmişdir. Onun «Özü

də Şəmşir, sözü də Şəmşir» (138), «El sənətkarı» (139), «Qocaman nəğməkar» (140) kimi məqalələri Şəmşir irsinə olan marağın nəticəsi kimi meydana gəlmişdir. M.H.Təhmasib «Özü də Şəmşir, sözü də Şəmşir» məqaləsində əvvəlcə aşıq sənəti haqqında ümumi məlumat vermiş, öz zəmanəsinin görkəmli nümayəndələrindən hesab olunan Ağdabanlı Qurbanın yaradıcılığına ötəri də olsa toxunmuş, daha sonra Aşıq Şəmşir haqqında fikir və mülahizələrini irəli sürmüşdür. Müəllif aşığı yetişdirən mühitin ümumi təsvirini vermiş, onun Miskin Abdal şəcərəsinə mənsub olmasını, ustadının atası Ağdabanlı Qurban və Aşıq Ələsgər olduğunu qeyd etmişdir. Bu faktın özü də ustad-şagird ənənəsini öyrənmək baxımından əhəmiyyətlidir. Aşıq yaradıcılığı üçün poetik ənənəni vacib şərt sayan, aşığın yetişməsinin real əsasını ənənəvi keçmişdə axtaran müəllifin doğru olaraq qeyd etdiyi kimi, Şəmşir zəngin şifahi ədəbiyyat xəzinəsindən, dastanlarımızdan, yazılı ədəbiyyatımızdan, həmçinin klassik şairlərimizdən, ustad aşıqlarımızdan yaradıcı şəkildə bəhrələnmişdir. Tədqiqatçı Şəmşirlə yanaşı, Aşıq Ələsgər, Ağdabanlı Qurban, Aşıq Bəsti kimi sənətkarların bədii irsindən maraqlı paralellər gətirməklə belə bir fikri sübut etməyə çalışır ki, həyata açıqgözlü münasibət, zəmanədən, onun hakim qüvvələrindən, qayda-qanunlarından narazılıq bu sənətkarları birləşdirmişdir.

Şəmşirin ustad aşıq kimi şöhrətlənməsində təcnislərinin də rolunu xüsusilə vurğulayan tədqiqatçı göstərmişdir ki, Şəmşir təcnis yaradıcılığında da nümunədən-nümunəyə bişən, püxtələşən şairlərdəndir (138, 178). Şəmşirin ustadnamələrini görkəmli sənətkarların ustadnamələri ilə bir cərgədə durmağa layiq bilən alim bu xüsusda yazmışdır: «Şəmşirin

ustadnamələri də diqqətəlayiqdir. …Aşıq ədəbiyyatı tariximizdə ustadnamə yaradacaq dərəcədə biliyə, istedada malik cəmi bir neçə sənətkar olmuşdur ki, onların da hikmətamiz şeirlərini aşıqlar dastanların əvvəllərində deyə-deyə zəmanəmizə qədər yaşadıb gətirmişlər. Şəmşirin bir neçə şeiri belə ustadnamə cərgəsində dayanmağa layiq əsərlərdəndir» (138, 179). Müəllif Şəmşirin aşıq poeziyası ənənələrindən bəhrələnməklə yanaşı, novator sənətkar olduğunu da xüsusi vurğulayaraq göstərmişdir ki, onun ən yaxşı cəhətlərindən biri aşıq yaradıcılığına yeni tənqidi şeir gətirməsindən ibarətdir: «Aşıqlarda bir-birinə həcv demək, hətta deyişmə zamanı kobudluğa yol vermək halları az olmamışdır. Şəmşir isə bu barədə çox fərqlənir. Onun müxtəlif münasibətlərlə yazdığı tənqidi şeirlər belə həcvlərdən çox yüksəkdə dayanır. «Çətindi», «Alçaq», «Qaldı», «Zorən-təbib» və başqa bu kimi onlarca qoşma, doğrudan da, aşıq şeirində yeni əsərlərdir» (138, 179).

Folklorşünas Ə.Axundov «Azərbaycan sovet aşıq yaradıcılığına dair» məqaləsində Çoban Əfqan, Növrəs İman, Aşıq Bilal, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Nəcəf kimi ustad aşıqlarla bərabər Aşıq Şəmşirin də adını çəkmiş, haqqında qısa məlumat xarakterli oçerk vermişdir (6, 52-76).

Görkəmli alim, akademik M.İbrahimov «Aşıq poeziyasında realizm» məqaləsində Aşıq Şəmşirdən ətraflı bəhs etmişdir (73, 165-187). Bir çox sələfləri kimi Aşıq Şəmşirin də yaradıcılığında ictimai motivlərin üstünlük təşkil etdiyini göstərən müəllif sələflərindən fərqli olaraq, Şəmşir şeirlərində ictimai mübarizə motivlərinin humanist fikirlər və arzularla

birləşdiyini qeyd edir. Aşıq Şəmşirin ustadnamələrinin tamamilə yeni ruhda olduğunu göstərən müəllifin fikrincə, onlarda ənənəvi dini hikmətlər insanların gündəlik həyatında və məişətində böyük əhəmiyyəti olan dünyəvi hikmətlərlə əvəz edilmişdir. O, aşığın şeirlərindən maraqlı nümunələr gətirməklə belə bir fikri nəzərə çatdırır ki, bu ustadnamələrdə insan həyatı üçün çox ibrətamiz, mənalı fikirlər söylənilir. Tədqiqatçı göstərmişdir ki, Aşıq Şəmşirin yaradıcılığında xalq ruhunun, xalq mənəviyyatının bir cəhətinə rast gəlinir ki, bu da həzin kinayə, mənalı zarafat və şux təbəssümdür. Bu cür duyğuların «Koroğlu» dastanındakı «Var» rədifli gəraylıda, Aşıq Ələsgərin «Birə» və «Pişik» müxəmməsində əks olunduğunu söyləyən alim, Şəmşirin də bu gözəl ənənəni uğurla davam etdirdiyini vurğulamışdır (73, 180). Şəmşir haqqında olan bu mülahizələr sonradan alimin «Aşıq poeziyasında realizm» kitabında da öz əksini tapmışdır (74, 62-68).

Prof. Q.Namazov da Aşıq Şəmşir poeziyasının bəzi səciyyəvi cəhətlərini «Azərbaycan aşıq şeirinin inkişaf tarixindən (sovet dövrü)» namizədlik dissertasiyasında təhlil etmişdir (104). Sonradan müəllifin aşığın yaradıcılığı haqqında nəzəri fikir və mülahizələri digər kitablarında da öz əksini tapmışdır (105, 106, 107).

Folklorşünas S.Paşayevin «Ağdabanlı Qurban və müasirləri» mövzusunda yazdığı namizədlik dissertasiyasının IV fəslində Şəmşir yaradıcılığının müəyyən cəhətləri öz əksini tapmışdır (114). «Ağdabanlı Qurbanın müasirləri» adlanan fəsildə Qurbanın Aşıq Bəsti, Usta Abdulla, Növrəs İman və Aşıq Şəmşir kimi müasirlərinin adı çəkilmiş, onların

yaradıcılığından bəzi məqamlara toxunulmuş, Ağdabanlı Qurbanın onlara təsiri məsələsi də qabardılmışdır. Müəllif Şəmşirin də atası Ağdabanlı Qurban kimi öz yaradıcılığında həm şifahi, həm də yazılı ədəbiyyat ənənələrindən bəhrələndiyini önə çəkmişdir. S.Paşayev göstərir ki, aşıq çox-saylı qoşma, gəraylı, təcnis, divani və müxəmməslərində bir tərəfdən öz yaradıcılığını orijinal şəkildə nümayiş etdirirsə, digər tərəfdən ənənəyə sadiq qaldığını təzahür etdirir. Şəmşir şeirlərinin əsasında xalq müdrikliyini ifadə edən hikmətli söz-lərin dayandığını göstərən tədqiqatçı bunu konkret misallarla əsaslandırmışdır. Müəllif Aşıq Şəmşiri onlarla klassik dastanı, yetmişdən çox saz havasını bilən və məharətlə ifa edən aşıq kimi yüksək qiymətləndirmişdir.

Son nəşrlərdən biri də alimin «Aşıq Şəmşirin poetik alə-minə səyahət» adlı əsəridir (119). Kitab «Aşıq Şəmşir və dağ-lar», «Aşıq Şəmşir və Səməd Vurğun», «Aşıq Şəmşirin sə-ləfləri və xələfləri», «Aşıq Şəmşirin poetik aləminə səyahət» adlı dörd bölümdən ibarətdir. Bundan başqa, tədqiqatçının Aşıq Şəmşir haqqında müxtəlif mətbuat orqanlarında publisistik xarakterli məqalələri də işıq üzü görmüşdür (117).

Şair-publisist M.Aslanın Aşıq Şəmşirin ömür və yara-dıcılıq yoluna həsr etdiyi «Saxla izimi, dünya» kitabı aşığın həyatına dair maraqlı faktlar baxımından diqqəti cəlb edir (16). «Qartal düşüncəli, şair xəyallı», «Deyişməli-didişməli Şəmşir meydanı», «O Kürün, Arazın Tərtəriyəm mən», «Aşıq Şəmşirlə bağlı təbəssümlər, əhvalatlar», «Bu toylu-düyünlü, matəmli dünya» kimi bölümlərdən ibarət olan bu kitab Şəmşirin həyat və yaradıcılığının qaranlıq qalan tərəflərini öy-rənmək baxımından əhəmiyyətlidir. Burada aşığın həyatına

doğumundan ölümünə kimi nəzər salınmış, sənət meydanında göstərdiyi hünərlər, deyişmələr, xalq şairi S.Vurğunla görüşü bütün təfərrüatı ilə öz əksini tapmışdır. Bundan başqa, M.Aslan Aşıq Şəmşir haqqında çoxsaylı elmi-publisistik məqalələrin müəllifidir (13; 14; 15; 160).

Tədqiqatçı-şair H.Kürdoğlu da Aşıq Şəmşirin həyatı və yaradıcılığı haqqında maraqlı məqalələr yazmışdır (84; 85). Müəllif «Dağlar nalə çəkib Şəmşirsiz ağlar» adlı məqaləsində Miskin Abdal nəslinin zəmanəmizdə yazıb-yaradan görkəmli nümayəndəsi Aşıq Şəmşirin bilavasitə aşıq şeiri tarixində adları həmişə əziz tutulan Miskin Abdal, Dədə Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Şəmkirli Hüseyn, Molla Cümə, Dədə Ələsgər, Ağdabanlı Qurban kimi sənətkarların layiqli varisi olduğunu göstərmişdir. Müəllif yazır ki, Miskin Abdaldan üzü bəri bütün görkəmli sənətkarların yaradıcılığında «dağ» motivi aparıcı mövqe tutmuş, Şəmşir də sələfləri kimi sinəsinə saz, əlinə qələm aldığı gündən dağları, başqa sözlə, vətən gözəlliyini layiqincə vəsf etmişdir. Müəllif aşığın bir neçə şeirini təhlilə cəlb etmiş, onların dərin poetik məzmununu açmağa cəhd göstərmişdir:

«Qubarlanır qoca könül,
Xəzəl vaxtı qar gələndə.
Bir payız qəm dustağıyam,
Bir də ilk bahar gələndə.

İki bacı – payızla yaz,
Birində qəm, birində naz.
Dünyamı böyüdür bu saz,

Dünya mənə dar gələndə.

Bu ikicə bənddə şair-aşığın daxili dünyası açılır, sanki «bir mən vardır məndə məndən içəri» deyən türk dahisi Yunis İmrənin əsrlərin ardından gələn səsi şəfəq saçır, sənətkarın iç aləmini bizə göstərir» (85, 2). Bundan başqa, aşığın dini şeirlərinə də toxunan müəllif göstərir ki, Şəmşirin yaradıcılığında Allaha, onun rəsulu Məhəmməd peyğəmbərə (s.) məhəbbət və istək dönə-dönə təkrarlanır, bu yolda insanları din-imana çağırır.

Folklorşünas alim P.Əfəndiyev «Azərbaycan şifahi xalq ədəbiyyatı» dərsliyində bir sıra ustad aşıqlarla yanaşı Aşıq Şəmşir yaradıcılığına da yer ayırmış, həyatı və poeziyası haqqında qısa məlumat vermişdir (56, 459-462).

Yazıçı-publisist M.Nərimanoğlu Aşıq Şəmşirin həyat yoluna və yaxın şəcərəsinə həsr etdiyi «Dədə ocağı» kitabında müharibənin törətdiyi dəhşətlərin ümumi mənzərəsini vermiş, 1993-cü ildə Kəlbəcərin işğalı zamanı baş verən faciələri və bunların ən böyüyü kimi Aşıq Şəmşirin qiymətli əlyazmalarının yandırılması haqqında danışmış, Dədə Şəmşir ocağının faciəsini ümumiləşdirilmiş halda göstərmişdir (110).

Aşıq Şəmşirin yaradıcılığı haqqında dəyərli mənbə kimi mərhum prof. M.Həkimovun aşığın yubileyi münasibətilə nəşr etdirdiyi «Haqq aşığı Dədə Şəmşir» kitabı ciddi əhəmiyyətə malikdir (67). Kitabın əsas elmi dəyəri ondadır ki, müəllif birbaşa Şəmşir şeirlərinin poetik-semantik mahiyyətinə əsaslanaraq öz nəzəri mülahizələrini irəli sürmüşdür. Əsərdə Şəmşir yaradıcılığının  əsas ideya-bədii xüsusiyyətləri təqdim olunmuşdur. Üç bölümdən ibarət olan bu kitabın I bölümündə

Şəmşirin həyatı, dövrü, atası Ağdabanlı Qurban, şəcərəsi, yaxın ətrafı haqqında, həmçinin xalq şairi S.Vurğunla görüşü barədə geniş məlumat verilmişdir. «Aşıq Şəmşirin lirikası» adlanan II bölümdə aşığın yaradıcılığında ictimai-siyasi motivlər, məhəbbət lirikası, təbiətin tərənnümü, divani sənətkarlığı, dini dünyagörüşü, dastan yaradıcılığı və s. təhlil edilmişdir. III bölümdə isə Aşıq Şəmşirin müraciət etdiyi şeir şəkilləri və onların quruluşu misallar əsasında təhlil olunmuşdur. Yeri gəlmişkən qeyd etmək istəyirik ki, mərhum alimin Şəmşiri haqq aşığı adlandırması burada məcazi mənadadır. Aşıq sənəti tarixində haqq vergisi – buta alanlar haqq aşiqi (aşığı) hesab olunmuşlar. Folklorumuzda, aşıq poeziyası tarixində Aşıq Şəmşirin buta alması faktına rast gəlmədik. XX əsrdə görkəmli, ustad sənətkarların bəzən məcazi olaraq «haqq aşığı», «dədə aşıq» adlandırılması məlumdur. Çox güman ki, tədqiqatçı da Şəmşir sənətinin ucalığını ifadə etmək üçün bu tituldan istifadə etmişdir. Ümumiyyətlə isə bu əsər Şəmşir yaradıcılığının səciyyəvi cəhətlərini üzə çıxarmaq baxımından dəyərlidir.

Yubiley nəşrləri sırasında folklorşünas alim H.İsmayılovun «Dədəlik mərtəbəsinə ucalan sənətkar» adlı məqaləsi maraqlı yazılardan biri kimi xüsusi əhəmiyyət kəsb edir (81, 58-62). Məqalənin əsas elmi məziyyəti ondan ibarətdir ki, alim yeni olmayan bu mövzuya tamamilə yeni mövqedən yanaşaraq onu orijinal şəkildə şərh etmişdir. Burada aşığın şeirləri dövrlə, mənsub olduğu ədəbi mühitlə əlaqəli kontekstdə nəzərdən keçirilmişdir. Şəmşirin bütün yaradıcılığı ilə ənənəyə bağlı olduğunu, buradan qaynaqlandığını göstərən müəllif bu barədə «Aşıq Şəmşir poeziyasında mərifət, nəsihət, ibrət mövzularının

genişliyi, ilahi eşq, məhəbbət, gözəllik axtarışı onun yaradıcılığında aşiqliyin ideya əsaslarının, ənənənin tam gücü ilə qorunduğundan xəbər verir» mülahizəsini irəli sürmüş və sənətkarın ənənədən bəhrələndiyini, yaradıcılığında çox böyük rola malik olduğunu elmi arqumentlərlə əsaslandırmışdır (81, 59). Məqalənin əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, alim ilk dəfə olaraq Şəmşir yaradıcılığının sufi mahiyyətindən söz açmışdır. Aşıq sənətinin ideya baxımından sufizmlə sıx bağlı olduğunu, bu mənada Şəmşir yaradıcılığının da ondan yan keçmədiyini vurğulayan müəllif yazır: «Onun poeziyasında sufi ideya tam açıq ifadə olunmasa da, şeirlərinin ruhunda, əsərlərinin didaktik, mənəvi-əxlaqi, estetik yönümündə, insanlara ünvanlanan çağırışlarında əksini tapmaqdadır» (81, 60). O, sənətkarın:

«Əhli-ürfan məclisində kinayə söz atma sən!
El xatirin əziz saxla, dost arasın qatma sən!
Dür mətahın varsa əgər, hər yetənə satma sən!
Qiymətini bilən sərraf, həm xiridar olmasa!» –

bəndini təhlil edərək yazır: «Dədə Şəmşir bu mənada arif, ürfan sahibi, «Əhli-ürfan məclisi»ndə ali məqam yiyəsidir. O, insanlara bu məclisdən «söz anlamağa», davranışlarında əxlaq və mənəviyyat kriteriyalarını əsas götürməyə çağırır» (81, 59). Alim Şəmşir irsini öyrənməyin xalqımızın gələcək nəsillərinin mənəvi-əxlaqi dəyərlər üzərində tərbiyəsində, onlarda yüksək estetik zövqün formalaşmasında, dünya-insan münasibətlərini düzgün dərk etməkdə dəyərli mənbə olması ilə böyük əhəmiyyət kəsb etdiyini göstərir. Qeyd etmək

lazımdır ki, H.İsmayılovun bu məqaləsi Aşıq Şəmşir yaradıcılığının tədqiqində atılan müvəffəqiyyətli addım kimi əhəmiyyətlidir.

Yubiley nəşrləri içərisində folklorşünas M.Allahmanlının «Dədə Şəmşir, yaxud yüz on ilin dedikləri» məqaləsini də qeyd etmək lazımdır (8, 92-97). Müəllif aşığın həyat və yaradıcılığına doğumundan ölümünə kimi qısa bir «ekskurs» təşkil etmiş, haqlı olaraq göstərmişdir ki, onun şeirlərini iki istiqamətdə – klassik aşıq poeziyası Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Alı, Aşıq Ələsgər yaradıcılığı istiqamətində və xalq şeiri üslubunda yazan Vaqif, Vidadi, Səməd Vurğun yaradıcılığı istiqamətində araşdırmaq zərurəti var (8, 94).

Aşığın oğlu yazıçı-publisist Q.Şəmşiroğlunun toplayıb nəşr etdirdiyi «Dədə Şəmşir yaddaşlarda» toplusunda müxtəlif mətbuat orqanlarında bu qüdrətli sənətkar haqqında görkəmli alimlərin, ziyalıların yazdığı məqalələri, ona həsr olunmuş şeirləri, xatirələri və s. toplanmışdır (51). Kitabda həmçinin Şəmşirin müxtəlif vaxtlarda çap olunmuş məqalələri, şeirləri də öz əksini tapmışdır. Kitabın redaktoru və ön sözün müəllifi F.Ramazanoğlu onu aşıq sənətinin qüdrətli nümayəndəsi kimi belə təqdim etmişdir: «Yüzlərlə qoşmanın, gəraylının, bayatının, təcnisin, divaninin, müxəmməsin və s. müəllifi olan ustad sənətkarın poeziyasını Azərbaycanın təbii xalçası da adlandırmaq olar. Demək olar ki, Dədə Şəmşir bu xalçaya sözlərlə elə naxışlar, elə rənglər vurub ki, onun şeirləri ilə tanış olanda ilk baxışdan adamın gözləri sevinir, könlünə bir rahatlıq gəlir» (123, 3).

Aşığın yubileyinə ən gözəl töhfələrdən biri kimi Q.Şəm-

şiroğlunun «Axtarıb Şəmşiri görmək istəsən...» xatirələr toplusunu da qeyd etmək lazımdır (135). Kitabda Şəmşirlə bağlı xatirələr xüsusilə maraq doğurur. Burada müəllif atası ilə bağlı əhvalatları, vaxtilə onun dilindən eşitdiyi, həmçinin özünün iştirakı ilə baş verən hadisələri qələmə almışdır. Burada da öz əsasını həyatda baş vermiş hadisələrdən götürmüş əhvalatlar təşkil edir.

Bundan əlavə, digər ziyalılar da elmi, publisistik məqalələrində görkəmli aşığın yaradıcılığının bəzi səciyyəvi xüsusiyyətlərindən bəhs etmişlər (132; 11; 122; 96; 136; 12; 71; 94; 62; 45; 72[a]; 144; 38; 118; 125). Qeyd etmək lazımdır ki, bu məqalələr təqdimat səciyyəli olub, aşığın həyat və yaradıcılığına ötəri baxışdan irəli getmir.

Aşıq Şəmşir ədəbi irsinin tədqiqat tarixi göstərir ki, o, maraqlı və keşməkeşli yaradıcılıq yolu keçmiş, poeziyamızı ecazkar sənət inciləri ilə zənginləşdirmiş ustad aşıq-şairlərdən biri olmuşdur. Aparılmış tədqiqatlar sənətkarın dövrü, yaradıcılığı ilə bağlı nəzəri-praktik baza təşkil etməklə, Şəmşir yaradıcılığını monoqrafik planda araşdırmaq üçün ciddi əsaslar verir.

# II FƏSİL

# AŞIQ ŞƏMŞİRİN LİRİKASI

Aşıq Şəmşir uzun yaradıcılıq yolu keçmiş və zəngin poetik irs yaratmışdır. Onun yaradıcılığı mövzu və məzmun baxımından çox zəngindir. Bu zənginlik onun poetik irsini mövzu baxımından müxtəlif kontekstdə öyrənməyə imkan verir. Dünyanın gerçəkliklərini bədii gözəlliyə çevirmiş sənətkarın lirikasını ən müxtəlif mövzular baxımından tədqiq edərək, aşağıdakı istiqamətlərdə öyrənməyi məqsədəuyğun hesab edirik:

1. Sənətkarın lirikası və poetik ənənə;
2. İctimai lirika;
3. Məhəbbət lirikası;
4. Təbiət lirikası;
5. Əxlaqi-didaktik şeirlər;
6. Sənətkarın lirikasında dini motivlər.

Bu istiqamətlər sənətkarın yaradıcılığını mövzu baxımından əhatə edən ən iri və ümumiləşdirici yönlərdir.

## 2.1. Sənətkarın lirikası və poetik ənənə

Aşıq Şəmşir yaradıcılığının nəzərdən keçirilməsi göstərir ki, o, çoxəsrlik tarixə malik aşıq şeiri ənənələrini öz yaradıcılığında yaşatmağa və inkişaf etdirməyə nail olmuşdur. Sənətkar həmin ənənələri yaşatmaqla bərabər, eyni zamanda aşıq sənətinin ənənə yaddaşının qorunması funksiyasını da yerinə yetirmişdir. Aşıq Şəmşir öz yaradıcılığında poetik ənənəyə sadiq qalmaqla, aşıq poeziyasının ənənəvi mövzu

«fondu»nu yeni çalarlarla, təzə-tər nəfəslərlə zənginləşdirmişdir. Onun yaradıcılığında ənənə və novatorluq əlahiddə hadisələr kimi yox, üzvi poetik qovuşmada gerçəkləşmişdir.

Sənətkarın yaradıcılığı sovet dövrünə təsadüf etsə də, məlum dövrün gerçəklikləri, sosializm reallığı onun yaradıcılığından, demək olar ki, yan keçmişdir. «Dədə Şəmşirin yaşayıb-yaratdığı zamanın öz sələflərinin dövründən fərqli ictimai-siyasi reallığı onun yaradıcılığının etnik-milli və ədəbi ənənənin üzərində qurulmasına mane ola bilməmişdir» (81, 62). Kəlbəcər ədəbi mühitinin tədqiqatçısı İ.Məmmədli Şəmşir yaradıcılığında bu cəhəti nəzərə alaraq yazır: «Əgər XIX yüzillikdə Aşıq Ələsgər bütöv bir aşıq məktəbi yaradıb, bu sənətə yeni nəfəs gətirərək, onun nüfuzunu, dəyərini birə-on qat artırıbsa, cəsarətlə demək olar ki, XX yüzillikdə bu xalq sənətinin sovet ideoloji sisteminin bir detalına, mexanizminə çevrilib öz həqiqi missiyasını itirməkdən qoruyan simalardan biri, bəlkə də, birincisi Aşıq Şəmşir olub» (93, 106). Aşıq Şəmşir öz yaradıcılığında zamanın tələbindən doğan «məcburi mövzulara» demək olar ki, təsadüfdən-təsadüfə müraciət etmişdir. Ümumilikdə isə bütün poeziyasının ruhu ilə klassik ənənəyə sıx bağlı olmuş və buradan qaynaqlanmışdır. Şəmşir yaradıcılığını bu cəhətdən nəzərdən keçirib, kökləndiyi poetik ənənə kontekstində araşdırdıqda onun poeziyasının real bədii məğzi üzə çıxmış olur.

Aşığın yaradıcılığı klassik xalq poeziyası ənənələrinin təməli üzərində ucalmışdır. «Şəmşirin şeirlərində klassik aşıq şeirinin, qəhrəmanlıq və aşiqanə dastanlarımızın, xüsusən «Əsli və Kərəm», «Koroğlu» dastanlarının, Tifarqanlı Abbas,

Xəstə Qasım, Miskin Abdal şeirlərinin, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Qurban yaradıcılığının, eləcə də şairlərdən M.P.Vaqif əsərlərinin xeyirxah təsiri duyulur» (128, 29). Aşıq poeziyası ənənələri əbədi və ölməzdir. Təsadüfi deyildir ki, Miskin Abdal, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Alı, Ələsgər ənənələri özlərindən sonrakı aşıqların yaradıcılığına qüvvətli təsir göstərmiş, aşıq sənətində yeni-yeni sənətkarların yetişməsinə şərait yaratmışdır. Onların əsərləri həmişəyaşarlığı, bəşəriliyi, ölməz ideyaları, sənətkarlığı etibarı ilə mühüm əhəmiyyətə malik olmuş, aşıq sənətinin daha qüvvətli inkişafı üçün zəmin olmuşdur.

Şəmşir Azərbaycan aşıq sənətində ölməz və əbədi ənənələri olan bir poeziyanın XX əsrdəki davamçısıdır. Onun yaradıcılığının həm klassik, həm də müasiri olduğu poeziya ənənələri ilə sıx bağlı olması poetik irsinin əhəmiyyətini daha da artırmışdır. Bu bağlılıq Şəmşir sənətini yaşadan başlıca cəhətlərdən biridir. Cəsarətlə demək olar ki, Aşıq Şəmşir klassik ənənədən bəhrələnən, bu poeziyanın bədii fikir istiqamətindən qidalanaraq özünəməxsus əsərlər yaradan aşıq-şair olmuşdur. O, klassiklərin, korifey sənətkarların dərin məzmunlu əsərlərindən bəhrələnmiş, öz yaradıcılığında bu zəngin ənənəni məharətlə davam və inkişaf etdirmişdir. Şəmşir yaradıcılığında ənənənin güclü təsiri özünü iki istiqamətdə göstərmişdir:

1. Klassik xalq poeziyasının mövzu, məzmun ənənələrindən istifadə;

2. Klassik xalq poeziyasının formal ənənələrindən (qafiyə sistemi, dil sənətkarlığı və s.) istifadə.

Şəmşirin xalq poeziyası ənənələrindən istifadə və bəh-

rələnmə üsulları müxtəlifdir. O, bəzən sələflərinin əsərlərinin ideya, mövzu və bədii təsvir vasitələrindən sənətkarlıqla bəhrələnmiş, bəzi hallarda isə poetik ənənəyə ümumi-bədii axarda qoşulmuşdur.

Klassik aşıq poeziyası ənənələri Şəmşir yaradıcılığında yeni bir ahəng, orijinal boyalar kəsb etmişdir. Sənətkarla onun sələfləri arasında olan əlaqələr, bağlılıqlar müxtəlif şəkillərdə təzahür etmişdir. O, yaradıcılıq axtarışları və nailiyyətləri ilə sələflərinin ədəbi ənənələrini yeni istiqamətdə inkişaf etdirmişdir. Bu baxımdan, aşığın yaradıcılığının mövzu dairəsinin genişlənməsində ənənənin olduqca böyük təsiri olmuşdur. Lakin bütün hallarda özünəqədərki ənənənin təqlidçisi olmayıb, ona yaradıcı yanaşmışdır.

Sənətkarın əsərlərinin diqqətlə nəzərdən keçirilməsi göstərir ki, onun yaradıcılığında çoxəsrlik tarixə malik aşıq şeiri ənənələri ilə yanaşı, klassik poeziya ənənələri də özünü göstərir. Təsadüfi deyildir ki, Şəmşirin şeirlərində Xosrov, Şirin, Fərhad, Leyli, Məcnun, Yusif, Züleyxa kimi obrazlardan istifadə etməsi aşığın klassik ənənəyə bağlı olduğunu bir daha təsdiqləyir. O, böyük Füzulinin:

İldə bir qurban kəsərlər xəlqi-aləm eyd üçün,
Dəmbədəm, saətbəsaət mən sənin qurbanınam –

beytindən məhəbbət mövzulu əsərlərində uğurla istifadə etmişdir:

Şəmşir kəsər quzu sənə qurbanı,
O qamətə, gözəl cana qurbanı.

İldə bir yol olur Mina qurbanı,
Mən gündə qurbanın olum, olarmı? (33, 59)

Füzuli:

Əzizinəm, gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar,
Sənə qurban gündə mən –

bayatısından, Şəmşir isə Füzulidən ilhamlanmışdır. Folklorşünas M.H.Təhmasib qeyd edir ki, Füzuli bu beyti bir xalq bayatısından ilhamlanaraq yazmışdır. Şəmşir isə onu alıb aşıq ədəbiyyatına qaytarmışdır (138, 176).

Aşıq Şəmşirin poeziya ənənələrinə sadiq qaldığı korifey sənətkarlardan danışanda ilk növbədə XVI əsrin məşhur övliyası, haqq aşığı Miskin Abdal yada düşür. Miskin Abdal şəcərəsinə mənsub olan Aşıq Şəmşir bu ocağın ənənələrini ömrü boyu yaşatmış, əsərlərində də bunu dönə-dönə xatırlatmışdır:

Əlidi ağam mənim,
Dərsim əlif-lam mənim.
Atam Aşıq Qurvandı,
Misgindi babam mənim (61, 649).

Burada Şəmşir Həzrət Əliyə (ə.) işarə etmiş, «əlif-lam» dedikdə Allahı nəzərdə tutmuş, Onun müqəddəs kitabı «Qurani-Kərim»dən dərs aldığını, atasının Aşıq Qurban, babasının isə Miskin Abdal olduğunu vurğulamış, bununla da

Göyçə aşıq mühitinə mənsub olduğunu və buradan qaynaqlandığını bir daha bəyan etmişdir. Miskin Abdal poeziyasındakı:

Üz xakə döşənib zəlil olanda,
Özün yetiş o fəryada, ya Əli (101, 32) –

misralarının poetik «əks-səda»sına Şəmşir yaradıcılığında aşağıdakı şəkildə rast gəlinir:

Ağalar ağası, ya Şahi-Mərdan,
Özün yetiş harayıma, adı Əli (31, 242).

Bu kimi misralar aşığın Həzrət Əliyə olan sonsuz məhəbbətini və ənənəyə sadiqliyini bir daha nümayiş etdirməklə onun şeirləri ilə Miskin Abdalın şeirləri arasında ruhani-ilahi-irfani bağlılığı təcəssüm etdirir. Ümumiyyətlə, Şəmşir şeirində də İmam Əli (ə.) obrazının yüksək poetik məqamda təsviri ilə qarşılaşırıq. Sələfi Miskin Abdal kimi islam dünyagörüşü, sufilik Şəmşirin də bir çox şeirlərində öz əksini tapmışdır. Şəmşirin Miskin Abdaldan bəhrələndiyini onun istər təbiət, istər məhəbbət lirikasında, istərsə də ustadnamələrində ruhani-poetik yaxınlıq, doğmalıq səviyyəsində müşahidə etmək mümkündür. Təsadüfi deyildir ki, Şəmşir Göyçə aşıq mühitinin sənət başlanğıcında duran Miskin Abdalı özünə daim mənəvi ustad saymışdır.

Şəmşirin Miskin Abdalla, təxminən, eyni dövrdə yaşayan Qurbanidən də bəhrələndiyini əsərlərindən görmək mümkündür. Onun Qurbani ənənələrindən faydalandığına misal

kimi «Bənövşə» şeirinə nəzər salmaq kifayətdir. Məlumdur ki, Qurbanidən sonra çoxları bu mövzuda qələmlərini sınamışlar. Təbii ki, Qurbani səviyyəsində «Bənövşə» yaratmaq heç də hər sənətkara müyəssər olmamışdır. Şəmşir də sələflərindən geri qalmayaraq bu mövzuda bir neçə qoşma yaratmışdır:

Novbahar yuxudan gözün açanda,
Yetirir bu çəmən, bağ bənövşəni.
Taxır buxağına qızlar, gəlinlər,
Sarı bənövşəni, ağ bənövşəni (28, 243).

Şəmşir bu mövzuda olan şeirlərində «Bəzəksən buxaqda xala, bənövşə», «Boynunu bükməsən məgər olmazdı», «Hər aşiq axtarar sevdiyi yarı», «Cənnətdən alıbsan hüsnü, camalı», «Heyif ki, tez solur bir də bənövşə» və s. misralarla Qurbaninin sözü cilalamaq tərzini məharətlə davam etdirmişdir.

Aşıq Şəmşirin yaradıcılığının formalaşmasında XVII əsrin ustad aşıqlarından olan Abbas Tufarqanlının da özünəməxsus yeri vardır. Şəmşir şeirləri ilə Abbas Tufarqanlı yaradıcılığı arasında aydın hiss olunan bir bağlılıq müşahidə edirik. Şəmşirin poeziyasına diqqət etdikdə Tufarqanlı Abbasın ona mövzu, məzmun, metaforik obrazlar sistemi baxımından təsir etdiyini görmək mümkündür. Məsələn, Şəmşirin:

Mən qocaldım, ovsanmadı məhəbbət,
Könül bir cananın sevdasındadır (33, 57) –

misralarının Abbas Tufarqanlının:

Könül bir cananın sevdasındadır,
Cismdə insandır, mahi-ənvərdir (1, 26) –

misralarından bəhrələnərək qoşulduğunu söyləmək olar. Tufarqanlı Abbasın poetik «bəyan»ı ilə Aşıq Şəmşirin şeiri arasında zahiri bağlılıq («Könül bir cananın sevdasındadır») göz qabağındadır. Lakin buna əsaslanıb ədəbi təsiri heç də yalnız bu misra səviyyəsində axtarmaq olmaz. Tufarqanlı Abbasın «könlünün sevdasında olduğu canan» Tanrıdır, Şəmşirdə bu aspekt (məhəbbətin təsəvvüfi-irfani səviyyəsi) real olaraq yoxdur. Lakin Şəmşir şeirində Tufarqanlıdakı təsəvvüfi-ilahi məhəbbətin şöləsi var: poeziyanın Tufarqanlıdan «başlanan» ənənəsi Şəmşirdə öz irfani semantikasından məhrum olsa da, poetizmini, bədii qüdrətini, ədəbi siqlətini saxlamışdır. Şəmşir öz çağında ənənəyə müasiri olduğu dövrün bədii boyalarını vermiş və nəticədə əsl sənət incisi yaratmağa nail olmuşdur.

Abbas Tufarqanlının yaradıcılığında mühüm yer tutan «Bəyənməz» rədifli ustadnaməsi zəmanəsində baş verən haqsızlıqları, cəmiyyətdəki təbəqələşməni, bərabərsizliyi göstərmək baxımından bütün dövrlər üçün ölməz sənət nümunəsi olaraq qalır. Həmin şeirin ənənəvi motivlərinə Şəmşirin «Olmaz» rədifli qoşmasında rast gəlirik. Bu şeirdə Şəmşir çox parlaq ifadə olunmuş bir üslubda həm də Abbas ənənəsini ustalıqla davam etdirmək bacarığını göstərmişdir. Şəmşir də sələfi kimi qarşıdurmalar, bədii təzadlar vasitəsilə onu narahat edən məsələlərə öz bədii münasibətini bildirmişdir.

Abbas Tufarqanlıda:

Adam var ki, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı,
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən, heç insanı bəyənməz (1, 10).

Aşıq Şəmşirdə:

Adam var, başına dur, dolan hərdən,
Adam var, acıdı sözü zəhərdən;
Adam var, libası ola məxmərdən,
Adam var, gönünü soymasan olmaz (31, 41).

Şəmşir Tufarqanlı poeziyasının ümumi poetik cazibəsi, qarşısıalınmaz təsiri altında «Bəyənməz» şeirinin dil, üslub, qafiyə və s. formal tərəflərindən çox istifadə etsə də, məzmun baxımından XX əsrin «yeni», məhz onun özünə məxsus olan davamını yarada bilmişdir. Bəzən Şəmşir Abbas Tufarqanlıya məxsus misraları azacıq dəyişsə də, ümumi fikir, ideya olduğu kimi qalır. Məsələn: Abbasın «Adam var ki, getməyəsən işinə, Adam var ki, dolanasan başına» misralarını Şəmşir «Adam var, başını ucaltmalısan, Adam var, boynunu əyməsən olmaz», yenə də Abbasın «Adam var, dəstinə verəsən güllər, Adam var, gözünə çəkəsən millər» misralarını Şəmşir «Adam var, ilandı dalayar eli, Adam var, sözünə deyəsən bəli» kimi işlətmişdir. Sələfi kimi Şəmşir də cəmiyyətin təbəqələrə bölündüyünü (varlı-kasıb, ağıllı-nadan və s.) göstərmiş, buna öz kəskin etirazını bildirmişdir. Abbas Tufarqanlıdan üç əsr sonra yaşayan Şəmşirin eyni mövzuya

müraciəti göstərir ki, aşıq yaradıcılığında daim əhəmiyyətini itirməyən mövzular vardır. Hər iki sənətkarın yaşadığı dövr bir-birindən ayrı olsa da, eyni sosial problemlər zamanları birləşdirir. Buna görə də aralarındakı böyük zaman məsafəsinə baxmayaraq hadisələrə eyni mövqedən yanaşma hər iki aşığın yaradıcılığındakı «müştərək» məqamları ortaya qoyur.

Şəmşir və Abbas şeirlərində işlənən bəzi ifadələr və bənzətmələr müqayisə edildikdə Şəmşirin poetik ənənəyə möhkəm bağlı olduğu görünür. Bütün bunlar göstərir ki, Aşıq Şəmşir Abbas Tufarqanlını diqqətlə oxumuş, öyrənmiş, mövzuları ətrafında düşünmüş və onun sənətkarlığından istifadə etmişdir.

Aşıq Şəmşir şeirində XVII əsrin qüdrətli saz-söz ustadlarından olan Qaracaoğlanın da ruhu duyulmaqdadır. Şəmşirin Qaracaoğlanın yaradıcılığına bələdliyi bir sıra şeirlərindən aydın görünür. O, Qaracaoğlanın şeirləri ilə eyni rədifdə və məzmunda yazdığı «Gəlin», «Ay qız», «Yalvara-yalvara» kimi şeirlərində onun sənətkarlıq xüsusiyyətlərindən məharətlə istifadə etmişdir. Qaracaoğlanın təsirinin nəticəsi kimi Şəmşir eyni rədifli gözəl nəzirə yaratmışdır.

Qaracaoğlanda:

Gördüm bağçasında seyr edən yarı:
Daramış zülfünü, vermiş tumarı,
Ağ köksün arası Zəmzəm pınarı,
İçsəm, öldürərlər, içməsəm, ölləm (141, 38).

Aşıq Şəmşirdə:

Bir ala gözlüyə aşiq olmuşam,
Alsam – ola bilməz, almasam, öllәm.
Qulluğunda qolu bağlı qul kimi
Qalsam–ola bilmәz, qalmasam, öllәm (33, 116).

Məlum olduğu kimi, məhəbbət mövzusu Qaracaoğlanın poeziyasında əsas yer tutmuş, şeirlərinin ruhunu, mayasını təşkil etmişdir. Bu, Şəmşirdə də müşahidə olunur: onun da yaradıcılığında bu tip aşiqanə şeirlərə rast gəlinir. Yuxarıdakı nümunədən də gördüyümüz kimi, Şəmşir məhəbbət lirikasında Qaracaoğlan üslubunu özünəxas tərzdə davam etdirmişdir.

Şəmşirin poeziya ənənələrini məharətlə davam etdirdiyi sənətkarlardan biri də XVIII əsr saz-söz sənətinin görkəmli nümayəndələrindən olan Xəstə Qasımdır. Hər iki sənətkarın yaradıcılığına diqqət etdikdə Şəmşirin sələfindən çox şeylər əxz etdiyini müşahidə etmək mümkündür.

Xəstə Qasımda:

Yeri, gözəl, yeri, sənə qarğaram;
Ölənədək işin ahu-zar olsun.
Siyah zülfün dal gərdəndə sərasər,
Halqa-halqa, çinbəçindən mar olsun (72, 28).

Aşıq Şəmşirdə:

Səni məndən ayrı salan kəslərin
Görüm taxtı, tacı tarımar olsun!
Həsrət qalsın sevgisinə cahanda,
Mənim tək hər zaman intizar olsun! (26, 55)

Xəstə Qasım «Olsun» rədifli qoşmasında əhd-peymanını unudan yarını qarğışla ittiham etmişdir. Şəmşir də eyni rədifli qoşmada oxşar motivlərdən məharətlə istifadə etmişdir. Həm Xəstə Qasımın, həm də Aşıq Şəmşirin qarğış xarakterli bu şeirilə Qurbaninin «Yetirməsin» qoşması arasında ənənə bağlılığı vardır.

Məlumdur ki, Xəstə Qasım daha çox nəsihətamiz şeirlər və ustadnamələr müəllifi kimi tanınmışdır. Əsərlərində mərd-namərd, böyük-kiçik, yaxşılığa, xeyirxahlığa çağırış kimi ideyalara toxunmuşdur. Analoji motivlərə Şəmşir yaradıcılığında da rast gəlirik.

Xəstə Qasımda:

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,
Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz (35, 102).

Aşıq Şəmşirdə:

Sirr açma namərdə, söz demə pisə,
Namərdin qəlbində söz dura bilməz.
Yoldaş olma alçaq olan nakəsə,
Danışar ilqardan, tez dura bilməz (31, 8).

Şəmşirin «Dura bilməz» qoşması həm məzmunu, həm forması etibarilə Xəstə Qasımın «Olmaz» şeirini xatırladır. Hər iki əsər üçün nəsihətçilik, didaktika xarakterikdir. Hər iki

şeirdə əsas motiv mərd-namərd, ağıllı-nadan arasındakı ziddiyyətləri göstərməkdir. Eyni məzmunlu qoşmanın Xəstə Qasım şeirindən qaynaqlandığı duyulur. Eyni həyati hadisələrdən mövzu seçərək yazmaqda Şəmşir Xəstə Qasımla birləşir. Yəni sələfini düşündürən problemlər, cəmiyyətdəki naqisliklər Şəmşiri də düşündürmüş və sənətkar onları ənənədən istifadə etməklə məharətlə poetikləşdirmişdir. Bu, əsasən, hər iki sənətkarın həyati hadisələrə bərabər mövqedən yanaşmasından irəli gəlmişdir. Xəstə Qasımın təsiri Şəmşirin eyni rədifli «Getdi» qoşmasında daha aydın müşahidə olunur.

Xəstə Qasımda:

Neçə qəhrəmanlar gəldi dunyaya,
Köç vaxtı yetişdi, tez oldu getdi.
Rüstəmin zərbindən titrədi dağlar,
Düşdü dastanlara söz oldu getdi (72, 26).

Aşıq Şəmşirdə:

Bir kəsə qalmadı dünyanın varı,
Hanı xan, xaqanlar getdimi, getdi.
Atanlar, tutanlar, mənəm deyənlər,
Vuranlar, yıxanlar getdimi, getdi (33, 174).

Aşığın bu şeirinin həm ideyasında, həm bəndlərarası keçidlərdə, həm də poetik ideyanın təcəssum üslubunda Xəstə Qasımın təsiri aydın duyulur. Bu cəhətdən Şəmşirin Xəstə Qasımla eyni mövzuda yaratdığı əsərləri müqayisə etdikdə aydın olur ki, o, Xəstə Qasım şeirindən qidalandığı oynaqlığı,

poetik gözəlliyi götürsə də, məzmunca onun təsiri altına tam düşməmiş, orijinal duyum və deyim nümayiş etdirmişdir.

Klassik şairlərdən Molla Pənah Vaqif poeziyası da Şəmşir yaradıcılığı üçün bir örnək olmuşdur. Belə ki, «XIX və XX əsr aşıqlarının çoxu Vaqif mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa çalışmış, onun qafiyələrini və bədii ifadələrini dönə-dönə işlətmişlər» (10, 4). Aşığın yaradıcılığının ilk illərinə aid olan «Tapmadım» divanisində Vaqifin zəmanədən şikayət ruhlu məşhur «Görmədim» müxəmməsinin təsiri duyulur, burada da şikayət, narazı əhval-ruhiyyə hakimdir. Vaqifin «Görmədim» müxəmməsi, həmçinin Şəmşirin «Tapmadım» divanisi müxtəlif tarixi dövrün, ictimai-siyasi mühitin məhsuludur.

Vaqifdə:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü iqrarü imanü dəyanət görmədim.
Bivəfadan lacərəm təhsili-hacət görmədim (103, 127).

Aşıq Şəmşirdə:

Şəmşir deyir, biilqarda bir etibar görmədim,
Mən söyüddə, sarağanda, ulğunda bar görmədim,
Heç qurdun yanında sürü, quldurda var görmədim,
Müxənnətin süfrəsində bir tamlı aş tapmadım (26, 137).

Burada Şəmşirin Vaqif ənənəsini çox məharətlə davam etdirdiyini görmək mümkündür. Vaqif üsyankar ruhlu bu

müxəmməsində yaşadığı cəmiyyətə, onun qayda-qanunlarına və eybəcər sosial əxlaqına sonsuz nifrətini bildirmişdir. Şəmşirin də bu əsəri ideya-mövzu cəhətdən Vaqifə yaxın olub, insanların əxlaqındakı naqisliklərə qarşı yönəlmişdir. Təbii ki, Şəmşirin bu divanisi «Vaqif lirikasının ən yüksək zirvələrindən» (50, 107) olan bu şeirlə müqayisədə bir qədər zəifdir, lakin ideya yaxınlığını inkar etmək olmaz. Aşıq Şəmşir bu şeirilə Vaqifdən irəli gedə bilməsə də, onun ənənələri çevrəsində uğurlu addımlar atmışdır.

Aşıq Şəmşir aşiqanə şeirləri ilə sələfi Vaqifə daha çox yaxınlaşır. M.H.Təhmasibin doğru olaraq müşahidə etdiyi kimi, «Şəmşirin gözələ münasibəti də bir növ Vaqif münasibətilə səsləşir. O da özünü məhəbbət yorğunu adlandırır, o da hər yetən gözələ gözəl demək istəmir, onun da fikrincə, gözəllik – ismət və əxlaq saflığı ilə ekiz olmalıdır ki, bu da ağılla, kamalla bağlıdır» (138, 178). Bu da ondan irəli gəlir ki, Şəmşir sənətində Vaqifə bağlılıq güclüdür. Onun bir sıra məhəbbət mövzulu əsərləri Vaqif qoşmalarını xatırladır. Lakin yaxınlıqlar Şəmşirin Vaqifdən birbaşa, yaxud mexaniki şəkildə istifadə etməsi qənaətinə gəlməyə imkan vermir. Buna görə də Şəmşirin Vaqifi təqlid etdiyi haqqında hökm vermirik. Bu, ancaq təsirlənmə və faydalanmadır. Burada münasibətlərin başqa bir səviyyəsi var. İstər Vaqif, istərsə də Şəmşir – biri el şairi, biri aşıq olmaqla, hər ikisi xalq poeziyasının nümayəndəsidir. Onların poeziyasını xalq yaradıcılığının əsrlərlə davam edən təcrübəsi birləşdirir. Şəmşirin sələfi Vaqif də, əslində, xələfi Şəmşirlə vahid poetik ənənə axarında yetişmişdir. Bu baxımdan, hər iki sənətkarı bəzən əsasında yetişdikləri xalq poeziyası ənənələri birləşdirir. Fikrimizi

əsaslandırmaq üçün misallara müraciət edək.
Vaqif:

Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə-gündüz fikrim-zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax! (102, 124) –

deyirdisə, Şəmşir də eyni poetik qəlibdə gözələ münasibətdə Vaqif mövqeyində dayanır:

Ey sevgilim, elə keçmə kənardan,
Ala gözlüm, əlamandı, bəri bax!
Həqiqi aşiqin dönməz ilqardan,
Qəlbim səni yenə andı, bəri bax! (26, 91)

Şeirlərin məzmununda və bədii ifadə vasitələrində (poetik sintaksisində) bənzərlik olsa da, Şəmşir gözələ olan məhəbbətini özünəməxsus şəkildə ifadə etmişdir.

Aşıq Şəmşir Vaqif şeirinin poetik ənənələrini «Pəri» rədifli qoşmasında daha uğurla davam etdirmişdir. Həm Vaqifdə, həm də Şəmşirdə Azərbaycan gözəlinin surəti bir-birinə bənzər şəkildə təqdim olunsa da, hər bir sənətkarın öz deyim tərzi, üslubu vardır. Şəmşirin eyni mövzuya müraciəti və bu rədifdə bir neçə şeir yaratması, şübhəsiz ki, Vaqifin təsirilə əlaqədardır.

Şəmşirin gözəllik və məhəbbət idealı öz sələfindən demək olar ki, seçilmir. Lakin onun əsərlərində bu idealın daha yeni ahəngdə, yeni təsvirdə inikası ilə rastlaşırıq. Hər iki sənətkar «Mənim» rədifli qoşma yaratmışdır. Vaqif bu qoş-

masında sevgilisinin gözəl sifətlərini bir-bir sadalamışdır:

Pərim, sənubərim, gülbərgitərim,
Gövhərim, yaqutum, ləli-əhmərim,
Hekayətim, fikrim, zikrim, əzbərim,
Xəyalımda şirin nihanım mənim (102, 62).

Şəmşir də Vaqif ənənəsini inkişaf etdirərək təkrirlərdən, daxili qafiyələrdən məharətlə istifadə edərək eyni rədifli qoşma yaratmışdır:

Şərəfim, izzətim, gülbərgitərim.
Kövkəbim, mehrabım, mahım, ülkərim.
Ağzı beçə ballı, dili şəkərim,
Ləbləri şirinim, məzəlim mənim (28, 177).

Şəmşir göstərilən bənddə demək olar ki, Vaqifi «təkrarlamışdır». Lakin burada təqlid yox, xalq poeziyası üçün xarakterik olan köklənmə ənənəsi var. Vaqif öz çağının şəksiz ustadıdır: poeziyası ilə özünü zirvə kimi təsdiq etmişdir. Bu halda Şəmşirin sənətkarlığı şeirin Vaqif «göstəricilərinə» nə dərəcədə köklənə bilməsində ifadə olunmuşdur. Yuxarıdakı iki bəndin müqayisəsi göstərir ki, Şəmşir Vaqif şeirinin poetizmini tutmuş, şeirin həm ideyasına, həm də formal-texniki ölçülərinə tam köklənmişdir. Ona görə də Şəmşir sanki «Vaqifə çevrilib» şeirin davamını yaratmışdır. Lakin Şəmşirin sənətkarlığı onda ifadə olunmuşdur ki, o, öz «Mənim» rədifli qoşmasını Vaqif qoşmasının solğun kölgəsi, yaxud mexaniki təkrarı kimi yox, canlı, təravətli təcəssümü kimi yaratmışdır.

Aşıq Şəmşirin «Nədi», «Görünmür niyə» kimi şeirləri ilə də Vaqifin «Nədir», «Neçün gəlmədi» kimi qoşmaları arasında mövzu-ideya, həmçinin üslub, rədif yaxınlığı vardır. Şəmşirin bu silsilədən olan şeirləri sübut edir ki, o, Vaqif gözəlləmələrinin ideya aydınlığını, dilini, üslubunu bacarıqla mənimsəyə bilmişdir. M.H.Təhmasib bu xüsusda yazır: «İstifadə və müqayisə cəhətdən Şəmşirin Vaqifə münasibəti xüsusilə maraqlıdır» (138, 176). Vaqif əsərlərinin mövzusu, məzmunu, ideya-bədii xüsusiyyətləri və ifadə vasitələri Aşıq Şəmşirin onun poeziyasının davamçılarından biri olduğunu söyləməyə haqq verir.

Aşıq Şəmşir poeziyasında aşıq sənətinin ən qədim və zəngin ənənələrini özündə yaşadan Göyçə aşıq mühitinin və bu mühitin qüdrətli nümayəndələrindən olan Ağ Aşıq, Aşıq Alı ənənələri də özünü göstərməkdədir. Göyçə aşıq mühiti Aşıq Şəmşirin bir sənətkar kimi püxtələşməsində əsaslı rol oynamışdır.

Ağ Aşıqda:

Yarım çıxıb yaylaqlara
Qaldım yalvara-yalvara,
Bərə qurdum oylaqlarda,
Durdum yalvara-yalvara (143, 78).

Aşıq Alıda:

Yad olanda yar peymana,
Qaldım yalvara-yalvara.
Keçən günü xəyalına
Saldım yalvara-yalvara (82, 331).

Aşıq Şəmşirdə:

Bir nainsaf biilqara,
Qaldım yalvara-yalvara…
Qapısına gecə-gündüz,
Gəldim yalvara-yalvara... (26, 17)

Göründüyü kimi, «yalvara-yalvara» rədifi üç böyük sənətkarı öz sehrinə salmış və forması, mövzusu, janrı və rədifi etibarilə bir-birini tamamlayan sənət nümunələri yaranmışdır. Buradan Aşıq Alı və Aşıq Şəmşirin Ağ Aşıq gəraylısına köklənmələri yazılı poeziya göstəriciləri baxımından nəzirədir. Lakin Ağ Aşıq, Aşıq Alı və Aşıq Şəmşir nümunələrində eyni rədifə köklənmə nəzirədən fərqli hadisədir. Burada xalq poeziyasının nümunəsində folklor şeirinin poetik qanunauyğunluqları təzahür etmişdir. Azərbaycan xalq poeziyasında şeirin poetik «mənşəyi» folklorla bağlıdır. Folklorda janrın poetik qəlibləri kollektiv yaradıcılıq məhsulu olmaqla yenə də kollektivə məxsus müştərək hadisədir. Yəni folklorda şeir qəlibləri hər hansı fərdə yox, xalqa məxsusdur. Azərbaycan xalq poeziyası, aşıq şeiri folklor şeirinin müəllif adını üzərində daşıyan qoludur. Aşıq şeirində hər hansı sənətkarın yaratdığı yeni poetik tapıntı əgər uğurlu alınırsa, folklor poetikasının qanunlarına uyğun olaraq kollektiv hadisəyə çevrilir. Başqa sözlə, Şəmşir hər hansı bir xalq bayatısının konkret bir rədifinə köklənə biləcəyi kimi, «yalvara-yalvara» rədifinə də köklənmiş və yaratdığı gözəl sənət əsəri ilə xalq poeziyasının söz karvanına qoşulmuşdur.

Ustad aşığın məhəbbət lirikasına XIX əsrin klassik şair-

lərindən olan Seyid Əbülqasim Nəbatinin də poeziyası öz müsbət təsirini göstərmişdir. Müşahidələr göstərir ki, Nəbati irsinə yaxşı bələd olan Şəmşir onun aşiqanə qoşmalarından yaradıcı şəkildə istifadə etmişdir. Nəbati də aşıq şeiri tərzində yazmış, qoşma, gəraylı, təcnisin gözəl nümunələrini yaratmışdır. Onun məşhur «Gəlsin-gəlməsin» rədifli qoşması bir çoxları kimi Aşıq Şəmşiri də öz təsiri altına almış, o da sələfinə nəzirə olaraq eyni rədifdə gözəl və orijinal əsər yaratmışdır.

Nəbatidə:

Səba, məndən söylə ol gülüzara
Bülbül gülüstanə gəlsin, gəlməsin?
Bu hicran düşkünü, illər xəstəsi
Qapına dərmanə gəlsin, gəlməsin? (131, 11)

Aşıq Şəmşirdə:

Atəşində yanan səməndər mənəm,
Pərvanəsi nara gəlsin, gəlməsin?
Leyli sorağında diyarbadiyar
Məcnun bu dağlara gəlsin, gəlməsin? (26, 78)

Qafiyə və rədifcə eyni olan bu qoşmada Şəmşir sələfi kimi məşuqənin eşqi yolunda vüsal həsrəti ilə çırpınan fədakar aşiqin obrazının təsvirini şeirin əsas motivinə çevirmişdir. Aşıq «lirik mən»in səməndər tək odlara yanmağını, məşuqənin yolunda hər cövrü-cəfaya dözməyini obrazlı şəkildə əyaniləşdirmişdir. Göründüyü kimi, Nəbati qoşması ilə Şəmşir şeiri arasında şəkilcə oxşarlıq varsa da, məzmunca bir

qədər fərq vardır. Hər iki sənətkarın qoşması ritorik suallar üzərində qurulmuşdur. Nəbati özünü «hicran düşkünü», «illər xəstəsi» adlandıraraq yarından mərhəmət diləyir, dərman üçün qapısına gəlib-gəlməməsini xəbər alır. Şəmşir isə cəsarətlə özünü yarının yolunda yanan «səməndər»ə bənzətmiş və bu cəhətdən sələfinə nisbətdə daha optimist yol tutmuşdur. Onun ənənəyə sadiq qalaraq «Leyli», «Məcnun», «səməndər», «pərvanə» kimi poetik obrazlardan istifadə etməsi aşığın klassik ədəbiyyatı da eyni dərəcədə bilməsi qənaətini doğurur.

Aşıq Şəmşirin qocalıq mövzusunda silsilə şeirləri vardır. Bu qəbildən olan şeirlərdə Qasım bəy Zakirin təsiri aydın duyulur. Zakirin məşhur «Qocalıq» müxəmməsinə uyğun olaraq Şəmşir də eyni mövzu, janr və rədifdə şeir yaratmışdır.

Zakirdə:

Ah kim, aldı mənim əqlü kəmalım qocalıq,
Eylədi misli-xəzan çöhreyi-alım qocalıq.
Bidi-Məcnun tək əyib sərv nihalım qocalıq,
Günbəgün etdi füzun dərdü məlalım qocalıq,
Doladı dəstinə əfsus ki, yalım qocalıq! (87, 339)

Aşıq Şəmşirdə:

Yerimir qılçım mənim, aman, əlaman, qocalıq,
Hardadı cavanlığım, aça bir meydan, qocalıq.
Məni haldan elə salıb, yoxdu məndə can, qocalıq.
Nə istəsən dur gəl verim – olasan cavan, qocalıq.
Tərpənirəm, yıxılıram, oluram peşman, qocalıq (28,396).

Müxəmməsin nəinki mövzu və ideyası, həmçinin forma

xüsusiyyətləri, quruluşu da Zakirin «Qocalıq» müxəmməsini xatırladır. Şəmşir də eyni rədifdə yaratdığı əsərində mövzuya sələfi kimi yanaşmış, qocalığın fəlsəfəsindən, insan psixologiyasına təsirindən danışmışdır. Bu ruhda olan digər şeirlərində isə Şəmşir qocalıqdan şikayətlənsə də, kədərə, bədbinliyə qapılmır, qocalığa gülür, istehza edir. O, Zakirdən faydalansa da, ona nisbətən irəli getmiş, bu mövzunu daha yeni istiqamətdə işləməyə müvəffəq olmuşdur.

Aşıq Şəmşir yaradıcılığına XIX əsrin istedadlı sənətkarlarından olan Hüseyn Şəmkirlinin də qismən təsiri olmuşdur. Bu paralelləri Şəmşirin həm məhəbbət lirikasında, həm də ustadnamələrində müşahidə etmək mümkündür.

Hüseyn Şəmkirlidə:

Boyun sənin tuba kimi,
Qaşların da kaman, ay qız!
Görmüşəm mah camalını,
İtirmişəm iman, ay qız! (23, 9)

Aşıq Şəmşirdə:

Müştağam qələm qaşına,
Gəzdim, dolandım başına;
Pərvanə tək ataşına
Yandım əzəl gündən, ay qız (26, 19).

Hər iki aşıq sevgilisinə müraciətlə onun gözəlliyini – tuba boyunu, mah camalını, qələm qaşını nəzmə çəkmiş, orijinal boyalarla təqdim etmişlər. Şəmkirlinin Aşıq Şəmşirə təsiri xüsusilə onun ustadnamələrində daha aydın müşahidə olunur.

Hüseyn Şəmkirlidə:

Dad, hazar çəkərəm pərgarsız sazdan,
Ver, qurtar əlindən nəzir, niyazdan,
Söyləgən qarıdan, gəzəyən qızdan,
Güləyən gəlindən lotu yaxşıdır (23, 11).

Aşıq Şəmşirdə:

Sütun dayanarmı yay günü buzdan,
San soruşmaq olmaz göydə ulduzdan.
Bivəfa oğuldan, biqeyrət qızdan,
İlqarsız sevgidən tazı yaxşıdı (31, 136).

Sonrakı bəndlərdə də eyni məzmun davam etdirilmişdir. Hər iki ustadnamədə didaktik-hikmətamiz fikirlər deyilmişdir. Şəmşir ustadının üslubundan bəhrələnməklə yaşadığı cəmiyyətin bir sıra mənfiliklərini, qüsurlarını aydın şəkildə canlandırmışdır.

Bütün bunlarla yanaşı Aşıq Şəmşir yaradıcılığında ənənənin təsir imkanlarından danışarkən onun aşıq və şair kimi formalaşmasında həlledici rola malik olmuş iki ustad sənətkarın – Aşıq Ələsgərin və Ağdabanlı Qurbanın adlarını xüsusilə qeyd etmək lazımdır. Şəmşir Aşıq Ələsgərin poeziya ənənələrindən bəhrələnmiş və onlardan bütün yaradıcılığı boyu daim istifadə etmişdir. Bunu sənətkarın müraciət etdiyi mövzular da aydın şəkildə göstərir. Şəmşir də Ələsgər kimi öz dövrünün tale yüklü hadisələrinə bədii münasibət bildirmişdir. O, öz əsərlərində Ələsgər kimi ictimai bərabərsizliyi, maddi və mənəvi hüquqsuzluğu qabardan mövzulara üstünlük vermiş, eyni zamanda gözəlliyi, məhəbbəti və s. Ələsgərsayağı vəsf

etməyə çalışmışdır. Şəmşir yaradıcılığı ilə Ələsgər irsi arasında motiv və ideya səsləşmələri, bənzərliyi sələf-xələf münasibətlərinin zahiri görünən tərəfidir. Əsas məsələ ondan ibarətdir ki, Şəmşir Ələsgər poetik ənənəsinin ruhuna vaqif olmaq istəmiş, onun şeirlərinin bədii dərinliklərinə enmişdir. M.H.Təhmasib bu xüsusda yazır ki, onun «Dönüb sənin» qoşması Ələsgərin «Niyə döndü»sünü, «Bilmədi» qoşması «Çata bilməzsən» qoşmasını, «Sənsiz» qoşması «Sənə qurbanı», «Aşıq» və «Mən» rədifli qoşmaları məşhur «Gərəkdi» qoşmasını və s. çox yaxşı bir təəssüratla yada salır (138, 176). Əgər Ələsgər:

Yaxşı hörmətinən, təmiz adınan
Mən dolandım bu Qafqazın elini.
Pirə ata dedim, cavana qardaş,
Ana-bacı bildim qızı, gəlini (22, 37) –

deyirdisə, Şəmşir də ondan təsirlənərək «Mən» rədifli qoşmasını yazmışdır:

Çox gəzdim elləri cavanlığımda,
Qız-gəlinə dedim: ana-bacı mən.
Haramlıq olmadı əl-ayağımda,
Kimsə üçün söz demədim acı mən (31, 42).

Aşıq Şəmşir Ələsgər ədəbi məktəbinin ənənələri üzərində yetişmiş, lakin bu ənənələrin təqlidçisi olmayıb, onları öz yaradıcılığında özünəməxsus şəkildə reallaşdırmışdır. Bunu onların əsərlərinin ideya-bədii, dil-üslub, sənətkarlıq xüsusiyyətlərində, qafiyə, rədif yaxınlığında görmək mümkündür. M.H.Təhmasib aşığın yaradıcılığında bu cəhəti nəzərə alaraq

yazmışdır: «Bunlardan bəziləri həmin motiv, həmin forma, həmin qafiyə və rədifdən yaradıcı faydalanma ilə yazılmış yeni məzmunlu, yeni mənalı, yeni çalarlı şeirlərdir, bəziləri ustad şeirinin daha da inkişaf etdirilmiş yeni variantıdır ki, bu, bizim istər yazılı, istərsə də şifahi ədəbiyyatımızda məqbul görünən yaradıcılıq ənənələrindəndir, bəziləri isə şagirdin də ustad yolunu davam etdirməsindən, onun ənənələrinə sadiq qalmasından, ona oxşamasından doğan şeirlərdir» (138, 176).

Aşıq Ələsgərdə:

Ay nazənin, ay qabağın altından
Nə göyçək çəkilib qara qaşların!?
Gözlərin süzüldü, canım üzüldü,
Vurdu ürəyimə yara qaşların (21, 82).

Aşıq Şəmşirdə:

Ey məlakə, nə gözəldi gözlərin,
Təkcə dəyər bir mahala qaşların.
Deyəsən ki, iki yaydı dartılıb
Salıb məni yüz xəyala qaşların (26, 94).

Hər iki parçada diqqəti cəlb edən element gözəlliyin əsas əlaməti kimi yarın qaşlarının götürülməsidir. Ələsgər kimi Şəmşir də gözələ münasibətdə diqqəti öncə gözlərə yönəltmiş, daha sonra onun qaşlarını böyük bir şövqlə vəsf etmişdir. Gözəlin qaşlarının yaya bənzədilməsi isə aşığın öz sevgilisinə verdiyi dəyərin ifadəsidir. Şəmşir şeirində gözəlin məhz bu cür vəsf olunması onu nəzərə çarpacaq dərəcədə Ələsgər şeirinə bağlayır.

Aşıq Şəmşirin ustadnamələrində də Ələsgərin təsiri nə-

zərə çarpır. Həmin şeirlər içərisində mərd-namərd, arif-nadan və s. mövzularda yazılmış ustadnamələr vardır ki, bunlar Ələsgərin eyni mövzuda yaratdığı əsərləri ilə çox yaxından səsləşir.

Aşıq Ələsgərdə:

Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər səbt eləsin kitaba,
Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olur, onda iki ad olmaz (21, 186).

Aşıq Şəmşirdə:

Şəmşir, sözün mərd yanında ötərdi,
Lütfü təmiz olan dada yetərdi.
Nanəcibin şərbəti də zəhərdi,
Namərd kölgəsində bal yemək olmaz (31, 47).

Qoşmanın ancaq qafiyə və rədifi deyil, mövzu və ideyası da Ələsgər şeirini xatırladır. Lakin Şəmşir şeiri bu halda «təkrar» yox, Ələsgər zamanı üçün aktual olan həyat həqiqətlərinin XX əsrdə bədii-poetik təsdiqidir.

Aşıq Ələsgər ömrünün sonlarında məşhur «Qoca baxtım» rədifli qoşmasını demişdir. Şəmşir də ustaddan təsirlənərək ona eyni rədifdə bənzətmə yazmışdır.

Aşıq Ələsgərdə:

Nə sövda tapıbsan, nəyə talıbsan,
Hansı qəflətdəsən, gəl, qoca baxtım!
Ya məndən küsübsən, ya qocalıbsan,
Bu sınıq könlümü al, qoca baxtım! (21, 150)

Aşıq Şəmşirdə:

O şahım, ustadım Ələsgər demiş:
Dur gəl, a saqqalı çal qoca baxtım,
Quş kimi havalan, elə bir gərdiş
Sal bizim tərəfə yol, qoca baxtım (33, 246).

Burada Ələsgər bəxtindən şikayətlənərək, qəflət yuxusundan oyanmağa, ona kömək durmağa, sınıq könlünü almağa çağırmışdır. Şəmşir də eyni rədifli qoşmasında mövzuya sələfi kimi yanaşmışdır. O, Ələsgər şeirinin vəzn və qafiyələrinə riayət etsə də, məzmunca ondan daha irəli gedərək yeni bədii çalarlarda çıxış etməyə müvəffəq olmuşdur. Bu qoşma Ələsgərə nəzirə olsa da, öz bədii xüsusiyyətləri etibarı ilə orijinaldır.

Şəmşir Ələsgər ədəbi ənənələrini mənimsəyərək, onlardan müxtəlif poetik səviyyələrdə istifadə etmişdir. O, bəzən Ələsgərin işlətdiyi qafiyələri eynilə təkrar etmişdir. Bu halda o, yuxarıdakı nümunədən də gördüyümüz kimi, Ələsgərin nəzirəçisi kimi çıxış etmişdir. Bəzən isə Ələsgər mövzularını özünəməxsus şəkildə, başqa qafiyədə işləyərək şeirlər yaratmış, lakin bu zaman əsərlərinin ideyasında, ruhunda Ələsgər ənənələrini qoruyub saxlamağa çalışmışdır. Məsələn:

Aşıq Ələsgərdə:

Bir gözəl keçdi qarşıdan,
Sallandı, yana yeridi.
Kirpik çaxdı, oğrun baxdı,
Od saldı cana, yeridi (21, 57).

Aşıq Şəmşirdə:

Bir gülyanaq, bir qələmqaş,
Yanımızdan gəldi, getdi.
Ürəyimə saldı atəş,
Gözlərindən güldü, getdi (28, 312).

Bu nümunədə Aşıq Ələsgərdən birbaşa bəhrələnmə nəzərə çarpmır. Lakin şeirlərin ümumi ideyasında Ələsgər ruhunu hiss etməmək olmur. Bütün bunlar Şəmşirin Ələsgərə yaxınlığını göstərən başlıca amillərdir.

Şəmşirin ustad aşıq kimi yetişməsində Aşıq Ələsgərlə bərabər atası və ustadı Ağdabanlı Qurbanın da müstəsna rolu olmuşdur. Onun Ağdabanlı Qurbana bağlılığı daha geniş olmuş, bu, onun yaradıcılığında təbiət təsvirlərindən tutmuş ustadnamə və nəsihətnamələrinə qədər öz əksini tapmışdır.

Ağdabanlı Qurbanda:

Bu cahanda istədiyim mehriban əldən gedər,
Taci-təxti, cahı-cəlal, şövkət-şan əldən gedər.
Bel bağlama bu fənaya, hərgiz etmə etibar,
Bir nəfəsdir, bir qəfəsdir, cismi-can əldən gedər (24, 92).

Aşıq Şəmşirdə:

Yaxşı dosta yalan satma, etibar əldən gedər,
Həm məhəbbət, həm səadət, düz ilqar əldən gedər,
Öz payınla kifayətlən, özgələrdən kəs gözün,
Tamah səni bəndə salar, xeyir kar əldən gedər (26,138).

Aşıq Şəmşirin «Əldən gedər» divanisi Ağdabanlı Qur-

banın eyni adlı divanisi ilə qafiyə, rədif, həm də məzmun və ideya baxımından çox səsləşir. Hər iki əsərdə əxlaqi fikirlər üstünlük təşkil edir. Ağdabanlı Qurban göstərir ki, bu dünyada taxt-tac, cah-cəlal, şan-şövkət əbədi deyil; insan gərək bunlarla öyünməsin, çünki daimi deyil və bir gün əldən gedəndir. Şəmşir də ustadı kimi insanları pis əməllərdən çəkinməyə, etibarlı, sədaqətli olmağa çağırır. O göstərir ki, insan tamahının əsiri olmamalı, nəfsinə güc gəlməli, öz qisməti, payı ilə kifayətlənməlidir. Əks təqdirdə, etibardan, məhəbbətdən, sədaqətdən söhbət gedə bilməz. Ümumiyyətlə, sənətkarın əsərlərində nəsihətamiz fikirlərə, aforizmlərə tez-tez rast gəlinir. Bu, ənənənin onun yaradıcılığında parlaq şəkildə təzahür etdiyini göstərir.

Aşıq Şəmşirin məhəbbət lirikasına da Ağdabanlı Qurbanın təsiri olmuşdur.

Ağdabanlı Qurbanda:

Hurilərin şahı, gözəllər xası,
Mələklər qılmanı hanı, görünməz.
Sallanıb ərkinən, nazınan gəzən,
Firəngin sultanı hanı, görünməz (4, 53).

Aşıq Şəmşirdə:

Pərilər pərisi, hurilər xası,
Gözəllər sultanı hanı, görünmür.
Duruşu, baxışı dağlar qəlbimi,
Düzlərin ceyranı hanı, görünmür (33, 55).

Burada Ağdabanlı Qurban şeirindən alınmış ənənəvi ob-

raz və təşbehlərlə yanaşı, Şəmşirin öz poetik təfəkkürünün məhsulu olan orijinal bənzətmələrə də rast gəlirik. Əgər Ağdabanlı Qurban gözəli «hurilərin şahı», «gözəllər xası», «mələklər qılmanı», «Firəngin sultanı» kimi mədh etmişsə, Aşıq Şəmşir də ondan faydalanmaqla, həm də bir qədər fərqli çalarda «pərilər pərisi», «hurilər xası», «gözəllər sultanı», «düzlərin ceyranı» kimi ənənəvi qəlib tərkiblərdən istifadə etmişdir. Nümunələrdən də göründüyü kimi, Şəmşir ustadının yolunu məharətlə davam etdirmişdir.

Göstərdiyimiz bu paralellər Aşıq Şəmşirin ənənədən geniş şəkildə bəhrələndiyini göstərən faktlardır. Apardığımız müşahidə və müqayisələr göstərir ki, Şəmşir xalq poeziyası ənənəsində yazıb-yaratmış və bütün fəaliyyəti boyu ənənəyə sadiq qalmışdır. Aşığın şeirlərində dönə-dönə işlədilən *dəhan, ləb, müsəffa, zənbur, zəban, əsəl, sədr, nar, sənubər, simuzər, əhmər* kimi qəlib ifadələr, *cənnəti-rizvan, şəhdi-zülal, müşk-ənbər, ruhi-rəvan, mahi-taban, misali-cənnət, mahi-münəvvər, sərvi-xuraman* kimi birləşmələr klassik ənənədən gəlir. Sənətkarın nəzərdən keçirdiyimiz şeirləri onun aşıq poeziyası ənənələrindən necə geniş və səmərəli faydalanmasına, bu ənənələri öz yaradıcılığında davam və inkişaf etdirməsinə parlaq nümunədir. Lakin bu, heç də onun orijinallığına xələl gətirməmiş, aşığın özünəməxsusluğunu, dil və üslub xüsusiyyətlərini pozmamışdır. O, ənənəyə, sələflərinin sənətkarlığına yaradıcı münasibət bəsləmiş, ənənə ilə aldığından öz dövrü və zamanının ab-havasına uyğun olaraq bacarıqla istifadə etmişdir. Şəmşirin nəzirələri, sadəcə, ustad sənətkarların zəif şəkildə təkrarı olmayıb, bədii xüsusiyyətlərə malik orijinal sənət əsərləridir. Qeyd etmək lazımdır ki, Aşıq Şəmşir bu

ənənələri mexaniki şəkildə təkrar etməmiş, əksinə klassiklərdən öyrənə-öyrənə, onların ən yaxşı cəhətlərini daha yeni ahəngdə, daha yeni çalarda davam etdirərək, zamanının aşıq poeziyasını bədii-estetik zövqü səviyyəsində daha yüksək zirvəyə qaldırmışdır.

## 2.2. İctimai lirika

Aşıq Şəmşir öz dövrünün sosial gerçəkliklərinə biganə qalmamış, əsl xalq sənətkarı kimi, xalqın həyatında baş verən hadisələri, onu əhatə edən dünyanın ictimai gerçəkliklərini yaradıcılığında əks etdirmişdir. Onun poeziyasında ictimai-siyasi motivlər, sosial problemlər məzmun özünəməxsusluğu və bədii təcəssümünün forma gözəlliyi ilə nəzəri cəlb edir. Bu da hər şeydən əvvəl sənətkarın cəmiyyətdə baş verən ictimai, sosial-siyasi hadisələrə obyektiv münasibətindən irəli gəlir. Zəmanəsində baş verən haqsızlıqlar, hakim qüvvələrin qayda-qanunlarından narazılıq və s. bu kimi motivlər aşığın yaradıcılığının ilk mərhələsində aparıcı və hakim mövqedə idi. «Özümə», «Zülmkar», «Var», «Ağdabana», «İnsanların», «Tapmadım» və s. kimi qoşma və divaniləri bu münasibətlə qələmə alınmışdır. M.H.Təhmasib bu xüsusda yazmışdır ki, təzəcə yaradıcılığa başlayan gəncin saysız-hesabsız sələfləri və bir sıra müasirləri kimi gözəlləmələr deyil, daha çox ictimai məzmunlu qoşmalar, divanilər, hətta nəsihətamiz ustadnamələr yazması ilk baxışda adamda heyrət doğurur. Lakin onun yaşadığı, dolaşdığı aşıqlar mühitinin diqqətli tədqiqi bunun heç də qəribə olmadığını göstərir (138, 174-175). Həqiqətən də, sənətkarın yaradıcılığında ictimai

motivlərə toxunarkən ilk əvvəl onun yaşadığı dövrün siyasi mənzərəsinə diqqət yetirmək vacibdir.

Məlumdur ki, XX əsrin əvvəlləri tarixin çox keşməkeşli, ziddiyyətli dövrlərindən biridir. Bu dövr Azərbaycanda baş verən milli-azadlıq hərəkatı, 1905-1906 və 1918-ci illərdə ermənilərin Azərbaycan türklərinə qarşı apardığı soyqırımı və s. hadisələrlə xarakterikdir. Bu zaman kəndli hərəkatı da geniş vüsət almışdı. Bu hərəkatın məqsədi çarizmin milli müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmaq idi. Əsrin əvvəllərində baş verən mühüm dəyişikliklər aşıq sənətində də bu və ya digər şəkildə öz əksini tapmışdır. M.İbrahımov «Aşıq poeziyasında realizm» əsərində göstərir ki, bu dövrdə aşıq poeziyasında sinfi mübarizə motivləri güclənir, qoşma və gəraylılarda açıqdan-açığa əzilən kəndli təbəqələrinin və ümumiyyətlə, yoxsulların mənafeyi müdafiə olunur (74, 58). Belə bir zamanda yaşayan Şəmşiri zəmanəsində baş verən hadisələr bir vətəndaş və sənətkar kimi narahat etməyə bilməzdi. O da bir çox müasirləri kimi dövrünün hadisələrinə biganə qalmamış, tarixi hadisələrə öz fəal münasibətini bildirmişdir. Aşıq Şəmşir real həyati müşahidələrinə əsaslanaraq yaşadığı dövrün tələblərinə cavab verə bilən kamil sənət nümunələri yaratmışdır.

Şəmşir həm aşıq, həm də bir insan kimi yaşadığı cəmiyyətdə baş verən sosial hadisələrə qarşı həssas olmuşdur. O, yaşadığı cəmiyyətin ziddiyyətlərini dərindən duyur, onun sosial mahiyyətinə nüfuz edir və bədiiləşdirirdi. Əsərlərindəki xəlqilik, həyatilik keyfiyyətləri o qədər güclüdür ki, bu bənzərsiz poeziya nümunələrindən aşığın dövrü, zəmanəsi haqqında aydın təsəvvür əldə etmək olur. Aşıq cəmiyyətdə

baş verən haqsızlıqları şeirə gətirir, ədalətsizliklərə qarşı çıxırdı. Zəmanəsində baş verən haqsızlıqların, zülmlərin aşığın yaradıcılığında öz bədii əksini tapmasını göstərən O.Sarıvəlli haqlı olaraq yazmışdır: «Aşıq Şəmşir köhnə əyyamın ağalar, bəylər, mülkədarlar dünyasının əzab, ağrılarını, zəhmətkeş kəndlilərin ağır güzəranını öz gözü ilə görmüş, elin, obanın bu ağır, dözülməz dərdini şair hələ inqilabdan qabaq yazdığı bir sıra şeirlərində ifadə etməyə çalışmışdır» (128, 7). Bu cəhətdən «Ağdabana» rədifli qoşması aşığın yaşadığı dövrün ictimai-siyasi mənzərəsini, tipik hadisələrini, sosial gerçəkliyini göstərmək baxımından xüsusilə səciyyəvidir:

Hardasan, ey bəxtim, oyanmayırsan,
Bir gör nə zülmlər var Ağdabana.
Bu zalım bəylərin zülmü, sitəmi
Baharda yağdırır qar Ağdabana (26, 47).

Sənətkar burada «Baharda Ağdabana qar yağdıran» zəmanəyə lənətlər yağdırmış, bəylərə, ağalara olan sonsuz nifrətini bildirmişdir. Baharda qarın yağması nadir hadisədir və Şəmşir bu bənzətmədən məharətlə istifadə edərək elin, obanın faciəsini ümumiləşdirilmiş halda bu hadisəyə bənzətmişdir. Bu şeir təkcə Ağdabanda deyil, o zaman Azərbaycan kəndlərində hökm sürən dərəbəyliyə kəskin etiraz ifadə edir, onun siqlətli misraları da bu ağır vəziyyətin poetik əks-sədasıdır. Göründüyü kimi, burada ictimai-siyasi motivlər, zəmanədən şikayət, haqsızlığa, zülmə qarşı dərin hiddət özünü göstərmişdir.

Dövrün ictimai ab-havasını və bundan doğan narahatlıq hisslərini əks etdirən bu qəbildən olan şeirlərdə ictimai bərabərsizlik, yoxsulluq, ehtiyac müxtəlif bədii boyalarla öz ifadəsini tapmışdır. Aşıq zəmanəsindən şikayətlənir, xalqı soyub talayanları tənqid edir, etiraz səsini ucaldırdı. Eyni ruhu və analoji sosial motivləri onun digər ictimai məzmunlu şeirlərində də izləmək mümkündür. Şəmşir zəhmətkeş kütləyə qeyri-insani münasibət bəslənməsini, «birinin yoxsul, birinin kalan dolanmasını» ictimai eybəcərlik kimi qiymətləndirmişdir:

Hamını bir kimsə yaradıb yoxdan,
İndi əl-ayağı yolan dolanır.
Xilqəti bir şeydən xəlq olan insan,
Biri yoxsul, biri kalan dolanır (28, 21).

Bu şeir parçasında sosial motiv ümümbəşəri-ilahi dəyərlər fonunda təcəssüm etdirilmişdir. Burada Şəmşirin tərənnüm etdiyi sosial ədalət idealının əsas qaynağı açıq şəkildə boy verir. Sənətkar «əl-ayaq yolanların», xalqı talan edənlərin cəmiyyətdə yaratdığı sosial eybəcərlikləri məhz ilahi dəyərlər baxımından qiymətləndirərək anti-ideal kimi rədd etmişdir. Şəmşirin sosial ədalət idealına görə, bütün insanlar öz ilahi yaradılışı baxımından bərabər hüquqlu xəlq olunmuşdur. Tanrı heç kimi digərindən üstün yaratmamış, heç kimə öz qolunun zoruna, cibinin puluna, sosial-inzibati imtiyazlarına arxalanıb başqalarını zülmə məruz qoymaq haqqı verməmişdir: «Hamını bir kimsə yaradıb yoxdan...». Bu baxımdan, bütün insanların yaşamaq haqqı bərabərdir.

«Xilqəti bir şeydən xəlq olan insan» öz həmxilqətinə zülm etməməlidir. Beləliklə, Aşıq Şəmşirin sosial ideyalarının əsasında, qaynağında Uca Tanrı və onun ədaləti dayanır. O, şeirdə cəmiyyətdə sosial xaos, ictimai eybəcərlik yaradanların diqqətini Uca Allahın varlığına cəlb edib, onları düz yola qayıtmağa, insanlara qarşı rəhmli olmağa, Allahın cəzasından qorxub, Onun sevgisinə layiq olacaq əməllər sahibi olmağa çağırmışdır.

Aşıq Şəmşir maraqlı qarşılaşdırmalar vasitəsilə onu narahat edən məsələlərə öz obyektiv münasibətini bildirmiş, cəmiyyətin naqisliklərini, qüsurlarını bu təzadlardan istifadə edərək açıqlamışdır:

Namərd tutmaz naəlacın əlini,
Yoxsulun ürəyi şan-şan dəlini.
Nainsaf, zülmkar çapır elini,
Eyləyir obanı talan, dolanır (28, 21).

Şəmşirin nəzər saldığımız bu qoşmasında qarşılaşdırmalar bir neçə istiqamətdə özünü göstərmişdir. Cəmiyyətin varlı-kasıb təbəqəsinin halına acımaq bu şeirin əsas qayəsini təşkil etmişdir. O, mövcud cəmiyyətin iki təbəqəyə – varlılar və kasıblara bölündüyünü göstərmiş və bu bərabərsizliyi maraqlı müqayisələrlə əks etdirmişdir. Aşıq «eli-obanı çapıb-talayan, cibində yığın-yığın pul olan, yağlı kabab yeyib bığın eşən, füqəradan daşbaş alıb dolanan»lara istehza ilə yanaşmış, yoxsulun, naəlacın, bir qarın çörəyə belə möhtac olanların halına ürəkdən acımış, təəssüf etmişdir.

Ustad aşıq əsərlərində yalnız yerli məmurların, bəylərin deyil, eyni zamanda yaşadığı tarixi dövrün real mənzərəsini

poeziya dili ilə canlandırmış, insanı ümidli olmağa, dünyanın gedişatının uca ilahi dəyərlərinə inanmağa, zülmə qarşı mübarizəyə çağırmışdır:

> Axır su yerinə insanın qanı,
> İmdada yetişən ədalət hanı,
> Dövran belə qalmaz, kəsmə gümanı,
> Başımda qiyamət qopar, ağlama.
>
> Qisas qalmayacaq bu zülmkara,
> Məhv olub Mənsuru çəkdirən dara.
> Təbib qarşı gələr – sağalar yara,
> Bu qəmli hicrandan qurtar, ağlama (28, 28).

Qoşmanın yazılış tarixindən, ümumi məzmunundan, «Axır su yerinə insanın qanı» misrasından aşığın I Dünya müharibəsinə və bunun nəticəsində xalqın düşdüyü ağır vəziyyətə işarə etdiyi aydın olur. «Məhv olub Mənsuru çəkdirən dara» misrasından isə X əsrin məşhur sufi ideoloqu Həllac Mənsurun öz məsləki yolunda faciəli surətdə öldürülməsinə işarə olunmuşdur. Bu da, eyni zamanda, aşığın orta əsrlərin dini-fəlsəfi fikirləri haqqında kifayət qədər məlumatı olduğunu göstərir.

> Libasdan-libasa girdi bu dünya,
> Tanıdı namərdi, mərdi bu dünya.
> Şəmşir, son hökmünü verdi bu dünya
> Hitlerin də qəbri qazıldı getdi (28, 74).

Göründüyü kimi, aşıq heç bir tarixi hadisəyə biganə qalmamışdır. 1945-ci ildə – Böyük Vətən müharibəsi zamanı

dediyi bu qoşmasında zülmkarların öz layiqli cəzalarına çatdıqlarını və dünyadan heç nə aparmayaraq getdiklərini poetikləşdirmişdir. Bu, eyni zamanda Aşıq Şəmşirin bir sənətkar kimi dünyaya və cəmiyyətə həm də ilahi-fəlsəfi münasibət bəsləməsinin göstəricisidir. Sənətkar varlıq aləminin ulu həqiqətlərinə inanmış və öz dinləyicisini də inamlı olub, zülm qarşısında möhkəm dayanmağa səsləmişdir.

Sənətkarın şeirlərinin yazılış tarixinə nəzər saldıqda görürük ki, təxminən 1915-1918-ci illərdə yazdığı əsərlərində ictimai-sosial bəlalar öz təcəssümünü tapmışdır. Şəmşirin ictimai motivli şeirləri içərisində 1918-ci ildə, təxminən, iyirmi beş yaşlarında yazdığı «Özümə» şeiri ictimai məzmunlu əsər kimi xüsusi aktuallıq kəsb edir:

Zəhmətlə bağ saldım, bağça düzəltdim,
Qismət olmur nədən barım özümə?
Yolları piyada gedib gəlməkdən
Düşmən olub ayaqlarım özümə.

Bəy deyir: «Yaradan mənəm insanı,
İşləsin qapımda çıxınca canı».
Bəs mənim torpağım, əkinim hanı?
Niyə çatmır ixtiyarım özümə?

Çəkilib sinəmə dəmir şiş dağı,
Yediyim zəhərdi, içdiyim ağı,
Şəmşir ha qazanır, aparır yağı,
Verən yoxdu qazanc-varım özümə (26, 51).

Bu qoşma Şəmşirin ictimai məzmunlu ilk əsərlərindən

hesab olunur. Üç bəndlik bu qoşmada ustad sənətkar dövrün, zamanın real mənzərəsini yarada bilmişdir. Aşıq zəhmət çəkdiyini, qan-tər içində əlləşib-vuruşduğunu, bunun müqabilində isə zəhmətinin barını özgələrin – bəylərin, ağaların mənimsədiyini ürək ağrısı ilə çatdırmışdır. Sənətkar cəmiyyətdə hökm sürən ictimai bərabərsizliyi, özbaşınalığı, ədalətsizliyi və qanunsuzluğu kəskin tənqid edərək rəiyyətin insan yerinə qoyulmadığını, qul kimi istismar olunduğunu konkret olaraq bəyin müraciətində ifadə etmişdir. (Bəy deyir: «Yaradan mənəm insanı, İşləsin qapımda çıxınca canı»). Şəmşir cəmiyyətdəki bu sosial bəlaları cəsarətlə qamçılamışdır. O, cəmiyyətdə baş verən hadisələrdən doğan suallara cavab axtarmağa təşəbbüs göstərmişdir. Bu qoşma ilə bağlı M.İbrahimov yazmışdır: «... «Özümə» qoşmasında və bir sıra başqa qoşmalarda zülmə qarşı açıq etiraz var, onların mənası daha dərindir» (74, 63). Göründüyü kimi, şeirin yazılmasında aşığın həyati müşahidələri böyük rol oynamışdır.

Aşığın bu silsilədən olan şeirlərinə nəzər saldıqda keçirdiyi ağır güzəranın, başına gətirilmiş haqsızlıqların öz bədii əksini tapdığını görürük:

İnsanın taleyi pul ilə vardı,
Pulum olsa, gəlib dada çatardı,

Qohumum-qardaşım qatar-qatardı,
Hanı, heç havadar duranım yoxdur.

Şəmşir kimin kəməndində boğulmuş,
Könlüm dəyirmandı suyu soğulmuş,
Varmı mərd əkilmiş, igid doğulmuş,

Ha gəzirəm dağı-aranı, yoxdur (28, 12).

Burada Şəmşirin başına gətirilən faciələr və onun sənətkarda doğurduğu ümidsizliklər ifadə olunmuşdur. O elə bir zamanda yaşayır ki, insana ancaq puluna görə hörmət edirlər. «Pulum olsa, gəlib dada çatardı» misrasında zamanın sosial bəlaları ifadə olunmuşdur. Haqsızlıq, ədalətsizlik hər yerdə hökmranlıq edir, hər şeyi ancaq pul həll edir. Sənətkar ürək ağrısı ilə əsli-nəsli təmiz, mərd və igid adamların azaldığını qeyd edir. Elə sənətkarın «Varmı mərd əkilmiş, igid doğulmuş, Ha gəzirəm dağı-aranı, yoxdu» misralarında dərin fəlsəfi hikmət özünü göstərməkdədir. Digər tərəfdən, bütün bunlar bədbin ovqatın ifadəsi olmaqla sənətkarın zaman-zaman öz dövrünün sosial ədalətsizlikləri qarşısında dərin acılar keçirdiyini, onların təsiri ilə ağır psixoloji durumlara düşdüyünü aydın şəkildə göstərir. Göründüyü kimi, insanları Uca Allahın ədalətinə sığınmağa, Haqqın ipinin heç vaxt üzülməyəcəyinə inanmağa səsləyən sənətkar bəzən özü də çox pis durumlara düşmüş və bir insan kimi təsəlliyə, mənəvi köməyə ehtiyac duymuşdur. Bütün bunların onun poeziyasında ifadə olunması Şəmşirin bir sənətkar kimi öz yaradıcılığında poetik ideala daim sadiq qaldığını da göstərir.

Aşıq Şəmşirin ictimai motivli şeirlərində konkret şəxslərin – ətrafında gördüyü zülmkarların da adı çəkilir:

İsa bəy kökəlib, yekəqarındı,
Onun baxtı kəsib işi sarındı.
Meydan alçaqların, satqınlarındı,
Nadanların, sarsaqların vaxtıdı (28, 11).

Burada aşıq ətrafında baş verən hadisələrdən – zülmlərdən, haqsızlıqlardan danışmış, kəndin ağası İsa bəyin simasında varlıların, bəylərin xalqın başına gətirdiyi müsibətləri, rəiyyəti çapıb-taladıqlarını nəzmə çəkmişdir.

Bəzən öz dövrünün zülmlərindən bezən sənətkar üzünü göylərə – «çərxi-fələyə» tutaraq göylərdən imdad diləmiş, yerin dərdini göyə demişdir:

Nə bais olmuşdu, ey çərxi-fələk,
Vurmusan üstünə yara qəlbimin?
Günahım nə olmuş, de, biz də bilək,
Saldın şüşəsinə qara, qəlbimin?! (26, 49)

Şair-aşıq çərxi-fələyə etiraz edərək qəlbinə, ürəyinə sağalmaz yaralar vurulduğunu, heç vaxt ürəkdən şad olmadığını təəssüf hissi ilə bildirmişdir. Şəmşir açıq-aydın şəkildə çərxi-fələyə müraciətində cəmiyyətdəki ədalətsizliklərin, haqsızlıqların baş alıb getdiyini, sənətkar ürəyinin bundan çox pərişan olduğunu bildirmişdir.

Aşıq Şəmşirin ictimai məzmunlu əsərləri içərisində «Baxtım» qoşması sosial motivin məzmun və forma baxımından ifadəsinin kəskinliyi ilə diqqəti cəlb edir:

Nə yatmısan belə qəflət içində,
Bəsdi, bir oyanıb dursan, a baxtım!

Sar, yapalaq şikarında ov alır,
Sən də bir torunu qursan, a baxtım! (26, 63)

Aşıq bəxtini qəflət yuxusundan oyanmağa, ona kömək durmağa, harayına çağırmış, «sarın», «yapalağın» şikarında

ov aldığı bir zamanda haraylamışdır.

Nazını çəkməyə yoxdu bir kəsim,
Qalıbdı bədəndə quru nəfəsim,
Yetişmir guşinə, yetişmir səsim,
Yoxsa eşitmirsən, karsan, a baxtım?! (26, 63)

Sənətkar dövrün ictimai bərabərsizliyindən əzablar çəkdiyini vurğulamış, bəxtini çağırdığını, lakin səsinin yetişmədiyini poetik misralara çevirmişdir. Bu cəhətdən, aşığın kəskin şəkildə bəxtini karlıqda günahlandırması dövrünə, zəmanəsinə və onun qaydalarına olan etirazın təzahürüdür.

Aşıq Şəmşirin elə şeirləri vardır ki, onlardakı dərin ictimai məzmunu ifadə etmək üçün sənətkar təbiətə üz tutaraq obrazlı müqayisələr aparmışdır. Aşığın bəzi təbiət mövzulu şeirlərində də dolayısı ilə ictimai motivlər özünü göstərmişdir. Şəmşir bəzən baş verən hadisələri daha obrazlı və poetik vermək üçün təbiət təsvirlərindən bir vasitə kimi istifadə etmişdir. O, təbiət hadisələrini cəmiyyət hadisələri ilə əlaqəli şəkildə götürmüş, bu yolla da baş verən hadisələrə öz münasibətini bildirmişdir. Yaradıcılığının ilk dövründə yazdığı «Bülbül», «Çiçəklər», «Buludlar» kimi şeirlərində sosial motivlər öz təcəssümünü tapmışdır. Sənətkarın «Buludlar» qoşmasına nəzər salaq:

Mənim fəryadımdı dağın çiskini,
Nəfəsimin çıxarıdı buludlar.
Uşaqkən ağladım, çəkdim pis günü.
Göz yaşımın axarıdı buludlar (28, 19).

Aşıq Şəmşir burada şeirin ictimai məzmununu ifadə

etmək üçün müxtəlif obrazlardan istifadə etmişdir. Dağın çiskinini öz fəryadına, nəfəsinin çıxarını, göz yaşlarının axarını buludlara bənzətməsi olduqca orijinal və həyatidir. O, uşaqlıqdan dözülməz güzəran keçirdiyini obrazlı şəkildə şeirdə əks etdirmişdir. Bunun üçün sənətkar «bulud» obrazına müraciət etmişdir.

Nökər-naib oldum zülümkara mən,
Mənsur kimi çəkilmişəm dara mən.
Alovlanıb ha yanmışam nara mən,
Atəşimin buxarıdı buludlar (28, 19).

Sənətkar birinci misrada bir qarın çörək üçün zülmkarlara, insanın qanını zəli kimi soran bəylərə nökərçilik etdiyini göstərmişdir. O, obrazlı şəkildə ağır həyatını Mənsur kimi dara çəkilməklə, odlara yanmaqla müqayisə etmişdir.

Sənələr dolandı, keçdi yaşımdan,
Şəmşirəm, o günlər çıxmır huşumdan.
Tüstüm duman kimi qalxır başımdan
Məndən xeyli yuxarıdı buludlar (28, 19).

Aşıq Şəmşir «bulud» obrazı vasitəsilə dərd çəkməsini çox orijinal və təkrarsız ifadə etmişdir. O, tüstüsünün duman kimi başından qalxmasını, atəşindən buludların buxarlanmasını deməklə zamana və onun haqsızlıqlarına qarşı münasibətini çox dərin məzmun və forma gözəlliyinə malik metaforalar vasitəsi ilə ifadə etmişdir.

Sənətkarın ictimai-sosial motivli şeirlərində klassik ənənələr davam etdirilmiş, onun öz zamanına olan münasibəti

aşıq şeirinin əsrlər boyu dəyişməz qalan «mərd-namərd», «novbahar-zimistan» obraz qoşalıqları vasitəsilə ifadə olunmuşdur. Bu da öz növbəsində Şəmşirin klassik poetik obrazlarla müasir bədii düşüncə tərzinin, ənənə ilə novatorluğun, keçmişlə bu günün ideal ahəngini yarada bilən sənətkar olduğunu nümayiş etdirir:

Namərdə dost demə, zimistana yaz,
Üç ay qalıb novbahara, çiçəklər.
Dərdim artır sizi solmuş görəndə,
Qövr edir sinəmdə yara, çiçəklər (28, 29).

Təbiətin inciləri olan çiçəklərə üz tutan aşıq onların təbii açıb-solma dinamikasını cəmiyyətdəki ictimai bərabərsizliyin, zamanın onun sinəsinə vurduğu ağır yaraların poetik ifadəsinin obrazlı müqayisə vasitəsinə çevirmişdir.

Sən nə həzin, nə yaralı oxudun,
Yenə neştər vurdun canıma, bülbül!
Könlümün şüşəsi daşa toxundu,
Niyə bais oldun qanıma, bülbül!?

Görünmür qarşımda bir səxası kəm,
Onun həsrətindən qan ağlar didəm,
Fərağı, firqəti çəkən dağ mənəm,
Məndən qeyri-dərdli tanıma, bülbül! (26, 50)

Göründüyü kimi, Şəmşir burada ictimai hadisələrə münasibətini bildirmək üçün alleqorik vasitədən – bülbül obrazından məharətlə istifadə etmişdir. Bülbülün həzin və qəmli

oxuması sənətkarı çox qəmləndirmişdir, sanki onun qanına bais olmuşdur. Sənətkar bülbülün timsalında dövrün, zamanın haqsızlıqlarının onun qəlbinə vurduğu dərin yaralardan söz açmışdır. Bu qəbil şeirlərdə insana xas xüsusiyyətlərin təbiət üzərinə köçürülməsi insan-təbiət münasibətlərini ifadə edir.

Bununla belə zəmanədən şikayət, bədbinlik, pessimist ovqat Şəmşir yaradıcılığı üçün heç vaxt xarakterik bədii-psixoloji boyanı təşkil etməmişdir. Əksinə, Aşıq Şəmşirin yaradıcılığında nikbin ruh hakimdir. Onun poeziyasının ümumi inkişaf dinamikası belədir ki, mövcud ziddiyyətlərdən doğan qəm-kədər, giley-güzar motivləri getdikcə üsyankar notlarla əvəzlənir. Ustad sənətkar cəmiyyətdə hökm sürən ixtilafları, yerli ağaların, bəylərin istismarını cəsarətlə əsərlərinin tənqid hədəfinə çevirir:

Füqəranı ayaqlama, zülümkar,
Yoxsulun da vaxtı, bir zamanı var.
Bu gün atlanıbsan, sabah düşərsən,
Bu çarxı-gərdişin nərdivanı var (26, 45).

Göründüyü kimi, şeirdə «yoxsulun da baxtının üzünə güləcəyi», «bu gün kasıbı incidənlərin sabah öz haqlı cəzalarına çatacaqlarına» olan inam hissi onun əsərlərinin əsas ideyasını təşkil etməklə, həm də Şəmşirin sosial həyat ideallarının əsasında durur.

Əvvəlki yarımfəsildə də qeyd etdiyimiz kimi, Aşıq Şəmşir yaradıcılığında Molla Pənah Vaqif poeziyasına bağlılıq güclüdür. Bu barədə geniş danışdığımızdan təfsilata varmadan qısaca qeyd edirik ki, aşığın ictimai mövzulu şeirlərində bu təsir daha güclüdür. Şəmşirin «Gördüm» qoşması

bu baxımdan xarakterikdir:

Bizim bu elləri Kür qırağında,
Vaqif elə görüb, mən belə gördüm.
O zaman daxmada, indi otaqda,
Vaqif elə görüb, mən belə gördüm (27, 117).

Gördüyümüz kimi, Aşıq Şəmşir Vaqifin «Hayıf ki, yoxdur» qoşmasının təsiri ilə nikbin əhval-ruhiyyəli şeir yaratmışdır. Bildiyimiz kimi, bu qoşmasında Vaqif təəssüf hissi ilə cəmiyyətdəki sosial bəlaları, naqislikləri ustalıqla açıb göstərə bilmişdir. Şəmşir isə öz qoşmasında müqayisə yolu ilə dövrləri, zamanları qoşalaşdırmış, «Vaqif elə görüb, mən belə gördüm» deyərək zamanın get-gedə dəyişdiyini, sələfinin dövrünə nisbətdə daha da irəli getdiyini qabartmışdır.

Aşıq Şəmşir bu dövrdə silsilə şeirlər yazır. Bunlardan ən məşhuru «Döndü, nə döndü» qoşmasıdır. Məlumdur ki, Aşıq Ələsgər ömrünün ahıl çağlarında bu rədifdə məşhur qoşmalarından birini yaratmışdır. Heç şübhəsiz, bu şeir Ələsgər poeziyasının təsiri ilə həyat vəsiqəsi qazanmışdır. Burada diqqəti çəkən əsas cəhət şeirlərin məzmun təzadıdır. Əgər Ələsgər eyni rədifli qoşmada zəmanəsindən, bəxtindən, fələyin gərdişindən şikayətlənirsə, Şəmşir ondan tamam başqa mövzu üçün istifadə edərək özünün ən qüvvətli qoşmalarından birini yaratmışdır. Aşıq Ələsgər:

Çarx dolandı, baxtım tapdı tənəzzül,
İqbalım idbara döndü, nə döndü!
Can deyən dostlarım, şux gözəllərim,
Ovsun almaz mara döndü, nə döndü! (22, 26)

– deyərək cəmiyyətdəki haqsızlıqlardan narazılığını bildirirdisə, Şəmşir isə böyük ustaddan təsirlənərək yaşadığı dövrü, zəmanəni belə tərənnüm etmişdir:

Zimistan çəkirdim çoxdan bəridi,
Daha qışım yaza döndü, nə döndü...
Taleyim tərlanı qalxdı havaya,
İşim pərgar saza döndü, nə döndü… (26, 68)

Bu silsilədən olan poetik nümunələrdə Aşıq Şəmşir ictimai bərabərsizliyin insanlar arasında doğurduğu mənəvi eybəcərlikləri açıb göstərməyə çalışmışdır. Bu kimi motivlər Şəmşir yaradıcılığının dərin ictimai məzmununu göstərməklə bərabər, onun mübarizlik, yenilməzlik ruhunu nümayiş etdirir.

Aşıq Şəmşirin ictimai-siyasi motivli əsərləri içərisində dini alver mənbəyinə çevirən, din pərdəsi altında xalqı talayan fırıldaqçı, savadsız mollaların, axundların, seyidlərin də tənqidi xüsusi yer tutur və sənətkarın bədii təhlil obyektinə, predmetinə çevrilir:

Yalandan adını qoymusan imam,
İmam belə olmaz, ay anlamaz, xam!
Tutduğun pis işlər açılıb tamam,
Şəmşirə nə yalan satırsan indi? (27, 86)

Aşıq Şəmşirin ictimai məzmunlu şeirlərinin bir neçəsi də ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuşdur. Bu şeirlər «Zərli tac kamallı başa yaraşır» adlı kitabda toplanaraq nəşr olunmuşdur. Aşıq Şəmşir öz dövründə baş verən

hadisələrə də biganə qalmamış, yeri gəldikcə, onlara da şeirlərində münasibət bildirmişdir. H.Əliyevin keçmiş SSRİ dövründə apardığı uğurlu siyasət, digər respublika rəhbərləri, eləcə də keçmiş ittifaq rəhbərləri arasında sanbalına, xüsusi çəkisinə görə seçilməsini Şəmşir belə diqqətə çatdırır:

Şəmşir arif olsun, əhli-dil olsun,
Oxusun gül olsun, qoy bülbül olsun.
Hər an qabaqcıldı, qabaqcıl olsun,
Yaşasın rəhbəri Azərbaycanın (32, 9).

H.Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etməsini Aşıq Şəmşir görmədi, amma şeirlərinə baxanda ustadın uzaqgörənliyinə heyrətlənməyə bilmirsən:

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini,
Belə böyük var ustadı Heydərin (32, 10).

Aşıq Şəmşirin bu silsilədən olan şeirləri arasında ölümündən bir ay əvvəl yazdığı «Yaraşır» adlı şeirinin üstündən sükutla keçmək olmaz. Dörd bəndlik şeirdə böyük öndər H.Əliyev Vətənin gözəllikləri ilə birlikdə vəsf olunur və bu gözəlliklərin meydana çıxmasında ümummilli liderin rolu xüsusi vurğulanır:

Qəhrəmanlar beşiyidi bu diyar,
Hələ belə olmayıbdı bəxtiyar.
Su içib səhralar hər yan verir bar,

Bürünübdü al qumaşa, yaraşır (32, 28).

H.Əliyevin o illərdə respublikaya rəhbərlik etməsi ilə Azərbaycanda quruculuq işləri başlanmışdır. Onun yürütdüyü iqtisadi siyasət nəticəsində Azərbaycanda təsərrüfatın bütün sahələri, xüsusilə kənd təsərrüfatı böyük nailiyyətlər əldə etmişdir. Əvvəllər ilan mələyən düzlər indi əkin-biçin yerlərinə çevrilmişdir:

İlanlı səhralar verir ağ üzüm,
Mədənlər axıdır ləl düzüm-düzüm.
Qarabağ xörəyim, Naxçıvan duzum,
Nemət olub başdan-başa yaraşır (32, 28).

Şəmşir H.Əliyevin hakimiyyətdə olduğu illərdə Azərbaycanın günü-gündən çiçəkləndiyini, daha da inkişaf etdiyini böyük şövqlə vəsf edirdi:

Çiçəklənib Azərbaycan
Bu illərdə, bu illərdə.
Al bəzənib cümlə-cahan
Bu illərdə, bu illərdə

Başa çəkdi hünər bizi,
Alqışladı zəfər bizi,
Xoşbəxt etdi zəfər bizi
Bu illərdə, bu illərdə (32, 19).

Bütün bunlar Aşıq Şəmşirin dövrünün hadisələrinə münasibət bildirməyi bacaran bir el ağsaqqalı, ustad sənətkar olduğunu aydın göstərir.

Dərin həyati müşahidələrin məntiqi nəticələri kimi səslənən bu əsərlərdə sənətkarın cəmiyyətdə baş verən hadisələrə fəal vətəndaş mövqeyi özünü göstərirdi. Şəmşir yaradıcılığının ilk dövrləri üçün xarakterik olan şeirləri, mübaliğəsiz olaraq, ictimai lirikanın gözəl nümunələri adlandırmaq olar.

## 2.3. Məhəbbət lirikası

Dünyanı və insanları gözəl görmək istəyən Aşıq Şəmşir sosial münasibətləri eyni zamanda ülvi-aşiqanə hisslərin gözü ilə də qiymətləndirmiş, çoxlu sayda məhəbbət şeirləri qoşmuşdur. Bu baxımdan, saf, təmiz eşq, məhəbbətə sədaqət, vəfa, etibar kimi uca əxlaqi kateqoriyalar onun məhəbbət lirikasının əsas poetik sütunlarını təşkil edir.

Qeyd olunmalıdır ki, sənətkarın məhəbbət lirikası mövzu və məzmun baxımından rəngarəngdir. Şəmşirin yaradıcılığında tərənnüm və təbliğ olunan məhəbbətin poetik hüdudları təkcə sevginin obyekti olan insanı yox, bütövlükdə insanlığı, vətəni, doğma yurdu və ana təbiəti əhatə etməklə onun məhəbbət anlayışına çox böyük məna verdiyini, eşqi insanlığı saflaşdıran, özünə qaytaran, dünyanı ilahi nizamdan qırağa çıxmağa qoymayan ən ali ideal kimi qəbul etdiyini göstərir.

Aşıq Şəmşirin məhəbbət lirikasında gözəlləmələr xüsusi poetik lay təşkil edir. Gözəlləmə şeiri Şəmşir yaradıcılığında özünün tarixi-poetik mənasının bütün çalarları ilə ifadə olunmuşdur. Aşıq Şəmşir üçün gözəlliyin tərənnümü bir tərəfdən klassik ənənəyə sədaqət sayılmışsa, digər tərəfdən

dünyanı sevə-sevə yaşamağın, onun ilahi gözəlliklərindən zövq almağın, eyni zamanda bu zövqu əsrarəngiz poetik çələngə çevirib insanlarla bölüşməyin vasitəsi olmuşdur.

Gözəlləmə şeirinin təkcə Şəmşir yaradıcılığı üçün yox, eləcə də bütün aşıq poeziyası üçün xarakterik hadisə olması təsadüfi deyildir. Aşıq şeirinin estetik problemlərini araşdırmış O.Əfəndiyev yazır: «Aşıq poeziyasında sövq-təbii olaraq dünyəvi gözəllik, insanın, təbiətin göz-könül oxşayan ahəngdar varlığı, fiziki kamilliyi uydurma, xəyali gözəlliklərə qarşı qoyulur. Aşıq sevgilisinin gözəllik təcəssümü olan gözlərində, al yanağında, büllur buxağında, inci kimi dişlərində, nazəndə yerişində, həmahəng qamətində, incə gülüşündə, ağıllı danışığında bu gerçək dünyanın gözəlliklərinin zirvəsini, tacını görür» (57, 51). Aşıq Şəmşirin də yaradıcılığında gözəllik belə incə və mürəkkəb məna strukturuna malikdir. Burada insanın zahiri-cismani gözəlliyi ilə mənəvi-əxlaqi dünyası baş-başa olub, biri digərini tamamlamaqla son dərəcə füsunkar bədii-estetik harmoniya yaratmışdır:

Ey qaməti sərv, qəddi sənubər,
Qızıl kəmər nazik belə yaraşır.
Bədirlənmiş on dörd günlük ay kimi,
Hilal qaşın kəsmə telə yaraşır.

Saldı məni haldan-hala gözlərin,
İstər cismim oda sala gözlərin,
Müjgan – kirpiklərin, ala gözlərin
Xəlq olunub tər piyalə, yaraşır (26, 85).

Bu şeiri oxuduqca Şəmşirin yaratdığı bədii gözəlliyin öz qaynağını həyatın real gözəlliyindən götürdüyünün şahidi oluruq. Ancaq Şəmşir yaradıcılığında gözəlliyin real səviyyəsi ilə bədii səviyyəsi arasında mexaniki əlaqə, cansız münasibət yoxdur, əksinə, reallığın təbii-ilahi gözəlliyi Şəmşirin qəlb dünyasından keçməklə sənətkarın hissləri və duyğuları ilə süslənib yeni səviyyəyə qalxır – bədii-estetik mahiyyət kəsb edir. Gözəlliyin Şəmşir duyumu ilə reallıqdan sənətə (bədiyyata) transformasiya olunmuş ikinci ömrü başlanır. Şəmşir bu gözəlliyə ülvi-ilahi hadisə kimi yanaşır. Onun üçün varlıq aləminin gözəlliyi Allahın möcüzəsidir. Allahın gözəlliyi olmasaydı, Onun yaratdığı varlıq ünsürləri də gözəl olmazdı. Ona görə də Şəmşir yaradıcılığında gözəlliyə heyranlıqla yanaşı, onun yaradıcısına dərin bir şükranlıq, başqa sözlə, bu gözəlliyin müəllifi olan Uca Tanrıya minnətdarlıq da vardır. O, varlıq aləminin gözəlli-yindən təkcə zövq almamış və poeziyasını da bu gözəlliyin yalnız poetik təəssüratı kimi yaratmamışdır. Bu cəhətdən Şəmşirin gözəlləmələri Uca Tanrının yaratdığı gözəlliyin tərənnümü olmaqla Ona edilən «dualardır». Başqa sözlə, sənətkarın yaradıcılığında öz-özlüyündə götürülmüş, öz ilahi başlanğıcından təcrid olunmuş (qopardılmış) gözəllik yoxdur. Əksinə, gözəlliyə İlahinin möcüzəsi kimi dərin hörmət və ehtiram vardır. Bu da öz növbəsində Şəmşir yaradıcılığında təzahür edən gözəlliyi müqəddəs, ülvi hadisəyə çevirmişdir.

Aşıq Şəmşir yaradıcılığında təzahür edən bədii gözəllik ilk növbədə poetik harmoniyadır. Onun bir sənətkar kimi ustalığı təkcə bu gözəlliyi duymaqda, qavramaqda yox, eyni zamanda gözəllik hadisəsini təşkil edən elementlərin harmo-

nik düzümünü tapmaqla ifadə olunmuşdur. Məsələn:

> Üfüqdən baş verən afitab kimi,
> Yanardı gözümdə gözün, a gözəl.
> Çeşmeyi-əntəhur – pak olan şərab,
> Şəkərdi, şərbətdi sözün, a gözəl.
>
> Mirvari dişindi, yaqut xalındı,
> Sevgilim, xoş olan sənin halındı.
> Səhər – oxşarındı, nur – camalındı,
> Sanıram qəmərdi üzün, a gözəl (28, 127).

Şeirin obrazlar sistemini təhlil etdikdə Şəmşir gözəlləmələri üçün xarakterik olan keyfiyyətləri müşahidə etmək mümkündür. Bu halda görürük ki, onun reallaşdırdığı gözəllik tərənnüm spektrinin genişliyi ilə seçilir. Başqa sözlə, Şəmşir gözəlin tərənnümündə obrazlı müqayisənin hüdudlarını bacardıqca genişləndirməklə daha çox gözəllik ünsürlərini əhatə etməyə və onlara bədii nizam verməyə çalışmışdır. Bu halda klassik ənənədən gələn obrazlardan geniş istifadə etsə də, onlar arasında poetik uyarlığı tapmağı bacarmışdır. Yuxarıdakı şeirdə verilmiş obrazları nəzərdən keçirməklə bunun əyani şahidi oluruq:

1. Təbiət obrazları: üfüq, afitab (günəş), səhər, nur (işıq), çeşmeyi-əntəhur (bulaq), mirvari, yaqut, qəmər (ay)
2. Antropoloji obrazlar: göz, diş, xal
3. Məişət obrazları: şərab, şəkər, şərbət

Bütün bu obrazların real həyatdakı düzümü şeirdə bədii-estetik harmoniya kəsb etmişdir. Şəmşir obrazlı müqayisənin (bədii təsvir və ifadələr sisteminin) bütün incəliklərinə

vararaq yaratdığı bədii harmoniyaya füsunkar gözəllik, həzinlik və zəriflik bəxş etmişdir. Nəticədə onun yaratdığı gözəlləmələr canlı hadisəyə çevrilərək insanların zövqünü oxşamaqla bərabər, onlar tərəfindən bədii həqiqət adına qəbul olunmuş və yaddaşlarda yaşamağa başlamışdır.

Göründüyü kimi, sənətkarın yaratdığı gözəllik öz qaynağını reallıqdan götürmüşdür. Onun vəsf etdiyi gözəl obrazı real həyatda rast gəldiyi el qızlarındandır. Aşıq onun gözəlliyini yüksək poetik zövqlə tərənnüm etmişdir. Şəmşir mirvari dişli, yaqut xallı, qəmər üzlü, nur camallı el qızının qənirsiz gözəlliyinə ilahi hadisə kimi baxaraq, bu gözəlliyi qüdrətdən verilmiş pay hesab etmiş və onu xilqətin ən gözəl əsəri kimi çox yüksək səviyyəyə qaldırmışdır. Burada gözəlin tərifində ənənənin izlərini aydın müşahidə etmək mümkündür. Bu xüsusda M.Həkimovun Şəmşirin məhəbbət lirikası haqqında dediyi fikirlər maraqlıdır: «İnsanın gözəlliyinə, əxlaqi nəcibliyinə pərəstiş Dədə Şəmşirin məhəbbət lirikasının əsas qayəsidir. Gözəl, gözəllik sənətkarın poetik duyumunda onun yaradıcılığının aparıcı motivi, yar-yaraşığı, insan qəlbinin döyüntüsü, gözünün nuru, sözünün qürurudur» (67, 53).

Aşıq Şəmşirin tərənnüm etdiyi gözəllik müxtəlif məna qatlarına malikdir. Bəzən bu gözəl ümumi poetik obrazdırsa, bir çox hallarda öz konkret adı, ünvanı ilə tərənnüm olunmuşdur. Başqa sözlə, gözəlliyin obyekti konkret, real həyatda rast gəldiyi, adı, ünvanı bəlli el qızlarıdır. «Pəri», «Zinyət», «Güllər», «Kəklik», «Gülbəniz», «Əskinaz», «Sənəm», «Reyhan», «Güllü», «Tutu» şeirləri buna misaldır.

Şeir ocağıdır Şamaxı, Şirvan,

Şairlər məskəni – eli Kəkliyin.
Tuti kimi nəcib şirin danışan,
Şəkərdən şirindi dili Kəkliyin (28, 88).

Qoşmadan aydın görünür ki, sənətkarın vəsf etdiyi gözəl – Kəklik Şamaxı elindəndir. Deməli, Şəmşirin real həyatda, toyda, yığnaqlarda rast gəldiyi el qızlarındandır. Sənətkarın vəsf etdiyi gözəl klassik aşıq poeziyasının bütün gözəllik ölçülərini özündə daşıyan bir obrazdır. Şeirdə ənənəvi obrazlardan (Yusif, Züleyxa, Məcnun) və təsvirlərdən (cənnəti-rizvan, müşkü-ənbər, behişt) istifadə olunması bunun canlı təzahürüdür.

Aşıq Şəmşirin diqqəti cəlb edən maraqlı gözəlləmələrindən biri də «Pərim» qoşmasıdır:

İsti məhəbbətin buzamı döndü,
İlqarı unudub yad olan Pərim.
Eşqinin alovu niyə tez söndü,
Məni qəmli görüb şad olan Pərim.

Ləblərin şirindi şəhdi-zülaldan,
Qaşlarına zivər çatıb hilaldan.
Dəhanın şirəsi süzülüb baldan,
Şəmşirin dilində dad olan Pərim (28, 123).

Göründüyü kimi, sənətkar konkret insanın – Pərinin gözəlliyini vəsf etməklə yanaşı, onu vəfasızlıqda, etibarsızlıqda, ilqarını unutmaqda günahlandırmışdır. Lakin bununla belə yarının iztirabları, əzabları sevən aşiq üçün xoşdur və aşıq onu ən yüksək təşbehlərlə vəsf etmişdir. Aşıq Şəmşir gözəlin

zahiri görkəminin təsvirində məcazi sözün bütün formalarından, bənzətmələrdən, real boyalardan, bədii detallardan yerli-yerində istifadə etmişdir. Poetik ənənə ilə sənətkarın fərdi istedadı üzvi şəkildə qovuşaraq gözəlin və gözəlliyin vəsfində özünün ən yüksək zirvəsinə çatmışdır.

Bu meyarlar onun bütün məhəbbət lirikası üçün xarakterik olduğu kimi, «Gülbəniz» qoşmasında da özünəməxsus poetik ovqatda ifadə olunmuşdur:

Sinən çəməngüldü, buxağın lala,
Qaymaq dodaqların bələnib bala.
Qonub bənövşələr üzündə xala,
Şamamalar yatıb tağa, Gülbəniz.

Bir şəfa qıl, dərman dilər bu xəstə,
Mərizi-bitabam, sədrində bəstə,
Qocalmış aşiqəm, qəlbi şikəstə,
Mən qul olum, sən də ağa, Gülbəniz (28, 224).

Sənətkar burada çox böyük bir məhəbbətlə el qızı Gülbənizi tərənnüm etmişdir. Aşıq gözəlin təsvirində ənənəvi təşbehlərə üz tutsa da, özünəməxsusluğu və orijinallığı itməmiş, ənənəvi ifadələrə yeni ahəng aşılamağa çalışmışdır. Qoşmanın sonrakı bəndindən aydın olur ki, sənətkar bu qoşmanı qocalıq dövründə söyləmişdir. Bunu «qocalmış aşiqəm, qəlbi şikəstə» misrasından aydın görmək olar. Başqa sözlə, Şəmşir qoca yaşında keçirdiyi hissləri poeziyaya gətirməklə məhəbbətin ölməz hadisə olduğunu, insanlığı yaşadan, dünyanı bəzəyən ilahi möcüzə olduğunu da tərənnüm etmişdir. Şeirdə açıq-aşkar bir təəssüf hissi də bədii

ovqat kimi özünü göstərir. Aşıq artıq qocaldığını ürək ağrısı ilə etiraf etmiş, özünü xəstə adlandırmış, dərmanını isə yalnız sevgilisində görmüşdür. Belə ki, o, hətta sevdiyi gözəlin qarşısında qul olmağa belə hazırdır. Deməli, Şəmşir qoca yaşlarında da gözələ və gözəlliyə biganə qalmamış, onu dəyərləndirməyi və ülvi-ilahi hadisə kimi tərənnüm etməyi bacarmışdır.

Aşıq Şəmşirin məhəbbət lirikasında insanın zahiri-mənəvi gözəlliyi ilə təbiətin hüsnü eyni səviyyədə durur. O, insan gözəlliyini ana təbiətin gözəlliyindən ayırmamış, in-sana məxsus olan gözəlliyin təbiətdən nəşət etdiyini anla-mış, insan gözəlliyinin mayasının da ana təbiətdən alındı-ğının fərqində olmuş və bunu özünün gözəllik haqqındakı idealının əsas qayəsi kimi tərənnüm etmişdir. Şəmşir bir çox hallarda şeirlərində gözəlin vəsfini daha canlı vermək üçün onu təbiətlə, onun əsrarəngiz gözəllikləri ilə müqayi-səli şəkildə təqdim etmişdir:

Qaşların zülmətdi, yanağın lalə,
Camalına bənzər Ay ola, bəlkə.
Bir bəxşi-qüdrətdi gözün piyalə,
Huri-mələk sənə tay ola, bəlkə (33, 109).

Burada gözəlin tərənnümündə bədii təsvir vasitələrindən, poetik-sintaktik fiqurlardan, bənzətmələrdən bacarıqla istifadə olunmuşdur. Aşıq tərənnüm obyektinin zahiri gözəlliyini ən incə detallarına qədər təqdim etmiş və «zülmət qaşlı», «lalə yanaqlı», «ay camallı», «piyalə gözlü» el gözəlinin bədii portretini ustalıqla yaratmışdır.

Aşıq Şəmşirin poeziyasında gözəllik müqəddəs hadisə-

dir. Bu, onun yaradıcılığına ənənədən gəlmişdir. Klassik aşıq yaradıcılığında insana məxsus gözəlliyin mənbəyi Allahın gözəlliyidir. Allah gözəlliyi «hüsnü-mütləq»dir – bütün gözəlliklərin zirvəsidir. Allahın gözəlliyi öz yaratdıqlarında, o cümlədən insanda təcəlla edir (təcəssüm olunur). Bu baxımdan, klassik yazılı ədəbiyyatda, o cümlədən xalq (aşıq) poeziyasında gözəllik ilahi hadisə kimi qiymətləndirilmiş, islam dininin ən müqəddəs obrazları ilə müqayisədə tərənnüm edilmişdir.

Aşıq poeziyasında qadın gözəlliyi çox zaman Allahın müqəddəs evi hesab olunan Kəbə ilə, Məkkə ilə müqayisə olunmuşdur. Məsələn, sənətkar öz sələflərindən geri qalmayaraq əsl ziyarəti gözəlin qaşlarına səcdə qılmaqda görür, tellərini, can alan gözlərini isə özünün qibləgahı kimi tərənnüm edir. Bu qəbildən olan şeirlərdə insan-dünya vəhdətinin sufi dünya modeli ənənə şəklində özünü qorumuşdur. Məsələn:

Tellərinə qiblə desəm, az olar,
Qaşlarına səcdə qılım, olarmı?
Can alan gözlərin bir qibləgahdı,
Onlara peşnamaz olum, olarmı? (27, 47)

Yaxud:

Buxağı bənövşə, teli nərgizə,
Dağlar lalasına bir də yalvarım.
Səcdə qılım qaşlarının tağına,
Gözün alasına bir də yalvarım (26, 70).

Bu şeir nümunələrinə islami dəyərlərdən baxdıqda müqəddəs dinimizə zidd məqamlar görürük. Çünki mömin

müsəlman heç vaxt gözəlin telini «qiblə» (Kəbə evi) hesab etməz, yaxud qaşlarına səcdəyə getməz. Gözəlin can alan gözlərini «qibləgah» adlandırıb, qaşlarının tağına namaz qılmaz. Lakin Şəmşir şeirindəki bu metaforik sistem çox güclü ənənəyə əsaslanır. Belə ki, istər klassik yazılı ədəbiyyatda, istərsə də xalq poeziyasında rastlaşdığımız islami simvollar təsəvvüfi dünyagörüşünü özündə əks etdirir.

Təsəvvüfi dünyagörüşü Allah, insan və kainatın vəhdətinə, struktur eyniyyətinə əsaslanır. Təsəvvüfi dünya modelinə görə, Allah təbiətdə və insanda təcəlla edir. Təbiətin və insanın quruluşu o qədər eynidir ki, insan – «kiçik dünya» («aləmi-əsgər»), dünya – «böyük insan» («insani-kəbir») hesab olunur. Eyni ruhu Şəmşir yaradıcılığında müşahidə edirik. Sufizmdə insanın üzü mənalar aləmi olub, kainatı (onun quruluşunu) özündə əks etdirir. Heç təsadüfi deyildir ki, Şəmşir gözəlin telini, qaşlarını qibləyə (müqəddəs Kəbəyə) bənzədir. Bu halda sevgilinin can alan gözlərinin sevdasına düşməyi, onun gözəlliyindən zövq almağı Kəbə evində pişnamaz (namaz rəhbəri) olub, müsəlmanlara namaz qıldırmağa bənzədir. Bütün bunlar təsəvvüfi-irfani metaforalardır. Ancaq bunlara əsaslanıb heç bir halda Aşıq Şəmşiri sufi sənətkar hesab etmək olmaz. Belə ki, onun nəsil şəcərəsi XVI əsrdə Göyçədə yaşamış Miskin Abdal ocağına gedib çıxsa da, real olaraq sufi təriqəti ilə bağlı olmamışdır. Lakin Şəmşirin yaradıcılığında təsəvvüfi obrazların yerli-yerində işlənməsi üzü Miskin Abdaldan bəri klassik aşıq yaradıcılığı ilə bağlıdır və bu ənənə Şəmşir yaradıcılığına da nüfuz etmişdir. Deyilənləri aşığın başqa şeirlərində də əyani şəkildə müşahidə edirik:

Ziyarətim var qaşına, gözünə,
Qul kəmtərəm, qulluq edim özünə,
İxtiyar ver, üzüm sürtüm üzünə,
Ləblərində bala bağışla məni (28, 255).

Bu bənddə də qaşa, gözə ziyarət edilməsi Tanrının insanda təcəlla etməsi ideyasını özündə əks etdirir. Bu ideya bütün sufi təriqətləri (cərəyanları) üçün, demək olar ki, eynidir. Məsələn, sufi-hürufi ənənəsində insanın üzü Tanrını və kainatı özündə əks etdirir. Hürufilərə görə, insanın sifətində «Allah» kəlməsi yazılmışdır. Onlar ərəbcənin «Allah» sözündəki hərfləri («əyn», «lam» və «ha» hərflərini) qaşa, buruna və ağıza bənzədirdilər. Şəmşirin də gözəlin qaşlarını, tellərini, bir sözlə – üzünü müqəddəs Kəbəyə, onun ayrı-ayrı ünsürlərinə bənzətməsi də bu ənənə ilə bağlıdır. Bu da öz növbəsində Şəmşirin məhəbbət lirikasına müqəddəslik gətirməklə sənətkarın gözəllik idealının ilahi mizanlar əsasında qurulduğunu göstərir.

Sənətkarın poeziyasında gözəlliyin müqəddəsləşdirilməsi, sakral hadisə kimi tərənnüm olunması dini-mifoloji obrazlardan (mələk, huri, pəri, qılman) bənzətmə vasitəsi kimi istifadə olunmasında da ifadə olunmuşdur:

Dedim, gözəl, bir nəzər sal bəri sən,
Bütün aşıqların dil əzbərisən,
De mələksən, hurisən, ya pərisən,
Hüsnün məlahətdə qılmana bənzər (28, 223).

Burada gözəlliyi mələklərlə, hurilərlə bir sırada verilən el qızı qənirsiz gözəl kimi vəsf olunmuş, insana məxsus real

gözəllik gerçəkliklə xəyalın müqayisəsi əsnasında müqəddəs dəyər kəsb etmişdir.

Aşıq Şəmşir ənənədən gəlməklə öz gözəlləmələrində tərənnüm obyektinin gözlərinin, qaşlarının vəsfinə də xüsusi diqqət vermişdir. Tərənnüm obyektinin gözləri, qaşla-rı, yanaqları, dişləri, qulaqları, zülfü, gərdəni və s. aşıq poeziyasında xüsusi məna kəsb edən poetik obrazlardır. Şəmşir bu obrazlardan istifadə etməklə bir tərəfdən ənənəni davam etdirmiş, digər tərəfdən ənənəni canlandırmaqla ona yeni nəfəs, təravət və ruh vermişdir:

Yanağın göyçəkdir güldən, laləndən,
Sənin nə gözəldi qara gözlərin.
Məni hifz eləsin, mürvətə gəlsin,
Vurmasın sinəmə yara gözlərin (29, 103).

Ənənədən bu cür yaradıcı istifadə tərənnüm obyektinin gözünün təsvirini canlandırmış, onu mexanikilikdən, sırf təsvir olmaqdan çıxarıb poetik möcüzəyə çevirmişdir. O.Əfəndiyev bu xüsusda yazır: «Aşıq sənətində fiziki gözəllikdən söhbət gedəndə göz mərkəzi bir anlayışa çevrilir. …Aşıqlar insan gözəlliyindən danışarkən gözün ecazkar gücünə, bu gözəllik ünsürünün qeyri-adi təsirinə diqqəti cəlb edir» (57, 52).

Aşıq Şəmşirin gözəlləmələrində XX əsrin əvvəllərində Azərbaycan üçün xarakterik olan etnoqrafiya da özünü göstərir. Belə ki, sənətkar bu dövrdə Azərbaycan qadınlarının istifadə etdikləri bəzək əşyalarını, geyimləri və s. şeirlərində ustalıqla təsvir etmiş və bununla da oxucuda o dövrün aydın görüntüsünü yaratmışdır:

…Bir təhrin tərlandı, bir təhrin laçın,
Telinə yaraşır zərdən araqçın (28, 102).

…Telləri çin-çin edib, hər yana gərdəndən aşır,
Arxalıq, zər yaxalıq sənə əcəb yaraşır (26, 146).

Aşıq Şəmşirin məhəbbət lirikasının poetik cövhərini saf və səmimi duyğular təşkil edir. Başqa sözlə, sənətkarın gözəllik idealı öz mayasını ilahi, ülvi duyğulardan götürməklə heç vaxt fizioloji duyğular səviyyəsinə enib adiləşməmişdir. Bunu onun öz ömür-gün yoldaşı Güllüyə həsr etdiyi şeirlərdən görmək olur:

Sən ey güldən gözəl, alagöz pərim,
Ağ sinən cənnəti-rizvana dəyər.
Mənim fikrim-zikrim, dildə əzbərim,
Bir tərifin neçə dastana dəyər (29, 86).

Sənətkarın öz sevgilisinin ağ sinəsini tərənnüm etməsi Şəmşir poetik düşüncəsinin, əslində, bütün hallarda ideal səviyyədə qaldığını, adi, çılpaq, natural, bayağı hiss və duyğular səviyyəsinə enmədiyini göstərir. Onun üçün istər öz həyat yoldaşının, istərsə də bütün qız və gəlinlərin gözəlliyi bütün hallarda ilahi gözəlliyin təcəllasıdır. Əks halda o, sevgilisinin ağ sinəsini heç vaxt «cənnəti-rizvana» bənzətməzdi. Şəmşir üçün Allah tərəfindən ilahi gözəlliyin təcəllası olan qadın obrazı var idi və o, öz sevgilisi də daxil olmaqla bütün qadınların gözəlliyini müqəddəs sayıb, sakral-ilahi dəyər kimi tərənnüm etmişdir.

Ustad sənətkarın məhəbbət lirikası məzmun və forma

etibarilə çox zəngindir. Onun şeirlərində tərənnüm olunan məhəbbət insanı daxilən, mənən saflaşdıran, bir-birinə yaxınlaşdıran eşq olmaqla, insanlığın ləyaqət zirvəsidir. Aşığın məhəbbət lirikasındakı özünəməxsusluq onun yüksək estetik zövqə malik olması, gözəlliyi görüb dərindən duya bilməsi ilə əlamətdardır. Bu mövzuda yaratdığı əsərləri onun poetik dünyasının zənginliyindən soraq verir. Bu baxımdan, aşıq poeziyasındakı ənənəvi məhəbbət mövzusu Şəmşir tərəfindən yenidən və orijinal şəkildə işlənərək aşıq şeirimizi daha da zənginləşdirmişdir.

Şəmşir şeirlərində təsvir etdiyi gözəlin daxili aləmini, mənəviyyatını yüksək qiymətləndirmiş, xarakterik cəhətləri önə çəkmişdir. Sənətkar vəsf etdiyi gözəli hüsn-camalda bənzərsiz saydığı kimi, ağılda da başqalarından üstün görmək istəmişdir. Aşığın «Sənin» rədifli gəraylısı bu baxımdan olduqca səciyyəvidir:

Səndə ki var hüsnü-camal,
Onu daim saxla halal;
Azalmasa ağıl, kamal,
Ucalacaq başın sənin.

Alçaqlara dönüb baxma,
Şirin canın oda yaxma,
Adətkara kirpik çaxma,
Dağılmasın huşun sənin! (26, 15)

Şeirin təhlili göstərir ki, Şəmşir ağılı, kamalı insanda ən vacib şərtlərdən hesab etmişdir. Sənətkar təsvir etdiyi gözəlin zahiri görkəmindən çox onun daxili aləminə fikir vermiş,

onda insani keyfiyyətlər axtarmış, eyni zamanda bu keyfiyyətləri bir-bir sadalayaraq təbliğ etmiş və öz oxu-cusuna estetik duyğular, gözəllikdən zövq almaq, onu qiymətləndirmək xisləti təlqin etmişdir. M.H.Təhmasibin doğru olaraq müşahidə etdiyi kimi, Şəmşirin gözəlləmələrinin bəzisi «gözəlləmə ilə ustadnamə sərhədlərində gəzir» (140, 331). Alimin bu xüsusdakı müşahidələrini əyaniləşdirən daha bir nümunəyə nəzər salaq:

Bilirsən, gözəlin gözəldi nəyi?
İnsanlığı, mərifəti gözəldi.
Doğru qəlbi, pak ürəyi, düz sözü,
Xoş sifəti, xasiyyəti gözəldi (28, 198).

Gözələ xas olan xüsusiyyətlərin lakonik şəkildə təqdimi aşığın məhəbbət lirikasının bədii özünəməxsusluğunu və səciyyəvi cəhətlərini nümayiş etdirir. Aşıq Şəmşirin bu mövzudakı şeirlərinin əsas leytmotivini saf məhəbbətin tərənnümü, yarın hicrindən şikayət və s. təşkil edir:

Müjgan xədəngini ovçular kimi
Biilqar sinəmə atmaq istəyir.
Məni öldürməkdi qəsdi, qərəzi,
Nahaqdan qanıma batmaq istəyir.

Fikri budu, məni qara pul edə,
Ayaqlayıb sinəm üstün yol edə,
Yusif kimi bir sahibsiz qul edə,
Aparıb bazarda satmaq istəyir (26, 69).

Burada aşıq şeirinin ənənəvi mövzusu – yardan şikayət öz ifadəsini tapmışdır. Şəmşir qoşmada yarının həsrəti ilə qəlbi çırpınan aşiqin daxili aləmini, ruhi vəziyyətini, sarsıntılarını, iç dünyasını sənətkarlıqla açıb göstərə bilmişdir. Lirik qəhrəman sevgilisinin əzablarına, iztirablarına dözür, bu yolda hətta özünü qurban belə etməyə hazırdır. Yarını isə ilqarını pozmaqda, etibarsızlıqda günahlandırır. Sənətkar aşiqin həyəcanlarını, əzablarını, məşuqənin yolunda hətta qul olmağa belə hazır olduğunu yüksək məharət və bacarıqla obrazlaşdırmışdır. Sevən aşiq yarının onu qul kimi satmasını belə qəbul edir, təki sevgilisi ondan uz döndərməsin, onun eşqini ucuz tutub ayaqlar altına atmasın. Şəmşirin məhəbbət mövzulu şeirlərinin əksəriyyəti bu motivləri özündə əks etdirir:

On beş günə vədə verdi, ay oldu,
Telli sonam felə düşdü, gəlmədi.
Didəmin leysanı axdı, çay oldu,
Göz yaşlarım selə düşdü, gəlmədi (28, 33).

Bənddən göründüyü kimi, burada lirik qəhrəmanın eşqə mübtəla olması, sevgilisinin ona vədə verməsi, lakin kimlərinsə felinə düşərək gəlməməsi, o cümlədən sevən qəlbin hicran çırpıntıları poetikləşdirilmişdir. Aşiqin çəkdiyi əzablar yüksək ustalıqla bədii mahiyyət kəsb edərək sənət hadisəsinə çevrilmişdir.

Ustad aşığın bu silsilədən olan şeirləri içərisində «Qalmadı» qoşması sevən aşiqin qəlb çırpıntılarının saf və səmimi notlar üzərində təsviri baxımından xarakterikdir:

Neçə ildi həsrətini çəkirəm,

Dağıldı başımda huş da qalmadı.
Gecə-gündüz axıdıram sel kimi,
Nainsaf, gözümdə yaş da qalmadı.

Mahalda, məclisdə səni çox öydüm,
Can qurban eləyib boyunu söydüm.
Hər yada düşəndə sinəmə döydüm,
Qurtardı çöllərdə daş da qalmadı (28, 203).

Nümunə verdiyimiz bəndlərin məzmunundan aydın olur ki, burada nakam və uğursuz məhəbbətdən bəhs olunur. Lirik qəhrəman yarından şikayət edir. Aşiq neçə illər-dir ki, sevgilisinin həsrəti ilə alışıb-yanmış, onun vüsalı ilə göz yaşları tökmüşdür. O, yarının gözəlliyindən vəcdə gəlmiş, onu vəsf etmişdir («Mahalda, məclisdə səni çox öydüm»). Sevgisinin uğrunda çox əzablar çəkmiş, hər cür əziyyətlərə dözmüş, eşqinə dönük çıxmamışdır («Hər yada düşəndə sinəmə döydüm»). Lakin son nəticədə yarının laqeydliyi ilə üzləşmişdir.

Şəmşirin yaratdığı sevgili obrazı bir çox hallarda etibarsızlıqda, vəfasızlıqda, ilqarı pozmaqda günahlandırılmışdır:

Gözüm gözlərinin intizarıdı,
Gözəllər sultanı, niyə gəlmədin?
Aralıqda ilqarımız varıdı,
Pozdun o peymanı, niyə gəlmədin? (28, 195)

Qoşmanın bədii ifadə vasitəsi olan ritorik sual üzərində qurulması onun sənətkarlıq məziyyətini, poetizmini daha da artırmışdır. Burada aşiq məşuqəsini sədaqətsizlikdə, əhdi-peymanını pozmaqda, kiminsə felinə aldanmaqda, eşqini, mə-

həbbətini pula satmaqda günahlandırmışdır:

De hansı fitnəyə, felə aldandın,
Dönməz idin, nədən belə aldandın?
Atdın məhəbbəti, pula aldandın,
Qəlbimin gülşəni, niyə gəlmədin? (28, 195)

Aşıq Şəmşir yaradıcılığında gözəllik əbədi qalan dəyərlərin harmoniyası kimi tərənnüm olunmuşdur. Onun gözəllik idealında zahiri parıltı, gözqamaşdırıcı cazibədarlıq müvəqqəti – keçici dəyərlər kimi verilmişdir. Sənətkar mənəvi olanları ön plana çəkməklə gözəllik adlanan hadisənin bütün mahiyyətinin bu dəyərlər əsasında qurulduğunu təbliğ və tərənnüm etmişdir. O, zahiri gözəlliyin əbədi olmadığını, bir gün əldən gedəcəyini, insana yalnız etibarın, sədaqətin qalacağını xüsusi vurğulamışdır:

Süleymanı yola salan dünyadı,
Ayrılıq təblini çalan dünyadı,
Gözəlliyi əldən alan dünyadı,
Güvəndin hüsnünün gül vədəsində (28, 56).

Qeyd edək ki, şair-tədqiqatçı M.Aslanın aşığın ömür yoluna həsr etdiyi «Saxla izimi, dünya» kitabında yazdığına görə, Şəmşir «Vədəsində» qoşmasını real hadisə zəminində yaratmışdır (16, 12).

Sənətkarın yaradıcılığında aşiqin sevgi hissləri qarşısıalınmaz güc, fövqəladə hadisə kimi tərənnüm olunmuşdur. Aşığın lirik qəhrəmanının sevgisi o qədər böyükdür ki, məşuqəyə qarşı hiss və duyğuları o dərəcədə qarşısıalınmaz-

dır ki, hətta öz canının da, bəxtinə yazılan payın da yarına qismət olmasını arzulayır:

Gözəlim, göyçəyim, cananım mənim,
Bəxtimə yazılan pay sənin olsun.
Darıxma, iqbala, kama çatarsan,
Bu can mənimdirsə, qoy sənin olsun (28, 151).

Lakin Şəmşirin lirik qəhrəmanı yarından nə qədər etinasızlıq və laqeydlik görsə də, ondan küsə bilmədiyini də səmimi şəkildə etiraf etmişdir:

O məni çox incitsə də,
Mən ondan küsə bilmərəm.
Küssəm də, bil, ümidimi
Bir yolluq kəsə bilmərəm.

Can möhnətə edərmi tab,
Yanar bağrım, olar kabab.
Ərşə çəkər bu haqq-hesab
Özgə yol, kəsə bilmərəm (28, 289).

Göründüyü kimi, lirik qəhrəman sevgisinin uğrunda dünyanın bütün əzablarına və məhrumiyyətlərinə dözməyə hazırdır. O.Əfəndiyevin yazdığı kimi, əsl aşıq məhəbbətini öz varlığından yüksək tutur, onun naminə özünün bütün başqa istəklərini comərdliklə unuda bilir. ...Haqq aşığının nəzərində dünyada bircə taxt-tac vardır – o da məsum məhəbbətdir! Əsl aşıq ona Tanrıya pərəstiş edən kimi pərəstiş edir. Şeirlərdə təsadüf olunan «təxti-Süleyman» xarakterli sətirlər mahiyyət

etibarilə Nəsiminin insanı ilahiləşdirən panteist fəlsəfəsinə daha yaxındır (57, 47). Tədqiqatçının bu fikirləri Şəmşirin aşağıdakı bəndi ilə üst-üstə düşməklə sənətkarın yaradıcılığının aşıq poeziyasının klassik normaları səviyyəsində olduğunu nümayiş etdirir:

Deyirlər, tarixdə çoxdu Süleyman,
İndi məndən özgə yoxdu Süleyman,
Əgər mənim olsa təxti-Süleyman,
Dünyanı bir quruş bilmərəm sənsiz (33, 133).

Aşıq Şəmşir yaradıcılığında istər klassik yazılı ədəbiyyat, istərsə də aşıq şeiri tarixi üçün xarakterik olan sevgi obrazlarından obrazlı müqayisə vasitəsi kimi istifadə olunmuşdur. Başqa sözlə, sənətkar bir çox məhəbbət şeirlərində klassik qəhrəmanlara da müraciət etmişdir:

Sevgi ayrı düşsə biri-birindən,
Düşməzmi ürəyi dərdə dərindən?
Leylidən, Əslidən, bir də Şirindən
Əlində bir töhvə nişana gəlsin!

Aşıq qəm oduna ziyada yanır,
Şairlər atəşə dünyada yanır,
Ürəyim Kərəmə, Fərhada yanır,
Xəbər ver Məcnuna, Sənana gəlsin! (26, 67)

Sənətkarın burada Leyli, Əsli, Şirin, Kərəm, Fərhad, Məcnun, Sənan kimi klassik obrazları xatırlatması və öz məhəbbətini onların sevgisinə bənzətməsi bir tərəfdən onun poetik istedad və bacarığını göstərirsə, digər tərəfdən klassik

ədəbiyyatı mükəmməl bildiyini də nümayiş etdirir.

Ümumiyyətlə, Aşıq Şəmşir məhəbbət mövzusunda ölməz sənət örnəkləri yaratmışdır. Aşığın bu mövzulu şeirlərinə nəzər saldıqda burada klassik aşıq yaradıcılığından süzülüb gələn ənənə ilə yanaşı, həm də tamamilə yeni ruh, yeni poetik ovqat və bədii ahənglə qarşılaşırıq. Bu, Şəmşir yaradıcılığının ənənə ilə fərdiyyətin üzvi vəhdəti kimi meydana gəlməsini göstərir. Məsələn:

Ey yanağı lalə, təzə növrəstə,
Bax mənim halıma, gül qocalıqda!
Vaxtın gələr, bir gün olarsan qarı,
Düz qalmaz, əyilər bel qocalıqda (26, 104).

Bu şeirdə məhəbbət şən, şux boyalarla təsvir olunmaqla özündə ənənə ilə sənətkar fərdiliyini ustalıqla birləşdirir. Burada gözəli vəsf edən sənətkar bu gözəlliyin əbədi olmadığını, müvəqqətiliyini, dünyanın faniliyini, bir gün onun da gözəlliyinin əldən gedəcəyini həm də nəsihətamiz ruhda çatdırmışdır. Aşığa gülən, onun qocalığına istehza edən gözəlin də bir gün qocalacağını, heç nəyə yaramayacağını bəyan edən aşıq bu halı tipikləşdirməklə məhəbbət mövzusunu dünyanın gedişatı haqqında fəlsəfi düşüncələr çələnginə çevirməyi bacarmışdır. M.İbrahimov doğru olaraq qeyd edir ki, onun qoşmalarında bəzən kinayə, təbəssüm çox mənalı və ciddi söhbətin ortasında və ya axırında gözlənilmədən meydana çıxır və adamı həm güldürür, həm də düşündürür (74, 66). Bu fikirlər eynilə sənətkarın «Qocalıqda» qoşmasına da şamil olunur:

Qızlar, siz dəyməyin mənim xətrimə,

Göz yaşım sel kimi axar, əylənməz;
Gözlərim bircə gün gözəl görməsə,
Canım cəsədimdən çıxar, əylənməz (26, 99).

Bu şeirdən ilk baxışdan hasil olan təəssürat odur ki, aşıq qocalıqda da cavanlıq eşqini unutmur, cavanlığın həsrətini çəkir, gözəl görmədiyi günləri ömründən saymır. Başqa sözlə, «aşıq qocalıqdan şikayətlənsə də, onun cəhənnəmdən pis olduğunu desə də, kədərə qapılaraq qocalığı bir az da artırmaq yolunu tutmur, qocalığa istehza edir, gülür ki, heç olmasa mənəvi qüvvə və ruhla cismani zəifliyə qarşı dura bilsin» (74, 66-67). Bütün bunlarla yanaşı, yuxarıdakı şeir parçasında Şəmşirin poetik ruhu, sənətkar kimliyi də öz əksini tapmışdır. Onu yaşadan dünyanın gözəlliyidir. O, bütün ömrünü gözəllikdən güc almaqla yaşamışdır. Buradan aydın olur ki, Şəmşir öz varlığının mənasını Allahın yaratdığı dünyanın və insanların gözəlliyini tərənnüm etməkdə görmüşdür.

Qeyd edək ki, Aşıq Şəmşirin məhəbbət lirikasında özünəməxsus, orijinal, yeni deyim tərzi ilə fərqlənən şeirləri çoxdur. Sənətkar öz təmiz duyğularının, hiss-həyəcanlarının, poetik yaşantılarının ifadəsində janr-forma əlvanlığına xüsusi fikir vermişdir. O, bu baxımdan, həm də gözəl təcnis nümunələri yaratmışdır. Bildiyimiz kimi, sənətkardan böyük yaradıcılıq məharəti tələb edən təcnislərdə dərin fikirlər ifadə etmək mümkündür. Aşıq Şəmşir də insan qəlbinin incə duyğularını ehtizaza gətirən gözəl və mənalı təcnislər yaratmışdır. Məsələn:

Eşqin yolu mənə çətin olsa da,
Sən ilə gedərəm beyara mən də.

Bir gözəlin vurğunuyam dünyada,
Əzəldən aşiqəm bu yara mən də (31, 222).

Nümunədən göründüyü kimi, lirik qəhrəman sevgisinin uğrunda dünyanın bütün əzablarına və məhrumiyyətlərinə dözməyə hazırdır. Eşqin, məhəbbətin əzabları, çətinlikləri nə qədər ağır olsa da, aşiq üçün xoşdur. Yaxud, başqa bir nümunəyə baxaq:

Gərdən çəkdin, boyun bənzər bir qaza,
Səni tutan bir qədərdi, bir qəza,
Qəssal yuyub qəbrimizi bir qaza,
Sənsiz necə gedim mən özgə sinə (49, 126).

Bu misralarda aşiqin hiss və həyəcanlarını, yarına qarşı olan böyük məhəbbətini görürük. Onun məhəbbəti o dərəcədə böyükdür ki, hətta birlikdə ölmələrini, bir qəbirə qoyulmalarını arzulayır.

Beləliklə, Aşıq Şəmşirin məhəbbət lirikasına aid nümunələr verib təhlil etdiyimiz şeirləri göstərir ki, sevgi onun yaradıcılığında müqəddəs hadisə kimi tərənnüm olunmuş, sənətkar pak, səmimi məhəbbəti dünyanı saflaşdıran, onun gedişatına nizam verib, cəmiyyətə sosial harmoniya gətirən ilahi qüvvə kimi vəsf etmişdir. O, məhəbbət lirikasında klassik aşıq yaradıcılığından gələn forma və məzmun ənənəsinə sadiq qalmaqla ənənəni canlandırmağı, öz dövrünün aktual və qabaqcıl sənət hadisəsinə çevirməyi bacarmışdır. Bu da öz növbəsində Şəmşirin məhəbbət lirikasının XX əsr aşıq poeziyasının öz poetik təravətini heç vaxt itirməyən hadisəsi olduğunu sübut edir.

## 2.4. Təbiət lirikası

Aşıq Şəmşirin lirikasında təbiət gözəlliklərinin tərənnümü də xüsusi yer tutur. Təbiətdən danışmaq və təbiəti «danışdırmaq» Şəmşir üslubunun özünəxas əlamətlərindəndir. Təbiət gözəllikləri, doğma torpağa məhəbbət, yurd yeri Şəmşir poeziyasında da başlıca poetik motivlərdən birini təşkil edir. Ustad sənətkar vətənimizin zəngin və rəngarəng təbiətinin özünəməxsus əlvan çalarlarını müşahidə edib, onu poetik dildə öz əsərlərində ifadə etmişdir. O, Azərbaycan təbiətinin vurğunu olmuşdur. Bu sevgi qaynağını, kökünü Şəmşirin təkcə tükənməz sevgi ilə dolu qəlbindən yox, bütöv Azərbaycan poetik düşüncə tərzinin ulu sevgi qaynağından götürür. Gözəlliyi görə bilmək, ona vurulmaq, onun aşiqinə çevrilmək və sönməz eşqlə onu tərənnüm etmək Şəmşir şeirinin bədii ruhunu, estetik mahiyyətini təşkil edir. Onun poeziyasında təbiət gözəlliyinin tərənnümü daha qabarıq olmaqla aşığın zəngin poetik irsinə yüksək estetizmi ilə seçilən hərarət, təravət və səmimilik gətirmişdir. Təbii ki, Şəmşir yaradıcılığının bu cəhətləri qoynunda doğulub boya-başa çatdığı Kəlbəcərin əsrarəngiz gözəllikləri ilə sıx bağlıdır. Kəlbəcər ömür uzadan qüdrətli dağların, yaşıl köynəkli meşələrin, öz mənbələrini dağların sinəsindən alan qıjıltılı çayların, min bir gülün, çiçəyin vətənidir. Ustad sənətkar öz qoşma və gəraylılarında doğma yurdunun zirvələri göylərə dirək olan ulu dağlarını, güllü-çiçəkli yaylaqlarını, yaşıl ormanlarını, ceyranlı-cüyürlü çöllərini dönə-dönə vəsf etmişdir.

Təbiətin füsunkar gözəlliyi aşığı həmişə vəcdə gətirmiş, şeirlərinin ilham mənbəyinə çevrilmişdir. Azərbaycan aşıq

poeziyasında demək olar ki, bütün sənətkarların yaradıcılığında «dağ» motivi poetik tərənnümün aparıcı məna vahidlərindən biri olmuşdur. Aşıq poeziyasında dağlar mərdlik, əzəmət, ucalıq rəmzi kimi göstərilməklə yanaşı, onun füsunkar gözəllikləri sənətkarları həmişə vəcdə gətirmiş və şeirlərinin əsas mövzusuna çevrilmişdir. Ulu babalarımız dağı mifoloji düşüncənin obyektinə çevirmiş, ona tapınmış, ulu əcdad sayaraq sığınmışlar. Təsadüfi deyildir ki, dağ obrazının çox fəal məna sisteminə təkcə aşıq şeirində deyil, nağıllarımızda, dastanlarımızda və s. sıx-sıx rast gəlirik. Dağa inam, ona sığınma, ondan kömək diləmə o qədər qüvvətli olmuşdur ki, dağ Azərbaycan folklor düşüncəsinin ən fəal və həmişəyaşar obrazına çevrilmişdir. Möhtəşəm sənət abidələrimiz olan «Dədə Qorqud kitabı»nda və «Koroğlu» eposunda da dağlar vətəni yağılardan qorumaq üçün alınmaz qala, igidlik, mərdlik dayağı kimi təsvir edilmişdir. Aşıq yaradıcılığında dağlar təbii gözəlliyi ilə yanaşı, həm də Koroğlunun, Qaçaq Kərəmin, Qaçaq Nəbinin oylağı, onların arxası, köməyi, düşmənə qarşı mübarizədə istinadgahı kimi tərənnüm olunmuşdur. Görkəmli saz-söz ustadlarımızın dağlara müraciətlə deyilən şeirlərində də zəmanəyə, ictimai-siyasi hadisələrə münasibət bildirilirdi. Bu baxımdan, Aşıq Ələsgərin məşhur «Dağlar» qoşmasında dağların gözəlliyi, məğrurluğu ilə yanaşı, zəmanədən şikayət motivləri də öz əksini tapmışdır:

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar? (21, 87)

Burada Ələsgər şeirinin məna qurumunda dağın mifoloji düşüncədəki məna qatları poetik düşüncənin üst qatına qalxmış, müasirlik kəsb edərək işləklik qazanmışdır. Belə ki, Ələsgərin dağlara üz tutaraq fərdi sosial düşüncələrini ona ünvanlaması məna mahiyyəti etibarı ilə Ələsgərin «ulu əcdadının» dağa üz tutaraq fərdi sosial düşüncələrinə «dərman» diləməsi ilə eynilik təşkil edir.

Sələflərinin ulu söz karvanına qoşulan Şəmşirin dağlara münasibəti poetik özünəməxsusluğu ilə seçilir. Dağlar onun gözündə mərdlik, əzəmət timsalı, qeyrət, namus mücəssəməsidir. «Şiş qayalı uca dağlar, heç doymadı gözüm səndən» deyən aşıq onları özünə dost, sirdaş, arxa, kömək bilməsindən danışmış, yeni əhval-ruhiyyə ilə dağları deyişməyə, yarışa çağırmışdır:

Boyu uca, hüsnü qəşəng,
Mənə söz ver, söz al, dağlar.
Aşıq kimi gəl deyişək,
Sən də ələ saz al, dağlar (28, 353).

«Dağdan qeyri ulu dədə bilmirəm» – deyən Aşıq Şəmşirin qan yaddaşında əcdad kultunun «dilə gəlib, boy verməsini» görməmək olmur. Yurdun bu aşıq oğlunun əsas oylağı dağlar olub, gənclik illərindən mehrini, məhəbbətini bu yerlərə bağlayıb. O, ana təbiətimizin, ulu dağların tamaşasına durar, bu tükənməz xəzinədən, bu müqəddəs məbəddən ilham alarmış. Özünü «dağlar oğlu» adlandıran aşığın bu qəbildən olan poetik nümunələri axıcılığı və təbiiliyi ilə insanı riqqətə gətirir:

Qartal düşüncəli, şair xəyallı,
Tərlan yuva salan dağlar oğluyam.
Anam İstisudu, atam Dəlidağ,
Murov, Lülpar, Qonur, Qoşqar oğluyam (33, 51).

Baharın gəlişi ilə təbiətin oyanması, dağların al-əlvan bəzənməsi, elin-obanın canlanan qaynar həyatı da Şəmşir şeirlərində son dərəcə canlı təsvir edilmişdir. Sənətkarın təbiətin oyanışını insanın ruhən dirçəlməsi ilə obrazlı müqayisədə təsvir etməsi onun təbiət lirikasının həm də fəlsəfi qaynaqlarına işarə edir. Şəmşir ana təbiətdə baş verən hər bir dəyişikliyin insan psixologiyasına təsirini bədiiləşdirməklə, eyni zamanda, təbiətlə insanın, ümumiyyətlə, varlığın bütün ünsürlərinin vəhdətdə olduğunu göstərmişdir. Yazın gəlişi dağları canlandırır. Bu ilahi ovqat Şəmşirin lirik qəhrəmanına ruh verir:

Dönürsən cənnətə, baği-behiştə,
Bahar sənə qonaq gələndə, dağlar.
Şad olur gərdişdə belə görüşdə
Sənin gözəl üzün güləndə, dağlar (28, 247).

Sənətkarın təbiət lirikasında dağlara poetik münasibət ülvi-bəşəri hisslər səviyyəsindədir. Şəmşirin qəhrəmanı genetik bağlarla təkcə öz doğmalarına yox, eyni zamanda ana təbiətə, xüsusilə dağlara bağlıdır. Uzaq səfərə çıxan insan öz valideynləri və övladları ilə halallaşdığı kimi, «Dağlar» qoşmasının qəhrəmanı da dağlarla halallaşır:

Dünyanın ilqarı mənə bəllidi,

Səninlə görüşə gəlmişəm, dağlar!
Ölümdən ağırdı ayrılıq dərdi,
Ömür vəfasızdı, bilmişəm, dağlar! (26, 103)

Burada öz dərdini dağlarla bölüşmək üçün ona üz tutan lirik qəhrəmanın obrazını görürük. Təbiətlə insanı vəhdətdə götürərək tərənnüm edən aşıq bu mövzulu şeirlərində həmin xətti qabartmağa çalışmışdır. Bu cəhəti əsas götürərək M.H.Təhmasib Şəmşiri təbiət şairi kimi dəyərləndirərək yazmışdır: «Təbiət təsviri cəhətdən onun dağlara həsr etdiyi gözəlləmələr çox səciyyəvidir. Cəsarətlə demək olar ki, bizim aşıq şairlərimizin heç biri Şəmşir qədər dağlara şeir həsr etməmişdir» (138, 177). Aşığın dağlara olan sevgisi o qədər güclü və qarşısıalınmazdır ki, o, hətta öldükdən sonra da dağlardan ayrılmaq istəmir. Arzu edir ki, ruhu öz bədən cismindən ayrılsa da, dağlardan ayrılmasın:

Dağların eşqində olmuşam hələk,
Geyinir əyninə yamyaşıl köynək.
Köçəndə kaş mənə deyəydi fələk:
Götür, özün ilə apar dağları (30, 49).

Aşıq Şəmşir öz torpağına, elinə bağlı bir sənətkar olmuşdur. Onun istər qoşmalarında, istər gəraylılarında ana torpaq, yurd yeri, təbiət gözəlliklərinin, təbiət mənzərələrinin təsviri mühüm yer tutur. Aşığın bir çox şeirlərində Murov, Dəlidağ, Qonur, Qoşqar, Taxtadüz, Kəpəz, Çilgəz kimi əzəmətli dağların, Çilik yalı, Daşarası, Buzluq, Həmzəçəmən, Dovudlu kimi tayı-bərabəri olmayan yaylaqların, Ağdaş,

Qızılarxac kimi səfalı yurd yerlərinin ətri duyulur. Aşığın poeziyası haqqında Hüseyn Arif haqlı olaraq yazmışdır: «Dədə Şəmşiri xatırladıqda istər-istəməz bu təbii suları, torpaqları, ağacları, çəmənləri, çiçəkləri xatırlamalı olursan. Onun poeziyası bizə ona görə xoş təsir bağışlayır ki, bu həzin çeşmələr, qıjıltılı çaylar, əzəmətli çaylar, sadə, məğrur insanlarla bağlı milyonların ürəyindən qopub gələn təbii bir səsdir» (12, 3). H.Arifin Şəmşir poeziyası üzərində apardığı müşahidələrin nəticəsi olan bu səciyyəvi fikri sənətkarın şeirlərində öz təsdiqini tapır:

Turşsuyun bulağı bu Çayqarışan,
Buzluğun çayıdı sellənib daşan.
Al bəzənir Ağdabanla Yolaşan,
Doymaz gözüm Çöplü gölə baxanda (28, 99).

Aşıq Şəmşir ilk baxışdan adi görünən bu misralarda elə yüksək bədii lövhə yaratmışdır ki, sanki rəssam tərəfindən gözəl bir təbiət mənzərəsinin təsvir edildiyi tabloya baxırsan. Aşıq oxucusunu xəyalən sazın-sözün qanadında Turşsuya, Buzluğa, Ağdabana, Çöplü gölə, Kəkil meşəyə aparır, təbiətin füsunkar mənzərələrini seyr etdirir. Osman Sarıvəllinin doğru olaraq qeyd etdiyi kimi, şair yaşadığı, gəzdiyi, gördüyü yerlərin vurğunudur. Bununla belə, vətən məfhumu onun üçün yalnız bu dağlar, dərələr, gözəl mənzərələr deyildir, daha böyük, daha geniş, daha mənalıdır (128, 7).

Şəmşir şeiriyyətinin əsas poetik məziyyətlərindən biri də odur ki, o təsvir etdiyi cansız varlıqlara canlı aləm kimi yanaşmış, onları insan kimi dilləndirmiş, təbiəti və onun gö-

zəlliklərini dilə gətirmişdir. «Nərgiz», «Bənövşə» və digər qoşmalarında belə yüksək sənətkarlığın şahidi oluruq. Aşığın «Bənövşə» rədifli bir neçə qoşması vardır. Bildiyimiz kimi, Qurbanidən sonra bir çox sənətkarlar kimi Şəmşir də bu mövzuya müraciət etmiş, bu mövzuda özünü sınamış, sələfinin təsiri altında, özünəməxsus şəkildə təbiətin bu məsum gözəlinə – bənövşəyə xitabən belə yazmışdır:

Baharda boyanır atlaz yarpağın,
Torpaqdan yaranıb rəngin, boyağın.
Günəş boylananda pörtür yanağın,
Girirsən al-yaşıl dona, bənövşə (28, 249).

Şəmşir bənövşənin cana gəlməsini, al-yaşıl dona girib bəzənməsini elə canlı təsvir etmişdir ki, sanki oxucu baharın əlvan çağında onun ətrini qoxulayır. Sənətkar bir tərəfdən bənövşənin incəliyinə, zərifliyinə məftunluğunu bildirir, onun zahiri gözəlliyindən zövq alır, digər tərəfdən isə tez solmağı, gödək ömürlülüyü aşığı kövrəldir:

Şəmşir sığalını başına çəkdi,
Sənin tək tez solan hansı çiçəkdi?
Bilmirəm, ömrünüz niyə gödəkdi,
Kim qərar veribdi buna, bənövşə? (28, 249)

Ustad sənətkar yurd həsrətini, vətən istəyini öz el-obasından ayrı qaldıqda daha çox hiss etmiş, doğma diyarını yada salmış, yurd həsrətli, vətən istəkli şeirlər qoşmuşdur. Həmin şeirləri oxuduqca görürük ki, Şəmşir üçün anadan olduğu yer,

qucağında boy atdığı dağlar, yaylaqlar bir ana timsalındadır:

Anam İstisudur, cənnətə bənzər,
Oxşarı behiştdir, yetirsən nəzər.
Yad kimi görünür mənə bu yerlər,
Üzüm gülər, Sarı dağı görəydim (30, 48).

Aşıq öz elini, obasını, onun qarlı dağlarını, allı-güllü yaylaqlarını, lilparlı-yarpızlı bulaqlarını böyük şövqlə təsvir etmiş, vətənin cənnət misallı təbiəti aşığın qubarlı ürəyini təlatümə gətirmişdir. Burada təbiət mənzərələrinin tərənnümü ilə vətən, yurd həsrəti bir-birini harmonik şəkildə tamamlamışdır.

Ümumiyyətlə, Aşıq Şəmşirin təbiət təsvirli şeirlərində şuxluq, oynaqlıq, nikbin ruh hakimdir. Bu dəyərli poeziya nümunələrində o, əzəli-əbədi vətən təbiətini böyük məhəbbətlə vəsf etmiş və poeziyamızı ecazkar sənət nümunələri ilə zənginləşdirmişdir.

### 2.5. Əxlaqi-didaktik şeirlər

Aşıq Şəmşir poeziyasının mühüm bir qismini əxlaqi-didaktik motivli şeirlər təşkil edir. Bu qəbildən olan nümunələrdə həyat, dünya, zaman haqqında fəlsəfi-poetik düşüncələr, həmçinin mərd-namərd, əsil-bədəsil və s. kimi düşündürücü məsələlər öz əksini tapmışdır. Aşığın bu silsilədən olan əsərlərinin mövzusu real həyatdan götürülmüş, onların ideya qaynağını dövründə, zəmanəsində baş verən hadisələr təşkil etmişdir. Bu baxımdan, sənətkarın ustadnamələri xüsusilə sə-

ciyyəvidir.

Aşıq Şəmşirin ustadnamələrində dünya mənəvi-əxlaqi münasibətlərin dual (ikili) qurumu kimi təsvir olunur. Burada xeyirlə şər, ədalətlə zülm, doğru ilə yalan, haqq ilə haqsızlıq, mərd ilə namərd, qəhrəmanla müxənnət daim ziddiyyətdədir. Bu mübarizədə «Yalan ayaq tutsa da, yerimir», «Haqq nazilsə də, üzülmür». Dünyanın bu ulu həqiqətləri Şəmşir poeziyasının fəlsəfi-poetik idealı kimi tərənnüm olunur. «Bu təzadlı keyfiyyətlərin qarşı-qarşıya qoyulması sayəsində aşıq poeziyasının mənəvi estetik dəyəri xeyli dərəcədə açılmış olur. Təzadlar mahiyyətcə idealın təsdiqinə aparır. Mənəvi gözəlliyin təsdiqi bu təzadlar axarında özünə yol tapa bilir» (57, 11). Aşıq Şəmşir də öz poeziyasında bu təzadlı keyfiyyətləri qarşı-qarşıya qoymuş, birinin digəri üzərindəki üstünlüyünü qabartmaqla müsbət mənəvi keyfiyyətləri, o cümlədən mərdliyi ən gözəl mənəvi keyfiyyət kimi ön plana çəkmişdir:

Mərd ilə ülfət qıl, zəhmətə qatlan,
Salamat baş saxla hər ehtiyatdan.
Bədəni hifz elə pisdən, bədzatdan,
Haram doğru yolda düz dura bilməz (31, 9).

Nəsihətamiz fikirlərin dolğun ifadəsi aşığın bu qoşmasında öz parlaq ifadəsini tapmışdır. Göründüyü kimi, aşıq sirr saxlamağı bacarmayan, namərd, nakəs adamlardan uzaq olmağı tövsiyə etmişdir. Şəmşir, haqlı olaraq, mərd insanlarla ünsiyyət qurmağa, dostluq etməyə çağırmış və mərdliyi namərdliyə qarşı qoymuşdur.

Aşığın yaratdığı mərd obrazı bütün müsbət mənəvi keyfiyyətlərin daşıyıcısı olmaqla bərabər, eyni zamanda, Şəmşirin insan idealı kimi çıxış edir:

Arifə, alimə, qədir bilənə,
Duyan adamlara nökər olaydım.
Nur saçaydım mərd insanlar çeşminə,
Yollarında nurlu səhər olaydım (31, 69).

Bu nümunədə aşıq arif və mərd insanlarla ünsiyyət qurmağı tövsiyə etmişdir, sənətkar, hətta bu cür ali əxlaqi keyfiyyətlərin daşıyıcısı olan insanların nökəri belə olmağa hazır olmuşdur. Şəmşir belə bir həqiqəti təlqin etməyə çalışmışdır ki, namərdin dostluğu da təmənnalıdır, o hər işdə məqsəd güdür, igid olan kəs isə vara-yoxa baxmır, hər zaman insanın köməyinə çatır, dar gündə əlindən tutur.

Sənətkar mərdliyi uca əxlaqi sifətlərin daşıyıcısı olaraq tərənnüm etdiyi kimi, namərd obrazını da hər cür mənfi əxlaqi sifətlərin daşıyıcısı kimi tənqid etmişdir:

Namərdə yalvarmaq insafdan deyil,
Düşmənə yaltaqlıq mərdə yaraşmaz!
Öyünüb desə də min yol nakişi:
«Mənəm qəhrəman da, nər də», – yaraşmaz! (33, 466)

Göründüyü kimi, Şəmşir namərdliyi ən eybəcər mənəvi keyfiyyət kimi qabartmışdır və xüsusi bir pafosla mərdə layiq olmayan keyfiyyətləri «yaraşmaz!» deyə səsləndirmiş, insanları belə əməllərdən uzaq durmağa çağırmışdır. Sənətkarın «yaraşmaz» nidası, əslində, onun bütün yaradıcılığı və

şəxsi-mənəvi keyfiyyətləri üçün xarakterik işarə olub, dünyanı hansı əxlaqi prinsipləri əsas götürərək yaşamasını da bildirir. Şəmşirin əqidəsinə görə, insan bacardıqca namərdlərdən uzaq durmalıdır, çünki namərd xəbisliyi, riyakarlığı, ikiüzlülüyü ilə insanda ikrah hissi oyadır, o, öz məqsədi naminə cilddən-cildə, dondan-dona girə bilir:

Namərd sənin qulluğunda qul olar,
Öz işi düzəlib-bitənə kimi;
İrişə-irişə üzünə gülər,
Əli bir tərəfə çatana kimi (31, 51).

Şəmşirin inamına görə, mərd insan nə qədər əzab və əziyyətlərə, məhrumiyyətlərə düçar olsa belə, o daşıyıcısı olduğu uca əxlaqi ideallar naminə namərdlər qarşısında əyilməməli, sınmamalıdır. Buna görə sənətkar sanki Tanrıdan da mərdi namərdə möhtac etməməsini, halal payını, ruzusunu yetirməyi arzulamışdır:

Zalım yoxsulluqdu insanın dərdi,
Bəndə böhtanının tamı zəhərdi.
Namərd ayağına yıxmasın mərdi,
Halal rizqi bir rəbbanı yetirsin (31, 28).

Sənətkarın ustadnamələrinin lirik qəhrəmanları aşıq poeziyasının mərd-namərd, vəfalı-bivəfa, əsilli-nacins, adil-zalım, səxavətli-xəsis kimi ənənəvi obrazları olsa da, Şəmşir əsrlərdən cilalana-cilalana yol gələn bu obrazlara öz poeziyasında yeni ruh verib, onları yaşadığı zamanın ulu həqiqətlərinin ifadə vasitəsinə çevirməyi bacarmışdır:

Bivəfa yoldaşa, biilqar dosta,
Sirrini bildirmə, elə yayılar.
Bel bağlama sınanmamış hər dosta,
Düşər gizli sirrin dilə, yayılar (31, 8).

Bu banddən də görünür ki, ustad aşıq vəfasız, ilqarsız insanlara inanmamağa, etibar etməməyə çağırmış, sınanmamış hər insanla dostluq etməməyi, dostu sınaqdan çıxarmağı məsləhət görmüşdür. Burada bir məsələ diqqəti xüsusilə cəlb edir. Əslində, bu şeirdə bivəfa yoldaş, biilqar dost haqqında deyilənlər Şəmşirdən çox-çox qabaq ustad sənətkarlarımız tərəfindən deyilmişdir. Bu halda ilk baxışdan elə görünür ki, Şəmşir təkrara yol vermişdir. Lakin şeirdə təsdiq olunan həqiqətin fəlsəfi dialektikasına fikir verdikdə Şəmşirin dünyanın ulu həqiqətlərini bir daha tərənnüm etməsinin səbəbləri aydın olur. Şəmşir ulu yaddaşa üz tutub böyük sənətkarların bəyan etdiyi həqiqətləri bir daha təsdiq etməklə, əslində, keçmişə yox, məhz öz zamanına üz tuturdu. Keçmiş və onun həqiqətləri Aşıq Şəmşir üçün ulu yaddaşdır və bu yaddaş sənətkar üçün ondakı həqiqətlərin məhz müasir dövrdə (Şəmşirin və müasirlərinin yaşadığı zamanda) aktual olması ilə əlamətdardır. Şəmşir bu həqiqətləri bir daha poetikləşdirib, dinləyicilərinin diqqətini dünyanın ulu həqiqətlərinə, dəyişməz qanunlarına cəlb etmiş, onları saflaşmağa, dünyanın gedişatından ibrət dərsi alıb gözəlləşməyə çağırmışdır.

Sənətkarın poeziyasında mərd obrazı ayrıca olaraq tərənnüm edildiyi kimi, bu obrazı şərtləndirən, onun məna tərkibini təşkil edən mənəvi-əxlaqi sifətlər tərənnüm olunmuş-

dur. Bu cəhətdən, Aşıq Şəmşirə görə, sözübütövlük, əhdə vəfalılıq, düzilqarlılıq mərdliyin ən gözəl keyfiyyətlərindəndir:

Min fikirdən sənə zərrə nəf olmaz,
Kişidə sədaqət, düz ilqar gərək.
Bəxtin kəskin ola, sözün işləyə,
İnsanda bir tale, bir iqbal gərək (31, 43).

El sənətkarının poetik düşüncələrinə görə, mərd insanın əsli-kökü də mərd olur, namərd-nanəciblər isə xilqətdən haram doğulanlardır. Başqa sözlə, mərdlik və namərdlik hər bir insanda təsadüf edilə biləcək keyfiyyətlər yox, həm də dünyanın dəyişməz həqiqətləridir. Yəni insanlar doğulub-ölüb nəsillər törətdiyi kimi, mərdlik və namərdlik də bu dünyanın daim var olan, nəsillərdən-nəsillərə keçən dəyərləridir. Aşıq bunu doğru olaraq belə səciyyələndirmiş və belələrindən uzaq durmağı nəsihət etmişdir:

Hər an satqın olur iküzlü adam,
Nütvədən naqabil, xilqətdən haram;
Nanəcib insanla olmasın aran,
Səni xalq içində xəcalət eylər (26, 35).

Aşığın yaradıcılığında xüsusi şəkildə tərənnüm olunan uca əxlaqi sifətlərdən biri yaxşılıqdır. Sənətkara görə, yaxşılıq əsl insanın xarakterinin ən ümdə keyfiyyətidir: insan nə qədər yaxşılıq etsə, bir o qədər çox hörmət qazanar. Bu cəhətdən sənətkar ustadnamələrində insanlara əxlaqi keyfiyyətlər, nəcib insani sifətlər aşılamağa çalışmışdır. Şəmşirin «Oğlum» nəsihət-qoşmasında onun əsl insanda görmək istədiyi keyfiyyətlər bir bütöv olaraq tərənnüm olunmuşdur:

Sənə nəsihətim olsun yadigar,
Saxla həmişəlik əmanət, oğlum.
Sözümün şirəsi, şirin şəhdi var,
Sözümlə taparsan şərafət, oğlum.

Ayıq ol həmişə, uyquda yatma,
Namus bir baratdı əlindən atma.
Yoldaşın sirrini yoldaşa satma,
Yadından çıxmasın nəsihət, oğlum (31, 32).

Aşıq Şəmşirin ustadnamələrinin bir çoxu divani janrındadır. O, öz əxlaqi-didaktik düşüncələrini divanilərdə verərkən janrın poetik imkanlarından yetərincə istifadə etmişdir. Divanilərdə poetikləşdirilmiş mövzulardan birini dostluq təşkil edir. Şəmşir üçün dostluq sadəcə olaraq ünsiyyətin bir növü yox, son dərəcə ciddi əhəmiyyətə malik olan həyati hadisədir. O, öz şeirlərində bəyan etmişdir ki, insan dostlarını seçəndə ehtiyatlı və tədbirli olmalı, mərd insanlarla ülfət bağlamalı, nakəslərdən uzaq durmalıdır:

Mərd yolunda başı-candan mərd olub keçmək gərək,
Nainsafın qılınc ilə nəslini kəsmək gərək,
Gen gündə dolandırar, şil də saxlar başını,
İşin dara düşən zaman dostları seçmək gərək (31, 262).

Aşıq Şəmşir ustadnamələrdə halal-haram, gözütoxluq-nəfs, xəsislik, səxavət-tamahkarlıq, əliaçıqlıq-acgözlük kimi əxlaqi-mənəvi sifətləri də öz poetik düşüncəsinin obyekti kimi götürmüşdür:

İnsan gərək qəm yuxusu yatmaya,
Mayasına zərrə haram qatmaya.
Ölənədək həmdəmini satmaya,
Pak ürəyi, etibarı gərəkdi (31, 28).

Nümunədən göründüyü kimi, əsl insan bədbin olmayıb, dünyaya açıq ürəklə baxmalı, işlərində düzgün olub, harama yol verməməli, insanlığa sədaqətli olmalı, təmizlik, saflıq, sədaqət kimi yüksək əxlaqi sifətlərin daşıyıcısı olmalıdır. Sənətkara görə, belə insan həm Allahın, həm də insanların sevimlisi olub, ona verilmiş ömrü mənəvi rahatlıq içərisində başa vurur.

Aşıq doğru olaraq bəyan edir ki, insanı mənəvi cəhətdən şikəst edən tamahkarlıq, var-dövlət hərisliyi onu həm də fəlakətə sürükləyir. İnsan gərək hərislik etməsin, var-dövlətə aludə olmasın, başqalarına da əl tutsun. Çünki dünya malı dünyada qalandır. Şəmşir həyatda görüb-götürdüyü örnəkləri bədiiləşdirməklə göstərir ki, tamahkarlıq nadanlığın nəticəsidir, var-dövlət yığmağın mənası yoxdur, insanın sonu puçdur, ölümdür, pula aludəçilik isə bu dünyada insanlara əsl cəhənnəm əzabıdır:

Şəmşir, artıq tamah günahdı, qandı,
Hər tamahkar dünyada bir nadandı.
Dövlət yığıb artıran da peşmandı,
Axır olar günün qara, tamahkar (31, 150).

Şəmşirə görə, insan ona verilmiş ömrü zəhmət və halallıqla yaşamalıdır. Onsuz da dünyaya gələn hər bir insan nəyinsə yolunda çalışır. Lakin insan zəhmət çəkib çalışarkən

halallığı öz fəaliyyətinin əsas prinsipinə çevirməlidir. Bununla o, həm bu dünyasını, həm də o dünyasını təmin etmiş olur. Bu baxımdan, sənətkar daim tənbəlliyi, əməyə xor baxan insanları tənqid atəşinə tutmuş, zəhməti, halallığı təbliğ etmişdir:

Tənbəllikdən bir şey çıxmaz,
Çalış zəhmətlə mal qazan.
İstəyirsən xəznədar ol,
Nə qazansan halal qazan (31, 187).

Aşıq Şəmşirin ustadnamələrində vəsf edilən keyfiyyətlər sırasında mənəvi dəyər kimi mərifətə üstünlük verilir. Ustadnamələrdən bəlli olur ki, Şəmşirin «mərifət» anlayışı çox geniş olub, bu terminin həm klassik, həm də müasir mənalarını əhatə edir. «Mərifət» sözü ərəbcə «maarif» sözündən olub, biliklər mənasındadır. Orta əsrlərdə mərifət sahiblərinə «arif» deyirdilər. Şəmşirin ustadnamələrində «mərifət» anlayışının klassik dəyəri öz mənasını saxlamaqla, həm də qanacaq, qabiliyyət, yüksək əxlaq anlamlarındadır. Sənətkar öz həməsrlərinə üz tutaraq onlara mərifətli insanlarla ünsiyyət qurmağı tövsiyə etmişdir. O, bu cür insanların zəngin daxili aləmi, mənəvi gözəlliyi haqqında gözəl misralar yaratmışdır:

Özü arif olan, mətləbi qanan,
Mərifət əhlindən kənar dolanmaz.
Dünyagörmüş mala, pula aldanmaz,
Dost yolunda soyuq, bekar dolanmaz (31, 137).

Sənətkarın ustadnamələri üzərində aparılmış müşahidə-

lər göstərir ki, o, öz yaradıcılığında mənəvi gözəlliklərdən biri kimi doğruluğu da tərənnüm etmişdir. Yalana və yalançılara nifrət bəsləyən aşıq doğruluğu bütün insanlarda görmək istəmişdir:

Dünya malı bu dünyada qalandı,
Çoxlarının taxtı-tacı talandı.
Doğruluqdan qeyri nə var, yalandı,
Məhəbbət vəfalı dostdu demişlər (31, 90).

Əslində, bu bəndi Şəmşirin şəxsi əxlaqi dünyasının ifadəsi saymaq olar. Şeirdə aşığın əxlaq kredosu öz ifadəsini tapmışdır. Sənətkar çox ibrətamiz şəkildə öz fikirlərini çatdırmış, dünyada doğruluqdan, təmizlikdən, məhəbbətdən savayı hər şeyin yalan olduğunu poetik misralarla gerçəkləşdirmişdir. Aşıq Şəmşir haqlı olaraq doğruluğun, halallığın, təmizliyin peyğəmbərimizdən bizə irs qaldığını, fitnə və yalanın isə şeytan əməli olduğunu söyləmişdir:

Peyğəmbərdən qalıb halal doğruluq,
O səbəb çox olub üzünə bolluq.
Şeytanın işidir fitnə, oğurluq,
Halal qazancını hanı tanıyan? (31, 168)

Sənətkar inanclı insan olmuş, öz dövrünün hər cür ideoloji təzyiqlərinə baxmayaraq, Uca Allaha, Onun müqəddəs kitabı «Qurani-Kərim»ə, Allahın elçisi Məhəmməd peyğəmbərə (s.), imamlara dərin sevgi və məhəbbət bəsləmişdir. Bu sevgi onun poeziyasında da ifadə olunaraq sənətkarın yaradıcılığına ruhani həzinlik və ilahi-poetik məntiq vermişdir. Məsələn, aşığa görə, bir insan qəlbini şad eyləmək,

bir yoxsula əl uzatmaq, yardım etmək Kəbə evini tikməyə bərabərdir. Bunu ustad aşıq «Döndərib» divanisində belə əyaniləşdirmişdir:

Xoşdur yerdən göyə qədər bir qəlbi şad eyləmək,
Yoxsula əl uzadıb kömək, imdad eyləmək.
Kəbə evin tikmiş olur, qulu azad eyləmək,
Səd heyf ki, doğru yoldan günahkar üz döndərib (28,410).

Aşıq Şəmşir ustad sənətkar, el ağsaqqalı kimi onu əhatə edən cəmiyyətin, demək olar ki, bütün məsələlərinə toxunmuşdur. Bu cəhətdən valideyn-övlad münasibətləri də sənətkarı düşündürmüş, ustadnamələrinin əsas mövzularından birini təşkil etmişdir:

Oğul var ki, quldu ata yolunda,
Atasına haray deyər, hay deyər (31, 132) –

deyən, yaxşı övladı öyən sənətkar eyni zamanda pis övladı da tənqid hədəfinə çevirmişdir:

Oğul var ki, oldu, xeyir vermədi,
Şərə çapdı, yaxşı bir iş görmədi (31, 132).

Aşıq Şəmşirin əxlaqi-didaktik dəyərləri əks etdirən şeirlərində qabardılan mövzulardan biri də elm, bilik öyrənmək, müəyyən bir peşəyə yiyələnməkdir. O, ustadnamələrində insanları elm öyrənməyə, bilik əldə etməyə çağırmışdır. Sənətkar elmi, biliyi hər şeydən uca tutmuş, ona yüksək dəyər vermiş və yalnız elmli insanın özünü və Tanrısını dərk edə bildiyini demişdir. Aşıq Şəmşir elmin, biliyin insanı ucaltdığını bəyan etmiş, həqiqəti, haqqı dərk etməkdə yeganə, doğru-düz-

gün yol hesab etmişdir. Çünki elm insanın gözlərini açır, ona işıqlı yol göstərir. Aşıq doğru olaraq göstərmişdir ki, insan özünü elm yolunda fəda etməli, onun nökəri olmalı və bütün ömrü boyu öyrənməkdən usanmamalıdır. «Yüz haram qazancdan savad yaxşıdı» deyən Şəmşir şeirlərində bu motivi xüsusilə qabartmışdır:

Elm üçün özünü etməyən nökər,
Bütün ömrü boyu ahu-zar çəkər.
Ağlayar, gözündən qanlı yaş tökər,
O kəsdə fərasət var ola bilməz (31, 38).

Aşıq Şəmşir öz ustadnamələrində insanları peşə, sənət sahibi olmağa səsləmiş, insanın bir peşə sahibi olmasına onun həyatda tutduğu yol kimi baxmışdır:

Yaşadacaq xoş adəti
Səadətin səltənəti.
Hər peşəni, hər sənəti
Kamil bacaran yaxşıdı (31, 202).

Aşığın bu misraları dahi Nizaminin «Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan» fikirləri ilə səsləşməklə sənət haqqındakı həyat həqiqətlərinin əsrlər ərzində dəyişmədən qaldığını da nümayiş etdirir. Lakin Şəmşir şeiri ənənəvi mövzularda belə özünəməxsus cazibəyə malikdir. «Şəmşir poetik sözü çeşidləməkdə, ifadələri sərrast ünvanlı işlətməkdə əvəzsiz aşıq-şairdir. Onun ustadnamələri, təəssüfnamələri bakirəliyini fikrin poetik məqamda təzə-tərliyini nümayiş etdirir. Bu mənada, Şəmşir yaradıcılığı cəmi ustad, peşəkar-ifaçı aşıqlar üçün duyumlar xəzinəsidir» (97,

35). Bu cəhətdən, əxlaqi-didaktik şeirlərindən aydın görünür ki, Şəmşir mərdanə həyat tərzi keçirmiş, halallıq, düzlük, sədaqət, namus onun həyat amalı olmuşdur.

Aşıq Şəmşirin poeziyasında həyat-ölüm, dünya, zaman haqqında fikirlər də üstünlük təşkil edir. Şəmşirin şeirlərində ölüm, axirət dünya və buna qarşı olaraq dünya, həyat haqqında olan fəlsəfi-poetik düşüncələr öz təcəssümünü tapmışdır. Xüsusilə də sənətkar öz yaradıcılığında «Dünya» obrazını daha çox qabartmış, bu mövzuya həm ayrı-ayrı şeirlərində müraciət etmiş, həm də xüsusi əsərlər həsr etmişdir. Yazıçı-tədqiqatçı Elçin təkcə Şəmşir yaradıcılığı üçün yox, bütün aşıq poeziyası üçün xarakterik olan bu obraz haqqında yazır: «Bu poeziyanın (aşıq poeziyasının – S.İ.) poetikasında və fəlsəfi ideoloji məzmununda çox əhəmiyyətli rol oynayan obrazlardan biri «Dünya» obrazıdır və bu, əlbəttə, təsadüfi deyil… «Dünya»nın yüksək bədii-estetik şəkildə obrazlaşması klassik Şərq ədəbiyyatında, o cümlədən Azərbaycan klassik poeziyasında ara-sıra təsadüf olunan bir hadisədir. Ancaq klassik aşıq poeziyasında bu obraz özünün ən kütləvi ifadəsini tapmışdır və həmin poeziyanın estetik-fəlsəfi tərkib hissəsinə, məxsus faktına çevrilmişdir» (52, 9). Müəllifin doğru olaraq qeyd etdiyi kimi, aşıq sənəti tariximizdə elə bir ustad aşıq tapmaq çətindir ki, «Dünya»ya xüsusi şeir həsr etməsin, yaxud digər şeirlərində bir obraz kimi «Dünya»dan istifadə etməsin. Aşıq Şəmşir yaradıcılığı da bu baxımdan istisna təşkil etmir. Sənətkarın bu qəbil ustadnamələrində fəlsəfilik, düşündürücülük hakimdir. Onun dünya motivli şeirləri fəlsəfi düşüncənin dərinliyi ilə seçilir. Bu mövzulu əsərlərinə əsasən Şəmşirin dərin düşüncə tərzinə,

fəlsəfi dünyagörüşə malik olması haqqında mühakimə yürütmək olar. Qeyd edək ki, şair-aşığın bu mövzuda silsilə şeirləri vardır. Aşıq bu qəbildən olan əsərlərində göstərir ki, dünya fanidir, vaxt gəlib çatanda Əzrayıl insanın canını alır, nə qocaya, nə də cavana baxır:

Dünyanı dörd əllə tutan insanın,
Bivəfa ömrünə gümanı varmı?!
Əzrayıl yetişib alanda canın
Əcəlin insafı, amanı varmı?! (31, 129)

Aşıq Şəmşir ölümün amansızlığını, ömrün vəfasızlığını, bu dünyanın faniliyini, Əzrayılın insanın canını alanda heç nəyin və heç kimin köməyə çatmadığını yüksək bədii sənətkarlıqla poetikləşdirmişdir.

Nəsimi, Firdovsi, Xəqani, Cami,
Nizami, Füzuli tanıyır hamı,
Coşanda, daşanda şair ilhamı,
Sözlərdən qeyri bir nişanı varmı?! (31, 130)

Aşıq Şəmşir bu bənddə Şərqin dahi klassiklərinin adlarını sadalamış, bu dünyadan köçdüklərini, lakin sözlərinin, əsərlərinin həmişəyaşarlığını və əbədiliyini göstərmişdir. Buradan belə nəticəyə gəlmək olur ki, düzdür, dünya fanidir, ancaq yaradılanlar, yazılanlar onda qalırsa, deməli, haradasa dünyanın etibarı da var. Obrazlı şəkildə dünyanı saraya bənzədən sənətkar göstərmişdir ki, insanlar dünyaya gəlib-gedəndir, qoca dünya isə əbədi qalandır:

Ay keçir, gün keçir, ömür azalır,

Vədə tamam olur, cəllad can alır,
Qoca dünya sarayında kim qalır,
Gərdişin ilqarı, imanı varmı (31, 130).

Bu şeir dünyaya, çərxi-gərdişə, onun işləklərinə fəlsəfi bir baxışdır. Ümumiyyətlə, «Varmı» rədifli şeirinin bütün bəndlərində eyni ideya əlvan məzmun çalarlarında tərənnüm və təbliğ olunmuşdur.

Dünya yaranandan bəri əzəli-əbədi qanunları vardır və onlar dəyişməzdir. Aşıq hamının dünyaya bir dəfə gəldiyini, ölümün heç kimə fərq qoymadığını – varlının da, yoxsulun da, alimin də, nadanın da, gözəlin də, çirkinin də vədəsi çatanda bu dünyadan gedəcəyini göstərmişdir:

Elə ki yol alır köçün, karvanın,
Kəsilir obadan, eldən gümanın.
Dar məzar içində tək qalır canın,
Bu bağlı qapıya bir açar yoxdu (31, 139).

Qoşmanın digər bəndlərindən də gördüyümüz kimi, aşıq ömrün vəfasız, ölümün isə labüd olduğunu oxucuya çatdırmağa çalışmışdır. O göstərmişdir ki, insan həyatı tez parlayan və tez də sönən bir qığılcımdır. İnsan həyatını bir karvana bənzədən sənətkar bəyan etmişdir ki, vədə tamam olanda köçün, karvanın tərpənir, insan soyuq məzarda tək qalır və Şəmşirin öz sözlərilə desək, «bu bağlı qapıya bir açar yoxdu». Şəmşir ölümdən sonrakı dünyanı, qəbir əzabını, axirət gününü xatırlatmaqla insanları haqq yoluna dəvət etmiş və doğru yoldan çıxmamağa çağırmışdır. Şeirdən çıxan nəticə budur ki, dünya fani, ölüm isə haqdır, hər bir insan bu dünyada artıq o

dünyası haqqında fikirləşməlidir, çünki sonsuz xoşbəxtlik məhz orada – Tanrının yanındadır.

El sənətkarının şeirlərində həyat-ölüm motivi dünyanın ən ulu həqiqətlərinin poetik ifadə vasitəsi olaraq işlənmişdir:

Bir ovuc torpaqla doyacaq gözün,
Bu qoca dünyadan doymayan insan.
Köçər ki, bir qonaq bilməyən özün,
Dünyada ölümü saymayan insan.

Oxumursan göndərilən kitabı,
Dar məzarın var sualı-cavabı.
Şeytanın əmrinə olubsan tabı,
Haqqa, ədalətə uymayan insan (31, 169).

Şəmşir həməsrlərinə təlqin etməyə çalışmışdır ki, insan var-dövlət hərisi olmamalıdır. Çünki o zaman ki insan mala-mülkə, pula-vara bel bağlayır, onda Tanrısını, o dünyasını unudur. Dünya malı dünyada qalandır və aşıq dünya malından gözü doymayan insanın bu dünyadan «beş arşın ağ kəfən»dən başqa heç nə apara bilməyəcəyini nəzmə çəkmişdir. İnsan qonaq olduğu bu dünyada haqq yoluna qayıtmalı, bacardığı qədər yaxşılıq etməli, şeytanı qəlbinə və ürəyinə yaxın buraxmamalıdır. Şəmşir «dar məzarın var sualı-cavabı» deməklə axirətin əzablarını, sual-cavabın ağırlığını bir daha insanlara xatırlatmışdır. O, insanı hər zaman Tanrısına üz tutmağa, ona tapınmağa çağırmışdır. O şəxsin ki qəlbi kinlə, paxıllıq və həsədlə doludur, o şəxs ki Tanrısını unudur, dilində kəlmeyi-şəhadət yoxdur, o zaman insan uçuruma yuvarlana bilər. Sənətkar belə bir ulu həqiqəti təlqin etməyə

çalışmışdır ki, qiyamət günü Allah bütün insanları dirildəcək, hər kəs öz əməlinə görə cavab verəcək, bir qisim insanlar cənnətdə əbədi yaşamaq hüququ qazanacaq, digər qrup insanlar isə əbədi əzaba məhkum olacaqlar. Yəni insan bu dünyada bacardığı qədər yaxşılıq etməli, pis əməllərdən çəkinməlidir.

Şəmşir, mahir oldun sən ki hər işdə,
Nələr gördün çərxi-dövran gərdişdə.
Sənə birdi cəhənnəm də, behişt də
Elmi, mərifəti duymayan insan (31, 169).

Bu sonuncu bənddə aşıq insanları elmli, bilikli olmağa səsləmişdir. Çünki nadan üçün cənnət, cəhənnəm anlayışı yoxdur, yalnız elmli adam bu dünyanın mahiyyətini, əzəli-əbədi qanunlarını anlayır və həyatını bu prinsiplər üzərində qurmağa çalışır. Qeyd edək ki, sənətkarın bu ustadnaməsinin alt qatında dərin fəlsəfi mənalar gizlənmişdir. Qoşmada insanlar haqq yoluna dəvət edilməklə, burada aşığın həyat, dünya, insan haqqındakı təsəvvürləri özünü aydın şəkildə göstərmişdir.

Sənətkar «Getdi» rədifli qoşmasında deyir:

Bir kəsə qalmadı dünyanın varı,
Hanı xan, xaqanlar getdimi, getdi.
Atanlar, tutanlar, mənəm deyənlər,
Vuranlar, yıxanlar getdimi, getdi... (33, 174)

Şeirin bütün bəndləri çox ibrətamizdir, hər misrasından sənətkarın cəsarətli nida ilə söylədiyi «getdi» kəlməsini eşidirik. Aşıq oxucusunu düşünməyə vadar etmişdir. Şəmşir

cəsarətlə bəyan etmişdir ki, dünyada fironluq, ağalıq edənlər, mənəm-mənəm deyənlər, nahaq qan tökənlər, hərisliklə dünya malı yığanlar, bunlarla bərabər alimlər, aqillər də özlərindən sonra yaratdıqlarını miras qoyub getdilər. Fərq bundan ibarətdir ki, öz qəddarlıqları və zülmkarlıqları ilə ad qazanmış birincilər öldükdən sonra özləri və adları xalqın yaddaşında həmişə nifrətlə xatırlanır, ikincilər isə yaratdıqları qiymətli söz inciləri ilə daim xalqın və tarixin yaddaşında hörmətlə anılır. Şəmşirin bu qoşması bütünlüklə nəsihətverici xarakter daşıyır.

Aşığın «Apardımı» rədifli şeiri həyat həqiqətlərinin yüksək məzmun və formada təcəssümü baxımından əlamətdardır:

Dünya, səndə bağ becərən bağbanın,
Birisi əlində bar apardımı?
Bir amansız xəlbirisən insanın,
Sənə gələn xeyir, kar apardımı?

Adəmi aldadıb bu çərxi-dövran,
Cənnətdən qovuldu oldu pərişan.
Üç yüz arvad alıb şahi Süleyman,
Yanınca bir yoldaş, yar apardımı? (31, 124)

Şəmşirin bu qoşması da olduqca hikmətli fikirlərlə zəngindir. Yenə də dünyaya müraciət edən aşıq onu sorğu-suala tutmuş, insanı bağ becərən bağbana, dünyanı isə xəlbirə bənzətmişdir. İnsan dünyaya gəlir, yaşayır, nəsil artırır, törəyir, ömrünün sonuna kimi işləyir, əzab çəkir, özündən sonra nişanə qoyur, amma özü ilə heç nə aparmır. İnsanlar gəlir,

dünyanın xəlbirindən keçir və gedirlər. Burada çərxi-dövran sözü dünya sözünün sinonimi kimi işlənmişdir. Aşıq göstərir ki, nə qədər ki dünya var, insanlar gələcək və gedəcək, dünya dolub-boşalacaq və bu, qiyamət gününə qədər davam edəcək. Şəmşir bildirir ki, bu dunya heç kimə rəhm etmir, hətta dünyaya səs salmış mənəm-mənəm deyən Süleyman peyğəmbər, dünyanı fəth edən İsgəndər də öləndə quru addan və ağ kəfəndən başqa heç nə aparmadılar.

Gördüyümüz kimi, Şəmşir poeziyasında «Dünya» obrazına xüsusi müraciət vardır. Ayrı-ayrı şeirlərində də bu mövzuya ötəri də olsa, toxunmuşdur. Əsərlərində də dünyanı məhəbbətlə vəsf edən sənətkar bəzən ona qarşı çıxır, sanki dünyanı vəfasızlıqda ittiham edir. Lakin bu məsələnin üzdən görünən tərəfidir. Mahiyyətinə vardıqda isə görürük ki, Aşıq Şəmşir əsrlərdən bəri aşıq poeziyasının poetik kredosuna çevrilmiş «ölüm haqdı» fikrini şeirlərinin canına hopdurmuşdur. Aşıq poeziyası öz çoxəsrlik tarixində ölümün mövcudluğunu, varidliyini dərk etmiş və yaşatmışdır:

İnsan undu, dünya ələk,
Onda gördüm min bir kələk.
Dost dediyim qoca fələk,
Demə, adam soyan imiş (31, 203).

Bu bənddə dünya-qoca fələk sinonim sözlər kimi götürülmüşdür və eyni mahiyyət kəsb edir. Burada insan – bənzədilən, dünya – bənzəyəndir. Dünya – ələk ələnir, insanlar bu ələkdə ələnir, dünyaya gəlir və gedirlər, un ələkdə ələnib təmizləndiyi kimi, insanlar da yaxşılara və pislərə ayrılırlar və Tanrı dərgahında hər kəs öz layiqli yerini tapır. Burada

dünyanın ələyə bənzədilməsi sufilik nöqteyi-nəzərindən dünyanı rəmzləşdirir, onun mahiyyətini anladır.

Ümumiyyətlə, Aşıq Şəmşirin əxlaqi-didaktik şeirləri həm məzmun, həm də forma baxımından zəngindir. Sənətkarın bu motivli şeirləri öz ifadəsini onun ustadnamələrində daha parlaq formada tapmışdır. Şəmşir ustadnamə şeirinin bütün klassik ənənələrini öz yaradıcılığında yaşatmağa çalışmışdır. Ancaq onun yaradıcılığının təhlili göstərir ki, sənətkarın ustadnamələrini, yaxud digər əxlaqi-didaktik şeirlərini yalnız ənənə baxımından dəyərləndirmək düzgün olmaz. Belə ki, Şəmşir ənənəyə daim yeni nəfəs, təravət verməklə ustadnamə şeirinin, sözün həqiqi mənasında, klassik örnəklərini yaratmağa nail olmuşdur. Bu əsərlərdə dünyanın əzəli-əbədi həqiqətləri təsdiq olunmuş, insanlar doğru-düzgün yola dəvət edilmişlər. Səciyyəvidir ki, ustad sənətkar sovet dönəmində yaratdığı şeirlərdə belə xalqımızın əsrlər boyu inandığı müqəddəs dəyərləri yaşatmağa çalışmış və beləliklə, öz yaradıcılığı ilə tariximizlə bu gün, keçmişlə müasirlik arasında etibarlı körpü rolunu oynamışdır. Aşıq Şəmşir yaradıcılığının həmişəyaşarılığı onun poeziyasının forma və məzmun gözəlliyi ilə yanaşı, həm də bu keyfiyyətinə – müqəddəs ənənələrə sədaqətdə ifadə olunur.

### 2.6. Sənətkarın lirikasında dini motivlər

Aşıq Şəmşirin lirikasını klassik aşıq yaradıcılığının ulu və ölməz ənənələri ilə birləşdirən ən mühüm cəhətlərdən biri sənətkarın yaradıcılığındakı dini motivlərdir. Aşığın qoşma, gəraylı, təcnis, divani və müxəmməslərinin bir qismi bu möv-

zudadır. Bu, onun yaradıcılığını birmənalı şəkildə klassik aşıq yaradıcılığı ilə bağlayan cəhətdir. Məlumdur ki, sovet dövründə aşıqlara və el şairlərinə dini mövzuda əsərlər yaratmaq qadağan idi və bu yasaqların pozulması onlara həyatları bahasına başa gəlirdi. Folklorşünas P.Əfəndiyev tamamilə haqlı olaraq qeyd edir ki, Azərbaycan aşıqlarının bu mövzuda şeirləri uzun illər amansızcasına məhv edilmişdir (56, 242). Din sovet ideologiyasına zidd idi və bu ideologiyanın yaradıcı adamların qarşısına qoyub tələb etdiyi öz din siyasəti var idi. Bu siyasətin mahiyyətini dinin əsaslarının inkar olunması, din adamlarının fırıldaqçı, yalançı, tamahkar, ikiüzlü və s. mənfi sifətlərə malik obrazının yaradılması təşkil edirdi. Folklorşünas M.Allahmanlı bu barədə yazır ki, sovet dövründə aşıq yaradıcılığında dinin mahiyyətinin açılışına toxunmadan ancaq dini adamların qüsurlarını cəmiyyət səviyyəsində açmaq meyli olub (7, 123). Aşıq Şəmşirin yaradıcılığının sovet dönəminə təsadüf edən hissəsində dini mövzuya, demək olar ki, rast gəlmirik. Onun bu dövrdə nəşr olunmuş kitablarında dini motivli şeirlər yoxdur. Lakin bunu onun bütün yaradıcılığına aid etmək olmaz. Bundan başqa, Şəmşir yaradıcılığında birbaşa dini təbliğə yönəlməyən, lakin öz məna-mənşəyi etibarilə dini-təsəvvüfi ideya ilə bağlı çoxsaylı obrazlar vardır. Məsələn, pəri, huri, qılman və s. kimi obrazlar aşıq poeziyasının bütün tarixi boyunca sənətkarlar tərəfindən, o cümlədən Şəmşir tərəfindən işlənmişdir. Bunun orta əsrlər təsəvvüfi dünyagörüşü ilə bağlı ənənəsi vardır.

Qeyd edək ki, aşıq poeziyasında, o cümlədən Aşıq Şəmşir yaradıcılığında da dini motivlərin lazımi səviyyədə araşdırmaya cəlb olunmamasına səbəb, təbii ki, Azərbaycanda

1990-cı illərin əvvəllərinə qədər hökm sürən sovet ideologiyası idi. Sovet siyasi rejimi dinin təbliğini qanunla qadağan etmişdi. Tədqiqatçı Q.Vəkilovun yazdığı kimi, ədəbiyyatşünaslıqda, eləcə də folklorşünaslıqda Əli Əleyhissəlamla, Quran ayələri ilə, mələklərlə, peyğəmbərlərlə bağlı aşıq şeirləri sənətkar dünyagörüşündə ziddiyyət yaradan, ideyaca zərərli bir şey hesab edilmişdir (146, 102). Dinə olan mənfi münasibət, onu zərərli bir ideya kimi qiymətləndirmək nəticə etibarilə aşıq yaradıcılığında dini motivləri, təsəvvüf dünyagörüşünü obyektiv şəkildə araşdırmağa mane olmuşdur. Bu cəhətdən, Aşıq Şəmşir ədəbi irsi ilə bağlı məhdud araşdırmaların çoxu sovet dövründə aparıldığından onun yaradıcılığındakı dini-təsəvvüfi motivlərə nəzəri-metodoloji baxımdan düzgün yanaşma olmamış, lirikasından danışan tədqiqatçılar dini motivlərdən yan keçmişlər. Mərhum prof. M.Həkimov müstəqillik dönəmində çap olunmuş «Haqq aşığı Dədə Şəmşir» kitabında bu barədə, az da olsa, məlumat vermiş və aşığın dini dünyagörüşünün araşdırmaya ehtiyacı olduğunu bildirmişdir.

Aşıq Şəmşirin dini motivli şeirləri ilk dəfə 1996-cı ildə çapdan çıxan «Öyüdlər» kitabında işıq üzü görmüşdür. Buraya aşığın «Bağışla, Allah», «Qurbanıyam mən», «Amandı», «Aşiqəm», «İlahi», «Əli» və s. kimi qoşmaları, «Sən Heydər mənə», «Sən ağa», «Ay dada yetir», «Ya sına məni», «Ay ağam hey bir» və s. təcnisləri, «Ya Əli», «Pərvərdigar», «Mən», «Gəl», «Gərək», «Əli» kimi müxəmməs və divaniləri daxil edilmişdir.

Şəmşir dini obrazlara müraciət edəndə onları ancaq xatırlatmaqla və təkrarlamaqla kifayətlənməmiş, həmin obrazla-

rı öz deyim tərzinə, üslubuna uyğun şəkildə işlətmiş, onlara yaradıcı yanaşmışdır. Dini şeirləri Aşıq Şəmşirin təsəvvüf dünyagörüşünü mənimsədiyini və yaradıcılığında geniş yer verdiyini göstərir. Onun poeziyasında islam dininin əsas obrazlarından olan Quran, Merac, dini simalardan Məhəmməd (s.), Musa (ə.), İsa (ə.), İbrahim (ə.), Həzrət Əli (ə.) və başqa müqəddəslərin surətləri başlıca tərənnüm obyektini təşkil edir.

Aşıq Şəmşir poeziyasında Allahın vəsfinə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Qeyd etmək lazımdır ki, so-vet dövründə yaşamasına baxmayaraq, Şəmşir heç vaxt ateist olmamış, Allahı, onun varlığını inkar etməmişdir. Sənətkarın Allaha olan böyük sevgisi, ilahi eşqi onun yaradıcılığında bu və ya digər şəkildə həmişə ifadə olunmuşdur. Belə şeirlərin bir qismində Allah tərif olunmuşsa, digər qismində təsəvvüfi ideyalar öz təcəssümünü tapmışdır. O, öz şeirlərində Allaha mövcud poetik ənənədən irəli gəlməklə daha çox Yaradan, Rəbb, Sübhan, Rəhman, Pərvərdigar adları ilə üz tutmuş, daim Onun böyüklüyünü və ucalığını tərənnüm etmişdir:

İmdada çatandır, sidq ilə çağır,
Qadir olan bir Allahı, darıxma.
Rəhimdir, Rəhmandır, çox mehribandır,
Ümidvardır şahlar-şahı, darıxma (31, 123).

Burada Şəmşirin Allaha olan münasibəti İslam dininin ənənəvi qəlibləri daxilindədir. Hər bir müsəlman Uca Allahı dada çatan, Qadir, Rəhim və Rəhman hesab edir. Şəmşirin bu misraları şeirin konkret poetik ideyasının təcəssümünə xidmət etməklə yanaşı, həm də onun müsəlman olduğunu da bəyan

edir. Burada sənətkar şeirə Allahın adı ilə başlamış, Onun hər şeyə qadir, qüdrətli, şəriksiz, kəramət sahibi, tək və yeganə olduğunu, bütün dünyanın – yerin, göyün, canlının, cansızın yaradıcısı olduğunu poetik misralara çevirmişdir.

Aşıq Şəmşirin dini motivli şeirlərində təsəvvüfi obraz və anlayışlar açıq şəkildə özünü göstərir. Sənətkarın «Mən» rədifli divanisindən bir səndə nəzər salaq:

Ələstudan bəli dedim, qadiri-sübhana mən,
Qane oldum nübuvətə, yola mən, ərkana mən.
Aləmləri xəlq eliyən dost bildim Allahı,
Sidqi dildən sığınmışam bu bir kərəm kana mən (31, 265).

Ələst Aləmi – Tanrı dərgahıdır, insanın dünyaya gəldiyi yerdir, «bəli» sözü isə Tanrı dərgahında ona verilən cavabdır. Burada məşhur «bəzmi-ələst» rəvayətinə işarə olunmuşdur. Rəvayətdən məlumdur ki, Allahın «Mən sizin Rəbbinizəm-mi?» – sualına ruhlar «Bəli» cavabını vermişlər. Şəmşir də Ələst aləmində «bəli» cavabını verənlərdəndir. Deməli, Şəmşir İlahidən gələn ruhun əbədi mövcudluğu fikrini qəbul etməklə yanaşı, poetik ilhamın gücü ilə özünü Ələst aləmində hiss etmişdir. Bu təsəvvüfi dünyagörüşü ilə bağlı ideya Şəmşir şeirində obrazlı şəkildə işlənməklə onun təsəvvüfi-irfani düşüncə və obrazlar aləminə bələd olduğunu da göstərir. Şəmşir «Kərəm kan» dedikdə min bir adı olan Allahı nəzərdə tutmuş, onun şəriksiz, məkansız, qüdrətli olduğunu, dünyanın əvvəlinin də, sonunun da onun adı ilə bağlılığını göstərmiş, hər cür pisliklərdən, riyakarlıqlardan nicatı Onu dost bilməkdə, sidqi-dildən Ona sığınmaqda görmüşdür. Bu cəhətdən Şəmşirin «Qane oldum nübuvətə, yola mən, ərkana

mən» misralarından aşığın əhli-ürfan sahibi, mərifət, həqiqət əhli olduğu aydın görünür. Bildiyimiz kimi, islamın 6 vacib əməlindən biri nübuvvətdir. «Nübuvvət – Məhəmmədin və ondan əvvəlki peyğəmbərlərin peyğəmbərliyinin tanınması» deməkdir (76, 112). Şəmşir bu baxımdan özünü islamın vacib şərtlərinə əməl edən müsəlman saymışdır:

Dərsimi rəbbül aləmin əzəl uşaqkən verib,
Ərşi-əladan vəhy gəlib, həm nöhrəvaqdan verib.
Üç yüz on üç ayə olan bu pak varaqdan verib,
Dil açanda aşiq oldum ayeyi-Qurana mən.

Yüz iyirmi dörd min nəbi, on iki imam gəlib,
Huri-pəri, həm mələklər cəm olub tamam gəlib.
Hicabda Məhəmmədə hatifdən salam gəlib,
Səcdə qılıb baş əymişəm bu hökmü fərmana mən
(31, 265-266).

Bu bəndlərdən aydın görünür ki, Aşıq Şəmşir hələ uşaqlıqdan «Quran»ı, onun surə və ayələrini mənimsəmiş, şəriəti qəbul etmişdir. Sənətkar bəyan etmişdir ki, islam dininin müqəddəs kitabı «Quran»ı, yüz iyirmi dörd min peyğəmbəri, on iki imamı, Məhəmməd salavatullahı şəksiz qəbul edir, inanır və Tanrının hökmü qarşısında baş əyir. Divaninin sonuncu bəndində Şəmşir ürək ağrısı ilə müqəddəs ziyarəti arzuladığını, lakin gedə bilmədiyini, dünyadan həsrətli gedəcəyini bəyan etmişdir. Çox güman ki, bu, sənətkarın yaşadığı sovet dövrünün qoyduğu qadağalar nəticəsində mümkün olmamışdır:

Şəmşirəm, halalıma haram maya qatmadım,

Bir betərə tələ qurub hiylə kəmənd atmadım.
Bir ziyarət arzuladım, təmənnaya çatmadım,
Getdim həsrət intizarlı, ey çərxi-zamana mən (31, 266).

Aşıq Şəmşirin təcnisləri də dini-təsəvvüfi ideya ilə süslənmişdir. Belə ki, o, şeirlərindən birində özünü «dərviş» adlandırmışdır. Dərvişlik isə sufi təriqətinə əsaslanan ilahi yolçuluqdur:

Dərviş idim, ha dolandım dərdə mən,
Bərabərdi zəhər içən, dərd əmən.
Necə dözüm bu dərmansız dərdə mən,
Çəkirəm cahanda ayə qəm hey bir (31, 239).

Lirik qəhrəman dərmansız dərdinə dərmanı yenə Uca Tanrıdan diləmişdir. Burada aşığın özünü dərvişə bənzətməsi, heç şübhəsiz, təsəvvüfi dünyagörüşü ilə bağlıdır.

Şəmşir yaradıcılığında Əhli-Beyt inancı son dərəcə parlaq şəkildə ifadə olunmuşdur. «Əhli-Beyt» Məhəmməd peyğəmbər (s.) və onun ailəsidir. Lakin «Əhli-Beyt» ifadəsinin bir ümumi leksik, bir də xüsusi ilahi anlamı vardır. Ümumi anlam dedikdə Peyğəmbərin (s.) bütün zövcələri və onlardan anadan olan uşaqlar nəzərdə tutulur. «Əhli-Beyt»in xüsusi mənası onun ailəsindən Uca Tanrının iradəsi ilə seçilmiş beş nəfəri nəzərdə tutur. Həmin beş nəfər islam tarixində «Ali-əba» adlanır:

And verdim ilahi öz hörmətinə,
Yeganə adına, kəramətinə.
Rəhimsən, işimi salma çətinə,

Ali-əba Mustafanın eşqinə.

Yüz iyirmi dörd min peyğəmbər tamam,
Yetmiş min məlakə, on iki imam.
Bunların xətrinə, ey barı xudam,
Sən şəfa ver Şah-Mərdanın eşqinə (31, 130-131).

«Ali-əba» İslam mədəniyyətində beş nəfər üçün işlədilən bir addır. Bu 5 nəfər Hz. Məhəmməd, Hz. Əli, Hz. Fatimə və onların 2 övladı – İmam Həsən (ə.) və İmam Hüseyndir (ə.)» (121, 8). Bu beş nəfər Allahın təlqini ilə peyğəmbərin (s.) özü tərəfindən seçilmişdir. İslam tarixində Peyğəmbərin (s.) yaxın ətrafının qəlblərində get-gedə siyasi hakimiyyət eşqinin cücərməsi və boy verməsi Peyğəmbərimizi qayğılandırmışdır. O, Uca Allaha üz tutmuş və Onun iradəsi ilə Həzrət Əli (ə.), Həzrəti Fatimeyi-Zəhra, İmam Həsən (ə.) və İmam Hüseyni (ə.) öz əbasının altına alaraq bu kəsləri öz canının və qanının, ruhunun və varlığının ayrılmaz parçaları olduğunu açıq və birmənalı şəkildə bəyan etmişdir. Aşıq Şəmşir dində və təsəvvüfdə «beş kimsənə» də adlandırılan «Ali-əba»nı «beş isim» adı altında vəsf etmiş, yüz iyirmi dörd min peyğəmbərin, yetmiş min məlakənin, on iki imamın, Həzrəti Əlinin (ə.) müqəddəsliyini nəzmə çəkərək, onların eşqinə Tanrıdan kömək diləmişdir:

Beş ismi xət olub qabi qov aynə,
Axtar öz alnında nə dedim indi.
O doqquz yüz doxsan səkkiz bir ada,
Xalıq nə bəxş etdi, nə dedim indi (31, 229).

Sənətkar beş bəndlik «Bağışla, Allah» rədifli qoşmasında Allahın adına, mərhəmətinə üz tutub müqəddəs Kəbəyə, Həccə, Məhəmməd peyğəmbərin (s.) Merac səfərinə, o cümlədən peyğəmbərlərin və imamların eşqinə günahlarından keçməsini diləmişdir:

Mərhəmət qıl mən günahkar möhtaca,
Əfv elə İlahi, Kəbəyə, haca,
Məhəmmədi sən çağırdın Meraca
O gedən yollara bağışla, Allah (31, 107).

Şəmşirin Tanrının adı ilə başlayan «Dürüst» müxəmməsini nəzərdən keçirdikdə onun dini biliklər sahibi olduğunun, dinin əsaslarından, onun fəlsəfi problemlərindən, mürəkkəb məsələlərindən baş çıxardığının şahidi oluruq:

Yey əlif, ya bir Allah, sirri-sübhanım dürüst,
Əşhədunla la ilahə, zikri-əzanım dürüst.
Məhəmmədin rəsul Allah, yolum-ərkanım dürüst,
Salam olsun vilayətkən şəninə daim Əli,
Nuru haqdan olub cida, şahi-Mərdanım dürüst (31,255).

Müxəmməsdə işlənən «sübhan» sözü Allah mənasında, «əşhəduənnan la ilahə» «Allahdan başqa Allah yoxdur» anlamındadır. Aşıq demək istəyir ki, məramım da, amalım da dürüstdür. Bir olan Allahdan başqa heç kimi tanımıram, duam da, zikrim də, azanım da, yolum da, ərkanım da dürüstdür, Allahın elçisi, rəsulu Məhəmməd peyğəmbərə (s.) olan məhəbbətim də sonsuzdur. Sənətkar Həzrət Əliyə (ə.) «şahi-

Mərdan», – deyə xitab etmiş, onun Tanrı nurundan xəlq olunduğunu bəyan etmişdir.

Aşıq Şəmşirin bu mövzuda qoşulmuş əsərlərindən «Pərvərdigar» divaniləri də maraq doğurur. Aşığın bu rədif və qafiyədə hər biri beş bəndlik üç mükəmməl divanisi vardır. Nümunə üçün bir bəndə nəzər salaq:

Yerin, göyün, ərşin, gürşün böyük sənətkarısan,
Nuri əşrəf xəlq elədin Əhmədi Muxtarı sən.
Qülhüvəllahi əhədsən, həmləmyəzəl tarı sən,
İyirmi min bir hərifdə, ayədə pərvərdigar! (31, 259)

Bu divanisində də Şəmşir min bir isimli Tanrının adına and vermiş, onun müşkül gündə imdada çatan, dünyanın əvvəlinin də, sonunun da şəriksiz və əbədi olan Onun adı ilə bağlı olduğunu tərənnüm etmişdir. Tanrı yerin, göyün, ərşin, gürşün böyük sənətkarı – yaradıcısıdır. Sufizmə görə, Tanrı nur – işıqdır, onun nurundan da bütün aləm, o cümlədən Məhəmməd peyğəmbər (s.) xəlq olunmuşdur. «Qurani-Kərim»in bir sıra ayələrində də Allah-taala nur, işıq adlandırılmışdır. «Allah göylərin və yerin nurudur (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir)... O, nur üstündə nurdur» (90, 335). Aşıq Şəmşir də burada «Nuri-əşrəf» deyə Tanrını vəsf etmiş, Onun nurundan Məhəmməd peyğəmbərin (s.) yarandığını nəzmə çəkmişdir. Türk alimi İ.Çətin yazır: «Təsəvvüfi anlayışda Həzrəti Məhəmməd «varlığın ilk nuru, son zühuru»dur. Tanrının nurudur» (155, 151). Aşıq Şəmşir bəyan edir ki, Tanrıdan başqa qüdrətli hakim yoxdur, o, hakimlər hakimidir və insan

axirət günü tək Allahın qarşısında hesabat verməlidir.

Həm səxavət, həm kəramət var ilahi səndə cəm,
Şəmisar günahkarı qoymaz ola bəxti kəm.
Sən Əlinin aşiqisən, mən də sənə aşiqəm,
Nökərəm şahi-Mərdan ustada pərvərdigar (31, 259).

Şəmşir Allahı səxavət və kəramət sahibi adlandırmış, Həzrət Əlini (ə.) Allahın təcəssümü olaraq anmış, özünü isə Əlinin (ə.) nökəri kimi tərənnüm etmişdir.

Şəmşirin Allaha olan böyük sevgisini, ilahi eşqini ifadə edən əsərləri içərisində on beş bəndlik «Cözəl» müxəmməsində Uca Yaradan bütün gözəlliklərin fövqündə duran ucalıq, varlıq aləmindəki gözəlliklərin ilahi qaynağı kimi tərənnüm olunmuşdur:

Tərif bir Allaha gəlib, qoyduğu qərarı gözəl.
Nöhrəvac yeddi yerə, çəkdiyi divarı gözəl.
Göstərib yaranmışa bu doğru yolları gözəl.
Bu cəlalın, bu büsatın kamildi memarı gözəl.
On səkkiz min aləmlərin təkdi sənətkarı gözəl (31, 282).

Aşıq Şəmşir burada poetik bir dildə Allahı dünyanın, kainatın kamil memarı, on səkkiz min aləmin sənətkarı kimi tərənnüm etmişdir. O, Allahın varlığını həmişə uca tutmuş, onun adına zikr etmişdir. Çünki haqqa gedən yol ancaq şəriətdən keçir. Şəmşir şeirində də müşahidə etdiyimiz məhəbbət adi məhəbbət deyil, Tanrıya olan böyük məhəbbətdir, insanı Allaha, Uca Haqqa doğru səsləyən bir sevgidir. Bu

mənada prof. F.Köprülünün Yunus İmrə yaradıcılığı haqqında söylədiyi fikirləri eynilə Aşıq Şəmşir yaradıcılığına da şamil etmək olar: «Yunusun təbliğ etdiyi təsəvvüfi əxlaq hər kəsi «Quran» və Hədisə əməl etməyə, şəriətin əsaslarına ən kiçik təfərrüatına qədər riayətə dəvət edir» (158, 301). Sufi təliminin irəli sürdüyü ideyalara sadiq qalan Şəmşir də dünyanın gözəlliklərini sevməklə Allahı sevdiyini önə çəkirdi. O göstərmişdir ki, Allahın varlığı, böyüklüyü, ucalığı və gözəlliyi yaratdıqlarında təcəssüm etmişdir.

Şəmşirin dini motivli şeirlərində islamın müqəddəs kitabı «Qurani-Kərim» və onun surələrinin adları da obrazlaşdırılaraq tərənnüm edilmişdir. Bu silsilədən olan şeirlərdə daha çox «Yasin» surəsinin adına tez-tez rast gəlinir. Q.Vəkilov, haqlı olaraq qeyd edir ki, bu gözəl, müqəddəs surənin adına təcnislərdə – cinas qafiyələrdə daha çox rast gəlinir (146, 68). Şəmşirin təcnisləri də bu baxımdan səciyyəvidir. O, «Ya sına məni» təcnisində «Yasin» surəsindən müxtəlif məqamlarda bacarıqla istifadə etmişdir:

Bir xoş günün dəyər min aya, dedi,
Həcər qonaq gəldi Minaya dedi.
Biri qafdan, biri lamdan min ayə dedi,
Dərs verdi, yetirdi «Yasin»ə məni (31, 227).

Bənd «minaya» cinas qafiyəsi üzərində qurulmuşdur. Birinci misrada ilin ayı, ikincidə dağ, üçüncüdə «Qurani-Kərim»in ayəsi mənasında işlənmişdir. «Qaf», «lam» ərəb əlifbasındakı hərflərin adlarıdır. «Biri qafdan, biri lamdan min ayə» oxuyan aşıq sonda «Dərs verdi, yetirdi «Yasin»ə məni»

dedikdə «Quran»ın «Yasin» surəsini nəzərdə tutmuş, bu müqəddəs kitabdan dərs alıb bu məqama çatdığını açıqlamışdır.

Aşıq Şəmşirin dini mövzulu şeirlərində Məhəmməd peyğəmbər (s.) də böyük sevgi ilə vəsf olunmuşdur. Onun şeirlərində Məhəmməd peyğəmbərin (s.) Əhmədi-Muxtar, Səməd, Mustafa, Rəsuli-Əkrəm kimi adlarına sıx-sıx rast gəlirik.

Haqdan gəlməsəydi ayeyi-Quran,
Məhəmməd özündən «A» yazardımı?
Allah kəlamıdı, hər hökmü fərman
Kəlməsi xoşlandı ayə zərdimi? (31, 242)

Məlumdur ki, müqəddəs «Qurani-Kərim» Məhəmməd peyğəmbərə (s.) Allahın mələyi Cəbrayıl vasitəsilə nazil olmuşdur. «Quran»ın hər bir kəlməsi Allah-taalanın hökmü, fərmanıdır və Məhəmməd (s.) Allahın müqəddəs kitabının hökmlərini insanlara çatdıran rəsuludur, elçisidir. Şəmşir bəyan edir ki, bu dünyada hər şey Tanrının hökmü ilə yaranmışdır və Onun fərmanı ilə Məhəmməd (s.) peyğəmbərlik dərəcəsinə yüksəlmişdir.

Aşığın Allahın və Məhəmməd peyğəmbərin (s.) adı ilə başlayan digər bir təcnisinə diqqət yetirək:

Yey ya rəbbi aləmləri yaradan,
Əhmədi Muxtarım bir əlimdə var.
Min bir ismi gecə-gündüz çağıran,
Bu adı yazmağa bir əlim də var.

Üç yüz on üç gülü yaxşı bilən dər,

Ağ bağlı xanəmi yaxşı bilən dər.
Batinləri görən yaxşı biləndər,
Alimlər alimi bir alim də var! (31, 241)

Şəmşir şeirinə Aləmlərin Rəbbinin adı ilə başlamış, min bir isimli Allahın elçisi, alimlər alimi, xatəmül-ənbiya – sonuncu peyğəmbər Məhəmmədi (s.) vəsf etmişdir. Üç yüz on üç gül dedikdə Məhəmməd peyğəmbərin (s.) döyüşlərində öncül yerləri tutmuş, ilk qələbə zəfərini qazanan üç yüz on üç döyüşçünü nəzərdə tutmuş, sonuncu bənddə isə Peyğəmbərimizin (s.) Buraq adlı əfsanəvi atla Merac səfərinə çıxdığına işarə etmişdir.

Aşıq Şəmşirin dini motivli şeirlərində Həzrət Əli (ə.) obrazı mühüm yer tutur. Bilindiyi kimi, Əlini (ə.) ilahiləşdirənlər Əliallahilər adlanır və onlar özlərini əhli-həqq sayırlar. «Məzhəbin dini ehkamına görə, Allah ilə Əli qırılmaz surətdə bağlı olmuş və olmaqdadır. Əli bütün peyğəmbərlərdə, imamlarda və müqəddəslərdə təcəssüm etmişdir» (76, 55). Bu dini əqidə xüsusilə XX əsrə qədərki aşıq poeziyasında daha çox aktuallıq kəsb etmişdir. Aşıq Şəmşir də ənənədən gələn bu inancı öz şeirlərində poetikləşdirmişdir. Onun da bir çox əsərlərində Həzrət Əlinin (ə.) ilahiləşdirilməsi ideyasına rast gəlirik. Bu qəbil nümunələrdə Həzrət Əlinin (ə.) Şahi-Mərdan, Ağam, Heydəri-Kərrar, Əsədulla, Yədulla kimi xatırlanması təsəvvüfi-poetik ənənədən irəli gəlməklə, həm də aşığın Əliyə (ə.) bəslədiyi uca və ülvi sevgini də izhar edir. Bu əsərlərdə Həzrət Əli (ə.) obrazının yüksəkdə dayanması, ona xilaskar kimi baxılması, darda qalanların köməyinə çatan kimi təsvir olunması

Şəmşirin də ona tarixi şəxsiyyətdən daha çox əfsanəvi, ilahi bir varlıq kimi yanaşdığını göstərir. Sənətkar öz şeirlərində Həzrət Əlini (ə.) klassik ənənədən gələn müxtəlif epitet və təşbehlərlə vəsf etmişdir: «Zülfüqar sahibi mərd Mürtəza», «Sütunu məzhəbim quran Əli», «Qəbr evində başda duran Əli», «Ağalar ağası ya Şahi-Mərdan», «Peyğəmbər övladı Əli», «Ustadlar ustadı Əli» və s. Sənətkarın «Əli» rədifli qoşması bu baxımdan çox səciyyəvidir:

Müşküldə qalanlar çağırır səni,
Məzhərül əcayib yanadı, Əli!
Nurun sütun olur asimanlara,
Sənsən Cəbrayılın ustadı, Əli! (31, 179)

Burada aşıq Əlini (ə.) müşküldə qalanların köməyinə çatan xilaskar adlandırmış, hətta onu Cəbrayılın ustadı kimi vəsf etmişdir. Aşıq bu bənddə qədim bir rəvayəti yada salır. Allahın «Sən kimsən?» sualına cənabi-Cəbrayılın cavabı düz olmadığına görə qanadları yandırılır və məhz Əlinin (ə.) köməkliyi ilə yenidən özünə qaytarılır. Cənabi-Cəbrayıl həmin gündən həmişə fəxr edir ki, Həzrət Əli (ə.) onun ustadıdır.

İki barmağınla Xeybər qopardın,
Düldülü Rəfrəflə qoşa çapardın.
Rəsulu Meracda tez-tez tapardın,
Sənin möcüzətin əladı, Əli! (31, 180)

Bu bənddə də dini rəvayətlərin poetik inikası ilə qarşılaşırıq. Burada Həzrət Əli (ə.) misilsiz hünər, möcüzələr sa-

hibi kimi anılmışdır. Dini əfsanələrin birində deyilir ki, o, Xeybər qalasını iki barmağı ilə dağıtmışdır. Aşıq da birinci misrada məhz bu tarixi hadisəyə işarə etmişdir. Bundan başqa, Şəmşir Məhəmməd peyğəmbərin (s.) Merac səfərinə işarə etmiş, bu səfərdə Həzrət Əlinin (ə.) də iştirak etməsini nəzmə çəkmişdir. Bu barədə islam mənbələrində mötəbər məlumatlar mövcuddur. Həzrət Əli (ə.) Məhəmməd peyğəmbərin (s.) birinci zövcəsi Həzrəti Xədicədən sonra ikinci müsəlman, kişilər arasında isə müsəlmanlığı qəbul etmiş ilk şəxsdir. Peyğəmbər (s.) ona sonsuz sevgi bəsləmiş, varlığı ilə sevinmiş, öz canının bir parçası saymış və ölərkən İslam dininin ən ağır və faciəvi yükünü çəkəcəyini xəbər vermişdir. Həzrət Əli (ə.) öz dövründə heç bir kəsin qarşısına çıxa bilməyəcəyi bir pəhləvan olsa da, son dərəcə səbrli və müdrik insan olmuşdur. O, eyni zamanda görkəmli alim idi. İslam aləminə «Nəhcül-Bəlağə» adlı bir xəzinə qoyub getmişdir. Peyğəmbərin ölümünə yaxın onun ən yaxın əshabələrinin qəlbində hakimiyyət ehtirası baş qaldıranda Həzrət Əli (ə.) görünməmiş səbr nümayiş etdirmiş, islamın taleyinin hakimiyyət oyunlarına qurban getməsinə imkan verməmişdir. Peyğəmbər salavatullahdan sonra islamın ən qatı və maskalanmış düşmənləri ondan və nəslindən intiqam almış, Əhli-Beytin (Ali-əbanın – Həzrət Əli, Fatimeyi-Zəhra, İmam Həsən və İmam Hüseynin) nəslini kəsməyə çalışmışlar. Məhəmməd peyğəmbərin (s.) islam tarixində görünməmiş zülmlərə məruz qalan nəsli Əhli-Beyt tərəfdarları tərəfindən sevilmiş, onlar haqqında əfsanələr, yüksək sənət əsərləri yaradılmışdır. Bu cəhətdən Əhli-Beyt inancına söykənən şiə məzhəbli sufi təriqətləri zülmün qabağına sevgi, qanın

qabağına şeirlə çıxaraq Şərq-İslam mədəniyyətinin ən parlaq səhifələrini yaratmışlar. Aşıq Şəmşir də öz şeiri ilə Əhli-Beyt sevgisinin ulu karvanına qoşulmuş, Allahın sonuncu peyğəmbəri Məhəmməd salavatullahdan sonra islam əxlaqının zirvəsi olan Həzrət Əli (ə.) ziyasından nur almağa çalışmışdır. Sonuncu bənddə Şəmşir özünü Əlinin (ə.) nökəri adlandırmışdır. Sufi təliminə görə «müqəddəs» mənasını verən «mövla» («vəli») sözünü Əliyə (ə.) şamil edən Şəmşir onun Allah yanında uca məqamına işarə etmişdir:

Şəmşirəm, günahkar, aciz nökərəm,
Sən ki mərd mövlasan, nə qəm çəkərəm?
Deyib kəlamını bir kani-kərəm,
Sənə mərd aşiqlər xudadı, Əli! (31, 180)

Aşıq Şəmşir Həzrət Əliyə (ə.) o qədər dərin məhəbbət bəsləmişdir ki, hətta axirət dünyasına sonuncu səfərində, məzar sorğu-sualında ustadının Əli (ə.) olmasını arzulamışdır:

Şəmşir, qoy bələdçin bir alim olsun,
Mən ondan dərsimi bir alım, olsun.
Məzarda ustadım bir Əlim olsun,
Asan sual versin, bir sin içində (31, 244).

Burada islamın təvəssül haqqındakı görüşləri öz əksini tapmışdır. İslam dini inanclarına görə, insanla Allah arasında vasitəçilik edən – vəsilə olan müqəddəs şəxslər himayə etdikləri insanların günahlarını bağışlatdıra bilirlər. Uca Allah belə gözəl bəndələrinin xatirinə günahlardan keçir. Aşıq

Şəmşir də arzulamışdır ki, Qiyamət gününün sorğu-sualında onun zamini – himayədarı Həzrət Əli (ə.) olsun.

Aşıq Şəmşir dini əsərlərinin əksəriyyətində ilahi eşqini Həzrət Əli (ə.) adına kökləyib. Şəmşir üçün elmin ən yüksək zirvəsi Həzrət Əlidir (ə.), ona dərs verən də, ustadı da Həzrət Əlidir (ə.). Təsadüfi deyildir ki, Məhəmməd peyğəmbər (s.) də öz müqəddəs kəlamlarından birində göstərir ki, «Mən elmin şəhəri, Əli isə onun qapısıdır» (150, 7).

Yetişdi yerinə arzum, murazım,
Görmüşəm yuxumda ağam Əlini.
O mənə dərs verən kamil ustadım,
Kəsməsin üstümdən ağam əlini (31, 243).

Aşıq Şəmşirin şeirlərində Həzrət Əlinin (ə.) məqamı çox yüksəkdir. Bu, təsadüfi deyildir. İstər İslam hədislərində, istərsə də təsəvvüf əfsanələrində Həzrət Əlinin (ə.) uca məqamının olması ilə bağlı çoxsaylı məlumatlar vardır. Hətta bəzi ələvi təriqətlərində Əli (ə.) ilahiləşdirilmiş, Allah məqamında götürülmüşdür: «Ələvilər Əlini Məhəmməd peyğəmbərdən üstün hesab edirlər... Əliallahilər Əlini bir Allah, daimi «həqiqətin» (haqqın) təcəssümü kimi təsəvvür edirlər» (40, 88). Şəmşir şeirində də eyni ideyanın izlərinə rast gəlirik. Məsələn, aşağıdakı müxəmməsdə Həzrət Əli (ə.) Uca Yaradan kimi şəriksiz hesab olunmuşdur:

Laşərik, ya bir Allah, ya Məhəmməd, ya Əli,
Tənindədi əzmi ayə, şanı-şövkət, ya Əli.
Lafəta illa Əli, həm vilayət ya Əli,

Şiri Yəzdan vəli mövla, sahibi Düldül süvar,
Səndən qeyrət nuru həqdən, var sücaət, ya Əli (31,254).

Bu şeirində Şəmşir Allahın, Məhəmməd peyğəmbərin (s.), Həzrət Əlinin (ə.) şəriksiz olduğunu deyir, hər üçünün adlarını birgə çəkir. Şiri Yəzdan – Allahın aslanı, «Sahibi Düldül» – Həzrət Əli (ə.) xilaskar, şücaət, qeyrət və kəramət sahibi kimi tərənnüm olunur.

Bir ilahi bəxş elədi ibtidadan vəsfini,
Şiələrin əzbər eylər, tahi haqdan vəsfini,
Rəbbil aləm tərif verib, qoli qafadan dərsini,
Məlakələr zikr eləmiş ərş-əladan vəsfini,
Mustafanın qulluğunda aldın şöhrət, ya Əli (31, 254).

Ancaq bununla bərabər, Aşıq Şəmşir Həzrət Əlini (ə.) Allah yanında məqamı olan şəxs saysa da, onun poeziyası rəsmi islami görüşlərlə ziddiyyətlər kəsb etmir. Başqa sözlə, Həzrət Əli (ə.) haqqında bir çox ifadələr hazır qəliblər şəklində onun yaradıcılığına ənənə vasitəsilə daxil olmuşdur. Əslində, Aşıq Şəmşir Həzrət Əliyə (ə.) dərin sevgi bəsləsə də, onun peyğəmbərdən sonrakı əsl məqamını bütün aydınlığı ilə bilmişdir. Yuxarıdakı bənddə gördüyümüz kimi, Tanrı ona öz nurunu bəxş etmişdir. Şiələr ilk imamları kimi ona pərəstiş və etiqad göstərirlər. Aləmlərin Rəbbi onu elm sarıdan da hamıdan üstün edib, məlakələr onun vəsfini ərş-əladan – çox uca göylərdən zikr ediblər. Mustafanın – Məhəmməd peyğəmbərin (s.) də Həzrət Əliyə (ə.) sonsuz məhəbbəti olmuşdur.

Xalq arasında dolaşan inama görə, Həzrət Əli (ə.) Məhəmməd peyğəmbəri (s.) Merac səfərində müşayiət etmişdir. Deyirlər ki, peyğəmbər Tanrıya süfrə başında tək olduğunu bildirdikdə Allahdan tək olmadığını, yoldaşlı olduğunu eşidir. Lakin Məhəmməd peyğəmbər (s.) süfrə başında özündən başqa heç kimi görmür, ancaq hiss edir ki, plov o biri tərəfindən azalır. Meracda olarkən peyğəmbərə behişt alması da verilir. Məhəmməd peyğəmbər (s.) almanı Həzrət Əliyə (ə.) aparmaq üçün yarısını kəsib süfrəyə qoyur və görür ki, alma yoxdur. Məhəmməd peyğəmbər (s.) bu haqda Həzrət Əliyə (ə.) danışanda Əli yarı kəsilmiş behişt almasını ona göstərir. Aşıq Şəmşir də bu dini hədisi şeirlərində belə gerçəkləşdirmişdir:

Rəsulu Merac evinə İlahi çağırdı qonaq,
Riqabında kavi Rəf-rəf, minmişdi ildırım Biraq,
Barilahi əmr elədi, bəzəndi ərşi nöhrəvaq,
Məhəmmədlə birinc yedi, Merac evində təmtəraq,
Salam verib, alma alıb gör necə mövladı Əli (31, 280).

Həzrət Əli (ə.) təsəvvüfi ənənədə daha çox göy atlı, göy əmmaməli, göy çuxalı təsvir olunur. Aşıq Şəmşir də ənənəyə riayət edərək onu həmin obrazda vəsf etmişdir:

Şəmşir, baxtın göy çuxalı, ağ ətək,
Bir gün olar bükülərsən ağa tək.
Hanı, kimdi mərd ağası ağatək,
Canımı yolunda varsada qaldı (31, 245).

Burada «ağ ətək» sözündən cinas qafiyə yaratmaq üçün bədii vasitə kimi istifadə olunmuşdur. Birinci misrada paltarın ətəyi, ikincidə ağ parça, üçüncüdə ağa mənasında işlənmişdir. Deməli, göy çuxalı, ağ ətəkli, mərd ağa tək vəsf olunan Həzrət Əlidir (ə.).

Göründüyü kimi, Həzrət Əlinin (ə.) mədhi Şəmşir şeirində mühüm yer tutmuşdur. Bununla yanaşı, sənətkar digər müqəddəsləri – Həzrəti Fatimə, İmam Həsən (ə.), İmam Hüseyn (ə.), müqəddəs İmam Rza (ə.), 12-ci imam Sahib əz-zamanın (ə.) və başqalarının da adlarını sadalamış, şeirlərində dönə-dönə tərənnüm etmişdir.

Aşıq Şəmşirin yaradıcılığında xüsusi yer tutan əsərlərindən biri olan iyirmi beş bənddən ibarət «Dünyanın quruluşu haqqında» adlı qoşmasında yaranışın poetik xülasəsi verilmişdir. Qoşma, demək olar ki, dini rəvayət və əfsanələr, Quran qissələri üzərində qurulmuşdur. Bu şeirində Aşıq Şəmşir «Qurani-Kərim»in şərhlərini, surə və ayələrini əsas mənbə kimi götürmüşdür. «Quran»a istinad edərək öz fikirlərini poetik misralara çevirmişdir:

İlahi «kun!» – dedi, xəlq oldu dünya,
Yaratdı yer-göyü, bəşəriyyəti.
Altı gündə hər nizamı quruldu,
Üç dona bəzəndi şanı-şöhrəti (33, 158).

Aşıq şeirinə Allahın adı ilə başlamışdır. Allah-taala hər şeyi «kun!» (ol!) deməklə yaratmışdır, bütün dünyanın, yaranışın, canlı və cansızın yaradıcısı Odur. «Qurani-Kərim»də dünyanın yaranması haqqında belə bir ayə vardır: «Həqiqətən

də Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi (və onun əhatə etdiyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur» (90, 131). Aşıq Şəmşir sonrakı bəndlərdə Adəmlə Həvva, onların övladları Habil və Qabil, Nuh peyğəmbər, Musa peyğəmbər, İsa peyğəmbər haqqında rəvayətlərdən, hədislərdən istifadə edərək bunları şeir dili ilə canlandırmışdır. Qoşmanın sonuncu bəndlərində sənətkar artıq sonuncu peyğəmbər – Məhəmməd peyğəmbər (s.) və onun Merac əhvalatını xatırlatmışdır. Ən çox yayılmış dini hədislərdən biri də Məhəmməd peyğəmbərin (s.) gecə vaxtı Merac edib göyə çıxması əhvalatıdır. Məhəmməd peyğəmbərlə (s.) bağlı Merac mövzusu ənənəvi olaraq klassik ədəbiyyatda, həmçinin aşıq poeziyasında da tez-tez müraciət olunan mövzulardan biridir. «Merac dedikdə Məhəmməd peyğəmbərin (ə) hicrətdən bir qədər əvvəl rəcəb ayının 27-də Allahın qüdrəti ilə Məkkədən Beytül-müqəddəsə aparılması, oradan da göyün yeddi qatına və nəhayət, Allah-taalanın hüzuruna qalxması nəzərdə tutulur» (89, 9). Merac mövzusunun kökü «Quran»ın «İsra» surəsindən götürülmüşdür. «İsra gecə vaxtı yeriməyə deyilir. Bu böyük hadisə gecə vaxtı olduğu üçün ona İsra deyilmiş, «Qurani-Kərim»də bu ad ilə yad olunmuşdur» (41, 190). Aşıq Şəmşir də bir neçə bənddə Meracı yüksək poetik misralarla vəsf etmişdir:

Rəsuli-Əkrəm mindi ildırım Buraq,
Cəbrail bələdçi olubdur ancaq.

Haqq onu Meraca çağırıb qonaq,
Əlbəttə, mövlaya var məhəbbəti.

Cəbrail dayandı, Məhəmməd getdi,
Yeddinci göylərin sirrinə yetdi.
Xaliqi-ləmyəzəl çox sual etdi,
Əhmədi-Muxtarla oldu söhbəti (33, 160-161).

Sənətkar Məhəmməd peyğəmbərin (s.) Buraq adlı atla, cənabi Cəbrayılın müşayiəti ilə Tanrı dərgahına qalxmasını, Allah-taala və başqa peyğəmbərlərlə görüşməsini poeziya dili ilə canlandırmışdır. Meracla bağlı hədislərdə Məhəmməd peyğəmbərin (s.) cənnəti görməsi də vardır. «Birinci gedişdə cənnəti gördü» deyən Aşıq Şəmşir də peyğəmbərin bu səfərdə ilk olaraq cənnəti görməsinə işarə etmişdir. «…Peyğəmbərimiz Merac (nərdivan) vasitəsilə göyün yeddi qatına qalxır. …Göyün yeddinci qatından sonra o, Sidrətül-müntəhaya – Axırıncı Sidr ağacına çatır. Burada Cəbrail əleyhissəlam qanadlarının yanacağından ehtiyat edib daha Peyğəmbərimizi müşayiət etmir». (89, 7-8). «Cəbrayıl dayandı, Məhəmməd getdi», «Yeddinci göylərin sirrinə yetdi» misraları ilə aşıq məhz bu hadisəyə işarə etmişdir. «Sidrətül-müntəhadan sonra Məhəmməd peyğəmbər (ə.) Rəfrəflə Allah-taalanın dərgahına qalxır» (89, 8). Aşıq Şəmşir sonrakı misralarda Xaliqi-ləmyəzəl – əbədi və daimi olan Allahla Məhəmməd peyğəmbərin (s.) söhbət etməsini nəzmə çəkmişdir.

Üç dəfə qayıtdı, düşdü səcdəyə,
İltimas elədi bari-rəbbayə.

Dedi: Xudam, şəfaət qıl bəndəyə,
Haqq yolunda əfsun oldu hörməti.

Musa o cənabı həddə yetirdi,
Mustafa o gözəl sözü götürdü.
On yeddi rükəti töhfə gətirdi,
Şadi-xürrəm etdi cəmi hümməti (33, 161).

Dini hədislərdə deyilir ki, Allah-taala tərəfindən Peyğəmbərimizə (s.) birbaşa vəhy gəlir, ona və ümmətinə gündə əlli dəfə namaz qılmaq tapşırılır. Lakin Musa peyğəmbərin təkidi ilə geri qayıdan Məhəmməd əleyhissəlam Allahdan namazların sayını azaltmağı xahiş edir. Bir neçə dəfə geri qayıtdıqdan sonra, nəhayət, Allah-taala namazların sayını gündə beş dəfəyə endirir, lakin bu beş namazın əlli namaz savabında olduğunu bildirir. Bu hədisdə Peyğəmbərin (s.) Allah ilə birbaşa təmasda olması, ona artıq Cəbrayıl vasitəsilə deyil, birbaşa vəhy gəlməsi kimi bir möcüzə ilə rastlaşırıq. Yuxarıdakı misralarda («Üç dəfə qayıtdı düşdü səcdəyə», «İltimas elədi bari-rəbbayə», «On yeddi rükəti töhfə gətirdi») məhz bu hadisə işarələnmişdir.

Savab da, günah da gördü o yerdə,
Hüccabın evində asıldı pərdə.
Salam gəldi, kim göründü nəzərdə?
Əli bu salamı verdi xəlvəti (33, 162).

Burada Aşıq Şəmşir Məhəmməd peyğəmbərin (s.) cənnəti və cəhənnəmi gəzməsini, Allah-taala ilə üzbəsurət deyil, pərdə arxasından onunla söhbət etməsini, həmçinin bu səfər

zamanı Həzrət Əlinin (ə.) də onu müşayiət etməsini, lakin gözə görünməməsini nəzmə çəkmişdir.

Ümumiyyətlə, Aşıq Şəmşirin dini motivli şeirlərinin hamısını qiymətli sənət inciləri adlandırmaq olar. Çünki o, bu şeirlərini yüksək poetik ovqata köklənməklə yaratmışdır. Həmin əsərlərdə onun Allaha, peyğəmbərə, imamlara olan məhəbbətdən vəcdə və şövqə gəlməsini, bu ilahi ekstazın (şövqün) onun poetik ilhamını daha da qüvvətləndirməsini, istedadını daha da gücləndirməsini müşahidə edirik.

Şeirlərindən görünür ki, sovet dövrünün sərt qayda-qanunlarına baxmayaraq, Aşıq Şəmşirin Allaha olan məhəbbəti heç vaxt sarsılmamışdır. O, Allahın adını uca tutmuş, heç bir əsərində Onun varlığını danmamışdır. Aşıq Şəmşir islam dininə, onun ehkamlarına, qayda-qanunlarına, peyğəmbərlərə, imamlara rəğbət bəsləmişdir. Bu rəğbət hissi də onun dini şeirlərində öz qabarıq təzahürünü tapmışdır. Bundan başqa, dini şeirləri Aşıq Şəmşirin müqəddəs «Qurani-Kərim»i, onun surə və ayələrini, Quran qissələrini, dini rəvayət və əfsanələri, hədisləri mükəmməl bildiyini göstərir. Aşıq Şəmşirin dini şeirlərində klassik aşıq poeziyası üçün xarakterik olan təsəvvüf ənənələri özünün parlaq təcəssümünü tapmışdır.

Beləliklə, Aşıq Şəmşirin lirikasının araşdırılması göstərdi ki, o, ilk növbədə klassik aşıq yaradıcılığının ənənələrinə sadiq olmuş, ənənədən gələn mövzu və obrazları öz yaradıcılığında işlətməklə klassik ənənəyə yeni həyat vermişdir. Lakin Şəmşir klassik ənənəni heç bir halda təkrarlamamış, aşıq yaradıcılığının əsrləri haqlayan ənənələrinə öz yaradıcılığında yeni ruh, poetik təravət, bədii cazibədarlıq verməklə əsl sənət nümunələri yarada bilmişdir.

# III FƏSİL

# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DASTAN, JANR VƏ SƏNƏTKARLIQ MƏSƏLƏLƏRİ

Aşıq Şəmşir yaradıcılığı sənətkarlıq baxımından da zəngin mədəniyyət hadisəsidir. Onun bir sənətkar kimi istedad və bacarığı ilk növbədə özünəqədərki ənənədən məharətlə istifadə edə bilməsi ilə ölçülür. Bu ənənələr, əlbəttə, çox genişdir. Aşıq Şəmşirin yaradıcılığı özünəqədərki janr ənənələrindən, ana dilinin incəliklərindən bacarıqla istifadə etməsi ilə də əlamətdardır. Sənətkarın əxz etdiyi ənənələr sırasında dastançılıq ənənəsi də vardır. Bu cəhətdən o, epik ənənələrdən istifadə edərək öz istedadını dastançılıq sahəsində də sınamışdır.

## 3.1. Dastan yaradıcılığı

Aşıq Şəmşirin də zəngin yaradıcılığının az bir hissəsini onun dastanları təşkil edir. Bunlar «Şəmşir və Sənubər» dastanı və «Şair Həsən Xəyallı ilə Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayətidir. Folklorşünas M.Həkimovun qeyd etdiyinə görə, bunlardan əlavə Aşıq Şəmşirin «Cəlal və Minayə» və «Misir və Sənəm» dastanları da olmuşdur (67, 46). Lakin həmin dastanlar haqqında əlimizdə dəqiq məlumat yoxdur.

Sənətkar «Şəmşir və Sənubər» dastanını 1960-cı ildə yaratmışdır. Dastan daha çox avtobioqrafik mahiyyət daşıyır. Burada aşığın doğumundan başlamış həyatı, sevgisi, bu sevgi

yolunda çəkdiyi məşəqqətləri, iztirabları, xoşbəxtlik arzuları öz bədii təzahürünü tapmışdır. Şəmşir əsərdə dastançılıq ənənələrinin bütün elementlərindən ustalıqla istifadə etmişdir. Qeyd olunmalıdır ki, dastan Aşıq Şəmşirin özü tərəfindən yaradılmışdır. Məlumdur ki, Azərbaycan dastançılığında hər hansı bir sənətkarın adı ilə bağlanan dastanın onun özü tərəfindən yaradılması üsulu da mövcuddur. M.H.Təhmasib bu xüsusda yazmışdır: «Aşıq, yaxud aşıq tərzində yazıb-yaradan şair özü haqqında dastan qoşur. Burada əhvalatın, macəranın, süjetin doğrudan da baş vermiş real hadisəmi, yaxud «uydurma»mı, məşuqənin – butanın real sevgilimi, yaxud xəyali surətmi olub-olmamasının fərqi yoxdur. Əsas məsələ budur ki, belə dastanların qəhrəmanı onu yaradan «müəllif»in özüdür. Yəni bu tipli dastanlarda dastançı – «müəllif» öz adını aşıq-qəhrəmanın adında yaşatmaq yolu ilə gedir, bu üsuldan istifadə edir» (137, 88). Bu cəhətdən «Şəmşir və Sənubər» dastanı da deyilən üsulla yaradılmışdır.

«Şəmşir və Sənubər» dastanı klassik məhəbbət dastanlarında olduğu kimi ustadnamə ilə başlanır. «Ustadnamələrin ustad sözü, böyük sözü, ustad nəsihəti, öyüdü olduğunu nəzərə alsaq, bunların dastanın ifasında başlıca funksiyası birbaşa dinləyiciyə yönəldilmişdir. Başqa sözlə, aşıq dinləyiciyə nəsihət verir» (43, 16). Adətən, dastanlarda ustadnamələr klassik aşıqların şeirlərindən verilir. Lakin onlardan fərqli olaraq burada hər üç ustadnamə Şəmşirin öz şeirlərindən ibarətdir.

Dastanın süjet xətti ənənəvi klassik məhəbbət dastanlarında olduğu kimidir. Bildiyimiz kimi, dastan şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanır. Eynilə burada da klassik

məhəbbət dastanlarında olduğu kimi şeirlə nəsrin növbələşməsi prinsipi əsas götürülmüşdür. «Şəmşir və Sənubər» dastanının ana xəttini məhəbbət motivi təşkil edir. Həmin motiv prof. M.H.Təhmasibin modelləşdirdiyi süjet formuluna uyğundur. Alim bu barədə yazmışdır: «Məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir» (137, 65).

Klassik məhəbbət dastanlarında olduğu kimi, burada da dastan qəhrəmanın anadan olması ilə başlayır. Məhəbbət dastanlarında olduğu kimi, burada da Şəmşirlə Sənubər mollaxanada oxuduğu vaxt sevişirlər. Lakin kasıbçılıq Sənubərin təhsil almağına mane olur. Onların sevgisinə mane olan valideynləri zorla Sənubəri Hidayətə vermək istəyirlər. Bu motiv bizə «Leyli və Məcnun» dastanında Leylinin məktəbdən çıxarılması, ev dustağı edilməsi, zorla İbn Salama verilməsini xatırladır. Məcburi şəkildə Hidayətə verilən Sənubər kənddən qaçmağa məcbur olur. Yol boyu Çoban Heykəl, ovçu Məhəmməd, həkim Sani ona köməklik göstərirlər. Bu tip insanlar klassik dastanlarda rast gəldiyimiz qəhrəmana çətin anlarda yardım edən müsbət obrazları xatırladır. Sənubərin eşqi ilə dostu Bəybuludla çöllərə düşən Şəmşirin də başına çox işlər gəlir, çox sınaqlardan, məşəqqətlərdən keçməli olur, müxtəlif insanlarla qarşılaşır.

Dastanda klassik ənənənin səciyyəvi xüsusiyyətlərinin öz təzahürünü tapmasını müşahidə etmək mümkündür. Burada diqqətçəkən məqamlardan biri də Şəmşirin yarını durnalar-

dan xəbər almasıdır. Bildiyimiz kimi, durna obrazı həm yazılı ədəbiyyatda, həm də aşıq poeziyasında, eyni zamanda dastanlarda çox müraciət olunan obrazlardan biridir. «Əsli-Kərəm», «Ağ Aşıq və Süsənbər», «Aşıx Musaynan Mələknisə xanım» dastanlarında da qəhrəman sevgilisini durnalardan soraqlayır. «Şəmşir və Sənubər» dastanında da Şəmşirin neçə il həsrətində olduğu yarını durnalardan xəbər alması ənənədən gəlir:

Bir mələk misallım itibdir çoxdan,
Siz də gedin baxa-baxa, durnalar.
Bizə də bu yazı yazılıb haqdan,
Qarşınıza xoş gün çıxa, durnalar (37, 298).

Dastanda hadisələrin inkişafı prosesində Şəmşir obrazının bir sıra xarakterik xüsusiyyətləri təcəssüm olunur. Belə ki, Şəmşir qazamata salınır, ona qarşı təzyiqlər başlanır. Lakin qəhrəman ümidini itirmir. Mənfi tiplər olan qazıya və onun Mürsəl Əfəndi, Sarı Şəmil kimi havadarlarına qarşı sazın, sözün gücü ilə mübarizə aparır:

«Beş söz deyər, dördü hədyan, biri şər,
Elin arasına salar kin-kədər.
Yalan nöqsan söylədiniz nə qədər,
Aləmi çalxadı ruhani qazi» (37, 324).

Burada Aşıq Şəmşirin öz obrazını bütün ömrü boyu əsaslandığı, həmişə uca tutduğu mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı kimi yaratdığının şahidi oluruq. Sənətkar Şəmşir obrazını yaradarkən məhəbbət dastanlarının aşiq qəhrəmanla-

rının obrazına əsaslansa da, dastandakı qəhrəman sözün tam mənasında klassik məhəbbət dastanlarındakı aşiq qəhrəmanların təkrarı deyildir. Əksinə, Şəmşir burada klassik ənənələrlə öz yaradıcılıq keyfiyyətlərini birləşdirməklə orijinal məzmuna malik dastan obrazı yaratmağa nail olmuşdur.

Dastanın diqqətçəkən cəhətlərindən biri də burada vətən, yurd sevgisinin parlaq bədii təcəssümüdür. Şəmşir el-el, oba-oba, diyarbadiyar gəzdikcə vətənini, elini bir an da olsun unutmur, şeirlərində də bunu tez-tez xatırladır:

Əslim Miskinlidi, elim Ağdiyar,
Mənim üçün mehribandı vətənim.
Bu diyarda səndən qeyri kimim var,
Nə şirindi mənə candan vətənim (37, 304).

Dastanın digər baş qəhrəmanı – Şəmşiri saf və ülvi bir məhəbbətlə sevən Sənubərin qəlbindəki hisslər dastanın şeirlərində yüksək bədii sənətkarlıqla öz ifadəsini tapmışdır:

Gecələr ah çəkib, gündüz ağlıyan,
Var Leyli, Əslinin parəsi məndə.
Sinəm yaralıdı, tapılmır loğman,
Eşqin, məhəbbətin yarası məndə (37, 306).

Məhəbbəti yolunda hər cövrü-cəfaya dözən Sənubər özünü Leylinin, Əslinin xələfi saymaqla onların sevgisini davam etdirdiyini, onlar kimi sevgiyə sədaqətli olduğunu izhar edir. Lakin Sənubər öz sələflərindən fərqli olaraq, sevgisi uğrunda daha mübarizdir. Bu aşağıdakı dialoqda özünü daha aydın göstərir:

« – Bacı, olmaz ki, sən ondan birdəfəlik üz döndərəsən.

Axı nə qədər əziyyət çəkmək olar?

Sənubər dedi:

– Qardaş, mən ölməyə razıyam, üz döndərməyə yox.

Aldı görək nə dedi:

Çoxdu bu dünyada var sevən insan,
Bağça sevən insan, bar sevən insan.
Sənubər tək doğru yar sevən insan,
Cəfadan ovsanıb dinər, inanma» (37, 312).

Buradan da görünür ki, neçə illər Şəmşirdən ayrı gəzib-dolanan Sənubər bir an da olsun, onu unutmur, əhdinə sadiq qalır. Sənubər öz xarakterik cizgilərilə əsl el qızının ümumiləşmiş obrazıdır. Sənətkar bu obrazla xalqımıza məxsus olan sevgiyə sədaqət hisslərini parlaq şəkildə təcəssüm etdirmiş və sevginin bizim həyatımızın mənası olduğunu, varlıq aləminin sevgisiz bir heç olması həqiqətini vurğulamışdır.

Dastanda diqqəti cəlb edən digər xarakterik surətlər də vardır. Bunlar ikinci dərəcəli obrazlar olsa da, səciyyəvi cəhətləri ilə yadda qalırlar. Belələrindən biri Şəmşirin dostu Bəybuluddur. «Əsli-Kərəm» dastanında rast gəldiyimiz Sofi Lələ surətinin burada, bir növ, Bəybuludun simasında təcəssüm olunduğunu görürük. Sofi Lələ Kərəmlə bərabər el-el, oba-oba gəzdiyi kimi, burada eyni funksiyanı Şəmşirlə bərabər Bəybulud yerinə yetirir və Sənubəri axtarıb tapan, Şəmşirə çatdıran də məhz Bəybulud olur.

Dastanda diqqəti cəlb edən müsbət obrazlardan biri də qarabağlı Ələkbərdir. O da hər iki gəncin qovuşmasına köməklik edir. Şəmşir bu obrazın simasında klassik qəhrə-

manlıq dastanları üçün xarakterik olan köməkçi obrazların bir sıra cizgilərini təcəssüm etdirmişdir. Ona görə də Ələkbər epizodik surət olsa da, haqq-ədalət tərəfdarı kimi daha çox yadda qalır. O, qazıya, onun tərəfdarlarına qarşı çıxır, gənclərə köməklik edir.

Maraqlıdır ki, dastanda Şəmşirin aşıqlıq etməsi, toylara getməsi, məclis aparması barədə danışılmır. Onun aşıqlığı haqqında məlumata yalnız dastanın aşıq məclisində deyişməsi səhnəsində rast gəlirik. Deyişmə dastanın süjet gərginliyini, epik kolliziyanın poetizmini daha da artırmışdır. Aşıq Şəmşirin Aşıq Soltan, Mürsəl Əfəndi ilə deyişmələrində bağlamalardan, qıfılbəndlərdən bacarıqla istifadə etməsi və onları məğlub etməsi dastanın xüsusilə yaddaqalan hissələrini təşkil edir. «Şəmşir tək-tənha gəlib Səngən qalasına, aşıq məclisinə çıxdı. Aşıqları görəndə çox sevindi. Onların böyüyü Aşıq Soltan dedi:

– Sənin əgər aşıqlıqdan xəbərin varsa, bir neçə sözüm var, ona cavab ver.

Şəmşir razı oldu.

**Aşıq Soltan**

Səndən xəbər alım, ay gəzən aşıq,
Söylə görüm üç yüz altmış beş nədi?
On iki qardaşdı, qırx səkkiz otaq,
Dolu nədi, yarım nədi, boş nədi?

**Aldı Şəmşir**

Verim cavabını, ay aşıq Soltan,
Bir ildə gün üç yüz altmış beş olur.
Məhsulat bol olur yay, payız, hər an.

Qışda yarım, yayda dolu, boş olur» (37, 316).

Dastanda bağlamadan istifadə olunması onu həm də klassik ənənə ilə bağlamışdır. Bu cəhətdən, Aşıq Şəmşirin yaratdığı dastanın poetik strukturunun hər bir elementində klassik ənənələrlə müasirlik üzvi şəkildə bir-birinə qovuşmuşdur.

Dastan nikbin sonluqla – haqqın nahaq, xeyirin şər üzərində qələbəsi, Şəmşirlə Sənubərin qovuşması ilə başa çatır. «Hamı şad oldu. Həmin gündən toya başladılar. Bir dəstə xanəndə, aşıq gətirdilər. Yeddi gün, yeddi gecə toy eləyib Sənubəri Şəmşirə verdilər. Toyun axırıncı günü Şəmşir özü duvaqqapma ilə öz toyunu tamamladı» (37, 335).

«Şəmşir və Sənubər» dastanı məzmunu etibarilə avtobioqrafik mahiyyət daşısa da, əsas qayəsini, qeyd etdiyimiz kimi, məhəbbət, həmçinin qəriblik, vətən həsrəti və bundan doğan kədər hissləri təşkil edir. Zamanın ictimai-sosial münasibətləri, ziddiyyətləri də Şəmşirlə Sənubərin məhəbbəti fonunda öz əksini tapmışdır. Sevgililərin qovuşa bilməməsi, Sənubərə zor tətbiq edilərək Hidayətə verilməsi mövcud dövrün, zamanın azad sevgini qəbul etməməsini göstərir. Şəmşirlə Sənubərin sevgisində ictimai bərabərsizliyin ağrıları, əzabları əks olunmuşdur. Klassik məhəbbət dastanlarına xas olan ənənəvi motiv – sevgililərin bütün maneələri dəf edərək şər qüvvələrə qalib gəlməsi və nəticə etibarilə qovuşması ideyası bu dastanın da leytmotivini təşkil etməklə onu klassik dastançılığın ən gözəl ənənələri ilə bağlamışdır.

Aşıq Şəmşir haqqında ikinci dastan «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» adlanır. Bu dastan Şəmşir tərəfindən yox, çox güman ki, sonrakı aşıqlar

tərəfindən yaradılmışdır. Dastan ilk dəfə folklorşünas H.İsmayılovun toplayıb tərtib etdiyi «Göyçə dastanları və aşıq rəvayətləri» kitabında işıq üzü görmüşdür. Tərtibçi dastanı Daşkənd kənd sakini Aşıq Hacı Bayramovdan topladığını qeyd etmişdir. H.İsmayılov yazır ki, Göyçə dastanları müasir şəraitdə də inkişafda davam etdiyinə görə daha çox tarixi istiqamətə meyllənir. Məsələn, «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıq Şəmşirin görüşü», «Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü» tamamilə real hadisə zəminində yaradılmış dastanlardır (80, 139).

Tədqiqatçı Göyçə dastanlarını aşağıdakı şəkildə təsnif etmişdir:

«1. Kanonik məhəbbət dastanları (Göyçə variantları);

2. Göyçə aşıq dastanları;

3. Göyçə dastan-rəvayətləri;

a) Aşıqlarla bağlı dastan-rəvayətlər;

b) Başqa görkəmli şəxsiyyətlər haqqında dastan-rəvayətlər.

Bunlardan üçüncüsünü a) «rəvayətlər»; b) «əhvalatlar»; c) «səfərlər» adı altında mətn tiplərinə bölmək olar» (80, 139). Bu bölgünü tətbiq etdikdə «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü»nü dastanların 3-cü bölməsinə və onun «səfərlər» mətn tipinə aid etmək olar. Müəllifin fikirlərinə istinadən demək olar ki, təhlil edəcəyimiz bu dastanı sırf dastan yox, dastan-rəvayət adlandırmaq daha düzgündür. Burada klassik dastan ənənəsində olan ustadnamə yoxdur və dastan belə başlanır: «Qulluğunuza hardan ərz eliyək, Göyçə mahalının Daşkənd kəndində Şair Xəyallıdan. Şair Həsən Xəyallı öz dövrünün savaddı adamı

kimi hər tərəfə səs-sorax salmışdı. …Bu səs-sorax Kəlbəcər mahalının Ağdaban kəndində Şair Qurbanın oğlu Aşıx Şəmşirə də çatmışdı» (61, 648). Girişdən də göründüyü kimi, dastan-rəvayət ustadnamə ilə yox, adi təhkiyə üsulu ilə nəql olunur. Dastanın süjeti çox sadədir. Burada iki ustad sənətkarın – Aşıq Şəmşirin və Şair Həsən Xəyallının görüşmələri, deyişmələri, bir-birinə olan münasibəti və Göyçə-Kəlbəcər vəhdətinin birliyi haqqında maraqlı məqamlarla rastlaşırıq. Göstərilir ki, dövrünün məşhur sənətkarı Həsən Xəyallının şöhrəti hər tərəfə yayılıbmış. Bu soraq Kəlbəcərdə Şəmşirə də çatmışdı və aşıq şairlə görüşmək qərarına gəlir. Dastanda bunun hətta dəqiq tarixi də qeyd olunmuşdur. «1953-cü ilin payız ayıydı. Aşıx Şəmşir Kəlbəcərdən aşıf, Göyçə mahalının Daşkənd kəndində Şair Həsən Xəyallının qonağı oldu» (61, 648). Konkret tarixin göstərilməsi dastanın real hadisələr əsasında yarandığını söyləməyə əsas verir. Şair Xəyallı aşığı çox böyük hörmətlə qarşılayır, onu bayatı ilə salamlayır. Bayatı ilə başlayan deyişmə daha sonra qoşma, divani ilə əvəz olunur və onlar sənət ənənəsinə uyğun olaraq deyişirlər. Hadisələrin sonrakı mərhələsində Aşıq Şəmşir Həsən Xəyallıyla bərabər Sarıyaqub kəndində Miskin Abdalın ocağını da ziyarət edirlər. Hər iki sənətkar bir-birinə qabaq olaraq «Dürüst» rədifli divani söyləyirlər. Daha sonra eyni rədifdə bir-birinə təcnis deyərək deyişirlər. «Götürüf görək Aşıx Şəmşir nə dedi: Biz də deyək, eşidənnər sağ olsun.

Əsri min əllahi iləmində var,
Bir adı lam, əlif, ayə, sin dürüst.
Yeri, göyü xəlq eliyən sənətkar,
Nə gözəl yaradıb ayəsin dürüst.

Görək Şair aldı nə dedi:

Bismillahdı ismi pakın kalamı,
Cəm olub ayələr sini-sin dürüst.
Hikmət bir nöqtədi elmin Nizami
Şını-şın göstərir, sini-sin dürüst» (61, 655).

Hər iki sənətkarın ərəb-fars tərkiblərindən istifadə etməsi islamı, şəriəti, «Quran»ı mükəmməl bilməsini göstərir. Dastan-rəvayətdəki deyişmələrdən hər iki sənətkarın bir-birinə olan böyük ehtiramı, məhəbbəti, hər ikisinin qüdrətli söz sərrafı olduğu aşkarlanır. Sənətə və sənətkara hər zaman yüksək qiymət verən Göyçə mahalı Aşıq Şəmşiri də böyük hörmətlə qarşılayır:

Nə varsa taledə, baxtda görünür,
Qismətlər vədədə, vaxtda görünür.
Şair tacidarı taxtda görünür,
Oyanıb qəbirdən Ələsgər gəlib (61, 656).

Qoşmadan aydın görünür ki, Göyçə mahalı və göyçəlilər aşığı hərarətlə, böyük məhəbbətlə qarşılamışdır. Həsən Xəyallı bu görüşü Allahın ən böyük payı hesab etmiş, onu Göyçənin öz doğma övladı kimi tərənnüm etmişdir. O, Şəmşiri Ələsgərin ən layiqli xələfi hesab etmiş, aşığın timsalında Ələsgərin sanki yenidən dirildiyini, zühur etdiyini poetikləşdirmişdir.

Dastan-rəvayətdə əsrin ortalarında baş verən müəyyən tarixi hadisələrə də işarələr vardır. 1937-ci illərin qanlı repressiya, sürgün illərində azərbaycanlılar öz doğma yurd-

yuvalarından sürgün olunurdular. Bu hadisə dastan-rəvayətdə epizodik şəkildə olsa da xatırlanmışdır. «Mənim əzizdərim, Dədə Şəmşir sübh tezdən qalxıb özünü Göyçə mahalının təmiz havasına verirdi. Gördü, kəndin yarısının işığı yanmır, bajasınnan tüstü çıxmır. Aşıx Şəmşir Həsən Xəyallıdan soruşdu ki, sizin qonşularınızın niyə işığı yanmır? Həsən Xəyallı buyurdu ki, onnar Stalinin, Mircəfər Bağırovun göstərişinnən Azərbaycana köçüflər. Aşıx Şəmşirin xəyalınnan nələr keçmədi. Dərinnən köks ötürüf sazı sinəsinə sıxdı. Aldı, görək nə dedi:

Eşidəndə od töküldü başıma,
Aman Allah, «Göyçəm köçür» dedilər.
Ağlamağım yaraşmayır yaşıma,
Aman Allah, «Göyçəm köçür» dedilər» (61, 657).

Aşıq Şəmşirlə Şair Həsən Xəyallının bir neçə gün davam edən görüşü dildən-dilə, ağızdan-ağıza keçərək dastanlaşmış, rəvayət donuna bürünmüşdür. Dastandakı deyişmələr, aşıqla şairin bir-birinə qabaq olaraq söylədikləri bayatılar, qoşmalar, təcnislər hər iki sənətkarın poetik istedadını, şairlik qüdrətini və sənətkarlıq məharətini nümayiş etdirir.

Dastan-rəvayət kiçik həcmli olsa da, öz süjetinə, quruluşuna, dilinə, məzmununa görə orijinaldır. «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayəti dilinə görə də diqqəti cəlb edir. Əsərdə xalq danışıq dili ifadələrindən istifadə olunmuşdur. Dastan dilinin sadəliyi, təbiiliyi, orijinallığı ilə diqqəti cəlb edir. Maraqlıdır ki, burada dastan mətni söyləyicinin dilindən olduğu kimi verilmiş, onun dil və üslubuna toxunulmamış, özünəməxsusluğu qorunub

saxlanılmışdır. «…müxtəlif səbəblər üzündən toplama nümunələrində uzun müddət söyləyicinin dil və üslubunun, danışıq tərzinin özünəməxsusluğunu, təbiiliyini qoruyub saxlamaq bir növ yaddan çıxarılmış, bir çox folklor nümunələri kimi aşıqların dilində də yazıya alınmış örnəklər, o cümlədən dastanlar bir növ bədiiləşdirilmişdir. Dastanı hansı regionun aşığının söylədiyi bu nümunələrdə demək olar ki, hiss olunmur» (77, 60). «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayətində isə bütün qaydalara riayət olunmuşdur, yəni həm nəsr, həm nəzm hissəsində Göyçə ləhcəsi – dialekti qorunub saxlanmışdır. Dastan-rəvayətdə aşıqların dilindən söylənən ənənəvi formullara, qəlib ifadələrə də rast gəlinir. Məsələn; «Bəli, mənim əzizdərim, adəti üzrə məclis yenə əzəlki gün kimi gejənin bir əyyamına çəkdi. Amma nə ustad Aşıx Şəmşirdən doyulasıydı, nə də qaynar təbli Şair Həsən Xəyallıdan» (61, 657).

Sözügedən dastan, həmçinin, Əlqəmə Əmrahoğlunun toplama və tərtibində «Şair Həsən Xəyallı ilə Aşıq Şəmşirin görüşü» adı ilə nəşr olunmuşdur (134). Hər iki variantı tutuşdurduqda müəyyən fərqlərin olduğu ortaya çıxır. Belə ki, H.İsmayılov dastanı konkret olaraq hansı aşıqdan topladığını qeyd edirsə, ondan fərqli olaraq, digər toplayıcı dastanın şəxsən onun iştirak etdiyi məclisdə yarandığını söyləyir. Birincidən fərqli olaraq, Ə.Əmrahoğlu dastanın nə vaxt, harada, hansı məclisdə söyləndiyini göstərmir, hansı aşıqdan və yaxud söyləyicidən eşitdiyi haqqında heç bir məlumat vermir, yəni burada söyləyicinin kim olduğu məlum deyil. Bu halda ortaya belə bir sual çıxır: o dastanı kimdən və harada toplayıb? Birinci dastan-rəvayətdən fərqli olaraq ikinci çox

böyük müqəddimə ilə başlayır. Amma bu müqəddimə dastan-rəvayətin poetik strukturuna o qədər də uyuşmur. Bundan başqa, Həsən Xəyallı çox təriflənədiyi halda, Aşıq Şəmşir haqqında heç bir məlumat verilmir. Görünür, bu «toplayıb-tərtib edən»in improvizasiyasıdır. Dastan-rəvayətin dilinə gəldikdə deməliyik ki, birincidə xalq danışıq dilinin təbiiliyi, sadəliyi, danışıq dilinin sintaksisi qorunub saxlanıldığı halda, ikincidə buna qətiyyən riayət olunmur və dastan mətni ədəbi dil normasında verilmişdir ki, bu da onu tamamilə folklor dilinin koloritindən məhrum etmişdir.

Bütün bunlarla bərabər, deməliyik ki, hər iki dastan – «Şəmşir və Sənubər» və «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» kifayət qədər maraqlı süjet xəttinə, məzmuna malik olmaqla Aşıq Şəmşirin dastan yaradıcılığı sahəsində də istedadlı bir sənətkar olduğunu göstərir.

## 3.2. Janr strukturu

Aşıq Şəmşir yaradıcılığı janr baxımından da zəngin hadisədir. O, aşıq şeirinə məxsus bütün poetik formalarda şeir qoşmuşdur. Sənətkar bütün yaradıcılığı boyu aşıq şeirinin qoşma, gəraylı, divani, müxəmməs və s. janrlarına müraciət etmiş, bənzərsiz sənət nümunələri yaratmışdır. Bunların içərisində klassik ədəbiyyata məxsus janrlar da vardır.

Qeyd edək ki, sənətkar yaradıcılığında qoşma janrına daha çox üstünlük vermiş, qoşmanın «qoşayarpaq qoşma», «güllü qafiyə» kimi şəkillərindən də istifadə etmişdir. Qoşayarpaq qoşmaya bəzən «daxili qafiyə», «çarpaz qafiyə», «haça beyt» də deyirlər. «Bu şeir şəkli daxili qafiyəyə

mənsubluğu ilə əlamətdardır. Məzmunu etibarilə daha çox gözəlləmə şeir şəkli bu şəklin forma qəlibinə yatımlı olur» (59, 95). Buna, əsasən, Aşıq Ələsgərin yaradıcılığında rast gəlirik. Aşıq Şəmşirin də yaradıcılığında qoşayarpaq qoşmaya təsadüf olunur:

O zülfləri kəmənd, eyləyəndə zənd,
Yetirdim məhəbbət, oldum payibənd;
Özü çox dərdimənd, ləblərində qənd,
Dəhanı gövhərli, şəhdi zülallı (33, 110).

Bu bənddə kəmənd-zənd, məhəbbət-payibənd, dərdimənd-qənd, gövhərli-zülallı sözləri bir-biri ilə çarpaz şəkildə qafiyələnmişdir.

Şəmşir qoşmanın «güllü qafiyə» şəklindən də istifadə etmişdir. V.Vəliyevin qeyd etdiyi kimi, xalq şeirində «dedim-dedi» adlanan şeirlər əslində daxili deyişmədir (147, 204). «Bu növ, əslində bədii mükalimələr üzərində qurulub, lirik qəhrəmanın hiss-həyəcanını sual-cavab tərzində poetik dillə ümumiləşdirir» (65, 215). Aşıq Şəmşir güllü qafiyədən istifadə etməklə dəyərli sənət nümunəsi yaratmağa müvəffəq olmuşdur:

Dedim: mən dərdimi o şirin dilə,
Dedi: nə cisminə düşdü zəlzələ?
Dedim: gəl bu bağda verək əl-ələ,
Dedi: bir qocalıq binasıdır bu (26, 66).

Əlavə etmək istəyirik ki, sənətkar bir neçə qıfılbəndi,

aşıq şeirinin çətin formalarından olan diltərpənməzlərini də məhz qoşma janrında yaratmışdır.

Aşıq poeziyasının ən işlək və məhsuldar janrlarından biri olan gəraylı janrı da Şəmşir poeziyasında mühüm yer tutmuşdur. Qeyd etmək lazımdır ki, sənətkar qoşmadan sonra daha çox bu janra müraciət etmiş və bənzərsiz sənət örnəkləri yaratmışdır. Aşıq ictimai, məhəbbət, təbiət lirikasında, həmçinin əxlaqi-didaktik düşüncələrini vermək üçün məhz gəraylı janrından tez-tez istifadə etmişdir.

Sənətkar aşıq şeirinin ən işlək formalarından olan divani janrında da maraqlı sənət nümunələri yaratmışdır. Qeyd etmək lazımdır ki, aşığın divanilərinin çoxu ustadnamə xarakterlidir. Başqa sözlə, Şəmşirin əxlaqi-didaktik düşüncələri daha çox bu janrda ifadə olunmuşdur. Sanki divani sənətkarın öz nəsihətamiz düşüncələrini vermək üçün ən çox müraciət etdiyi janr olmuşdur:

Bir qulaq ver, danışıram gör sənə hardan, aşıq,
Halal olsan, var taparsan el verən vardan, aşıq,
Özün üçün yaxşı yoldaş seç, üzün ağ eyləsin
Uzaq dolan xain, xəbis, mərdimazardan, aşıq (28, 406).

Şəmşir «Aşıq» divanisində bu sənəti yüksək qiymətləndirdiyini, böyük önəm verdiyini, çox ciddi meyarlarla yanaşdığını, böyük məsuliyyət hiss etdiyini poetik misralara çevirmişdir.

Aşıq Şəmşir poeziyasında çox dərin məzmun və forma gözəlliyinə malik müxəmməslər də vardır. V.Vəliyev yazır ki, aşıq yaradıcılığında müxəmməsin özünə geniş yer tapmasının

əsas səbəblərindən biri də onun lirik-epik xarakterdə olmasıdır. ...Aşıqlar müxəmməsdə daxili hissləri ilə yanaşı, həm də epik lövhələrdə ayrı-ayrı hadisələrə öz münasibətlərini bildirmək imkanı əldə etmişlər (147, 188). Aşıq Şəmşir müxəmməslərində, eləcə də cığalı müxəmməslərində müəyyən bir hadisənin geniş təsvirini, həmçinin lirik qəhrəmanın daxili hisslərini bütün dolğunluğu ilə təcəssüm etdirməyə müvəffəq olmuşdur. Onun müxəmməslərinin istənilən nümunəsi Şəmşirin bir sənətkar kimi poetik istedadını açıq şəkildə təsdiq edir:

Çəkilib sərvi kimi boy-büsatı düzdü onun.
Ziyalı mahi-təban, üzü qəmər üzdü onun,
Qəzəbi payız gecəsi, kərəmi gündüzdü onun,
Şəmşirəm, inanmışam, sözü doğru, düzdü onun,
Möhkəm ola vəfasına, vermişəm ilqar qızına (28, 382).

Aşıq Şəmşir təkcə aşıq şeirinin janrları ilə kifayətlənməmiş, klassik ədəbiyyat janrlarına da maraq göstərmişdir. Şəmşirin yeganə qəzəli və rübailəri bunu təsdiq edir. Onun yaratdığı qəzəl sənətkarın öz poetik istedadını bu janrda sınamaq cəhdi kimi də qiymətləndirilə bilər. Bunu onun qəzəl yaradıcılığına ardıcıl maraq göstərməməsi də sübut edir. Hər halda, bizə sənətkarın bir qəzəli gəlib çatmışdır:

Ağıl sərdə padişahdı, ağılsızlıq kəsalətdi,
Gələcəyi düşünməmək, hər insana fəlakətdi.

...Əlim küsməz qələmindən, təbil küsməz tələbindən,

Şəmşir, sevin bu üqbaya, hələ möhlət məcalətdi (31, 290).

Qəzəldən onun müəllifinin klassik ədəbiyyata, qəzəl janrının texnikasına bələdliyi aydın görünür. Bilindiyi kimi, qəzəlin birinci beyti həmqafiyə, bütün sonrakı beytlərin ilk misrası sərbəst, ikinci misrası başdakı mətlə beytlə həmqafiyə olur. Bir qayda olaraq qəzəllərin axırıncı beytində şair öz təxəllüsünü yad edir (44, 126). Göründüyü kimi, burada da şeirin vəzni, qafiyələri yerli-yerindədir. Maraqlı cəhət isə qəzəlin dilidir. Şeirin dili axıcıdır, sadədir, ərəb-fars tərkibləri azlıq təşkil edir. Bu da Şəmşirin aşıqlığından, el-aşıq poeziyasına dərin köklərlə bağlı olmasından irəli gəlmişdir.

Aşıq Şəmşir klassik Şərq ədəbiyyatının əsas janrlarından olan rübailərə də yeri gəldikcə müraciət etmiş və yalnız cinaslı rübailər yaratmışdır. Həcmcə kiçik poetik şəkillərdən olan rübaidə az sözlə dərin fikirlər ifadə etmək mümkündür. «Rübainin ən qiymətli cəhəti bundadır ki, şair kiçik bir şeirdə konkret və tamamlanmış bir fikir söyləməli, dərin bir təsir buraxmalıdır» (124, 232). Şəmşirin rübailəri onun poetik istedadının coşub-daşdığını, yeni formalara meyl etdiyini aydın şəkildə ifadə edir:

Təki dost bağında üzüm ağ olsun,
Mən də bir giləsini üzüm, ağ olsun.
Bəxtimi özün aç, Yaradan, mənim.
Qoy sənin yanında üzüm ağ olsun (30, 242).

Rübai cinaslıdır. 1-ci, 2-ci, 4-cü misralar həmqafiyə, 3-cü misra isə sərbəstdir. Nümunədə «üzüm ağ olsun» cinas

qafiyəsi yaradılmışdır.

Ümumiyyətlə, Şəmşir poeziyasının janr baxımından nəzərdən keçirilməsi göstərir ki, o, bir ustad sənətkar kimi, Azərbaycan aşıq şeirinin janr strukturuna dərindən bələd olmuşdur. Sənətkar aşıq şeirinin bütün janr və formalarında, hər bir janrın ayrı-ayrı şəkillərində əsl sənət nümunələri yaratmışdır. O, aşıq şeirinin janrlarından istifadə edərkən hər bir janrın formal-poetik strukturunu nəzərə almaqla yanaşı, bu janrları Şəmşir bədii dühası ilə süslənmiş sənət örnəklərinə çevirməyə çalışmışdır. Bu baxımdan, sənətkarın yaradıcılığında janrlara münasibətdə yaradıcı yanaşmanı müşahidə edirik. O, janrın məzmun və forma strukturunun imkanlarından istifadə edərək, poetik elementlərindən müxtəlif yaradıcı kombinasiyalar qurmağa çalışmış və bu zaman özünü bir ustad sənətkar kimi təsdiq edə bilmişdir. Bu da öz növbəsində Şəmşirin sənətkarlığının janr baxımından da əsl sənət hadisəsi olduğunu göstərir.

### 3.3. Təcnis sənətkarlığı

Aşıq şeirinin ən çətin formalarından biri «aşıq poeziyasının zirvəsi» (56, 246) hesab olunan təcnisdir. Təcnis yaratmaq sənətkardan böyük məharət tələb edir və onun sənətkarlıq qüdrətini nümayiş etdirir. Təcnis yaradıcılığını araşdıran folklorşünas E.Məmmədli haqlı olaraq yazır: «Əsl təcnisləri – bədii siqləti, məna və məndəricəsi, estetik emosional təsiri, fəlsəfi yükü, məntiqi axarı qabarıq nəzərə çarpan sənət incilərini ancaq fitri istedada sahib olan kamil sənətkarlar yarada bilər» (92, 141). Məlumdur ki, təcnis cinas qafiyələr

üzərində qurulur, yəni istənilən janrda cinas qafiyələrlə təcnis yaratmaq mümkündür. Bu haqda prof. M.Həkimov yazır ki, ustad aşıqlar yaradıcılıqlarında bütün şeir formalarında təcnis yaratmışlar. Təcnisin aşağıdakı formaları vardır: «Təcnis» («Qara təcnis»), «Bayatı təcnis», «Gəraylı təcnis», «Xətəngi təcnis», «Ayaqlı təcnis», «Cığalı təcnis», «Nəfəsçəkmə təcnis», «Dodaqdəyməz təcnis», «Zəncirləmə təcnis», «Öyüdləmə cığalı təcnis», «Əvvəl-axır hərf üstə təcnis» (66, 439). Burada məzmunla formanın bir-birini izləməyini gözləmək lazımdır. Əksər hallarda məzmundan çox formaya fikir verilir, bu zaman cinaslardan ibarət bir-birinə uyğun gəlməyən misralar yaranır. Deməli, kamil təcnis yaratmaq əslində sənətkarlıq göstəricisidir. Cəsarətlə demək olar ki, Aşıq Şəmşir məzmun və forma cəhətdən bir-birini tamamlayan gözəl təcnislər yaratmışdır. Prof. R.Hüseynov sənətkarın yaradıcılığının bu xüsusiyyəti haqqında yazır: «Aşıq Şəmşir Azərbaycan şeirindəki çox vacib bir qanadın, aşıq şeirinin ən üst qanadlarından birinin – təcnisin mahir yaradıcısı və bilicisi olub» (70, 95). Öz növbəsində tədqiqatçı A.Cəmil də qeyd edir ki, Aşıq Şəmşir Azərbaycan türkcəsinin zəngin leksikonundan gen-bol istifadə etməyi bacaran sənətkar olmuşdur. …Aşıq poeziyasında sənətkarlığın zirvəsi sayılan təcnis Dədə Şəmşirin yaradıcılığında da özünəməxsus yer almışdır (48, 13). Aşığın yaradıcılığında təcnisin «qara təcnis», «gəraylı təcnis», «bayatı təcnis» kimi formalarına təsadüf olunur.

«Qara təcnis» adi təcnisdir və Şəmşir yaradıcılığında bu şəklə aid xeyli sayda örnəklər vardır. Bu şeirlərdən hansına nəzər salınırsa-salınsın, onlarda Şəmşirin bədii istedadını,

yüksək sənətkarlıq qabiliyyətini görməmək mümkün deyildir:

Şəmşir, eşqin kitabını aç, ara,
Sədaqətdən mətləb dilə, a çara!
Mərd qapısı möhtac olmaz açara,
Mənə barat etdiyiniz bu dərdi (33, 363).

Aşığın nəsihətamiz-didaktik mövzulu bu təcnisində sədaqət, mərdlik əsas insani keyfiyyət kimi vurğulanmış, sənətkar mərd qapısının heç zaman bağlı qalmamasını, mərdin heç kimə möhtac olmamasını arzulamışdır.

Aşıq Şəmşirin təcnisləri həm mövzularına, həm də cinas qafiyələrin rəngarəngliyinə görə diqqəti cəlb edir:

Gül gülü çağırır, çiçək çiçəyi,
Topla yasəməndən yara, dər indi!..
Fərhad qayalara külüng çalanda
Açırdı qayadan yara dər indi.

Qorxuludu ölüm adı, qan adı,
Səməndərin yandı odda qanadı.
Yetişməmiş neştər vurdu, qanadı,
Təbibim naşıdı, yara dərindi.

Bizi gözdən bir kənara yar atdı,
Axtarıram, mən piyada, yar atdı.
Şəmşiri yaradan bir yol yaratdı,
Bir dəmi təzədən yaradar indi? (26, 124)

«İndi» adlanan qoşma-təcnisdə, gördüyümüz kimi, təcnisin bütün texniki qaydalarına əməl olunmuşdur. Təcnisdə

«dər indi», «dərindi», «yaradar indi» əsas cinas fiqurlarından istifadə olunmuşdur. Bu cinaslar bəndin poetik məkanında mürəkkəb, mürəkkəb olduğu qədər də estetikalı sintaktik-poetik konstruksiya yaradaraq, şeirdə həm də bəndlər arasında mənanın güclənməsinə, başqa sözlə, poetik-emosional ekspressiyaya xidmət etmişdir. Bəndlərarası cinas fiqurlar aşağıdakı məqamlarda işlənməklə təcnisin bəndləri arasında həmahənglik yaratmışdır:

*«Açırdı qayadan yara dər indi»:* – Dər qapı mənasındadır. Yəni Fərhad öz yarı üçün qayaları çapır.

*«Təbibim naşıdı, yara dərindi»:* – Qəhrəman şikayətlənir ki, təbib naşı və bacarıqsızdır, onun yarası isə dərin və sağalmazdır.

*Bir dəmi təzədən yaradar indi?:* – Şəmşiri yaradan bir də təzədən yaradarmı mənasındadır.

«Dər indi» cinas fiquru birinci bəndin ikinci misrasında da təkrar olunmuş, burada isə «gül-çiçək dərmək» mənasında işlənmişdir.

İkinci bənddə işlənən bənddaxili cinas fiqurlar və köməkçi cinaslar omonimliyi ilə diqqəti cəlb edir və aşağıdakı mənaları motivləndirir:

Birinci misrada «qan adı» – qan-qada mənasında, ikinci misrada «qanadı» quşun qanadı, üçüncü misrada «qanadı» yaranın qanaması mənalarında işlənmişdir.

Üçüncü bənddə işlənən daxili cinas fiqurların kəsb etdiyi mənaları açıqlayaq:

*«Bizi gözdən bir kənara yar atdı»* – atmaq, yəni artıq aşiq yarının gözündən düşmüşdür.

*«Axtarıram, mən piyada, yar atdı»* – atlı, yəni qəhrəman

piyada, yarı isə atlı olub aşiq yarını axtarır.

*«Şəmşiri yaradan bir yol yaratdı»* – yaranmaq, yəni Tanrı insanı ancaq bir dəfə yaradır.

İzahını verdiyimiz bu təcnisdə məzmun ilə forma bir-biri ilə ahəngdar şəkildə uzlaşmış, həmahənglik təşkil etmişdir.

Aşıq Şəmşir yaradıcılığında təcnisin maraqlı nümunələri kifayət qədərdir. Fikrimizi əsaslandırmaq üçün daha bir poetik örnəyə nəzər salaq:

Sin hərifin sinəm üçün yaranmış,
Nabələd olmuşam mən özgə sinə.
Nə kənar baxırsan biganələr tək,
Bəlkə, oxşadırsan mən özgəsinə?

Gərdən çəkdin boyun bənzər bir qaza,
Səni tutan bir qədərdi, bir qəza,
Qəssal yuyub qəbrimizi bir qaza,
Sənsiz necə gedim mən özgə sinə?

O şeyda bülbülün köksü nə sarı,
Gözüm həsrət baxır köksünə sarı,
Şəmşiri zülfünlə köksünə sarı,
Bil ki, istəmirəm mən özgə sinə (26, 126).

Təcnisdə bəndlər arası işlənən əsas cinas fiqurlar «özgəsinə», «özgə sinə», «özgə sinə» cinaslarıdır. Bütün təcnis üçün cinas rolunu oynayan bu əsas cinas fiqur həm də birinci bəndin daxili cinas qafiyəsi rolunda da iştirak etmişdir. Aşıq *«Sin hərifin sinəm üçün yaranmış»* misrasında sin hərfini sinə

ilə əlaqələndirmiş, «sinəm» sözü insanın ürəyi, qəlbi mənasında işlənmişdir. *«Nabələd olmuşam mən özgə sinə»* misrasında sənətkar mənanı, bir növ, müəmma örtüyünə bürümüş və bununla da dərin məna yaratmışdır. «Qurani-Kərim»də mənası bəlli olmayan hərflər vardır. Məsələn, «Bəqərə» surəsində əlif, lam, mim, «Taha» surəsində taha, «Yasin» surəsində sin hərfləri bu qəbildəndir. Onların mənası bugünə kimi açıqlanmamışdır. Şəmşir də ikinci misrada göstərmişdir ki, hamı kimi onun üçün də sin hərfinin mənası sirli qalmışdır. Bəndin sonuncu misrasında «özgəsinə» cinası isə «başqa, yad adam» mənasında işlənmişdir.

İkinci bəndin dördüncü misrasında işlənən «özgə sinə» cinası isə «ayrı qəbir» anlamında işlənmişdir.

*«Sənsiz necə gedim mən özgə sinə»: –* Burada sevən aşiq yardan ayrı ölmək belə istəmir, hətta öldükdən sonra bir qəbirdə olmalarını arzulayır.

Üçüncü bəndin sonuncu misrasındakı «özgə sinə» cinası da tamam başqa məzmunda işlənmişdir, yəni aşiq yarının sinəsindən qeyri sinə istəmir.

İkinci və üçüncü bəndlərdə işlənən digər cinaslar isə bənddaxili cinas fiqurlarıdır. Bənddaxili cinas fiqurlar, adətən, işləndiyi bəndin sintaktik vahidləri ilə əhatə olunur.

İkinci misranın daxili cinas qafiyələri aşağıdakı şəkildə qafiyələnmişdir:

*«Gərdən çəkdin boyun bənzər bir qaza»: –* Aşıq gözəlin boyunu qaz boynuna bənzətmiş, bununla da onun gözəlliyini, füsunkarlığını xüsusi qabartmışdır.

*«Səni tutan bir qədərdi, bir qəza»: –* Burada insanın başına gələn qəzavü-qədərə işarə edilmişdir.

*«Qəssal yuyub qəbrimizi bir qaza»:* – «Qazmaq» mənasında, yəni qəssal yuyub qəbrimizi bir qazsın.

Sonuncu bəndin daxili cinas qafiyələri isə aşağıdakı mənaları kəsb etmişdir:

*«O şeyda bülbülün köksü nə sarı»:* – Şeyda bülbülün köksü sarıdır;

*«Gözüm həsrət baxır köksünə sarı»:* – Aşiqin gözü həsrətlə yarına tərəf baxır;

*«Şəmşiri zülfünlə köksünə sarı»:* – Yəni aşiqi sevgilisinin zülfüylə köksünə sarımaq mənalarında işlənmişdir.

Qoşma-təcnisdə sevən qəhrəmanın daxili duyğuları cinas qafiyələrin köməkliyi ilə məharətlə poetikləşdirilmişdir.

Aşıq Şəmşirin elə şeirləri vardır ki, onlarda bütün bəndlər cinas qafiyələr üzərində qurulmamışdır. Belə qoşmalarda bəndlərdən ikisi, ya da üçü cinas, digərləri isə adi qafiyələrlə qafiyələnmişdir.

Aşıq yaradıcılığında bir çox sənətkarların, o cümlədən Aşıq Şəmşirin təcnis qoşmalarının əksəriyyətində birinci bəndin birinci və üçüncü misraları sərbəst, ikinci və dördüncü misralar isə cinas qafiyələnmiş, digər bəndlərin sonuncu misraları isə birinci bəndin dördüncü misrası ilə cinas qafiyələnmişdir. Lakin Şəmşirin elə qoşmaları vardır ki, bunlarda birinci bəndin birinci və üçüncü misraları da öz aralarında qafiyələnir. Məsələn:

Sən geşt eylə, dəryalardan al ləli,
Dərin axtar, dərin ara, dərin gəz.
Dilək dilə, rizqin istə, al ləli,
Səxalıdı, nər igidin dərin gəz (28, 283).

Göründüyü kimi, «Dərin gəz» adlı qoşmanın birinci bəndində birinci və üçüncü misralar, həmçinin ikinci və dördüncü misralar öz aralarında cinas qafiyələnmişdir.

Aşıq yaradıcılığında gəraylının gəraylı-təcnis şəkli vardır. «Azərbaycan aşıq şeirində müxtəlif sənətkarlar tək-tək hallarda bu tipə müraciət etmişlər» (109, 225). Folklorşünas V.Vəliyevin yazdığına görə, bu təcnis Qurbaninin adı ilə bağlıdır (148, 123). Qurbanidən sonra Abbas Tufarqanlı da gəraylı-təcnisin yaddaqalan nümunəsini yaratmışdır:

Atasınan, anasınan,
Gül gəzindi, Gül gəzindi.
Atasınan, anasınan,
Gül, gəz, indi, Gül, gəz, indi (148, 124).

Şəmşir yaradıcılığında da gəraylı-təcnisin maraqlı nümunəsi vardır və sənətkarın sələflərindən bəhrələndiyi nümunədən də aydın görünür:

Sevgilinin məhəbbəti
Sənə mindi, sənə mindi.
Dedim könül, yar ləbini
Sən əm indi, sən əm indi (31, 250).

Göründüyü kimi, gəraylının ikinci və dördüncü misraları cinas qafiyələnmişdir.

Nümunələrdən də görünür ki, təcnis Aşıq Şəmşir yaradıcılığında xüsusi yer tutmuşdur. «O, dilimizin əlvan boyalarından, bayatılardakı zəngin cinaslardan məharətlə istifadə edərək mükəmməl təcnislər yaratmışdır» (120, 91).

Aşıq Şəmşir öz poeziyasında bayatı janrına da müraciət

etmişdir və ustadın, demək olar ki, bütün bayatıları cinaslıdır. Bu, folklorşünaslıqda elmi şəkildə təsbit edilmişdir: «Azərbaycan poeziyasında təcnisin ilk nümunələrini bayatılarda axtarmaq lazımdır. …Bu gün xalq bayatılarına qarışaraq seçilməz olan Sarı Aşığın, Bikəsin, Lələnin, Zabitin, Qurbanın, Şah İsmayıl Xətainin, Aşıq Şəmşirin, Məlikballı Qurbanın və onlarca başqa sənətkarların bayatıları bir daha göstərir ki, bu nümunələr əvvəlcə ayrı-ayrı fərdlər tərəfindən deyilmiş, qoşulmuş, yazılmış, sonradan ümumxalq bədii fikrinin məhsulu kimi şöhrət tapmışdır» (92, 60). Maraqlıdır ki, Şəmşirin bayatılarında «əzizinəm», «eləmi» kimi sözlərlə başlayan misralar azlıq təşkil edir. Bəzi folklorşünasların fikrincə, Azərbaycan bayatıları daha çox «əzizinəm», «eləmi», «mən aşiq» kimi kəlmələrlə başlanır. Folklorşünas V.Vəliyev yazır ki, Azərbaycan bayatılarında başqa türkdilli xalqlarda olmayan formal bir əlamət vardır: bizim bayatılarımız əsasən «əzizinəm», «eləmi», «mən aşiq» kimi şablon kəlmələrlə başlanır (149, 4). Əslində, bayatılarımızın əksəriyyətində bu cür misralar işlənmir. Son dövrün bəzi tədqiqatlarında da bu fikirlə rastlaşırıq. Şəki ərazisindən 225 bayatı topladığını qeyd edən folklorşünas L.Süleymanova da belə «şablon» kəlmələrlə başlanan bayatılarla az rastlaşdığını göstərir (133, 129-130). Göründüyü kimi, Şəmşir bayatıları da bu baxımdan, yəni şablon kəlmələrin az işlənməsinə görə diqqəti cəlb edir.

Aşıq Şəmşirin bayatıları mövzu baxımından da rəngarəngdir. Bunlarda məhəbbət motivləri daha çox üstünlük təşkil edir. Aşığın cinaslı bayatıları həm forma, həm də məzmun baxımından əsl sənət örnəkləridir:

Tikilib qala dərdim,

Alışdır, qala dərdim.
Qorxuram, düşəm ayrı,
Canımda qala dərdim (31, 289).

Burada cinaslar formaca eyni sözlərdir. Birinci misradakı «qala» (çox, böyük mənasında), ikinci misradakı «qala» (yandırmaq mənasında), dördüncü misradakı «qala» (qalmaq mənasında) sözləri cinas təşkil edərək forma və məzmun cəhətdən vəhdət yaratmışdır. Bayatı məhəbbət mövzusundadır. Sevgilisindən ayrı düşməyin qorxusunu yaşayan lirik aşiqin daxili aləmi, keçirdiyi həyəcanlar, hiss və duyğular cinas qafiyələrin köməyi ilə yüksək bədii obrazlılıq kəsb etmişdir.

Yetişib üzüm indi,
Bir salxım üzüm indi.
Toxundu, qan olmadı
Üzünə üzüm indi (33, 481).

Göründüyü kimi, bayatı janrının poetik strukturuna uyğun olaraq burada birinci, ikinci və dördüncü misralar həmqafiyə, üçüncü misra isə sərbəstdir. Hər üç misradakı poetik fiqur («üzüm») cinas kimi çıxış edir və bunların hər biri ayrılıqda müstəqil mənaya malikdir. Birinci misradakı «üzüm» (meyvə), ikinci misradakı «üzüm» (dərmək), dördüncü misradakı «üzüm» (sima mənalarında) cinas kimi işlənərək bayatının poetikliyini daha da artırmışdır.

Sev gözəldə bir camal,
Varmı bir at, bircə mal.
Yolun düşsə bazara,
Mənə zərdən bir cam al (31, 289).

Bayatıdakı cinasların hər birinin ayrı-ayrılıqda müstəqil mənası vardır. Birinci misradakı «bir camal» poetik fiquru sima, ikinci misrada «bircə mal» əşya, dördüncü misradakı «bir cam al» kasa, piyalə almaq mənalarını bildirmiş, bu müstəqil məzmuna malik poetik fiqurlar həm bir-birilə həmqafiyə, həm də cinas kimi işlədilmişdir.

Geyinmisən, a xara,
Düşmə dərin axara.
Bülbül baxsa, qan ağlar,
Gül üstündə a xara (33, 481).

Aşıq cinaslardan, semantik cəhətdən tutumlu ifadələrdən, səs-söz naxışlarından bacarıqla istifadə etmişdir. Bayatı «a xara», «axara», «a xara» cinas qafiyələri üzərində qurulmuşdur. Burada birinci misrada «xara» – ipək parça, ikinci misrada «axara» – dərin çay, üçüncü misrada «a xara» – tikan mənasında işlənmişdir.

«Bəzən bayatılarda qafiyə yerində işlənən eyni fonetik tərkibli kəlmə zahirən cinasa bənzəsə də, cinas kimi çıxış edə bilmir. Belə kəlmələrin təkrarı bayatının bədii məziyyətinə xələl gətirmir» (92, 66). Bu cür bayatılar Şəmşir yaradıcılığında da vardır:

Mən aşıq can alandı,
Ömürdən can alandı.
Qaşların yağı cəllad,
Gözlərin can alandı (31, 289).

Nümunə verdiyimiz bu bayatıda işlənən «can alan» poe-

tik fiqurunun mənası demək olar ki, eynidir. Birinci misrada işlənən «can alan» fiquru heç bir məna bildirmir, bir növ digər misralar üçün izahat, aydınlıq verir. İkinci və dördüncü misralardakı «can alan» qafiyəsi eyni məzmun kəsb edir, can almaqla bağlıdır. Burada sevgilinin gözləri və qaşları əsas element kimi götürülmüş və cinas qafiyələrin vasitəsilə əsrarəngiz, füsunkar obraz yaradılmışdır.

Yaxud:

Mən aşıq yüz il ömrüm,
Nə candan yüz il ömrüm.
Doymaram baxışından
Olsaydı yüz il ömrüm (33, 289).

Bu bayatı da məhəbbət motivlidir. Sənətkar sevən aşiqin yüz il də ömrü olsa məşuqənin canalan baxışlarından doymadığını «yüz il ömrüm» qafiyəsinin poetik təkriri, melodik harmoniyası əsasında poetikləşdirməyə nail olmuşdur.

Aşıq Şəmşirin bayatılarında xalq ruhu, xalq mənəviyyatı öz əksini tapmışdır. O, əsrlərdən bəri xalq arasında dolaşan bayatılara yeni nəfəs vermiş və özünəməxsus bayatılar yaratmışdır. Məsələn, Şəmşir xalq arasında məşhur olan:

«Mən aşiqəm, yüz qandı,
Əlli qandı, yüz qandı,
Kəbə yıxmaq bir evdir,
Könül yıxmaq yüz qandı» (39, 81) –

bayatısından istifadə etməklə aşağıdakı bayatını yaratmışdır:

Mən aşığam, min qana,

Arif mətləb min qana,
Bircə ürək yıxarsan,
Əvəz olar min qana (31, 289).

Bununla da, Aşıq Şəmşirin xalq bayatılarından ilham aldığı və onların təsirilə də yazdığı məlum olur.

Ümumiyyətlə, təkcə nümunələr verib təhlil etdiyimiz bayatılar deyil, aşığın bütün bayatıları onun sənətkarlıq qüdrətini aydın şəkildə nümayiş etdirir.

Aşıq Şəmşir öz yaradıcılığında lirik növün bayatı-tapmaca janrına da yer vermişdir. Professor Q.Paşayev yazır ki, təbiət və cəmiyyət hadisələrinin, real varlıqların və s. şairanə təsvirini əks etdirən, formaca bayatı və qıfılbəndlərə oxşayan, lakin icra yeri və icra tərzinə, «üslubi, şeiriyyəti, ifadə etdiyi məcazi mənasına» görə onlardan fərqlənən «bayatı-tapmaca»-lar Azərbaycan folklorunda …lirik növün ayrıca janrı kimi tədqiq olunmamışdır (112, 173). Aşıq Şəmşirin bu bayatı-tapmacaları nəşrlərdə cinaslı tapmacalar adlandırılsa da, nümunələrə nəzər saldıqda görürük ki, burada heç də bütün misralar cinas qafiyələr üzərində qurulmamışdır. Məsələn:

Acıdı, atmaq olmaz,
Şirindi, satmaq olmaz.
Bir qaladı, hey qaçar,
Sirrinə çatmaq olmaz (30, 240).

Qeyd edək ki, sənətkar bu nümunələrin açmasını verməmişdir. Prof. Q.Paşayev bu baxımdan haqlı olaraq yazır: «Azərbaycan folklorşünaslığına dair son vaxtlar çap olunan kitablarda «bayatı-tapmaca»ların açmasını verməmək meyli

özünü göstərir. Hətta Aşıq Şəmşir kimi müasirlərimizin belə «bayatı-tapmaca»larının açmasının verilməməsi təəssüf doğurur» (112, 178). Aşıq Şəmşirin və digər sənətkarların yaradıcılığında rast gəldiyimiz bayatı-tapmacaların, ümumən cavabsız qalması aşıq yaradıcılığının öz spesifik ənənələri ilə bağlıdır. Sənətkarlar poetik mahiyyəti tapmacadan ibarət olan bayatı nümunələrini yaratmaqla onları təkcə öz müasirlərinə yox, bütünlükdə aşıq yaradıcılığının gələcək tarixinə ünvanlayırdılar. Yəni bu bayatı-tapmacaların nə qədər ki, sirri – cavabı açılmırdı, onlar bütün sənətkarları özünə cəlb edirdi. Beləliklə, bayatı-tapmaca əslində, açılmadıqca onu yaradan sənətkarın adını əsrlər boyunca yaşada bilər.

Aşıq Şəmşir müxtəlif janrlarda qiymətli təcnis nümunələri yaratmış və öz təcnis yaradıcılığı ilə aşıq poeziyasını daha da zənginləşdirmiş, müasirlərinə və özündən sonra gələn aşıq-şairlərimizə bir örnək olmuşdur. Onun təcnislərinin öyrənilməsi bir tərəfdən Azərbaycan xalq poeziyasının tədqiq olunması deməkdirsə, digər tərəfdən insanların şüurunu, düşüncəsini dərin estetizmə malik mənalarla zənginləşdirmək deməkdir.

### 3.4. Dil sənətkarlığı

Aşıq Şəmşir poeziyası zəngin bədii dil xüsusiyyətlərinə malikdir. Onun yaradıcılığında ana dilimizin poetik imkanları bütün gözəlliyi ilə öz təcəssümünü tapmışdır. Bu da öz növbəsində Şəmşirin yaradıcılığının məcazlar sisteminə, poetik sözün bədii imkanlarından istifadə üsullarına diqqət yetirmək zərurətini ortaya qoyur. «Aşıq Şəmşirin Azərbaycan xalqına və

millətimizə ən böyük xidmətlərindən biri onun dilimizə xidməti olmuşdur. Azərbaycan türkcəsinə xidməti olmuşdur. O, yaradıcılığı ilə Azərbaycan türkcəsini zənginləşdirdi» (70, 95). Bildiyimiz kimi, dilin bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə sənətkardan böyük məharət tələb edir. Poetik sözün bədii imkanlarından istifadə sənətkarın fərdi istedadını gerçəkləşdirir. «Məcazlar qüvvətli, ən təsirli bədii ifadə vasitəsidir. Burada sözlər özünün həqiqi mənasında deyil, başqa-başqa məna çalarlarında işlədilir ki, bu da aşıqdan xüsusi istedad tələb edir (64, 176). Aşıq Şəmşirin poeziyasına diqqət etdikdə onun məcazlardan, bədii təsvir vasitələrindən bacarıqla və yerli-yerində istifadə etdiyini görürük. Bu cəhətdən onun poeziyası məcazlarla zəngindir. Hər misra, hər bənd həqiqi məna ilə yanaşı, bədii idealı təcəssüm etdirən məcazi mənaya da xidmət edir. Məsələn, aşıq dağlara xitabən:

Süsənli, sünbüllü, al-əlvan rəngli,
Çiyələkli, yaşıl meşə ətəkli,
Nərgiz kalağaylı, lalə gərdəkli,
Al bəzəkli, təzə gəlindi dağlar (28, 252) –

deyərək çox maraqlı və orijinal bənzətmə yaratmış və bu zaman dağlarla insan, təbiətlə cəmiyyət arasında yüksək bədii əyarı olan obrazlı müqayisə yaratmağa müvəffəq olmuşdur.

Şəmşirin məcazları funksionallıq etibarilə onun təsvir etdiyi dünyanın bütün ünsürlərinin, o cümlədən insanın bədii gözəllik cəhətdən yüksək estetizminə xidmət edir:

Zəban şəkər, dəhan əsəl, ağız qənd,

Ona heyran olub bu oba, bu kənd,
Tökülüb alnında zülf olub kəmənd,
Pərişan telləri sarı bəzəkli (33, 112).

Şəmşir burada klassik ədəbiyyatdan gələn ənənəvi məcazlardan bəhrələnmiş, bununla yanaşı, onlara fərdi poetik duyumunun gücü ilə yeni nəfəs vermişdir. Aşıq burada ənənə ilə yanaşı, fərdi istedadını üzvi poetik qovuşmada təqdim etmiş, beləliklə zəbanı şəkərə, dəhanı əsələ (bala), ağızı qəndə, zülfü kəməndə bənzətməklə özünəməxsus, təzə-tər bənzətmələr yaratmağa nail olmuşdur.

Aşıq poeziyasında ən çox işlənən təsvir vasitələrindən biri təşbehlərdir. «Şeirin başlıca linqvistik və məntiqi əsasında məcazi sözlərin xüsusi çəkisini artıran onun dolğunluğu və bitkinliyidir. Bu baxımdan təşbehlər şeirdə daha geniş bədii vəzifə daşıyır» (69, 141). «Təşbehdən məqsəd fikri daha da canlandırmaq və qüvvətləndirməkdir» (124, 148). Bütün dövrlərdə aşıqlar və el şairləri təsvir etdikləri gözəlin zahiri görkəmini, bir çox keyfiyyətlərini daha qabarıq və emosional təqdim etmək üçün təşbehlərdən istifadə etmişlər. Aşıq Şəmşir də şeirlərində yüksək forma gözəlliyinə malik təşbehlərdən geniş şəkildə istifadə etmişdir:

Bəxtəvərin nə qaradır qaşları,
Hüsnü qəşəng güldür, dodağı göyçək.
Təhri-yasəməndir o yanaqları,
Nə qəşəng yaranıb buxağı göyçək (26, 83).

Sənətkar burada yüksək ustalıqla iki təşbeh yaratmışdır.

«Hüsnü qəşəng güldür», «Təhri-yasəməndir o yanaqları». O, vəsf etdiyi gözəlin hüsnünü gülə, yanaqlarını yasəmənə bənzədib, real insani gözəlliyi bədii gözəlliyə çevirməklə gözəlliyə bədii ömür vermişdir.

Digər bir maraqlı nümunəyə nəzər salaq:

Yanağın bağlarda gül, xalam qızı!
Qamətin sərvdir, boyun minarə,
Çin-çin olub, düzülübdür qatara,
Tökülüb üzünə tel, xalam qızı! (26, 87)

Bu nümunədə də üç təşbeh işlədilmişdir. Şəmşir gözəlin yanaqlarını gülə, qamətini sərvə, boyunu minarəyə bənzətmişdir. Qeyd edək ki, hər üç təşbeh klassik ədəbiyyatdan gəlir və sənətkar bunları özünəxas şəkildə, yeni biçimdə təqdim etmişdir. Aşıq gördüyü qızın gözəlliyindən vəcdə gəlmiş və bu təşbehlər vasitəsilə onu yüksək səviyyədə tərənnüm etmişdir.

Bir xalı yaqutdur, bir xalı gövhər,
Bir xalı simuzər, bir xalı əhmər;
Yanaqları şəmsi, qaşları qəmər,
Buxaq ağdı, dodaqları bəzəkli (33, 112).

Nümunə verdiyimiz bəndin bütün misraları təşbehlər üzərində qurulmuşdur. Aşıq birinci və ikinci misralarda sevgilisinin xalını yaquta, gövhərə, simuzərə, əhmərə, üçüncü misrada yanaqlarını şəmsə, qaşlarını qəmərə bənzətməklə mükəmməl təşbehlər yaratmağa müvəffəq olmuşdur. Burada da Şəmşir ənənəvi təşbehləri yeni donda təqdim etmişdir.

Sənətkar sevgilisinə məxsus cizgiləri sadalamaqla onun gözəlliyini, cazibədarlığını təşbehlər vasitəsilə xüsusi bədii gözəllik hadisəsinə çevirməyi bacarmışdır.

Sənətkar yalnız məhəbbət mövzusunda deyil, həmçinin təbiət məzmunlu şeirlərində də təşbehlərdən istifadə etmişdir:

Sıx meşəlik – ətəklərin,
Sarı sünbül – birçəklərin,
Solmasın gül-çiçəklərin,
Qoy olmasın xəzəl, dağlar (28, 353).

Aşıq Şəmşirin gəraylılarında təşbehlər bol-bol işlənməklə yanaşı, həm də bu janrın poetik oynaqlığına özünəməxsus şuxluq gətirmişdir. Başqa sözlə, sənətkar hər bir janrda olduğu kimi, gəraylılarda da janrın bədii hərəkətliliyinə (dinamikasına) uyğun təşbehlər yarada bilmişdir:

Sənin cismin simüzərdi,
Hüsnün mahi-münəvvərdi.
Dodaqların bal, şəkərdi,
Qaşların məhpara, gəlin (28, 302).

Bəndin bütün misralarında təşbehlərdən istifadə olunmuşdur. Birinci misrada sevgilinin cismini – bədənini simuzərə, ikincidə hüsnünü mahi-münəvvərə, üçüncüdə dodaqlarını bala, şəkərə, sonuncu misrada qaşlarını məhparəyə bənzətməklə maraqlı və orijinal təşbehlər yaratmışdır. Buradakı təşbehlər əsasən rəngarəng və əlvan olmaları ilə seçilir. Qeyd edək ki, Aşıq Şəmşirin yaradıcılığı təşbehlərlə zəngindir və bu təsvir

vasitəsindən ustalıqla istifadə onun sənətkarlıq qabiliyyətini əyani şəkildə nümayiş etdirir.

Sənətkarın şeirlərinin dilinə poetik gözəllik verən bədii təsvir vasitələrindən biri də epitetlərdir. Sənətkar şeirlərini poetik baxımdan daha cazibədar etmək üçün məzmun və forma baxımından uyarlı epitetlər yaratmışdır:

Qılman tamaşalım, loğman kamallım,
Züleyxa eşqlim, Yusif camallım.
Məcnunu mən olan Leyli xəyallım
Artır intizarım, görünmür niyə? (26, 65)

Verilmiş nümunədə «qılman tamaşalı», «loğman kamallı», «Züleyxa eşqli», «Yusif camallı», «Leyli xəyallı» kimi epitetlərlə vəsf edilmiş el gözəlinin canlı bədii portretini görürük.

Yaxud:

Siyah telə verdin sığal,
Mələk misal, a mah camal.
Oğrun-oğrun baxan maral,
Çox gəlirsən xoşa, Nərgiz (29, 96).

Gəraylıdan verdiyimiz bənddə «siyah tel», «mələk misal», «mah camal» kimi maraqlı epitetlər şeirin poetizmini daha da artırmış, eyni zamanda gözəlin təsviri baxımından yerində işlənmişdir. Başqa sözlə, bədii epitetin «...əsrlərlə işlədilən, bir yazıçıdan o birinə, bir əsərdən digərinə keçən epitetlər də olur ki, bunlara müqəyyəd epitetlər deyilir» (55, 77) tərifi, göründüyü kimi, Şəmşir yaradıcılığında özünü yeni

formada, özünəxas şəkildə təsdiq etmişdir.

Aşıq Şəmşir poeziyasında sıx-sıx rast gəlinən təsvir vasitələrindən biri də metaforadır. «Klassik aşıq poeziyasında müşahidə olunan məcazlar içərisində bədii fikrin ifadəsi baxımından ən güclüsü, növ və formalarının zənginliyinə, işlənmə dairəsinin genişliyinə görə ən imkanlısı metaforadır» (95, 222). Şəmşir yaradıcılığında da metaforanın gözəl nümunələri vardır:

Nərvan, söyüd, ulğun desə barım var,
Alma gülər, heyva gülər, nar gülər.
Buzlu çillə yazı qonaq çağırsa,
Boran gülər, tufan gülər, qar gülər (28, 61).

Sənətkar bu bənddə metaforadan uğurla istifadə etmişdir. Gülmək insana xas xüsusiyyətdir. Bu keyfiyyət 2-ci misrada «alma», «heyva», «nar», 4-cü misrada «boran», «tufan», «qar» məfhumlarının üzərinə köçürülmüş və maraqlı metaforalar yaranmışdır.

Digər bir nümunəyə nəzər salaq:

Xilqət cəlladısan əzəl-axır sən,
Hamını yandırıb oda yaxırsan.
Dünən ucaldırsan, bu gün yıxırsan,
Qoyursan yurdunu xaraba, dünya (31, 122).

Sənətkar dünyanı cəllada bənzətməklə, həmçinin yandırmaq, ucaltmaq, yıxmaq xüsusiyyətlərini ona köçürtməklə təkcə ayrı-ayrılıqda gözəl sayıla bilən məcazlar yaratmamış,

eyni zamanda onların arasında poetik harmoniya qurmaqla şeirin bədii ideyasını son dərəcə yüksək dil poetizmi ilə təqdim etməyi bacarmışdır.

Yaxud:

Köynəksizdi, soyuq dəyib,
Yaman xəstəhaldı sazım.
Dərdə qaldı, hala yandı –
Özün dərdə saldı sazım (28, 291).

Sənətkar bu bənddə də maraqlı metafora yaratmışdır. Nümunədə canlılara xas əlamət və keyfiyyətlərin sazın üzərinə köçürülməsi şeirin poetizmini, fikrin obrazlılığını daha da artırmışdır.

Məcazlar sistemində özünəməxsus yer tutan metonimiyalar aşıq poeziyasında da müraciət olunan təsvir vasitələrindəndir. Bu bir həqiqətdir ki, «…metonimiya klassik aşıq poeziyasının dilində metaforalara nisbətən çox məhdud şəkildə işlənir və növ müxtəlifliyi baxımından da onun kimi zəngin deyil (95, 232). Aşıq Şəmşir yaradıcılığında da ara-sıra rast gəlinən təsvir vasitələrindən biri metonimiyadır:

Köz kimi qızarıb dağlarda lalə,
Çağırır nərgizli yaylaqlar səni.
Taxtadüz haçandır göz dikib yola,
İstisu üstündə qonaqlar səni (28, 216).

Buradakı metonimiyaların məkana görə seçilən səciyyəvi xüsusiyyətləri vardır. Aşıq sonuncu misralarda yaratdığı

metonimiyalarla şeirin poetizmini daha da artırmışdır. Nümunədəki «göz dikib yola» ifadəsi məkana görə metonimiyadır. Aşıq Taxtadüzdə, İstisuda yaşayan insanların qonaqpərvərliyini təcəssüm etdirmək üçün gözəl metonimiyalar yaratmışdır.

Gülür Ağstafa, Qazax, Qarabağ,
Qoşqarın başında yanır min çıraq (28, 208) –

misraları da məkana görə metonimiyaya nümunə ola bilər. Göründüyü kimi, aşıq şeirin emosionallığını, poetizmini artırmaq üçün metonimiyalardan uğurla istifadə etmişdir.

Bu yaxşı görüşdü bizə müyəssər,
Qonuşmağa mövcə gəlir bəhri-bər.
Sanki ayaqlaşıb Laçın, Kəlbəcər,
Şəmşiri görməyə bütün el gəlir (30, 83).

Nümunədəki Laçın, Kəlbəcər metonimiyaları burada yaşayan əhalini, insanları bildirmək üçün işlənərək fikrin daha obrazlı olmasına təsir etmiş və beləliklə, bölgə insanlarının saza, sözə, sənət və yaradıcılıq ənənələrinin yaşadıcısı olan sənətkarlara, o cümlədən Aşıq Şəmşirə bəslədikləri hörmət yüksək poetik şəkildə ifadə olunmuşdur.

Aşıq Şəmşir yaradıcılığı üçün xarakterik olan bədii təsvir vasitələrindən biri də mübaliğədir. Sənətkar fikrin, ideyanın daha qüvvətli və təsirli alınması üçün mübaliğələrdən istifadə etmiş və bu zaman mübaliğənin (bədii şişirtmənin) sərhədlərini yüksək ustalıqla gözləyərək bədii ideyanın daha dolğun təcəssümünə, bədii reallığın yüksək es-

tetizminə nail olmuşdur. Məsələn:

Ustaddan dərsimi alaram cəmi,
Ümmanam, köksümdə üzər min gəmi;
Təlatüm eylərəm dəryalar kimi,
O Kürün, Arazın Tərtəriyəm mən (26, 93).

Bu bənddə mübaliğələrdən yerli-yerində istifadə olunmuşdur. Aşığın özünü köksündə min gəmi üzən ümmana, dəryaya bənzətməsi tutarlı mübaliğə olmaqla sənətkarın klassik obrazlardan istifadə bacarığını da göstərir. Şeirdə ustad, dərs, ümman, dərya kimi obrazlar klassik aşıq poetikasının ən funksional obrazlarıdır. Şəmşir bu obrazları öz zamanının poetik ifadə vasitəsinə çevirmiş, klassika ilə müasirliyin vəhdətini təmin emişdir.

İnan, səndən kəsilməzdi gümanım,
Niyə yad olubsan, a mehribanım.
Od tutur, qorlanır, alışır canım,
Sanki kabab yanır köz qabağında (28, 133).

Burada aşığın lirik qəhrəmanının fəryadı və əzabları öz əksini tapmışdır. Sənətkar eşqin əzabını odla, atəşlə müqayisə edərək maraqlı mübaliğə yaratmışdır. Şəmşir lirik qəhrəmanın cisminin məşuqənin eşqindən od tutub alışdığını, köz üstündə kabab kimi yandığını göstərərkən mübaliğədən ustalıqla istifadə etmişdir.

Mübaliğənin əksi olan litota da Aşıq Şəmşir poeziyasının dilində gözəl nümunələrlə təmsil olunur. Məsələn:

Bezə astar vurmaq olmaz ipəkdən,
Mərifət qanana naziyəm tükdən.
Yaz yağı tək süzülmüşəm çiçəkdən,
Qatımda ayranım, kəfim yoxdu ki (28, 272).

Burada lirik qəhrəmanın özünü nazik tükə bənzətməsi uğurlu litota olub, Şəmşirin sənətkarlıq istedadını nümayiş etdirir. Sənətkar «tükdən nazik» obrazı vasitəsilə məna incəliyi, bilik dərinliyi, idraki itiliyi və s. ifadə etmişdir. Obrazın məna genişliyi birbaşa Aşıq Şəmşirin geniş məna strukturuna malik obraz yaratmaq bacarığını göstərir.

Mən oda alışdım, o suya çimdi,
Atəşində yanan bilmədi kimdi.
Bədənim sızlaşır, elə bir simdi,
İncəlib sap kimi nəzildi getdi (28, 30).

Aşıq bu bənddə mübaliğə ilə litotanı uğurlu şəkildə qarşılaşdırmışdır. Şəmşirin alışıb yanan lirik «mən»in bədənini «incəlib sap kimi nəzilən simə» bənzətməsi orijinal litotadır.

Aşıq Şəmşir yaradıcılığında klassik aşıq poetikasının bütün səciyyəvi ənənələrini əks etdirməklə yanaşı, burada, həmçinin, sənətkar fərdiliyini də özündə inikas etdirən bədii ifadə vasitələri ilə qarşılaşırıq. Belə bədii ifadə vasitələrindən biri təzaddır. «Antiteza obrazlılığın mükəmməl formalarından biridir və şeir dilində də ən mühüm üslubi kateqoriyalardandır» (68, 349). Sənətkar bədii təzadlardan fikrin daha emosional ifadəsi üçün, o cümlədən təsvirin daha təsirli verilməsi üçün bacarıqla istifadə etmişdir:

Hər kim mayasını qərq edə suya,
O hardan xeyrini, şərini duya.
Halaldan uzaşa, harama uya,
Belə sifət hər insana çətindi (31, 13).

Bu bənddə maraqlı təzadlar yaradılmışdır. Sənətkar xeyir-şər, halal-haram antitezlərindən istifadə etməklə özünün insan haqqında obrazlı düşüncəsini təcəssüm etdirmişdir.

Alağa – qərənfil, yovşana – reyhan,
Tikanlı qanqala – gül desəm, olmaz.
Dəmirə – saf qızıl, söyüdə – sandal,
Tapılan hər daşa – ləl desəm, olmaz (26, 33).

Bu bənd də başdan-başa təzadlardan ibarətdir. Aşıq bu təzadlar vasitəsilə dövrünün, zamanının reallığını yaratmağa nail olmuşdur. Burada mənəvi dəyərlər maddi obrazlarda təcəssüm etdirilməklə öncə metaforik vahidlər yaradılmış, daha sonra bu metaforik vahidlərdən istifadə olunmaqla poetik ideyanın bədii təzadlarla təcəssümünə nail olunmuşdur.

Göstər ehtiramın xalqa nə isə,
Qulaq vermə pisə, nəsə, nakəsə;
Aqil, kamil, arif olan məclisə
Sözünü xoş danış, ibarət eylə (26, 32).

Burada Aşıq Şəmşir «pis-aqil», «nəs-kamil», nakəs-arif» kimi antonim mənalı sözlərin (təzadların) qarşılaşdırılması yolu ilə iki insan tipi yaratmışdır. Bunlardan biri aqil, arif, kamil, digəri isə pis, nadan, nakəs insandır. Cəmiyyətin insanları bu cür təbəqələrə böldüyünü aşıq antitezlər

vasitəsilə poetikləşdirməklə bədiiliyin daha emosional ifadəsinə nail olmuşdur.

Aşıq Şəmşir poeziyası üçün səciyyəvi olan bədii ifadə vasitələrindən biri təkrirdir. Ümumiyyətlə, aşıq şeirində eyni sözün, ifadənin təkrarı ağırlıq yaratmır, əksinə fikrin ifadəliliyini, poetikliyini daha da artırır. Bu baxımdan, Şəmşir yaradıcılığında da təkrirlərdən bol-bol istifadə olunmuşdur:

Biri günəş, biri aydı,
Biri yazdı, biri yaydı.
Bir-birinə yaxşı taydı,
Olub əlaqə xoş gəlib (29, 100).

Nümunədə «biri» sözünün bir neçə dəfə təkrar olunması şeirdə heç bir ağırlıq, məzmunsuzluq yaratmamış, əksinə, fikrin mənalılığına xidmət etməklə yanaşı, onun melodik intonasiyasını, ritmik tonunu yüksəltmişdir.

Təkririn növlərindən biri olan anafora da Şəmşir yaradıcılığı üçün xarakterikdir. Bu halda təkrarlar misranın əvvəlində gəlir:

Aşıq var ki, hər nə desən, varıdı,
Aşıq var ki, xalqın sənətkarıdı.
Aşıq var, kamalda ləl, mirvarıdı,
Doludu xaralı, söz dağarcığı (31, 48).

Bu bənddə misraların əvvəlində təkrar olunan «aşıq var ki» anaforalarının vasitəsilə aşığa məxsus xarakterik cizgilər sadalanmışdır. Bu təkrirlər yerli-yerində işlənməklə şeirin emosionallığını daha da artırmışdır.

Şeirin sonunda təkrarlanan söz və ifadələr epifora adlanır. Şəmşir yaradıcılığında məzmun və forma gözəlliyi bir-birini tamamlayan çoxsaylı epiforalar vardır:

Ey can alan, sənə deyim dərdimi,
Oxu bir tərəfdən, yaz bir tərəfdən.
Qıyqacı baxışın alır taqətim,
Qəmzə bir tərəfdən, naz bir tərəfdən (26, 81).

Burada Şəmşir «bir tərəfdən» birləşməsini təkrarlamaqla epifora yaratmış, bununla da şeirin emosional təsir gücünü artırmışdır. Bu da öz növbəsində şeirin ideyasının daha güclü poetik təcəssümünü təmin etmişdir. Ümumiyyətlə, Şəmşir öz yaradıcılığında digər sintaktik fiqurlara nisbətən təkrirlərdən istifadəyə az meyl etmişdir.

Aşıq Şəmşir poeziyasında bədii ifadə vasitələrindən biri olan kinayədən də istifadə olunmuşdur. Kinayədə müəyyən bir hadisəyə, obyektə istehzalı, rişxəndli münasibət olur. Bu baxımdan, nümunə kimi aşığın «Oldun axır» rədifli gəraylısının bəzi bəndlərinə nəzər salmaq kifayətdir:

Mənə ixtiyar deyərdin,
Sən də qoca oldun axır.
Alışdım sənin oduna,
Canım oda saldın axır.

Mən ha çəkdim intizarı,
Sən insaf etmədin barı;
Dedimmi olarsan qarı?
Sözlərimə gəldin axır (26, 18).

Bu bəndlərdə aşıq yumşaq bir eyhamla bir zamanlar ona rişxənd edən, onun qocalığını ələ salan yarına istehza edir, onun da qocaldığını, gözəlliyinin əbədi olmadığını kinayə ilə çatdırır. Bu kinayə adi bir kinayədən fərqli olub, heç də mənfi emosiyalar oyatmır. Əksinə, bədii zövqləri oxşayıb, insanların qəlbini emosional ağırlıqlardan təmizləyir.

Aşıq Şəmşir yaradıcılığında tez-tez rast gəlinən bədii ifadə vasitələrindən biri bədii sualdır. Bədii sual əsasən müəyyən bir fikrin qabardılmasına, daha da emosional səslənməsinə xidmət edir. Məsələn:

Anadan olanda ağlayan insan,
Niyə ağlasınlar öləndə səni?
Dedilərmi yaranmışa ölüm var,
Xəbərdar etdilər gələndə səni? (28, 25)

Şəmşir fikri daha qüvvətli səsləndirmək üçün ritorik sualdan yerində istifadə etmişdir. O, insanları ayılmağa, dünyanın mənasını anlamağa, boş-boşuna vaxt keçirməməyə çağırmış və bu zaman ritorikadan istifadə ilə fikrin – bədii ideyanın daha emosional və ekspressiv ifadəsinə nail olmuşdur.

Aşıq Şəmşir yaradıcılığında, yeri gəldikcə, atalar sözü, zərb-məsəllərdən də istifadə etmişdir. «Atalar sözü və məsəllərdə xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir» (56, 109). Buna görə də sənətkar bunlar vasitəsilə öz fikirlərini, duyğu və düşüncələrini daha təsirli şəkildə ifadə etməyə çalışmışdır. Nümunələrə nəzər salaq:

Şəmşirəm, bilirəm dürr qiymətini,
Cavan qiymətini, pir qiymətini.
Zərgər olan bilər zər qiymətini,
Verin qədir bilənlərə sözümü (28, 46).

Yaxud:

Sirkə tündləşəndə çatladar qabın,
Duymaz mənasını dəftər-kitabın,
Şəmşir min danışsa, bilməz hesabın,
Altmış nədi, əlli nədi, yüz nədi (28, 47).

Verilən nümunələrdə «Zər qədrini zərgər bilər», «Sirkə nə qədər tünd olsa, öz qabını çatladar» atalar sözləri şeirlərin işlək məqamlarına salınmaqla bədii ideyanın təsirliliyini artırmışdır. Aşıq Şəmşir «Namusu itə atıblar, it də yeməyib» atalar sözünü «Olsun» qoşmasında daha poetik şəkildə işlətmişdir:

Ariflər üçündü sözümün sonu,
Müqabil lazımdı hər boyun donu.
Namusu itə at, it yeməz onu,
Şəmşirin bu sözü yadigar olsun (29, 41).

Əlbəttə, Şəmşir «Namusu itə atsan, it yeməz» atalar sözünü xalqdan götürmüşdür. Bu baxımdan, Şəmşirin bizə yadigar qoyduğu poetik gözəllik abidəsi həmin deyimin əsasında yaradılmış estetik incidir. «Bəzi hallarda yaradıcı aşıqlar şeirdə işlədilən atalar sözünün mətnində və məzmununda heç bir dəyişikliyə yol vermədən, misranın daxili ahəngini və ritmini qorumaq xatirinə atalar sözündə söz

sırasını dəyişməli olurlar (95, 283). Göründüyü kimi, yuxarıdakı nümunələrdə də atalar sözlərinin məzmununa heç bir xələl gəlməmiş, onların vasitəsilə şeirlərin ahəngdarlığı daha da artırılmışdır. Atalar sözləri fikrin təsdiqinə xidmət etməklə onu gücləndirir. Şəmşir də atalar sözlərindən eyni məqsədlə istifadə etmişdir. Lakin istifadə zamanı onları bədii cəhətdən cilalamış, şeirin poetik kökünə oturtmuş və nəticədə, bədii gözəllik yaratmışdır.

Bir sözdü dünyada qalan yadigar,
Bu gərdişin at işləməz yolu var.
Bivəfa ömürə etmə etibar,
Nə də fələyə bel bağlama, bülbül (28, 17).

Bu bəndin ikinci misrasında zərb-məsəl olduğu kimi verilmişdir. Lakin həmin deyim çox ustalıqla qoşmanın misra strukturuna oturdulmuş və bəndin digər misraları ilə qafiyə əlaqəsinə salınmışdır.

Aşıq Şəmşir «Sirr açandan el qaçar» atalar sözünü «Yayılar» qoşmasında yeni çalarda işlətmişdir:

Bivəfa yoldaşa, biilqar dosta,
Sirrini bildirmə, elə yayılar (31, 8).

Həmin qoşmanın digər bəndində «Bəylə bostan əkənin tağı çiynində bitər» atalar sözü başqa formada – daha poetik donda işlənmişdir:

İnanma, baharam desə zimistan,
Namərdlə tağ əkmə, bəy ilə bostan (31, 8).

Yaxud, «Sirrini dostuna demə, dostunun da dostu var» atalar sözü aşığın təqdimində yeni poetik ovqat, yeni bədii gözəllik kəsb etmişdir:

Dost sirrini dosta demə, saxla möhkəm sirr budu,
İnsanlara lazım olan namus, qeyrət bir budu (28, 406).

Aşıq Şəmşir atalar sözlərindən yaradıcı surətdə faydalanmış, onları şeirin ahənginə uyğun yeni formada işlətmişdir:

İblisin dostluğu qəmdi, qəhərdi,
Qurdla aşnalıq da çox bitəhərdi;
Namərd plovunu yemə, zəhərdi,
Ağıdı ləzzəti, aş demək olmaz (26, 36).

Sənətkar atalar sözlərindən, zərb-məsəllərdən məharətlə istifadə etmiş, bununla da şeirlərinin təsirliliyini, fikirlərinin dərinliyini gücləndirmişdir:

Hər mətləbi tez qanana,
Mənasını düz qanana,
İşarədən söz qanana
Göz də birdi, qaş da birdi (26, 7).

Bəndin ümumi məzmunundan «Arifə bir işarə» məsəli xatırlanır. Bu da öz növbəsində göstərir ki, Şəmşir ana dilinin incəliklərinə, deyimlər dünyasına dərindən bələd olub dillə bir zərgər dəqiqliyi ilə işləməyi bacarmışdır. O, zərb-məsəlləri əsərlərinin içərisində əritməklə həmin deyimlərin poetizmini də öz şeirinə gətirmişdir. Başqa sözlə, Şəmşir üçün xalq bir tərəfdən forma gözəlliyi, bir tərəfdən də məzmun gözəlliyinin xəzinəsi olmuş və o, bu poetik məna xəzinəsindən bacarıqla

istifadə etmişdir. Zərb-məsəllərdən sənətkarlıqla istifadə də bunu təsdiq edir. Aşıq,

Bəyənməz tısbağa çıxa çanaxdan,
Çox belə imtahan çıxıb sınaxdan (31, 114) –

misralarında «Tısbağa çanağından çıxıb, çanağını bəyənmədi» atalar sözünü ustalıqla poetikləşdirmişdir.

Aşıq Şəmşir atalar sözlərindən təcnis yaradıcılığında da sintaktik qəliblər kimi bacarıqla istifadə etmişdir. Məsələn:

Təbib qarşı gəlsə, sağalar yara,
İstər ağla, ya sızılda, ya zarı.
Qışın ömrü təslim olur bahara
Çiçəklərdən bal çəkəcək yaz arı (31, 218).

Aşıq «Yara sağalası olsa, təbib qarşı gələr» məsəlini şeirin birinci misrasında özünəməxsus tərzdə işlətmişdir. Burada Şəmşirin sənətkarlığı onda ifadə olunmuşdur ki, o, bir tərəfdən zərb-məsəli qoşmanın poetik strukturuna kökləmiş, digər tərəfdən məna uzlaşmasını təmin etmiş, başqa bir tərəfdən isə təcnis texnikasını reallaşdırmışdır.

Ümumiyyətlə, Aşıq Şəmşirin yaradıcılığı sənətkarlıq baxımından çox zəngin hadisədir. O, aşıq yaradıcılığının klassik fondundan istifadə etməklə yanaşı, özü də orijinal obrazlar yaratmağa müvəffəq olmuşdur. Şəmşirin yaradıcılığında sənətkarlıq klassik ənənə ilə fərdi deyim tərzinin orijinal ahəngində ifadə olunmuşdur. Aşıq Şəmşirin yaratdığı obrazların yüksək sənətkarlığı yaradıcılığının poetik cazibəsini və yaşarılığını təmin etmiş, poeziyası ilə Azərbaycan aşıq sənətində önəmli yer tutmuşdur.

# NƏTİCƏ

Aşıq Şəmşirin poetik irsinin öyrənilməsi göstərdi ki, onun poeziyası struktur etibarilə Göyçə-Kəlbəcər aşıq mühitinə bağlı olmaqla onun ənənələrini özündə əks etdirmişdir. Onun şeirlərində bu mühitin əsrlərdən bəri cilalana-cilalana gələn ənənələri yaşayır. Əsası XVI əsr sənətkarı Miskin Abdalla qoyulan bu mühitdə saz və söz sənəti bütün tarixi boyunca yüksək şəkildə inkişaf etmiş və bu ənənə Aşıq Şəmşir yaradıcılığına da nüfuz etmişdir. O, Miskin Abdal fenomenini özünə mənəvi ustad saymışdır. Çünki aşığın nəsil şəcərəsi birbaşa olaraq Miskin Abdal ocağı ilə başlayır. Bu mühitin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin və Ağdabanlı Qurbanın poetik örnəkləri Şəmşir yaradıcılığı üçün əsas təsir mənbəyi olmuşdur. Aşıq Şəmşirdə hər iki böyük ustaddan gələn ən mühüm sənətkarlıq xüsusiyyətləri öz təcəssümünü tapmışdır. Belə bir mühitdə formalaşan Şəmşir tezliklə dövrünün qüdrətli sənətkarı kimi məşhurlaşmışdır. Kəlbəcər aşıqlığı XX əsrdə Şəmşirin timsalında özünün yüksəliş dövrünü yaşamışdır. O, öz yaradıcılığı ilə Azərbaycan aşıq şeirini mövzu baxımından, sənətkarlıq cəhətdən xeyli zənginləşdirmişdir.

Araşdırmalar göstərdi ki, Aşıq Şəmşir poeziyasını heç vaxt onun müasirlərinin yaradıcılığından kənar dəyərləndirmək olmaz. Bu dövrdə Aşıq Şəmşirlə yanaşı Ağdabanlı Qurban, Aşıq Talıb, Zodlu Usta Abdulla, Növrəs İman, Həsən Xəyallı, Gədəbəydə Miskin Vəli, Tovuzda Mikayıl Azaflı və başqa görkəmli sənətkarlar fəaliyyət göstərirdilər. Onların yaradıcılığı həm aşıq sənətinin ümumi inkişafına, həm də qarşılıqlı şəkildə bir-birinə təsir etmişdir.

Şəmşir özü mövcud sənət və yaradıcılıq ənənələrindən bəhrələndiyi kimi, onun da sənəti və poeziyası digər sənətkarlara yaradıcı təsir göstərmişdir. Bundan başqa, Şəmşirin dövrünün digər aşıq və el şairləri ilə deyişmələri və məktublaşmaları onun istedadlı sənətkar olduğunun parlaq təzahürüdür. Bu deyişmələrin heç yerdə çap olunmamış bir qismi tərəfimizdən toplanmış və tədqiqatın gedişində istifadə olunmuşdur.

Aşıq Şəmşir çoxəsrlik tarixə malik aşıq şeiri ənənələrini öz yaradıcılığında yaşatmış və inkişaf etdirmişdir. Aparılmış müşahidə və müqayisələr nəticəsində aydın olmuşdur ki, Şəmşir xalq poeziyası ənənəsində yazıb-yaratmış və bütün fəaliyyəti boyu ənənəyə sadiq qalmışdır. Lakin bu, heç də onun orijinallığına xələl gətirməmiş, aşığın özünəməxsusluğunu, dil və üslub xüsusiyyətlərini pozmamışdır. O, ənənəyə, sələflərinin sənətkarlığına daim yaradıcı münasibət bəsləmişdir. Aşıq Şəmşir bu ənənələri mexaniki şəkildə təkrar etməmiş, əksinə klassiklərdən öyrənə-öyrənə, onların ən yaxşı cəhətlərini daha yeni ahəngdə davam etdirmiş, aşıq poeziyasını yüksək zirvələrə ucaltmışdır.

Aşıq Şəmşir öz dövrünün sosial gerçəkliklərinə daim münasibət bildirmiş, xalqın həyatında baş verən hadisələri, ictimai məsələləri yaradıcılığında əks etdirmişdir. Onun poeziyasında ictimai motivlər, sosial problemlər məzmun özünəməxsusluğu və bədii təcəssümünün forma gözəlliyi ilə nəzəri cəlb edir. Bu da hər şeydən əvvəl sənətkarın cəmiyyətdə baş verən ictimai, sosial-siyasi hadisələrə obyektiv münasibəti ilə səciyyələnmişdir. O, yaşadığı cəmiyyətin ziddiyyətlərini dərindən duymuş, onun sosial mahiyyətinə nüfuz etmiş və bədiiləşdirmişdir.

Bütün ustad aşıqlarda olduğu kimi, Aşıq Şəmşirin də yaradıcılığının əsasını məhəbbət lirikası təşkil edir. Bu baxımdan saf, təmiz eşq, məhəbbətdə sədaqət, etibar kimi mənəvi keyfiyyətlər onun məhəbbət lirikasının əsas poetik sütunlarını təşkil edir. Şəmşirin yaradıcılığında tərənnüm olunan məhəbbətin poetik hüdudları çox geniş olub, bütövlükdə insanlığı, vətəni, doğma yurdu və ana təbiəti əhatə etməklə onun məhəbbət anlayışına çox böyük məna verdiyini göstərir. Müqayisəli təhlil nəticəsində aydın olmuşdur ki, Aşıq Şəmşirin məhəbbət lirikasında gözəlləmələr xüsusi yer tutur. Aşıq Şəmşir üçün gözəlliyin tərənnümü bir tərəfdən klassik ənənəyə sədaqət sayılmışsa, digər tərəfdən dünyanı sevə-sevə yaşamağın, onun ilahi gözəlliklərindən zövq almağın, eyni zamanda bu zövqu əsrarəngiz poetik çələngə çevirib insanlarla bölüşməyin vasitəsi olmuşdur.

Şəmşirin lirikasında təbiət gözəllikləri, doğma torpağa məhəbbət əsas mövzulardan birini təşkil edir. Aşıq vətənimizin zəngin təbiətinin özünəməxsus əlvan çalarlarını müşahidə edib, onu poetik dildə öz əsərlərində ifadə etmişdir. Onun poeziyasında təbiət gözəlliyinin tərənnümü daha qabarıq olmaqla aşığın zəngin poetik irsinə yüksək estetizmi ilə seçilən hərarət, təravət və səmimilik gətirmişdir.

Tədqiqatda Aşıq Şəmşirin əxlaqi-didaktik motivli şeirlərinin həm məzmun, həm də forma baxımından zənginliyi aşkara çıxarılmışdır. Bu baxımdan, sənətkarın ustadnamələri xüsusilə səciyyəvidir. Şəmşir ustadnamə şeirinin bütün klassik ənənələrini öz yaradıcılığında yaşatmağa çalışmışdır. Ancaq onun yaradıcılığının təhlili göstərir ki, sənətkarın ustadnamələrini yalnız ənənə baxımından dəyərləndirmək

düzgün olmaz. Belə ki, Şəmşir ənənəyə daim yeni çalarlar əlavə etməklə ustadnamə şeirinin, sözün həqiqi mənasında, klassik örnəklərini yaratmağa nail olmuşdur. Ustad sənətkar sovet dönəmində yaratdığı şeirlərdə belə xalqımızın əsrlər boyu inandığı müqəddəs dəyərləri yaşatmağa çalışmış və beləliklə, öz yaradıcılığı ilə tariximizlə bu gün, keçmişlə müasirlik arasında etibarlı körpü rolunu oynamışdır.

Aşıq Şəmşirin yaradıcılığında dini motivli şeirlər də mühüm yer tutmuşdur. Bu silsilədən olan əsərlərdə islam dininin əsas obrazlarından olan Quran, Merac, dini simalardan Məhəmməd peyğəmbər (s.), Musa (ə.), İsa (ə.), İbrahim (ə.), Həzrət Əli (ə.) və başqa müqəddəslərin surətləri başlıca tərənnüm obyekti olaraq götürülmüşdür. Aşıq Şəmşir poeziyasında Allahın vəsfinə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Sovet dövründə yaşamasına baxmayaraq, Şəmşir heç vaxt ateist olmamış, Allahı, onun varlığını inkar etməmişdir. Sənətkarın Allaha olan böyük sevgisi, ilahi eşqi onun yaradıcılığında bu və ya digər şəkildə həmişə ifadə olunmuşdur.

Sənətkarın əxz etdiyi ənənələr sırasında dastançılıq ənənəsi də vardır. Bu cəhətdən o, öz istedadını dastançılıq sahəsində də sınamışdır. Sənətkarın zəngin yaradıcılığının müəyyən bir hissəsini onun «Şəmşir və Sənubər» dastanı və haqqında digər aşıqlar tərəfindən yaradılmış «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayəti təşkil etmişdir.

Aşıq Şəmşirin yaradıcılığı janr baxımından da zəngin hadisədir. O, aşıq şeirinə məxsus bütün poetik formalarda şeir qoşmuşdur. Sənətkar bütün yaradıcılığı boyu aşıq şeirinin

qoşma, gəraylı, divani, müxəmməs və s. janrlarına və şəkillərinə müraciət etmiş, bənzərsiz sənət nümunələri yaratmışdır. Aşıq Şəmşir həmçinin, klassik ədəbiyyata məxsus qəzəl və rübai janrında da yazıb yaratmışdır.

Aşıq Şəmşir yaradıcılığı sənətkarlıq baxımından da zəngin mədəniyyət hadisəsidir. O, aşıq şeirinin ən çətin formalarından olan təcnis sahəsində də qələmini sınamış, müxtəlif janrlarda maraqlı təcnis nümunələri, cinaslar sistemi yaratmışdır. Onun yaradıcılığında ana dilimizin poetik imkanları bütün gözəlliyi ilə öz təcəssümünü tapmışdır. Aşıq Şəmşir zəngin poetik irsi ilə Azərbaycan aşıq şeirinin silinməz səhifəsinə çevrilmişdir.

# ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abbas Tufarqanlı 72 şeir / Tərtib edəni Dadaşzadə A. Bakı: Gənclik, 1973, 80 s.

2. Abbasov İ. Ozan, uzan-qusan istilahı və sənətinə dair // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, III kitab, Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1968, 27 s.

3. Abbasov İ. Müqəddimə // Azərbaycan aşıqları və el şairləri: 2 cilddə, I c., / Tərtib edəni Axundov Ə. Bakı: Elm, 1984, s. 5-18

4. Ağdabanlı Şair Qurban. Getmə / Toplayıb tərtib edənlər Pirsultanlı S., Şəmşiroğlu Q. Bakı: Gənclik, 2000, 178 s.

5. Axundov Ə. Aşıq Ələsgərin həyatı və yaradıcılığı: Namizədlik dissertasiyası. Bakı: ADU, 1946, 157 s.

6. Axundov Ə. Azərbaycan sovet aşıq yaradıcılığına dair // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, II kitab, Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1966, s. 52-76

7. Allahmanlı M. Din, təriqət və aşıq. Bakı, Şur, 1999, 172 s.

8. Allahmanlı M. Dədə Şəmşir, yaxud yüz on ilin dedikləri // «Dədə Qorqud» jurnalı, 2004, №2, s. 92-97

9. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş Nəşriyyat, 1960, 121 s.

10. Araslı H. Müqəddimə əvəzinə // Molla Pənah Vaqif, Əsərləri. Bakı: Azərnəşr, 1960, s. 3-6

11. Araz M. Sözün yaşı, sazın yaşı // «Ulduz» jurnalı, 1973, № 5, s. 12-14

12. Arif H. Dədə Şəmşir – dağ çeşməsi // Aşıq Şəmşir, Şeirlər. Bakı: Yazıçı, 1980, s. 3-6

13. Aslan M. Elin sevimli sənətkarı // «Bakı» qəzeti, 25 may 1973

14. Aslan M. El aşığı-elin yaraşığı // «Sovet kəndi» qəzeti, 17 mart 1973

15. Aslan M. Ustad görməyənin işi xam qaldı // «Ədəbiyyat və incəsənət» qəzeti, 9 sentyabr 1988

16. Aslan M. Saxla izimi dünya. Bakı: İşıq, 1989, 138 s.

17. Aşığın səsi / Tərtib edənlər Aslanova S., Təhmasib M.H. Bakı: EA Az F, 1939, 164 s.

18. Aşıqlar. II çapı / Tərtib edəni Axundov S. Bakı: Azərbaycan Respublikası Xalq Yaradıcılığı Evi, 1960, 184 s.

19. Aşıqlar / Tərtib edəni Tapdıq İ. Bakı: Gənclik, 1970, 108 s.

20. Aşıq şeirindən seçmələr / Tərtib edənlər Arif H., Həkimov M. Bakı: Gənclik, 1984, 196 s.

21. Aşıq Ələsgər. I kitab / Toplayanı Ələsgər İ; tərtib edənlər Axundov Ə., Təhmasib M.H. Bakı: Elm, 1972, 328 s.

22. Aşıq Ələsgər. Seçilmiş əsərləri / Tərtib edəni Ələsgərov İ. Bakı: Yazıçı, 1988, 184 s.

23. Aşıq Hüseyn Şəmkirli / Tərtib edəni Axundov Ə. Bakı: Gənclik, 1971, 96 s.

24. Aşıq Qurban Ağdabanlı. Möhnət / Tərtib edənləri Şəmşiroğlu Q., Aslan M. Bakı: Gənclik, 1972, 96 s.

25. Aşıq Sakit Köçəri. 115 illiyə 115 şeir. Bakı: Yeni Poliqrafist MMS, 2009, 220 s.

26. Aşıq Şəmşir. Şeirlər / Tərtib edəni Sarıvəlli O. Bakı: Azərb. SSR. EA. Nəşriyyatı, 1959, 155 s.

27. Aşıq Şəmşir. Qoşmalar. Bakı: Azərnəşr, 1971, 160 s.

28. Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1973, 416 s.

29. Aşıq Şəmşir. Dağ havası. Bakı: Gənclik, 1978, 120 s.

30. Aşıq Şəmşir. Şeirlər. Bakı: Yazıçı, 1980, 252 s.

31. Aşıq Şəmşir. Öyüdlər / Toplayıb tərtib edənlər Qurbanov Q., Quliyev F. Bakı: Ozan, 1996, 296 s.

32. Aşıq Şəmşir. Zərli tac kamallı başa yaraşır. Bakı: Azərnəşr, 1997, 32 s.

33. Aşıq Şəmşir. O Kürün, Arazın Tərtəriyəm mən / Tərtib edəni Şəmşiroğlu Q. Bakı: Sabah, 2004, 510 s.

34. Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2006, 400 s.

35. Azərbaycan aşıqları və el şairləri: 2 cilddə, I c., / Tərtib edəni Axundov Ə. Bakı: Elm, 1983, 376 s.

36. Azərbaycan aşıqları və el şairləri: 2 cilddə, II c., / Tərtib edəni Axundov Ə. Bakı: Elm, 1984, 544 s.

37. Azərbaycan dastanları: 5 cilddə, V c., / Tərtib edəni Axundov Ə. Bakı: Elm, 1972, 448 s.

38. Babaxanova G. Lirik duyğular tərənnümçüsü // Məclis (Ədəbi mərasimlər, ildönümlər, görüşlər). Bakı: Nurlan, 2006, s. 116-120

39. Bayatılar / Tərtib edəni Məmmədova A. Bakı, Elm, 1977, 328 s.

40. Belyayev Y. Müsəlman təriqətləri (tarixi oçerklər). Bakı: Azərb. SSR siyasi və elmi bilikləri yayan cəmiyyət, 1958, 104 s.

41. Bərki Ə.H., Kəskioğlu O. Xatəmül-Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara: 1993, 585 s.

42. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

43. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.

44. Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, 280 s.

45. Cəmil A. Zərli tac kamallı başa yaraşır // «Yeni Azərbaycan» qəzeti, 5 iyul 1997

46. Cəmil A. Didərgin ellər ozanı // Hərənin öz həqiqəti. Bakı: Avropa, 2004, s. 4-6

47. Cəmil A. Ulu söz, ulu diyar // Kəlbəcər dünyası: yüz şairin bir kitabı. Bakı: Adiloğlu, 2005, s. 3-5

48. Cəmil A. Saz və söz sənətinin Aşıq Şəmşir zirvəsi // Ünvanımız – Dədə Şəmşir (ithaflar, deyişmələr). Bakı, Adiloğlu, 2011, s. 3-16

49. Cinaslar / Tərtib edənlər Aslan M., Məmmədov E. Bakı: Yazıçı, 1985, 151 s.

50. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası. Bakı: Elm, 1980, 228 s.

51. Dədə Şəmşir yaddaşlarda (Xatirələr) / Toplayıb tərtib edəni Şəmşiroğlu Q. Bakı: Gənclik, 2000, 352 s.

52. Elçin. Klassik aşıq poeziyasında «Dünya» obrazı. Bakı: Azərnəşr, 1996, 48 s.

53. Eldarova Ə. Aşıq sənəti haqqında tarixi oçerk // «Azərbaycan incəsənəti» məcmuəsi, VIII, 1962, s. 36-75

54. Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı: Elm, 1996, 281 s.

55. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edəni Mirəhmədov Ə. Bakı: Maarif, 1988, 268 s.

56. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı: Ali məktəb tələbələri üçün dərslik. Bakı: Maarif, 1992, 477 s.

57. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemləri. Bakı: Azərnəşr, 1983, 115 s.

58. Ələsgər İ. Haqq aşığı Ələsgər. Bakı: Maarif, 1999, 264 s.

59. Əlioğlu Ə. Azərbaycan aşıq şeirinin poetikası. Bakı, Ulu, 2002, 128 s.

60. Əliyev Z. Aşıq Ələsgərin obrazı // Dədə Şəmşir yaddaşlarda (Xatirələr). Bakı: Gənclik, 2000, s. 297-299

61. Göyçə dastanları və aşıq rəvayətləri / Toplayıb tərtib edəni İsmayılov H. Bakı: Səda, 2001, 700 s.

62. Heyət C. Azərbaycan şifahi xalq əbəbiyyatı. Bakı:

Azərnəşr, 1990, 168 s.
63. Həkimov M. Azərbaycan klassik aşıq yaradıcılığı. Bakı: APİ, 1982, 88 s.
64. Həkimov M. Azərbaycan aşıq ədəbiyyatı (qədim və orta əsrlər). Bakı: Yazıçı, 1983, 240 s.
65. Həkimov M. Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999, 376 s.
66. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 608 s.
67. Həkimov M. Haqq aşığı Dədə Şəmşir. Bakı: 2004, 160 s.
68. Hüseynov M. Dil və poeziya (1960-1980-ci illər Azərbaycan poeziyasının materialları əsasında). Bakı, Elm, 2008, 434 s.
69. Hüseynov M. Sözün poetikası (1960-1980-ci illər Azərbaycan poeziyasının materialları əsasında). Bakı, Elm və təhsil, 2010, 368 s.
70. Hüseynov R. Giriş sözü // Məclis (Ədəbi mərasimlər, ildönümlər, görüşlər). Bakı: Nurlan, 2006, s. 93-101
71. Xəlilov Q. El sənətkarı // «Həyat və idrak». Bakı: Yazıçı, 1980, s. 216-222
72. Xəstə Qasım. 46 şeir. Bakı: Gənclik, 1975, 64 s.
72[a]. Xudubəyli M. Dəlidağın harayı // Mənim sazlı-sözlü dünyam. 3 kitabda, I kitab. Bakı, 1999, s. 176-184
73. İbrahimov M. Aşıq poeziyasında realizm // «Azərbaycan» jurnalı, 1964, № 4, s. 165-187
74. İbrahimov M. Aşıq poeziyasında realizm. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1966, 84 s.
75. İki ustad. Miskin Vəli, Növrəs İman // Toplayıb tərtib edənlər Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, 192 s.
76. İslam. Qısa məlumat kitabı. Bakı: Azərnəşr, 1985, 164 s.

77. İsmayılov H. Göyçə dastanları: türk epik sistemində dastan informasiyasının fasiləsizliyi // Göyçə dastanları və aşıq rəvayətləri / Toplayıb tərtib edəni İsmayılov H. Bakı: Səda, 2001, s. 3-82

78. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.

79. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002, 311 s.

80. İsmayılov H. Göyçə dastanlarının janr spesifikası və təsnifi prinsiplərinə dair // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XIII, Bakı: Səda, 2002, s. 135-140

81. İsmayılov H. Dədəlik mərtəbəsinə ucalan sənətkar // «Dədə Qorqud» jurnalı, 2004, № 3, s. 58-62

82. İsmayılov H. Göyçə aşıqları və el şairləri. I cild. Bakı: Səda, 2006, 492 s.

83. Kəlbəcər dünyası: yüz şairin bir kitabı // Toplayıb tərtib edənlər Cəmil A., Nərimanoğlu M. Bakı: Adiloğlu, 2005, 460 s.

84. Kürdoğlu H. Təbəssüm şöləsi // «Ədəbiyyat» qəzeti, 18 fevral 1994

85. Kürdoğlu H. Dağlar nalə çəkib Şəmşirsiz ağlar… // «Xalq» qəzeti, 28 mart 1996

86. Qarayev Y. Göyçəyə qayıdan yol folklordan keçir // Azərbaycan folkloru antologiyası, III c., Göyçə folkloru. Bakı: Səda, 2001, s. 3-15

87. Qasım bəy Zakir. Seçilmiş əsərləri / Tərtib edəni Qafarlı S. Bakı: Azərnəşr, 1957, 476 s.

88. Qasımlı M. Aşıq sənəti. Bakı: Ozan, 1996, 260 s.

89. Qasımova A. Məhəmməd peyğəmbərin meracı. Bakı: Yazıçı, 1994, 96 s.

90. Qurani-Kərim. Bakı: Azərnəşr, 1992, 720 s.

91. Qurbani / Tərtib edəni Kazımov Q. Bakı: Bakı

Universiteti Nəşriyyatı, 1990, 280 s.

92. Məmmədli E. Təcnis sənətkarlığı. Bakı: Nafta-press, 1998, 150 s.

93. Məmmədli İ. XX əsr Kəlbəcər ədəbi mühiti. Bakı, Elm, 2010, 180 s.

94. Məmmədov A. Xalq aşığı // «Ədəbiyyat və incəsənət» qəzeti, 15 fevral 1980

95. Məmmədov Z. Klassik aşıq poeziyasının leksik-semantik xüsusiyyətləri. Bakı: Avropa, 2006, 307 s.

96. Məmmədova N. Təbiət dil açır // «Azərbaycan təbiəti» elmi-metodiki məcmuəsi, 1977, №8, s. 26-27

97. Məmmədova A. Aşıq şeirində ustadnamə və təəssüfnamələrin poetikası. Bakı: Göytürk, 1998, 96 s.

98. Mənbəyi göstərilməyən nümunələr müəllifin şəxsi arxivindədir.

99. Mikayıl Azaflı. Qoca qartal. Şeirlər. Bakı: Yazıçı, 1987, 167 s.

100. Mikayıl Azaflı. Qoca Azaflıyam / Tərtib edənlər Paşayev Q., Azaflı M. Bakı: Nurlan, 2008, 760 s.

101. Miskin Abdal / Toplayıb tərtib edəni İsmayılov H. Bakı: Səda, 2001, 287 s.

102. Molla Pənah Vaqif. Əsərləri. Bakı: Azərnəşr, 1960, 258 s.

103. Molla Pənah Vaqif. Əsərləri / Tərtib edəni Dadaşzadə A. Bakı: Yazıçı, 1988, 192 s.

104. Namazov Q. Azərbaycan aşıq şeirinin inkişaf tarixindən (sovet dövrü). Namizədlik dissertasiyası. Bakı: 1968, 284 s.

105. Namazov Q. Aşığın sazı və sözü. Bakı: Yazıçı, 1980, 155 s.

106. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 192 s.

107. Namazov Q. Aşıqlar. I kitab. Bakı: Səda, 2004, 444 s.

108. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 310 s.

109. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı: Ali məktəb tələbələri üçün dərslik. 2 clddə, II c., Bakı: Elm, 2006, 648 s.

110. Nərimanoğlu M. Dədə ocağı. Bakı: Gənclik, 1998, 144 s.

111. Nəzirli Ş. Yada sal məni // «Ədəbiyyat» qəzeti, 30 sentyabr 2005

112. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı: Elm, 2003, 320 s.

113. Paşayev Q. Aşıq Şəmşir haqqında düşüncələrim // «Ozan dünyası» jurnalı, Bakı, 2011, №4, s. 38-43

114. Paşayev S. Ağdabanlı Qurban və müasirləri: Namizədlik dissertasiyası. Bakı: 1969, 230 s.

115. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: 1989, 88 s.

116. Paşayev S. XIX əsr Azərbaycan aşıq yaradıcılığı. Bakı: 1990, 99 s.

117. Paşayev S. Aşıq Şəmşirin həyat və yaradıcılığı // Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə, Pirsultan, 2006, s. 327-332

118. Pənah G. Dədə Şəmşir harayı. Bakı, Uniprint, 2007, 320 s.

119. Pirsultanlı (Paşayev) S. Aşıq Şəmşirin poetik aləminə səyahət. Bakı, Təknur, 2008, 296 s.

120. Pirsultanlı (Paşayev) S. Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi. Gəncə, GDU, 2010, 156 s.

121. Polad Ə. Həzrəti Əli. Bakı: 2004, 256 s.

122. Rahim M. El sənətkarı // «Kommunist» qəzeti, 26 may 1973

123. Ramazanoğlu F. Qədirli-qiymətli el nəğməkarı // Dədə Şəmşir yaddaşlarda (Xatirələr). Bakı: Gənclik, 2000, s. 3-5

123[a]. Ramazanoğlu F. Dədə Şəmşir öyüdlərinin işığı // Aşıq Şəmşir. Öyüdlər. Bakı: Ozan, 1996, s. 3-7

124. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ, 1958, 282 s.

125. Rzasoy S. Sənətkar sözü – alim gözü: Aşıq Şəmşir və Sədnik Paşa Pirsultanlı // S.P.Pirsultanlı. Aşıq Şəmşirin poetik aləminə səyahət. Bakı, Təknur, 2008, s. 4-26

126. Sarıvəlli O. Aşıq Şəmşir // «Kommunist» qəzeti, 25 yanvar 1957

127. Sarıvəlli O. Qüdrətli şair, ustad sənətkar. Bakı: Gənclik, 1971, 95 s.

128. Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir. Bakı: Elm, 1973, 33 s.

129. Sarıvəlli O. El nəğməkarı // «Ədəbiyyat və incəsənət» qəzeti, 17 mart 1973

130. Sazım, sözüm / Tərtib edəni Şükür M. Bakı: Yazıçı, 1978, 140 s.

131. Seyid Əbülqasim Nəbati. Seçilmiş şeirləri / Tərtib edəni Qasımzadə F. Bakı: Azərnəşr, 1958, 159 s.

132. Səmədov İ. Aşıq Şəmşirin qoşmaları // «Elm və həyat» jurnalı, 1971, №7, s. 24

133. Süleymanova L. Şəki folklor mühiti. Namizədlik dissertasiyası. Bakı: 2008, 160 s.

134. Şair Həsən Xəyallı ilə Aşıq Şəmşirin görüşü / Toplayıb tərtib edəni Əmrahoğlu Ə. Bakı: Səda, 2005, 44 s.

135. Şəmşiroğlu Q. Axtarıb Şəmşiri görmək istəsən… Bakı: Adiloğlu, 2003

136. Tapdıq İ. Tərlan qocalsa da, yenə tərlandır // «Azərbaycan» jurnalı, 1978, №4, s.179-185

137. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.

138. Təhmasib M.H. Özü də Şəmşir, sözü də Şəmşir // «Azərbaycan» jurnalı, 1973, №8, s. 173-179

139. Təhmasib M.H. El sənətkarı // «Ədəbiyyat və incəsənət» qəzeti, 26 may 1973

140. Təhmasib M.H. Qocaman nəğməkar // Təhmasib M.H. Seçilmiş əsərləri. 2 clddə, I c. / Tərtib edənlər Cəfərli M., Hacılı A., Şükürlü E. Bakı, Mütərcim, 2010, s. 328-332

141. Türk xalq şeirindən seçmələr / Tərtib edəni Aslan M. Bakı: Gənclik, 1980, 175 s.

142. Usta Abdulla. Şeirlər / Tərtib edəni: Mehdiyev R. Bakı: Gənclik, 1976, 80 s.

143. Ustad aşıqlar (şeirlər). Bakı, Gənclik, 1983, 148 s.

144. Ülvi A. Yetsə qulağına Şəmşirin səsi... // «Xalq» qəzeti, 23 noyabr 2003

145. Ünvanımız Dədə Şəmşir (ithaflar, deyişmələr) / Toplayıb tərtib edəni: Cəmil A. Bakı, Adiloğlu, 2011, 224s.

146. Vəkilov Q. XIX əsr aşıq lirikası. Bakı: Maarif, 1993, 144 s.

147. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

148. Vəliyev V. Qaynar söz çeşməsi. Bakı: Yazıçı, 1981, 151 s.

149. Vəliyev V. Folklorşünaslığın bəzi məsələləri haqqında // Elmi əsərlər. Dil və ədəbiyyat. Bakı: S.M.Kirov adına ADU, 1979, № 6, s. 3-6

150. Yüz bir hədis (Həzrəti Mühəmməd Əleyhissalamın söylədikləri) / Tərtib edəni Həsənli H. Bakı: Gənclik, 1990, 32 s.

**Türk dilində**

151. Aşık Şemşirin qoşmaları ve transkripsiyonu. /

Hazırlayanı Atalay E. Erzurum: 2000, 99 s.

152. Azerbaycan aşıkları ve halk şairleri. II c., / Hazırlayanlar Dr. Sakaoğlu S., Alptekin A.B., Şimşek E. Halk Kültürü, İstanbul, 1986, 256 s.

153. Caferoğlu A. XVI-ıncı asır Azeri saz şairlerinden Tufarganlı Abbas // «Azerbaycan Yurt Bilgisi» dergisi, mart, 1932, yıl 1, sayı 3, s. 97-104

154. Caferoğlu A. Terekeme ağzıle hüdut boyu saz şairlerinden Kurbani ve şiirleri. TDED, III, İstanbul, 1948, N 112, 9 s.

155. Çetin İ. Türk edebiyyatında Hz. Ali cengnameleri. Ankara: T.C.Kültür Bakanlığı, 1997, 467 s.

156. Köprülü F. Türk edebiyatında aşıq tarzının menşe ve tekamülü // Milli Tetebbular Mecmuası, İstanbul, h. (1331), nu. 1, 19 s.

157. Köprülü F. Azeri aşıklarından Tufarkanlı Abbas // «Türk Amacı» dergisi, İstanbul: yıl 1, sayı 1, temmuz, 1942, 9 s.

158. Köprülü F. Türk edebiyatında ilk mutasavvıflar. 4-cü basım. Ankara, Gaye Matbaacılık sanayii, 1981, 415 s.

**Rus dilində**

159. Abbaslı İ. Areal rasprostranenią i vlinią Azerbaydjanskix dastanov. Baku: Sada, 2001, 171 st.

160. Aslan M. Peveü, löbimıy narodam // «Baku», 25 may 1973

161. Aşıq Şemşir. Stixi / Perevod Kafarova V. Baku: Əzıçı, 1984, 37 st.

162. Kurbanov B. Aşıq Şemşir // Aşıq Şemşir. Stixi. Baku: Əzıçı, 1984, st. 8-12

163. Namazov Q. İz istorii razvitiə Azerbaydjanskoy aşuqskoy pogzii (sov. period): Avt. kand. diss. Baku: 1968, 21 st.

164. Paşaev S. Aqdabanlı Kurban i eqo sovremenniki:

Avt. kand. diss. Baku: 1969, 24 st.

165. Sarıvelli O. Preemstvennostğ i novizna (K 80-letiö so dnə rojdeniə Aşuqa Şamşira) // «Bakinskiy raboçiy», 26 may 1973,

166. Glğdarova A. İskusstvo aşıqov Azerbaydjana. Baku, İşıq, 1984, 120 s.

**İngilis dilində**

167. Azerbaijanian poetry / Edited by Ibrahimov M., compiled by Sarivelli O. Moscow: Proqress Publishers, 1969, 663 p.

## РЕЗЮМЕ

## ПОЭТИКА АШУГА ШАМШИРА

Монография посвящена исследованию творчества одного из видных представителей ашугского искусства Ашуга Шамшира.

В первой главе монографии, под названием «Жизнь, среда и история исследования поэтического наследия Ашуга Шамшира» изучены характерные особенности ашугской среды Гёйча-Кельбеджарской среды, также на широком фоне прокомментированы общие черты этой ашугской среды, находящейся в тесной творческой и административно-территориальной связи. В этой главе монографии также были исследованы связи Шамшира с его современниками и проведена хронология всех статей, посвящённых ему.

Во второй главе, под названием «Лирика Ашуга Шамшира» исследуется творчество ашуга в контексте поэтической традиции. С этой точки зрения проводятся параллели между творчеством Шамшира и представителями классической ашугской поэзии. Кроме того, на основе характерных примеров проанализирована общественная, любовная, пейзажная лирика Шамшира. В этой главе основную часть составляют исследования нравственно-дидактические и религиозные мотивы, а также проясняются их характерные особенности.

В третьей главе, под названием «Дастан, жанр, мастерство в творчестве Ашуга Шамшира» выясняется, что Ашуг Шамшир испытал своё перо в области дастанов, создав интересные образцы данного жанра. Он создал множество шедевров в жанровой структуре азербайджанской ашугской поэзии. Творчество Шамшира с точки зрения мастерства – богатое культурное событие. На основе интересных примеров автором проанализированы художественно-изобразительные и выразительные средства, характерные для творчества Ашуга Шамшира.

## SUMMARY

## ASHUG SHAMSHIR'S POETICS

Monograph has been dedicated to investigation of the activities of Ashug Shamshir – prominent representative of ashug activity.

In the first chapter of the monograph called "Ashug Shamshir's life, sphere and the history of poetic heritage of his investigation" the characteristic features of Goycha-Kalbajar ashug atmosphere have been analysed, the common features of the ashug atmosphere of these regions which are also in close relationship as to the territorial ties have been widely explained. The creative relations of the ashug and his descendants are investigated and all writings about his activity are looked through in chronical consistents.

In the second chapter of the monograph called "Ashug Shamshir's lirycs" the ashug's activity is analyzed in poetic tradition context. In this respect the creative activity of Ashug Shamshir has been parallely compared with the creative activities of classic ashugs who were the representatives of folklore poems. Besides that, Shamshir's social, love, nature lyrics have been analysed on the specimens of poems devoted to these notions. In this chapter Ashug Shamshir's moral-didactic and religious poems are investigated and characteric peculiarities are studied.

In the third chapter of the monograph called "Epos, genre and mastery problems in Ashug Shamshir's activity" it was cleared that Ashug Shamshir had tried his talent in the field of creation of folklore and have created very interesting eposes. Shamshir's creative work is a rich cultural phenomenon from the view point of art study. The author has analysed the literary descriptions and means according to the Ashug Shamshir's activity due to the interesting examples.

## USTADLARIN USTAD VARİSİ – DƏDƏ ŞƏMŞİR

Ümumtürk etnik-mədəni sistemində ozan-aşıq yaradıcılığı müstəsna yer aldığı üçün bu sahə hər zaman tədqiqata cəlb olunmağa layiqdir. Milli-mental təfəkkürümüzün ən dərin qatlarından – mif və folklor başlanğıcımızdan qaynaqlanan aşıq sənətinə, bu sənəti ustalıqla yaşadan sənətkarların yaradıcılığına yönələn çağdaş elmi münasibət zəruri olduğu qədər də aktualdır.

Klassik aşıq yaradıcılığımızın sonuncu mogikanı, bu sənətdə dədəlik mərtəbəsinə ucalan sonuncu saz və söz sənətkarı Aşıq Şəmşirin zəngin ədəbi irsinə çağdaş prizmadan təhlili baxış folklorşünaslığımız üçün xüsusi önəm daşıyır.

Gənc tədqiqatçı Səbinə İsayevanın «Aşıq Şəmşirin poetikası» adlı monoqrafiyası görkəmli aşıq-şairin poetik irsini öyrənmək və dəyərləndirmək baxımından maraqlıdır. Dədə Şəmşirin mühiti, poeziyasının əsas mövzu istiqamətləri, ideya-məzmun özəllikləri, dastan yaradıcılığı və sənətkarlıq xüsusiyyətləri tədqiqatın predmeti olaraq götürülmüşdür. Aşıq Şəmşirin həyat və yaradıcılığının bu təsnifat əsasında, yaxud yanaşmalar müstəvisində öyrənilməsi əslində sözügedən sənətkarla bağlı nəyinsə yaddan çıxmasına, hansısa məqamın unudulmasına şərait yaratmır.

Əlbəttə, indiyə qədər Aşıq Şəmşirlə bağlı saysız-hesabsız elmi-kütləvi məqalələr yazılıb, monoqrafik kitablar nəşr olunub. Ancaq görkəmli sənətkarın həyat və yaradıcılığı belə sistemli şəkildə tədqiqata cəlb olunmayıb. Biz aşığın sənət yoluna «işıq tutan» məqalə və kitab müəlliflərindən şair

Məmməd Aslanın, Hüseyn Kürdoğlunun, folklorşünas alimlərimizdən M.H.Təhmasibin, Mürsəl Həkimovun, Məhərrəm Qasımlının, Sədnik Paşayevin, Hüseyn İsmayılovun xidmətlərini heç də kiçiltmək niyyətində deyilik. Lakin Səbinə İsayeva onlardan fərqli olaraq, öz monoqrafiyasını Aşıq Şəmşir yaradıcılığının bütöv halda, həm də sistemli şəkildə araşdırılmasına həsr edib.

Monoqrafiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. «Giriş»də mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsəd və vəzifələri, problemin işlənmə dərəcəsi, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, praktik əhəmiyyəti, strukturu və s. barədə məlumat verir. Kitabın hansı zərurətdən yazılmasına da elə bu fəsildə aydınlıq gətirilir: «Aşıq Şəmşirin aşıq sənəti və yaradıcılığının klassik ənənələri ilə müasir mərhələsi arasında oynadığı rol onun poetik irsini daha dərindən araşdırmaq zərurətini ortaya çıxarır».

«Aşıq Şəmşirin həyatı, mühiti və poetik irsinin tədqiqi tarixi» adlı birinci fəsil «Aşıq Şəmşir və mühiti», «Aşıq Şəmşir və müasirləri», «Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixi» yarımbaşlıqlarına ayrılır. Qeyd olunan yarımbaşlıqlar fəslin ümumi strukturunun mükəmməl tənziminə, yaxud nizamına xidmət edir. Bu fəsildə tədqiqatçı əslən kəlbəcərli olan görkəmli el şairi Ağdabanlı Qurbanın ailəsində dünyaya göz açıb, bu əsrarəngiz dağlar diyarında boya-başa çatan Aşıq Şəmşirin hansı aşıq məktəbi və ənənələrindən bəhrələndiyini təhlilə çəkir və belə qənaətə gəlir: «…Aşıq Şəmşir poeziyası bütün poetik strukturu etibarilə Göyçə-Kəlbəcər aşıq mühitinə bağlı olmaqla onun ənənələrini özündə əks etdirir».

Birinci fəslin «Aşıq Şəmşir və müasirləri» bölməsində müəllif Aşıq Şəmşirlə onun müasirləri – Ağdabanlı Qurban, Aşıq Bəsti, Aşıq Ələsgər, Aşıq Talıb, Zodlu Usta Abdulla, Növrəs İman, Həsən Xəyallı, Miskin Vəli, Mikayıl Azaflı kimi görkəmli sənətkarlar arasındakı sənət ünsiyyətindən, yaradıcılıq əlaqələrindən söz açır, paralellər apararaq onların ruh doğmalığını isbata çalışır. Əsərin bu hissəsində Aşıq Şəmşirlə müxtəlif şair və aşıqların deyişməsindən verilən nümunələr də demək olar ki, yerinə düşür. Xalq şairi Səməd Vurğunla, Miskin Vəli, Mikayıl Azaflı ilə Aşıq Şəmşirin deyişmələri aşıq poeziyası ənənəsindən gələn deyişmə modelinin çağdaş biçimini nümayiş etdirir. Bunu da xüsusi qeyd etməyə dəyər ki, Aşıq Şəmşirlə Miskin Vəlinin deyişməsi ilk dəfə məhz Səbinə İsayeva tərəfindən təqdim olunur.

Birinci fəslin yekununda tədqiqatçı Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixindən bəhs edir. Dədə Şəmşirin daha geniş arealda tanınmasında, məşhurlaşmasında xalq şairi Səməd Vurğunun rolu dəyərləndirilir. Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixi şərti olaraq 2 yerə bölünür: a) Sovet dövründə aparılan nəşr və tədqiq işləri; b) Müstəqillik dövründə aparılan nəşr və tədqiq işləri. Əlbəttə, hər iki dövrdəki nəşr və tədqiq işləri çox zəngin ədəbi irs qoyub getmiş görkəmli aşıq-şairin bütün yaradıcılığını tam ehtiva etmir. Dədə Şəmşirin müxtəlif bölgələrimizdən hələ də əldə olunan yeni poetik nümunələri onun ədəbi irsinə əlavə olunmaqdadır. Müəllifin təbirincə desək: «Bu, şifahi yaddaşa xas olan folklorlaşma prosesidir».

Müəllif birinci fəslin leytmotivini belə ümumiləşdirir:

«Aparılmış tədqiqatlar sənətkarın dövrü, yaradıcılığı ilə bağlı nəzəri-praktik baza təşkil etməklə, Şəmşir yaradıcılığını monoqrafik planda araşdırmaq üçün ciddi əsaslar verir». Elə bu əsasda tədqiqatlarını davam etdirən müəllif ikinci fəsildə Aşıq Şəmşirin lirikasını elmi təhlilə cəlb edir və problemə yanaşma istiqamətlərinin aşağıdakı təsnifini verir: 1.Sənətkarın lirikası və poetik ənənə. 2. İctimai lirika. 3. Məhəbbət lirikası. 4. Təbiət lirikası. 5. Əxlaqi-didaktik şeirlər. 6. Sənətkarın lirikasında dini motivlər.

Tədqiqatçı görkəmli aşıq-şairin lirikasını analiz edib təhlil süzgəcindən keçirərək haqlı olaraq belə qənaətə gəlir: «Aşığın yaradıcılığı klassik xalq poeziyası ənənələrinin təməli üzərində ucalmışdır». Əlbəttə, bu fikrə alternativ axtarmaq yersiz görünərdi. Çünki Aşıq Şəmşir klassik xalq poeziyamızın qüdrətli nümayəndələri olan Qurbani, Miskin Abdal, Xəstə Qasım, Tufarqanlı Abbas, Aşıq Alı, Aşıq Ələsgər, Ağdabanlı Qurban kimi korifeylərin ruh davamçısı və ləyaqətli varisidir.

Monoqrafiyanın III fəsli «Aşıq Şəmşir yaradıcılığında dastan, janr və sənətkarlıq məsələləri» adlanır. Qeyd etməliyik ki, dastan yaradıcılığı Aşıq Şəmşir üçün o qədər də xarakterik deyil. Sənətkarın yaradıcılığında «Şəmşir və Sənubər» dastanından və «Şair Həsən Xəyallı ilə Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayətindən başqa əlimizdə olan başqa nümunələr yoxdur. Səbinə İsayeva bu nümunələrə klassik dastançılıq ənənəsi fonunda obyektiv dəyər vermək üçün onların geniş elmi təhlilini aparır, süjet, struktur, dil, məzmun məsələləri barədə sağlam qənaətə gəlir.

Aşıq-şairin janr məsələsindən bəhs edən müəllif onun

klassik ədəbiyyatdan gələn qəzəl və rübailərinə də toxunaraq vurğulayır ki, Aşıq Şəmşir təkcə aşıq şeirinin janrları ilə kifayətlənməmiş, klassik ədəbiyyat janrlarına da maraq göstərmişdir. Sonra bu fikirləri isbata yetirmək üçün konkret nümunələr göstərir, onların müxtəlif yönlərdən təhlilini aparır, nəhayət, Aşıq Şəmşirin dil sənətkarlığı üzərində dayanır. Əlbəttə, söz sənətkarının silahı dildir. Müəllif bu xüsuda belə bir ümumiləşdirmə aparır: «Aşıq Şəmşir poeziyası zəngin bədii dil xüsusiyyətlərinə malikdir. Onun yaradıcılığında ana dilimizin poetik imkanları bütün gözəlliyi ilə öz təcəssümünü tapmışdır».

Həqiqətən də Aşıq Şəmşirin şeir dili layla, bayatı dili olmaqla şifahi və yazılı poeziyamızın ən saf, anlaşıqlı və şirəli leksikonunu təşkil edir. Qüdrətli söz sənətkarının zəngin poetik leksikonundan xəbər verən məcazlar və cinaslar sisteminə səriştəli yanaşma tədqiqatın elmiliyini şərtləndirir.

Tədqiqatçı Aşıq Şəmşir yaradıcılığının tam təhlilini ortaya qoymaq üçün müvafiq elmi qaynaqlardan yetərincə istifadə etməyi bacarmışdır.

**Adil CƏMİL**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**Beynəlxalq Aytmatov Akademiyasının**
**fəxri akademiki**

## MÜNDƏRİCAT

**Sazın-sözün Şəmşir ucalığı (M.Qasımlı)**……….……..…3
**GİRİŞ**……………………………………………………6

**I FƏSİL. Aşıq Şəmşirin həyatı, mühiti və poetik irsinin tədqiqi tarixi**
1.1. Aşıq Şəmşir və mühiti…………………………..12
1.2. Aşıq Şəmşir və müasirləri……………………..……28
1.3. Aşıq Şəmşir irsinin nəşri və tədqiqi tarixi………40

**II FƏSİL. Aşıq Şəmşirin lirikası**
2.1. Sənətkarın lirikası və poetik ənənə……………..…59
2.2. İctimai lirika……………………………………89
2.3. Məhəbbət lirikası…………………….....................107
2.4. Təbiət lirikası……………………………….……130
2.5. Əxlaqi-didaktik şeirlər…………….…..................137
2.6. Sənətkarın lirikasında dini motivlər……………156

**III FƏSİL. Aşıq Şəmşir yaradıcılığında dastan, janr və sənətkarlıq məsələləri**
3.1. Dastan yaradıcılığı............................................181
3.2. Janr strukturu ....................................................194
3.3. Təcnis sənətkarlığı………………………...199
3.4. Dil sənətkarlığı.................................................212

**NƏTİCƏ**.............................................................231
**ƏDƏBİYYAT**........................................................236
**РЕЗЮМЕ**..............................................................248
**SUMMARY**…………………………………...249
**Ustadların ustad varisi – Dədə Şəmşir (A.Cəmil)**..250

**Səbinə Müzəffər qızı İsayeva.**
**Aşıq Şəmşirin poetikası.**
Bakı, «Elm və təhsil», 2012.

Kompyuterdə yığdı:
**İlahə Salmanova**

Korrektor:
**Aynurə Səfərova**

Kompyuter tərtibçisi
və texniki redaktor:
**Ramin Abdullayev**

Nəşriyyatın direktoru:
*Filologiya üzrə elmlər doktoru, prof.* **Nadir Məmmədli**

Yığılmağa verilmiş **25.04.2012**
Çapa imzalanmış **24.05.2012**
Şərti çap vərəqi **16.** Sifariş **№ 202**
Kağız formatı: **60x84 1/16**. Tiraj **500**

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm ve tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4